İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## İYİRMİ İKİNCİ KİTAB

## DEKABR 2006 - FEVRAL 2007

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR * NİTQLƏR

BƏYANATLAR * MÜSAHİBƏLƏR

MƏKTUBLAR * MƏRUZƏLƏR

MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI - 2015

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 384 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «İnkişaf-məqsədimizdir» çoxcildliyinin bu cildində ölkəmizin çoxşaxəli sosial-iqtisadi inkişaf strategiyasının inamla davam etdirilməsi, yeni infrastruktur layihələrin həyata keçirilməsi, xalqımızın rifahının daha da yaxşılaşdırılmasına aid materiallar, ictimai-siyasi həyatda fəal sosial təbəqə kimi yaxından iştirak edən gənclərlə bağlı çıxışları, nitqləri, tövsiyələri dərc olunmuşdur.

Kitabda prezident İlham Əliyevin Dünya İqtisadi Forumu çərçivəsində İsveçrəyə səfəri, eyni zamanda, Almaniyaya səfəri zamanı dövlət və hökumət başçıları və digər yüksək vəzifəli şəxslərlə görüşləri, danışıqları zamanı söylədiyi nitqlər, çıxışlar, Almaniyanın Konrad Adenauer fondu tərəfindən təşkil olunmuş «Azərbaycan XXI əsrdə – inkişaf və perspektivlər» mövzusunda geniş müzakirələrdə nitqi və çoxsaylı suallara verdiyi cavablar, Azərbaycan–Almaniya biznes-forumunda nitqi və digər məsələlər öz əksini tapmışdır.

Burada, həmçinin prezident İlham Əliyevin Fransaya ilk dövlət səfəri zamanı prezident Jak Şirak ilə danışıqları, bütün görüşlərdə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan ilə Fransa arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə uğurlu inkişafdan, əməkdaşlıqdan bəhs edən materiallar, kütləvi informasiya vasitələrinə verdiyi bəyanat və müsahibələri öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

Ə $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2015}}$ **BBK - 32**

© Azərnəşr, 2015

# AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 2006-cı il ƏRZİNDƏ GÖRDÜYÜ İŞLƏRƏ HƏSR OLUNMUŞ MƏRASİMİNDƏ NİTQ

*26 dekabr 2006-cı il*

*Dekabrın 26-da Milli Olimpiya Komitəsi (MOK) 2006-cı ilə yekun vurmuş, idmançılara, məşqçilərə və idman mütəxəssislərinə mükafatlar təqdim olunmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə MOK-un inzibati binasının foyesində «Olimpiya hərəkatı tarixi – antik və müasir dövr» sərgisi ilə tanış oldu. Prezidentə məlumat verildi ki, bu sərgi həm də orta məktəb şagirdləri üçün nəzərdə tutulmuşdur. Onlar qış tətili günlərində buraya gələrək sərgi ilə yaxından tanış olacaq, olimpiya hərəkatının tarixi, ölkəmizin idmançılarının yay və qış Olimpiya oyunlarında iştirakı ilə bağlı dəyərli məlumatlar əldə edəcəklər.*

*Prezident İlham Əliyev idmanın bütün sahələrini əhatə edən, o cümlədən ölkəmizin idman nailiyyətlərini əks etdirən fotoşəkillərə, olimpiya çempionlarının qazandıqları medallara, kuboklara və digər mükafatlara, respublikamızda olimpiya dünyası ilə bağlı nəşr olunmuş kitab, jurnal və qəzetlərə, MOK-a təqdim edilmiş xatirə hədiyyələrinə, poçt markalarına baxdı. Sərginin «İdman ulduzları», «Görkəmli idman xadimləri», «Azərbaycanda boksun inkişaf tarixi», «Azərbaycanda güləşin inkişaf tarixi», «Velosiped dünyası», «Heydər Əliyev və Azərbaycanda olimpiya hərəkatı» fotoguşələri diqqəti cəlb edirdi.*

*Sonra mərasim keçirildi. MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar dövlətimizin başçısını alqışlarla qarşıladılar.*

**Çingiz Hüseynzadə** (*MOK-un vitse-prezidenti*):

Möhtərəm cənab Prezident!

Xanımlar və cənablar!

Bildiyiniz kimi, bu il dekabrın 20-də Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin iclası keçirilmiş, MOK-un 2006-cı ildəki fəaliyyəti müzakirə olunmuşdur. Hesabatda Azərbaycan Milli Olimpiya Komitəsinin 2006-cı il ərzində gördüyü bütün işlər öz əksini tapmışdır.

Bundan başqa, MOK-un İcraiyyə Komitəsinin iclasında Pekin Yay Olimpiya oyunlarına hazırlıq məsələsi müzakirə edilmişdir. Bununla əlaqədar İcraiyyə Komitəsinin hər bir üzvünə müəyyən idman növləri üzrə federasiyalarla işləmək, onlara kömək etmək tapşırılmış, İcraiyyə Komitəsinin üzvləri arasında iş bölgüsü aparılmışdır.

İclasda təşkilati məsələlərə də baxılmış, Gənclər və İdman naziri Azad Rəhimov MOK-un vitse-prezidenti, Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov İcraiyyə Komitəsinin üzvü seçilmişlər.

*Sonra Gənclər və İdman naziri, MOK-un vitse-prezidenti Azad Rəhimov çıxış edərək dedi:*

Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Əziz idmançılar!

Cənab Prezident, ilk növbədə mən Sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu çox yüksək bir etimaddır və mən idman ictimaiyyəti qarşısında söz verirəm ki, öz qüvvəmi idmanın inkişafına həsr edəcək, bu işdə əlimdən gələni əsirgəməyəcəyəm. Bu gün çox əlamətdar bir gündür. İdmanla bağlı olan mütəxəssislər və ən yüksək nailiyyətlər qazanmış idmançılar bu gün buraya yığışıblar. Biz çox şadıq ki, bu il də Azərbaycanın bayrağı dəfələrlə dünyanın müxtəlif yerlərində ucalıbdır. Bizim ulu öndərimiz, ümummilli

liderimiz Heydər Əliyevin arzularını siz idmançılar həyata keçirirsiniz.

Cənab Prezident, sözsüz ki, bizi bu nailiyyətlərə Sizin idmana göstərdiyiniz diqqət və qayğı gətirib çıxarıbdır. Biz hamımız söz veririk ki, Olimpiya oyunlarına hazırlıq baxımından çox məsul dövr olan 2007-ci ildə bütün qüvvəmizi idmanın inkişafına, Azərbaycan bayrağının yüksəlməsinə həsr edəcəyik. Etimadınıza görə bir daha çox sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəisi Natiq Əliyev hərbçilərin bu il Bakıda keçirilmiş güləş üzrə dünya çempionatından xatirə olaraq xüsusi plaket, Milli Paraolimpiya Komitəsinin prezidenti İlqar Rəhimov komitənin bu il tamam olmuş 10 illiyi ilə əlaqədar ilk dəfə təsis edilmiş paraolimpiya medalının vəsiqəsini, yubileyə həsr olunmuş kitabı və diski, tanınmış futbolçu, Əməkdar idman ustası Ələkbər Məmmədov isə fotoşəkil təqdim etdilər.*

*MOK-un İcraiyyə Komitəsinin üzvü Zərifə Salahova dövlətimizin başçısını doğum günü münasibətilə idmançılar adından təbrik etdi, ona uzun ömür, cansağlığı arzuladı və xatirə hədiyyələri verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İlham Əliyev:** Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Əziz idmançılar!

İlk növbədə bu gözəl hədiyyələrə görə sizə öz təşəkkürümü bildirmək istəyirəm. Bu hədiyyələr mənim üçün çox əzizdir. Çünki onlar bizim idman ictimaiyyətinin gördüyü işləri əks etdirir. Həm fotoşəkil, eyni zamanda, Milli Paraolimpiya Komitəsinin hədiyyələri, idmançıların, hərbçilərin hədiyyələri bir daha onu göstərir ki, Azərbaycanda idman

çox sürətlə və hərtərəfli inkişaf edir. İdmanın bütün növləri inkişaf edir, eyni zamanda, idman cəmiyyətləri, müxtəlif qurumlar, federasiyalar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi həmişə olduğu kimi, 2006-cı ildə də bir komanda şəklində fəaliyyət göstərmişlər. Bu, Azərbaycanda son illər ərzində idman sahəsində əldə edilən uğurların əsas amili, əsas səbəbidir. Azərbaycanda bütün aidiyyəti orqanlar səmərəli işləyirlər, bir-biri ilə daim əlaqədədirlər. Əsas məqsəd ondan ibarətdir ki, Azərbaycanın idman potensialı möhkəmlənsin, maddi-texniki baza güclənsin və idmançıların beynəlxalq yarışlarda uğurlu çıxışları təmin edilsin.

Bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Hər ilin sonunda bu görüşlər keçirilir, məsələlər müzakirə olunur. Artıq qeyd edildi ki, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin toplantısında hesabat-məlumat dinlənilmişdir. Yəni bu gün buna bir daha qayıtmağa ehtiyac yoxdur. Hər ilin sonunda idmançıları mükafatlandırırıq, idman xadimlərinin fəaliyyətini qiymətləndiririk və bütövlükdə, idman ilinə yekun vururuq. Deyə bilərəm ki, 2006-cı il bu baxımdan uğurlu olmuşdur. Azərbaycanın bütün sahələrindəki kimi, idman sahəsində də sevindirici anlar çox olmuşdur. İlk növbədə, idmançılarımızın beynəlxalq yarışlarda uğurlu çıxışı bizi çox sevindiribdir. 287 medalın qazanılması çox böyük nəticədir. Nəzərə alaq ki, bu gözəl ənənə uzun illərdir yaşayır, Azərbaycanın idman potensialı möhkəmlənir, yeni gənc nəsil yetişir, yeniyetmələr artıq öz imkanlarını gücləndirirlər. 10 il bundan əvvəl uşaq idmanında məşğul olanlar bu gün artıq Azərbaycanın milli komandalarını beynəlxalq yarışlarda təmsil edirlər. Bu çox önəmlidir. Çünki gənc nəslin idmanla məşğul olması hər bir ölkənin idman potensialının möhkəmlənməsi deməkdir. Biz çox şadıq ki, Azərbaycanda idmana maraq artmaqdadır. Yəni maraq nəinki azalmır, hətta artır. Çünki Azərbaycanda idmançı olmaq çox şərəfli bir işdir. İdman şöhrətinin qaldırılması, idmançılara

olan qayğı və onların cəmiyyətdəki rolu, əlbəttə, uşaqları da idmanla məşğul olmağa sövq edir. Bu çox vacib bir amildir.

Digər tərəfdən, əlbəttə, müasir idman infrastrukturunun yaradılması. Əgər bunlar olmasa, idmanı inkişaf etdirmək mümkün olmayacaqdır. Yəni, bu müxtəlif amillər birləşəndə hər bir ölkədə idman uğurları da müşahidə olunur və Azərbaycanda bunlar var.

Qeyd etdiyim kimi, bütün idman qurumları bir məqsədə qulluq edir. İdmanın maddi-texniki bazası möhkəmlənir. Bildiyiniz kimi, Azərbaycanda indi Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Ancaq hamımız yaxşı bilirik ki, regionlarda yeni müasir qurğuların tikilməsi məhz idman obyektlərindən başlanmışdır. 2000-ci ildə biz bu təşəbbüslə çıxış etdik və ondan sonra Azərbaycanın müxtəlif bölgələrində çox müasir, gözəl idman kompleksləri tikilibdir. Bu tikintilər davam edir, indi 10 rayonda yeni idman kompleksləri tikilir və əlbəttə ki, tam dünya standartlarına cavab verəcəkdir.

Mingəçevir avarçəkmə bazasında, nəhayət ki, işlər başlanır və 2007-ci ildə bazanın tamamilə yenidən qurulması nəzərdə tutulur. Bu, beynəlxalq səviyyəli bir baza olacaqdır. İdman qurğularının tikintisi, əlbəttə, idmançılar üçün də böyük dəstəkdir və gənc nəslin yetişməsi üçün vacib məsələdir. Bu, bir tərəfdən. Digər tərəfdən, təlim-məşq toplanışlarının vaxtlı-vaxtında keçirilməsi, peşəkarlıq səviyyəsinin qaldırılması, gündəlik həyatda idmançılara olan münasibət, idman cəmiyyətlərinin möhkəmlənməsi – bütün bu amillər Azərbaycanda idmanın inkişafına xidmət edir.

Azərbaycanda idmanın həm olimpiya, həm də qeyri-olimpiya növləri bərabər hüquqa malikdir. Heç bir ayrı-seçkilik yoxdur və bu siyasət Azərbaycanda uzun illərdir aparılır. İstər olimpiya idman növü ilə, istərsə də qeyri-olimpiya idman növü ilə məşğul olan idmançılara biz həmişə eyni gözlə baxırıq. Bu belə də olmalıdır. Çünki hər bir idmançı beynəlxalq yarışlarda Azərbaycanın idman şöhrətini ucaldır.

İndi dünyada idmana yeni prizmadan yanaşırlar, xüsusilə olimpiya hərəkatına. Ölkələr Olimpiya oyunlarında öz aralarında mübarizə aparırlar. Bəlkə də bu – Olimpiya oyunları, olimpiya hərəkatı yeganə geniş sülhməramlı mübarizə formatıdır. Azərbaycan da olimpiya hərəkatında çox fəal bir ölkədir. Bizim səylərimiz, təşəbbüslərimiz və əldə etdiyimiz nailiyyətlər beynəlxalq və Avropa olimpiya komitələri tərəfindən daim qeyd olunur. Bölgədə idmanın inkişafı üçün Azərbaycanın rolu da artıq hamı üçün bəllidir. Azərbaycanda keçirilən mötəbər beynəlxalq yarışlar beynəlxalq idman aləminin ölkəmizə olan münasibətinin əlamətidir. Bu bir daha göstərir ki, biz ən böyük, ən geniş beynəlxalq idman yarışlarının keçirilməsində çox səriştəliyik. Əlbəttə, bu ona gətirib çıxarır ki, növbəti idman yarışları da Azərbaycanda keçirilir.

Məsələn, 2007-ci il bu baxımdan çox əhəmiyyətli olacaqdır. Güləşin bütün növləri üzrə dünya çempionatı Azərbaycanda keçiriləcəkdir. Eyni zamanda, bədii gimnastika üzrə Avropa çempionatı Azərbaycanda keçiriləcəkdir. Bu çempionatın keçirilməsinin tarixi də çox maraqlıdır. Çünki əvvəl çempionatın başqa ölkədə keçirilməsi nəzərdə tutulmuşdu. Amma sonra müəyyən səbəblərə görə bu, baş tutmadı və Beynəlxalq Bədii Gimnastika Federasiyası Azərbaycandan xahiş etdi ki, çempionata ev sahibliyi etsin. Nəzərə alınıb ki, ölkəmizdə dünya çempionatı ən yüksək səviyyədə keçirilmişdir. Bu məqsədlə, yəni bu iki çempionatı yüksək səviyyədə keçirmək üçün indi Heydər Əliyev adına İdman-Konsert Kompleksində böyük yenidənqurma, bərpa işləri görülür. Bildiyiniz kimi, bir müddət bundan əvvəl orada təmir işləri aparılmışdı. İndiki təmir işləri bu gözəl idman obyektini ən yüksək dünya səviyyəsinə çatdıracaqdır.

2007-ci il Pekin Yay Olimpiya oyunlarına hazırlıq baxımından da çox böyük əhəmiyyət kəsb edir. Demək olar, həlledici il olacaqdır. Əminəm ki, 2007-ci ildə bizim idmançılarımız beynəlxalq yarışlarda yaxşı nəticələr göstərəcəklər. Ondan sonra yəqin lisenziya turnirləri başlanacaq və mak-

simum çalışmalıyıq ki, lisenziyaları əldə edək. 2008-ci ildə keçiriləcək Yay Olimpiya oyunları da yəqin ki, daha da gərgin olacaqdır. Çünki dünyada rəqabət artır. Artıq müxtəlif ölkələrdə, hətta böyük idman ənənələri olmayan ölkələrdə idmana böyük diqqət göstərilir və idman ölkələrin ictimai həyatında mühüm amilə çevrilir. Yəni biz bilirik ki, rəqabət çox güclü olacaqdır. Ona görə gərək müxtəlif idman növlərində yaxşı hazırlaşaq. 2007-ci ildə, ilin sonuna qədər təxminən bilməliyik ki, biz Olimpiya oyunlarında hansı heyətlə iştirak edəcəyik. Müstəqil Azərbaycanın Olimpiya oyunlarında – həm Sidney, həm də Afina Olimpiya oyunlarında iştirakı çox uğurlu olmuşdur. Əminəm ki, bu gözəl ənənələr davam edəcək və idmançılarımız ölkəmizi ləyaqətlə təmsil edəcəklər.

2006-cı il eyni zamanda, ona görə yadda qalacaq ki, Azərbaycan bizim üçün çox yeni, bəlkə də bəzilərini təəccübləndirən təşəbbüslə çıxış etmişdir: 2016-cı ildə Yay Olimpiya oyunları Azərbaycanda keçirilsin. Biz bu təşəbbüsü irəli sürəndə, əlbəttə ki, imkanlarımızı qiymətləndirmişdik. Mən hesab edirəm ki, Azərbaycan Olimpiya oyunları keçirmək üçün bütün imkanlara malikdir. 2016-cı ildə Yay Olimpiya oyunlarının harada keçiriləcəyi hələ ki, bəlli deyil, müxtəlif ölkələr öz namizədliklərini irəli sürmüşlər, o cümlədən Azərbaycan. Bir tərəfdən, bu onu göstərir ki, Azərbaycanda idman hərəkatına, olimpiya hərəkatına və bütövlükdə idmanın inkişafına həqiqətən çox böyük diqqət göstərilir və təsadüfi deyil ki, Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınır. Digər tərəfdən, bütövlükdə müstəqil Azərbaycanın qüdrətini, imkanlarını, potensialını göstərir.

Olimpiya oyunları keçirmək asan məsələ deyil. Əgər biz belə bir təşəbbüslə çıxış etmişiksə, deməli, özümüzə güvənirik, öz imkanlarımıza güvənirik. Əminəm ki, əgər bu böyük şərəf Azərbaycana verilərsə, biz Olimpiya oyunlarını ən yüksək səviyyədə keçirəcəyik.

Mən xatırlayıram, haradasa 5-6 il bundan əvvəl müsahibələrin birində jurnalist sual vermişdi ki, indi Azərbaycanda

böyük uğurlar var, Azərbaycanda Olimpiya oyunları keçirilə bilərmi? Sözün düzü, o vaxt mən bu suala cavab vermədim. Çünki hesab edirdim, biz hələ buna hazır deyilik. Amma bu gün mən əminəm ki, biz buna hazırıq. Nəzərə alsaq ki, 2016-cı il on ildən sonra gələcək, əlbəttə, o vaxta qədər Azərbaycanda oyunları ən yüksək səviyyədə keçirmək mümkün olacaqdır. Biz nəyə görə belə əminik?! Ona görə ki, ölkəmizin imkanları artır, iqtisadi potensial artır, beynəlxalq mövqelər möhkəmlənir, Azərbaycan regional çərçivədə lider dövlətdir və bizim gələcəyimiz də çox parlaq olacaqdır. Bilirik ki, bizi nələr gözləyir. Bilirik ki, imkanlarımız nəyə çatacaq. Ona görə mən bir müddət bundan əvvəl göstəriş verdim ki, biz belə bir müraciət edək. Nəzərə alsaq ki, Azərbaycan belə müraciətlə ilk dəfə çıxış edir, ola bilsin biz bu işdə uğur qazana bilməyək. Əgər 2016-cı ildə bu oyunların keçirilməsi başqa ölkəyə, başqa şəhərə həvalə olunarsa, ondan sonra 2020-ci il gəlir. Mən şübhə etmirəm ki, bizim belə təşəbbüsümüz və bu işə sədaqətimiz uğura gətirib çıxaracaqdır.

Azərbaycanın hərtərəfli inkişafı göz qabağındadır və idman ictimai həyatın çox böyük hissəsidir, böyük amilidir. İdman həm ölkənin nüfuzu, ölkənin imici deməkdir, həm də gənc nəslin yetişdirilməsi, vətənpərvərlik ruhunda tərbiyəsi deməkdir, fiziki sağlamlıq deməkdir. Fiziki cəhətdən sağlam insanlar mənəvi cəhətdən də sağlam olurlar. Yəni hər bir ölkənin inkişafı üçün idmanın çox böyük əhəmiyyəti var. Biz bunu Azərbaycanda çox yaxşı bilirik və uzun illər idmana, idmançılara göstərilən münasibət bunun ən yaxşı nümunəsidir. İdmançılar gərək yaxşı təmin edilsinlər, onların idmanla məşğul olmaları üçün şərait yaxşı olmalıdır, məişət problemləri də həll edilməlidir. Elə etməliyik ki, onları məişət problemləri düşündürməsin, yalnız və yalnız məşqlərlə məşğul olsunlar, öz peşəkarlıqlarını artırsınlar və doğma vətənimizin bayrağını beynəlxalq yarışlarda daim uca tutsunlar.

Biz hər dəfə bunu görəndə, beynəlxalq yarışlarda Azərbaycanın nümayəndələrinin uğurlarını görəndə hər bir və-

tənpərvər insan, hər bir vətəndaş haqlı olaraq qürur hissi keçirir. Bu sevinci xalqa bəxş etdiyi üçün mən bütün idmançılara, onların məşqçilərinə, idman mütəxəssislərinə öz minnətdarlığımı bildirmək istəyirəm.

Gələn il, 2007-ci il mənim üçün də çox əlamətdar olacaqdır. Çünki mən Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə 1997-ci ildə seçilmişəm və artıq bunun on ili olacaqdır. Bu on il də böyük tarixi bir dövrdür. Hesab edirəm ki, bu on ildə Azərbaycan idmanının şöhrəti yüksəklərə qalxmışdır. Bizim bütün planlarımız həyatda öz əksini tapdı və gələcək planlarımız da öz əksini tapacaqdır. Çünki artıq bunu deməyə bizim tariximiz imkan verir, verilən bütün vədlərin həyatda öz əksini tapması imkan verir.

Mən həmişə idmançılarla görüşəndə çox şad oluram, onları görürəm, bütün idmançıların nailiyyətləri ilə maraqlanıram. Düzdür, əvvəlki illərdən fərqli olaraq, indi bəlkə də buna o qədər vaxt sərf edə bilmirəm. Ona görə bəzi hallarda siyahılarda mənim üçün tanış olmayan adları görəndə deyirəm ki, bu kimdir, mən bunu niyə tanımıram? Çünki mən bütün idmançıları şəxsən tanıyırdım və tanımaq istəyirəm. Onların imkanlarını da bilirəm. Amma görəndə ki, siyahılara yeni, tanış olmayan adlar daxil olur, bir tərəfdən, təəssüf edirəm ki, onlarla görüşməyə vaxtım olmayıbdır, digər tərəfdən isə sevinirəm, gənc nəsil yetişir. Deməli, gənclər artıq böyük uğurlara nail olurlar. Beləliklə, Azərbaycanın idmanı yaşayacaq, davam edəcəkdir. Beləliklə, Azərbaycan xalqı yaşayacaq, inkişaf edəcəkdir. Çünki idmançılar xalqın nümayəndələridir. Onlar imkanlarını, bəzi hallarda sağlamlıqlarını beynəlxalq yarışlarda Azərbaycanın üçrəngli bayrağının qaldırılmasına həsr edirlər. Ona görə onların əməyi yüksək səviyyədə qiymətləndirilməlidir.

Mən fürsətdən istifadə edib sizin hamınızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi günü, Yeni il bayramı münasibətilə ürəkdən təbrik etmək və 2007-ci ildə hamınıza uğurlar, cansağlığı arzulamaq istəyirəm. Sağ olun.

* * *

*Sonra Azərbaycanda idmanın inkişafında böyük rolu olmuş idmançıların, məşqçilərin, idman mütəxəssislərinin mükafatlandırılması oldu. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə bildirdi ki, ilin yekunlarına görə idmançılara pul mükafatı təqdim edilmişdir, yeni mənzillərin orderləri veriləcəkdir. İlk növbədə bizim bir maşın mükafatımız vardır. Bu, boks üzrə gənclərdən ibarət yığmanın Baş məşqçisi Şamil Əlimzanova verilir.*

*Dövlətimizin başçısı avtomobilin açarını Şamil Əlimzanova təqdim etdi. Sonra Azərbaycan prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev cüdo üzrə Avropa çempionu Elnur Məmmədliyə, taekvondo üzrə Avropa çempionu İlkin Şahbazova, cüdo üzrə Avropa çempionatının gümüş mükafatçısı Kifayət Qasımovaya, karate-do üzrə dünya və Avropa çempionu Qurban Tağıyevə, boks üzrə Avropa çempionatının mükafatçısı Cavid Tağıyevə, boks üzrə yığma komandanın üzvü, gənclər arasında Avropa çempionu, dünya kuboku yarışının bürünc mükafatçısı Samir Məmmədova, güləş üzrə Əməkdar məşqçi Soltan Kərimova, futbol veteranı Asif Əliyevə, boks üzrə yığma komandanın məşqçisi Əsgər Eyvazova, idman fotomüxbiri Dilavər Nəcəfova, basketbol üzrə yığma komandanın üzvü Zaur Xasayevə, gimnastika üzrə Əməkdar məşqçi Elşad Nərimanova, güləş üzrə dünya çempionatının gümüş mükafatçısı Rövşən Bayramova, cüdo üzrə gənclərdən ibarət yığma komandanın məşqçisi İbadulla Şahbanova, kinqboksinq üzrə dünya çempionu Eduard Tağıyevə, həndbol üzrə yığma komandanın kapitanı Marina Pankatskayaya, şahmat üzrə Avropa çempionu İlahə Qədimovaya, Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Qəhrəman Məmmədyarova, sərbəst güləş üzrə məşqçi Xosrov Cəfərova, güləş üzrə məşqçi Cavanşir Qurbanova, otüstü xokkey komandasının üzvü Zərifə Zeynalovaya yeni mənzillərin orderlərini təqdim etdi.*

*Bildirildi ki, voleybol üzrə milli komandanın üzvü Valeriya Korotenkoya mənzilin orderi xarici ölkədən yarışdan qayıtdıq-dan sonra veriləcəkdir.*

*Prezident İlham Əliyev mərasim iştirakçılarını qarşıdan gələn bayramlar münasibətilə bir daha təbrik etdi, onların hər birinə xoşbəxtlik, cansağlığı arzuladı.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Sizə hər bir azərbaycanlı üçün əziz bayram olan Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibətilə müraciət edirəm. Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə on beş ildir dünyada yaşayan bütün azərbaycanlılar tərəfindən milli birlik və həmrəylik günü kimi qeyd edilən bu bayram Azərbaycan xalqına mənsubluq, milli-mənəvi dəyərlərimizin təbliği, tarixi Vətənə bağlılıq, soydaşlarımızın yekdillik və mütəşəkkilliyinin gücləndirilməsi ideyalarını təcəssüm etdirir.

Məmnunluqla qeyd etmək olar ki, azərbaycanlıların birliyi və həmrəyliyi ideyası bu gün artıq həm bütün dünyada yaşayan soydaşlarımızın düşüncəsinə hakim kəsilmiş, həm də dövlət siyasətimizin prioritet istiqamətləri səviyyəsinə yüksəlmişdir. Yaşadıqları ölkələrdə soydaşlarımızın təşkilatlanması, azərbaycanlı icmalarının fəaliyyətinin genişlənməsi, Vətənlə əlaqələrinin güclənməsi istiqamətində son illərdə həqiqətən çox işlər görülmüşdür. Dünya azərbaycanlılarının I və II qurultayları soydaşlarımızın öz müstəqil dövləti – Azərbaycan Respublikası ətrafında sıx birləşməsi, milli-mənəvi və ümumbəşəri dəyərləri üzvi şəkildə ehtiva edən azərbaycançılıq ideyasının yayılması prosesinə güclü təkan verdi, qarşıda duran vəzifələri müəyyənləşdirdi.

Hazırda Azərbaycan Respublikası və diasporumuz keyfiyyətcə yeni fəaliyyət mərhələsinə qədəm qoymuşdur. Azərbaycan dövləti xaricdə yaşayan soydaşlarımızın sosial-iqtisadi maraqlarının müdafiəsi, beynəlxalq konvensiyalarda təsbit olunmuş hüquqlarının qorunması üçün ardıcıl fəaliyyət göstərir, məqsədyönlü və təsirli tədbirlər görür. Gündən-günə dünya azərbaycanlılarının doğma Vətənlə əlaqələri daha da güclənir, ölkəmizin iqtisadi və sosial-mədəni həya-

tında iştirakı genişlənir. Ayrı-ayrı ölkələrdə azərbaycanlıların icma və cəmiyyətləri vahid mərkəzlər ətrafında birləşir, ictimai-siyasi həyata onların təsiri artır. Soydaşlarımız Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin milli mədəniyyətimizin təbliğində, təcavüzkar erməni millətçilərinin ideoloji təxribatlarının ifşa olunmasında getdikcə daha fəal rol oynayırlar.

Lakin o da qeyd olunmalıdır ki, Azərbaycan diasporunun potensial imkanları onun fəaliyyətinin real nəticələri ilə müqayisədə xeyli yüksəkdir. Qarşımızda hələ də bir çox ciddi, həlli vacib olan problemlər durur. Azərbaycanlılar yaşadıqları ölkələrin iqtisadi, siyasi və sosial-mədəni həyatına sıx inteqrasiya olunmalı, bu ölkələrlə Azərbaycan Respublikası arasında əlaqələndirici vəsilə rolunda çıxış etməlidirlər. Müxtəlif ölkələrdə mövcud olan Azərbaycan cəmiyyətlərinin qarşılıqlı fəaliyyəti gücləndirilməli, mühüm məsələlər üzrə onların tədbirləri əlaqələndirilməlidir. Məkrli erməni təbliğatına qarşı müntəzəm surətdə önləyici hücum tədbirləri təşkil edilməlidir. Ümumazərbaycan məsələləri ilə bağlı təsirli addımlar atılmalı, aparıcı ölkələrdə güclü Azərbaycan lobbisi formalaşdırılmalıdır. Dost icmalar və lobbi təşkilatları ilə səmərəli əməkdaşlıq qurulmalı, diaspor quruculuğu sahəsində onların müsbət təcrübəsindən istifadə olunmalıdır.

Yola saldığımız 2006-cı il Azərbaycan Respublikası üçün kifayət qədər uğurlu və nailiyyətlərlə zəngin bir il olmuşdur. Heydər Əliyevin ideya müəllifi və memarı olduğu Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri istifadəyə verilmişdir və hazırda ölkəmizin, bütün regionun rifahına xidmət edir. Artıq «Şahdəniz» yatağında qaz hasilatı başlanmışdır və Azərbaycan qazını dünya bazarına nəql edəcək Bakı–Tbilisi–Ərzurum boru kəməri də tezliklə istismara veriləcək. 2006-cı ildə Azərbaycan iqtisadi inkişaf sürətinə görə bütün dünyada lider mövqe tutmuşdur. Ölkədə əzəmətli sosial-iqtisadi inkişaf proqramları və infrastruktur layihələr həyata keçirilir, ən müasir texnologiyalar tətbiq olunur. Sahibkarlı-

ğın inkişafı, işsizliyin və yoxsulluğun aradan qaldırılması üçün proqramlar reallaşdırılır. Gözümüzün qarşısında ölkəmizin siması dəyişir, insanlarımızın ovqatı yaxşılaşır, sabaha inamı güclənir. Dövlətimizin bölgədə və dünyada nüfuzu yüksəlir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun ədalətli həlli istiqamətində getdikcə ölkəmizin gücü artır, xarici siyasi fəallığımız genişlənir, yeni imkanlar yaranır. Həyat özü bizim yeritdiyimiz siyasətin düzgünlüyünü, Heydər Əliyev strateji xəttinin alternativsizliyini sübut edir. Əmin ola bilərsiniz ki, bundan sonra da dövlətimizin və xalqımızın qarşısında duran bütün vəzifələr yüksək səviyyədə yerinə yetiriləcək, qloballaşan dünyada Azərbaycan Respublikası və azərbaycanlılar özünün maddi-mənəvi və intellektual potensialına uyğun layiqli yer tutacaqlar.

Əziz həmvətənlər! Hörmətli soydaşlar!

Sizin hamınızı Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni, 2007-ci il münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, firavanlıq, xoşbəxtlik, ümumi işimizdə uğurlar arzulayıram!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 dekabr 2006-cı il*

**NİKARAQUA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB XOSE DANİEL ORTEQA SAAVEDRAYA**

Hörmətli cənab Prezident!

Nikaraqua Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Nikaraqua arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respubikasının Prezidenti**

Bakı, *9 yanvar 2007-ci il*

## TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MİNTİMER ŞAYMİYEVƏ

Hörmətli Mintimer Şaripoviç!

Sizi, görkəmli dövlət xadimi və siyasi xadimi şanlı yubileyiniz – anadan olmağınızın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Dərin məzmunlu həyat yolunuz, təşkilatçılıq istedadınız və dost Tatarıstanın tərəqqisi naminə yorulmaz fəaliyyətiniz Sizə yüksək nüfuz və hörmət qazandırmışdır.

Siz Tatarıstana uzun müddət ərzində başçılıq edərək öz müdrik, uzaqgörən və ölçülüb-biçilmiş siyasətinizlə xalqınızı hərtərəfli inkişaf və tərəqqi yolu ilə inamla aparırsınız. İndi Tatarıstan Respublikası Rusiya Federasiyasının ən inkişaf etmiş subyektlərindən biridir.

Azərbaycan və Tatarıstanı çoxəsrlik səmimi dostluq, qarşılıqlı iqtisadi və mədəni münasibətlər bağlayır. Əminəm ki, birgə səylərimizlə bu ənənələr bundan sonra da saxlanılacaq və artırılacaqdır.

Əziz Mintimer Şaripoviç!

Bu əlamətdar gündə Sizə və bütün ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 yanvar 2007-ci il*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Milli bayramınız – Vaytanqa günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, xalqlarımızın istək və iradəsi ölkələrimiz arasında yaranan dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında daim öz təcəssümünü tapacaqdır.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 yanvar 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

*20 yanvar 2007-ci il*

*Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.*

*Şəhidlərin ruhuna dua oxundu.*

*Prezident İlham Əliyev matəm musiqisinin sədaları altında «Əbədi məşəl» abidəsi önünə əklil qoydu. Əklilin üzərindəki lentdə bu sözlər yazılmışdı: «Azərbaycan Respublikasının Prezidentindən».*

*Müdafiə Nazirliyinin Əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Şəhidlərin xatirəsini yad etməyə gəlmiş xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri ölkə prezidenti İlham Əliyevə dərin hüznlə başsağlığı verdilər, xalqımızın kədərinə şərik olduqlarını söylədilər.*

*Prezident İlham Əliyev diplomatik korpusun rəhbərlərinə, xarici qonaqlara təşəkkürünü bildirdi.*

*Dövlət təşkilatlarının rəhbər işçiləri, respublikamızda fəaliyyət göstərən dini icmaların başçıları da şəhidlərin xatirəsini yad etməyə gəlmişdilər.*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ABDUL KALAMA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Hindistan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolundakı nailiyyətlərimizi daha da artırmaq üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 yanvar 2007-ci il*

## HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ

Hörmətli cənab Baş nazir!

Milli bayramınız – Respublika günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, Azərbaycan–Hindistan münasibətləri, dost ölkələrimiz arasındakı əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 yanvar 2007-ci il*

**AVSTRALİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON UİNSTON HOVARDA**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Avstraliya günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Avstraliya arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 yanvar 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2006-cı ilin YEKUNLARINA VƏ 2007-cı İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRİNƏ HƏSR OLUNMUŞ İSLASINDA NİTQ

*Prezident sarayı*

*22 yanvar 2007-ci il*

Bu gün Nazirlər Kabinetinin 2007-ci ildə ilk iclasıdır. Bu iclasda 2006-cı ilin yekunlarını müzakirə edəcəyik və eyni zamanda, 2007-ci ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparılacaqdır.

2006-cı ildə Azərbaycan iqtisadiyyatı yüksək sürətlə inkişaf etməkdə davam etmişdir. 2005-ci ildə əldə edilən uğurlar 2006-cı ildə də özünü göstərdi və iqtisadiyyatın ən əsas göstəricisi olan ümumi daxili məhsulun artımına görə Azərbaycan dünyada liderlik mövqelərini saxlaya bilmişdir. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Bu onu göstərir ki, iqtisadiyyatda müsbət dinamika davam edir. Qarşımıza qoyduğumuz bütün proqramlar uğurla icra olunur. Azərbaycanda iqtisadi inkişaf hərtərəflidir, şaxəlidir və bizə imkan verir ki, qarşıya qoyduğumuz bütün vəzifələri yerinə yetirək.

Bununla bərabər, sənaye istehsalı da kəskin şəkildə artmış, təxminən 37 faiz təşkil etmişdir. Əlbəttə ki, bizim sənaye potensialımızın inkişafında bunun çox müsbət rolu vardır və gələcəkdə də olacaqdır. İnflyasiya 8,3 faiz səviyyəsində olmuşdur. Bu da qarşıya qoyduğumuz rəqəmlərə uyğundur. Biz planlaşdırırdıq ki, 2006-cı ildə inflyasiya birrəqəmli ola-

caqdır. Çox sevindirici haldır ki, 10 faizdən yuxarı qalxmamışdır, əksinə, 2005-ci ilə nisbətən aşağı düşmüşdür. Əhalinin pul gəlirləri 22 faiz təşkil etmişdir. Bu onu göstərir ki, insanların maddi vəziyyəti yaxşılaşır. Əlbəttə, biz bunu iqtisadi göstəricilərdə və insanların gündəlik həyatında görürük.

Azərbaycan 2006-cı ildə xarici və daxili investorlar üçün cəlbedici ölkə kimi özünü bir daha sübut etdi. Xarici və yerli investisiyaların qoyuluşu çox böyük rəqəmlərlə ölçülür. Azərbaycana təxminən 7 milyard dollar sərmayə qoyulmuşdur. Çox sevindirici hal ondan ibarətdir ki, daxili investisiyalar kəskin şəkildə artır. Bu isə onu göstərir ki, Azərbaycanda yerli sahibkarların fəaliyyəti nəticəsində böyük işlər görülür.

Yerli sahibkarlığın hərtərəfli inkişafı üçün dövlət tərəfindən edilən dəstək özünü göstərir və beləliklə, Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranır. Məhz onların hesabına daxili investisiyaların artımı mümkün olmuşdur. Eyni zamanda, Azərbaycan investisiya mühitinə görə, investisiyaların qorunmasına yönəldilmiş addımlara görə xarici investorlar üçün də cəlbedici ölkə kimi özünü göstəribdir. Əminəm ki, gələcəkdə yerli, daxili investisiyalar üstünlük təşkil edəcək və Azərbaycanın yaranan və möhkəmlənən sahibkarlar sinfi ölkə iqtisadiyyatı üçün dəyərli işlər görəcəkdir.

Bütövlükdə bizim valyuta ehtiyatlarımız 4 milyard dollar səviyyəsinə gəlib çatmışdır. Bu da bizim üçün çox böyük dəstəkdir, bizə əlavə güc verir. Biz öz imkanlarımıza, öz gücümüzə söykənirik. Əlbəttə, 4 milyard dollar valyuta ehtiyatları iqtisadiyyatın inkişafı üçün də mühüm rol oynayır. Eyni zamanda, bizdə inam hissini daha da gücləndirir. Nəzərə alsaq ki, valyuta ehtiyatlarının əsas mənbəyi neft-qaz əməliyyatlarıdır və 2007-ci ildə Azərbaycanda neft-qaz hasilatı kəskin şəkildə artacaqdır, əlbəttə, deyə bilərik ki, gələcəkdə valyuta ehtiyatlarımız çox böyük rəqəmlərlə ölçüləcəkdir.

2005-ci ilə nisbətən 2006-cı ildə büdcə xərcləri təxminən 80 faiz artmışdır. Bu bəlkə də dünyada analoqu olmayan bir

göstəricidir. Bir il ərzində 80 faiz büdcə artımı çox böyük uğurdur, böyük nailiyyətdir. Bizim gördüyümüz işlərin əsas məqsədi məhz bundan ibarətdir. Görülən bütün işlərin – qəbul edilmiş proqramların, həyata keçirilən infrastruktur layihələrin sahibkarlara dəstəyin, investisiya mühitinin yaxşılaşdırılmasının əsas məqsədi büdcə gəlirlərini və xərclərini artırmaqdır. Çünki ölkə iqtisadiyyatı, vətəndaşlar, bütün cəmiyyət və ölkədə gedən proseslər iqtisadi sahədə, eyni zamanda, siyasi sahədə məhz bu amilə bağlıdır. Büdcədən maliyyələşən təşkilatların əməkhaqlarının qaldırılması, nəhəng investisiya layihələrinin həyata keçirilməsi məhz büdcə hesabına mümkün olmuşdur.

Biz artıq xarici kreditlərdən daha az asılı vəziyyətdəyik və gələcəkdə bundan tamamilə asılı olmayacağıq. Nəyin hesabına? Məhz büdcə gəlirlərinin artımı hesabına. Bu il, 2007-ci ildə bu müsbət meyllər davam edəcək, büdcəmiz yenə də 2006-cı ilə nisbətən kəskin şəkildə qaldırılacaq və təxminən 6,5 milyard dollar təşkil edəcəkdir. Nəzərə alsaq ki, 2003-cü ildə bu rəqəm 1,5 dollar idi, görərik ki, qısa müddət ərzində maliyyə intizamının möhkəmlənməsi sayəsində, uğurla davam etdirilən neft strategiyasının icrası, aparılan cəsarətli və düşünülmüş iqtisadi islahatların nəticəsində Azərbaycanın büdcəsi çox böyük səviyyəyə qalxmışdır və bundan sonra da artacaqdır. Ölkə qarşısında duran bütün vəzifələr öz həllini tapacaqdır. Bizim iqtisadi imkanlarımız buna şərait yaradır və iqtisadi gücümüz bunu mümkün edir. Bir sözlə, ölkədə gedən iqtisadi proseslər çox müsbət olmuşdur. Bizim iqtisadi siyasətimizin uğurudur, iqtisadi siyasətimizin, deyə bilərəm, təntənəsidir ki, bütün iqtisadi göstəricilər ən yüksək zirvədədir və Azərbaycan bu göstəricilərə görə dünyada birinci yeri tutur. Bununla bərabər, bizim digər önəmli proqramlarımız uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı davam edir. 2006-cı ildə 173 min əlavə yeni iş yeri açılmışdır. Bütövlükdə 2003-cü ilin oktyabr ayından bu günə qədər Azərbaycanda 520 min yeni iş yeri açılmışdır.

Bu bir daha onu göstərir ki, bir tərəfdən, bizim qarşımıza qoyduğumuz bütün vəzifələr vaxtlı-vaxtında yerinə yetirilir, digər tərəfdən, ölkə iqtisadiyyatı, insanların işlə təmin olunması üçün bunun əvəzsiz əhəmiyyəti vardır.

İşsizliyin aradan qaldırılması Azərbaycanın qarşısında duran ən prioritet məsələlərdən biridir və demək olar ki, biz bunu artıq həll edə bilmişik. İstisna olunmur ki, gələcəkdə Azərbaycana işçi qüvvələri gələcəkdir. İstisna olunmur ki, ölkəmiz elə sürətlə inkişaf edəcək ki, öz yerli işçi qüvvəmiz kifayət etməyəcəkdir. Bu, gələcəkdə mümkündür və biz indidən buna hazır olmalıyıq. Artıq müvafiq qurumlara göstərişlər vermişəm ki, gələcəkdə xaricdən mümkün olan miqrasiyanı tənzimləmək üçün tədbirləri indidən görməliyik. Biz bunu görürük, bunu bilirik. Çünki Azərbaycan dünyada analoqu olmayan sürətlə inkişaf edən ölkədir. İqtisadi potensial gücləndikcə, Azərbaycana maraq artır. Onsuz da, başqa ölkələrdən Azərbaycana işləmək üçün insanların gəlməsi artıq müşahidə olunur. Nəzərə alsaq ki, regionda ölkəmizin iqtisadi durumu artıq başqa yerlərdən fərqlənir və fərqlənəcəkdir, gələcəkdə bu, kütləvi xarakter ala bilər.

Ona görə işsizliyin aradan qaldırılması prosesi çox sürətlə gedir. Bu da öz növbəsində yerli istehsalın yaranmasına xidmət göstərir, Azərbaycanda yoxsulluğun aşağı düşməsi üçün şərait yaradır. Mən bir göstəricini də böyük sevinc hissi ilə bildirmək istəyirəm. 2006-cı ilin yekunlarına görə, Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı 20 faizə düşmüşdür. Keçən il Azərbaycan əhalisinin 29 faizi, ondan əvvəlki il 44 faizi, 2003-cü ildə isə 49 faizi yoxsulluq şəraitində yaşayıb, indi isə 20 faizdir. Beynəlxalq maliyyə qurumları ilə birlikdə icra edilən proqram, yoxsulluğun azaldılmasına yönəldilmiş proqram 2015-ci ildə başa çatmalıdır. Mən şübhə etmirəm ki, biz daha qısa müddət ərzində Azərbaycanda yoxsulluğun tamamilə aradan qaldırılmasına nail olacağıq. Azərbaycanda bir nəfər də yoxsul adam olmamalıdır və olmayacaqdır.

Əlbəttə, sosial məsələlərin həlli diqqət mərkəzində olmuşdur. Bir daha demək istəyirəm ki, bizim əsas məqsədimiz insanların maddi vəziyyətinin yaxşılaşdırılmasıdır. İqtisadi uğurlar və iqtisadi islahatların da məqsədi məhz bundadır. Əməkhaqlarının, pensiyaların, minimum əməkhaqqının qaldırılması davam etmişdir və 2007-ci ildə də biz bunu edəcəyik. Biz çalışırıq ki, müxtəlif amillərlə insanların həyat səviyyəsini maksimum dərəcədə yaxşılaşdıraq. Özəl sektorda fəaliyyət göstərən insanlar üçün dövlət dəstəyi, sahibkarlığa dəstək, kreditlərin verilməsi, dövlət təşkilatlarında çalışanlar üçün əməkhaqlarının qaldırılması – bu proseslər paralel şəkildə gedir. Beləliklə, Azərbaycanda həm minimum əməkhaqqı qaldırılır, həm də orta əməkhaqqı artıq sürətlə qalxır və gələcəkdə biz nail olacağıq ki, Azərbaycanda minimum və orta əməkhaqqı insanların minimum tələbatını ödəyə bilsin.

2006-cı ilin yekunlarına görə, adambaşına düşən ümumi daxili məhsul 2400 dollar təşkil edibdir. 2007-ci ildə bu rəqəm daha da artacaqdır. Bu isə orta səviyyəli ölkənin göstəricisidir. Bizim məqsədimiz isə Azərbaycanı qabaqcıl ölkəyə çevirməkdir, Azərbaycanı inkişaf etmiş ölkəyə çevirməkdir və şübhə etmirəm ki, buna nail olacağıq. Çünki qəbul edilmiş bütün proqramlar uğurla icra edilir. Heç bir səhv addım atılmamışdır, bir dəfə də uğursuzluğa düçar olmamışıq. Görülən bütün işlər, atılan addımlar, qəbul edilmiş qərarlar, onların icrası uğurla nəticələnibdir. Belə olan halda, Azərbaycanı dünya miqyasında iqtisadi, siyasi cəhətdən qabaqcıl ölkəyə çevirmək bizim vəzifəmizdir və buna nail olacağıq.

2006-cı ildə insanların sosial vəziyyətinin yaxşılaşması üçün növbəti addım atılmışdır. Ünvanlı sosial yardım proqramı icra olunmağa başlanmışdır. 50 min ailə artıq bu proqramla əhatə olunur. Təxminən 220 min adam bu proqramdan faydalanır. Bu bir daha onu göstərir ki, dövlətin niyyəti məhz ondan ibarətdir ki, insanların sosial vəziyyəti daha da yaxşılaşsın.

2006-cı ildə Azərbaycanda iki tarixi hadisə baş vermişdir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi bizim tarixi

qələbəmizdir və Heydər Əliyev neft strategiyasının təntənəsidir. Bu layihə həm Azərbaycan üçün, həm bölgə üçün, həm də dünya üçün çox böyük əhəmiyyətə malikdir. Məhz 1994-cü ildə xarici neft şirkətləri ilə başladığımız əməkdaşlıq nəticəsində ölkəyə külli miqdarda sərmayə axını gəlmişdir və davam edir. Biz məhz bunun hesabına ölkənin digər sektorlarının inkişafına nail ola bilmişik. Güclü maddi baza yaratmışıq. Valyuta ehtiyatlarımızın mənbəyi də məhz bunlardır, neft-qaz əməliyyatlarıdır. Bütün çətinliklərə, maneələrə baxmayaraq, süni şəkildə yaradılmış əngəllərə, Azərbaycana qarşı aparılan çirkin kampaniyaya baxmayaraq, biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsinə nail olmuşuq. Bu bizim qələbəmizdir, Azərbaycan xalqının qələbəsidir, Azərbaycan xalqının iradəsinin təntənəsidir. Biz bunu qürur hissi ilə deyirik, qeyd edirik. Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq istismardadır.

Bəzi şayiələr, təxribatlar, uydurmalar dolaşırdı və süni şəkildə ortaya atılırdı ki, bunun əhəmiyyəti yoxdur, səmərəsi yoxdur, əgər başqa ölkələrdən bu kəmərlə neft nəql edilməsə, bunun iqtisadi səmərəsi yoxdur. Bütün bunlar hamısı alt-üst edildi. Biz sübut etdik və bu gün də sübut edirik ki, Bakı–Tbilisi–Ceyhan neft kəməri yalnız və yalnız Azərbaycan neftinin dünya bazarlarına daşınması üçün tikilibdir. Başqa neftlər olsa, başqa ölkələrin marağı olsa – və var – əlbəttə, biz bundan istifadə edəcəyik. Amma Bakı–Tbilisi–Ceyhan neft kəmərini öz neftimizlə təmin edəcəyik.

2007-ci ildə kəmərlə daşınacaq neftin həcmi, demək olar ki, artıq onun bütün imkanlarına kifayət edəcəkdir. 50 milyon ton daşıma qabiliyyəti olan Bakı–Tbilisi–Ceyhan neft kəməri vasitəsilə 2007-ci ildə minimum 40 milyon ton neft daşınmalıdır. 2008-ci ildə isə tam, maksimum gücünə çıxacaqdır. Ondan sonra, şübhə etmirəm, biz onu əlavə texniki imkanlarla genişləndirəcəyik. Ona görə bu tarixi hadisə həm bizim iqtisadi potensialımızı möhkəmləndirir, həm Azərbaycanın uzunmüddətli inkişaf strategiyasını müəyyən edir

və əlbəttə, həm də regionda, dünyada bizim mövqelərimizi möhkəmləndirir.

Nəzərə alsaq ki, bu gün dünyada enerji təhlükəsizliyi məsələləri gündəliyin bir nömrəli məsələsinə çevrilibdir, onda görərik ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi Azərbaycana nə qədər böyük həm siyasi, həm iqtisadi, həm də bütün başqa dividendlər gətirəcəkdir.

Bununla bərabər, Azərbaycan qazının dünya bazarlarına çatdırılması üçün Bakı–Tbilisi–Ərzurum qaz kəməri də tikilibdir və yaxın zamanlarda fəaliyyətə başlayacaqdır. Bununla Azərbaycan Heydər Əliyev neft strategiyasının əsas mərhələsinin həyata keçirilməsinə nail olmuşdur. Əlbəttə, bundan sonrakı məsələlər böyük əhəmiyyət kəsb edir. Çünki bölgədə gedən proseslər, enerji təhlükəsizliyi məsələləri, regional əməkdaşlıq, bizim qonşu ölkələrlə apardığımız əməkdaşlıq və məsləhətləşmələr, əlbəttə, yeni nailiyyətlərə gətirib çıxaracaqdır. Ancaq biz minimum proqramı artıq həll etmişik. Əgər bunu minimum adlandırmaq mümkündürsə. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri Azərbaycanın müasir tarixində ən böyük hadisələrdir. Mən bir də demək istəyirəm ki, bütün bunlar ulu öndər Heydər Əliyevin müdrikliyi, qətiyyəti, siyasəti nəticəsində, ağır, çətin şəraitdə mümkün olmuşdur. Çox çətin coğrafi-siyasi durumda buna nail olmaq böyük nailiyyətdir və Azərbaycan xalqı qarşısında çox böyük xidmətdir.

Bütövlükdə 2006-cı ildə energetika sektorunda işlər müsbət getmişdir. 2006-cı ildə Azərbaycanda 4 yeni elektrik stansiyası tikilib istismara verilmişdir. Bu da rekord göstəricidir – bir ildə 4 stansiya. Onlar artıq səmərəli işləyir. Bu meyl 2007-ci ildə də davam edəcəkdir. Astara, Şəki, Xaçmaz, Naxçıvan modul elektrik stansiyalarının istismara verilməsi nəticəsində bu bölgələrdə enerjiyə olan tələbat artıq ödənilir və keyfiyyətli enerji verilir. Bundan sonra başqa yerlərdə tikiləcək stansiyalar da, əlbəttə, Azərbaycanın energetika kompleksini möhkəmləndirəcəkdir. Bu, iqti-

sadiyyatın əsasıdır. Biz buna çox böyük diqqət göstəririk. Enerji təhlükəsizliyi məsələləri bizim üçün də aktualdır. Gələcəkdə Azərbaycan neft və qazla yanaşı, eyni zamanda, elektrik enerjisini də ixrac edə bilər və biz bu məsələlər üzərində işləyirik.

Mən hesab edirəm ki, 2006-cı ildə bütün başqa sahələrdə də böyük nailiyyətlər əldə edilmişdir. O cümlədən ordu quruculuğu sahəsində. Biz ordumuzu, onun potensialını gücləndiririk, orduya ayrılan büdcə xərcləri artır və 2007-ci ildə 1 milyard dollar səviyyəsində olacaqdır. Bu da iki il bundan əvvəl verilmiş bəyanatın əsasında baş vermişdir. Mən iki il bundan əvvəl belə bəyanatla çıxış etdim və bu gün biz buna nail oluruq, gələcəkdə daha da böyük rəqəmlərə çatacağıq.

Eyni zamanda, 2006-cı ildə Müdafiə Sənayesi Nazirliyi yaradıldı. Bu da çox önəmli addım olmuşdur. Artıq 2007-ci il üçün Müdafiə Sənayesi Nazirliyinin formalaşması və maddi-texniki bazasının möhkəmlənməsi üçün büdcə xərcləri nəzərdə tutulubdur. Əminəm ki, 2007-ci ildə onlardan səmərəli istifadə olunacaq və Azərbaycanda güclü müdafiə sənayesi yaradılacaqdır. Sirr deyil ki, biz ordumuzun güclənməsi üçün müxtəlif yerlərdən texnika, silah-sursat alırıq, ən müasir döyüş vasitələri alırıq və alacağıq. Amma bununla bərabər, Azərbaycanda istehsal oluna bilən texnikanı biz özümüz istehsal etməliyik. Buna vəsait qoyulmalıdır. Bu sənaye inkişaf etməlidir ki, biz özümüzü təmin edə bilək və bu istiqamətdə böyük uğurlar əldə edəcəyik.

Əfsuslar olsun ki, Dağlıq Qarabağ münaqişəsinin həlli işində 2006-cı ildə praktiki nəticələr əldə edilmədi. Bunun da səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyi olmuşdur. 2006-cı ildə Ermənistan və Azərbaycan prezidentlərinin bir neçə görüşü olmuşdur. Deyə bilərəm ki, bu görüşlərin praktiki nəticəsi olmamışdır. Ermənistan tərəfi bəzi hallarda bu görüşləri pozaraq, sadəcə olaraq, görüşdən imtina etmişdir, bəzi hallarda vaxt uzatmaqla məşğul olurdu. Hər halda, həm bizim üçün, həm də bu məsələ ilə məşğul olan Minsk

qrupunun həmsədrləri üçün və bütün dünya ictimaiyyəti üçün artıq aydındır ki, bu məsələnin həllinə əsas maneə, əsas əngəl Ermənistanın, Ermənistan rəhbərliyinin qeyri-konstruktiv mövqeyi və onların qeyri-səmimi siyasətidir.

Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Biz danışıqlar prosesinə sadiqik. Danışıqları Praqa prosesi çərçivəsində aparırıq və bu format çox məqbuldur. Azərbaycanın maraqlarını, haqq-ədalətin bərpa olunmasını təmin edə biləcək formatdır. Azərbaycanın ərazi bütövlüyü müzakirə predmeti deyil, olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycan bu məsələni beynəlxalq hüquq normaları əsasında həll etməyə çalışır və artıq bütün beynəlxalq təşkilatlar bu mövqeyi dəstəkləyir. Son zamanlar beynəlxalq təşkilatlar tərəfindən, əlbəttə, Minsk qrupu və eyni zamanda, başqa təşkilatlar tərəfindən verilmiş bəyanatlar, ölkələr tərəfindən atılan addımlar bizim mövqeyimizi daha da möhkəmləndirir.

2006-cı ildə Dağlıq Qarabağda qanunsuz «referendum» keçirilmişdir. Heç bir beynəlxalq təşkilat bunu tanımamışdır. Əksinə, bütün beynəlxalq təşkilatlar və aparıcı ölkələr bunu pisləmişdir. ATƏT, ATƏT-in Minsk qrupunun həmsədrləri, Amerika, Fransa, Rusiya, Avropa İttifaqı, Avropa Şurası, Türkiyə, İslam Konfransı Təşkilatı, GUAM dövlətləri – Ukrayna, Gürcüstan, Moldova, bütün beynəlxalq təşkilatlar bunu tanımadılar. Nə üçün? Çünki etnik təmizləmə aparan, azərbaycanlıları öz doğma torpaqlarından, Dağlıq Qarabağdan qovan separatçılar indi etnik təmizləmə siyasəti nəticəsində yaranmış vəziyyətdən istifadə edib, birtərəfli şəkildə referendum keçirdilər. Heç kim buna razılıq verə bilməz, bunu heç kim tanımayacaqdır.

Dağlıq Qarabağın müstəqil ölkə kimi tanınması heç vaxt mümkün deyildir.

Ona görə bizim mövqeyimiz möhkəmlənir. Onsuz da möhkəm idi, onsuz da bəzi hallarda, əvvəlki illərdə bəzi ölkələr, beynəlxalq təşkilatlar tərəfindən ədalətsiz mövqeyi görəndə də öz yolumuzdan dönməmişdik. Bəzi hallarda bizə

təzyiqlər ediləndə də iradəmizdən dönməmişdik. Heç kim və heç nə bizi bu yoldan döndərə bilməz. Ona görə istənilən halda biz bu mövqedə qalacağıq və öz mövqeyimizi müdafiə edəcəyik. Ancaq son müddət ərzində, xüsusilə 2005-ci ildə, 2006-cı ildə məsələyə münasibətin dəyişməsinin ilkin əlamətlərini biz gördük. Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilat tərəfindən çox dəyərli qətnamə qəbul edilmişdir və ilk dəfə olaraq Ermənistanı işğalçı dövlət kimi tanımışdır. Ondan sonra gedən proseslər, Azərbaycanın diplomatik addımları, Birləşmiş Millətlər Təşkilatında bu məsələnin gündəliyə salınması, GUAM təşkilatı çərçivəsində vahid mövqedən çıxış edilməsi və postsovet məkanında separatçılıq meylləri nəticəsində baş vermiş bütün münaqişələrin bir paketə salınması nəticəsində və başqa addımlar nəticəsində bu gün biz nail ola bilmişik ki, bütün aparıcı ölkələr Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə tanıyırlar, bunu bəyan edirlər. Həmçinin beynəlxalq təşkilatlar da bunu bəyan edirlər və belə olan halda, Ermənistanın mövqeyi təbii olaraq zəiflədi.

Azərbaycanın siyasi çəkisi, iqtisadi potensialı artır. Biz dünya ilə, dünyanın aparıcı ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq edirik. Avropa üçün önəmli ölkəyə çevrilirik. Keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Bu, birinci addımdır. Ondan sonra çox güman ki, geniş saziş imzalanacaqdır. Azərbaycan qazı bu il Avropa İttifaqının bazarına çıxmalıdır və çıxacaqdır. Bütün çətinliklərə baxmayaraq, biz bu yoldan dönməyəcəyik. Yənu bu faktdır və təbii ki, bunu hamı görür. Azərbaycanın iqtisadi, siyasi çəkisi artır. Biz regionda gedən proseslərdə fəal iştirak edirik və bir çox hallarda proseslərin gedişatına təsir göstəririk. Əlbəttə, beynəlxalq təşkilatlarla bizim uğurlu əməkdaşlığımız daha da möhkəmlənəcək və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu amil də mühüm rol oynayır.

Bir sözlə, iqtisadi potensial, ordumuzun gücləndirilməsi, beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq, bizim fəallığımız, enerji təhlükəsizliyi məsələlərində Azərbaycanın fəal rolu və önəmi və başqa amillər, əlbəttə, bizim mövqelərimizi möhkəmləndirir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün gözəl şərait yaradır. Nə qədər ki, gec deyil, Ermənistan rəhbərliyi bunu başa düşməlidir, öz işğalçı siyasətindən əl çəkməlidir, işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. Belə olan halda Dağlıq Qarabağ münaqişəsi öz həllini tapa bilər.

2006-cı ildə bir önəmli hadisə də baş vermişdir. Mən onu qeyd etmək istəyirəm. 2006-cı ildə Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi üçün əməli, praktiki addımlar atılmışdır. Bilirsiniz ki, bu layihə uzun illərdir müzakirə olunurdu. Bəlkə də 10 il ərzində müzakirə olunurdu və məsləhətləşmələr gedirdi. Bunu həyata keçirmək üçün maliyyə mənbələri axtarılırdı. Sadəcə olaraq bir layihə kimi yaşayırdı. Belə layihələr çoxdur, onlar haqqında on illərlə danışıqlar aparılır, vaxtaşırı görüşlər keçirilir, amma nəticə əldə olunmur. Amma 2006-cı ildə bu işdə əməli, praktiki addımlar atılmışdır. Üç ölkə – Azərbaycan, Türkiyə və Gürcüstan bu məsələyə çox ciddi yanaşdı və deyə bilərəm ki, bunun nəticəsində 2006-cı ildə çox önəmli razılaşmalar əldə edildi. Əsas məsələlərdən biri, əlbəttə, bunun maliyyə mənbələri olmuşdur. Bu baxımdan da Azərbaycan, hesab edirəm ki, çox düzgün addım atmışdır və Gürcüstan ərazisində tikiləcək dəmir yolunun maliyyə məsələlərini öz üzərinə götürmüşdür.

Bilirsiniz ki, Amerika Konqresində ermənipərəst konqresmenlər tərəfindən bu layihəyə çox mənfi münasibət var. Bu da təbiidir. Çünki biz xatırlayırıq ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə qərar veriləndə və o tikiləndə də onlar eyni hərəkətlər etmişdilər. Hətta Bakı–Tbilisi–Ceyhan əleyhinə bir kampaniya başlanmışdı, o vaxt internet saytı da açılmışdı. Müxtəlif bəhanələrlə, xüsusilə ekoloji məsələlərin qabardılması ilə çalışırdılar ki, buna problem yaratsınlar.

Müəyyən mərhələdə buna nail oldular. Beynəlxalq maliyyə qurumları bir az tərəddüd də etdilər. Mən bunu yaxşı xatırlayıram. O vaxt bu məsələyə maliyyə ayıran təşkilatlar buna bir ara verdilər, məsələ bir neçə ay uzandı. Amma ondan sonra Azərbaycanın mövqeyi, təkidi və əlbəttə, bizimlə bərabər çalışan beynəlxalq şirkətlərin fəaliyyəti nəticəsində bütün bu çətinliklər aradan qaldırıldı. Yəni o vaxda onların, Ermənistanın və erməni lobbisinin fəaliyyəti iflasa uğramışdı. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişində də eyni hərəkətlər etmişdilər ki, nə üçün bu, Ermənistandan yan keçir. Ona görə yan keçir ki, Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir, işğalçı siyasət aparır. Belə olan halda, bizim aramızda heç bir əməkdaşlıq ola bilməz. Bütün yollar Ermənistandan yan keçəcəkdir.

Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə də onların müdaxiləsi heç bir səmərə verməyəcəkdir. Maliyyə mənbələrini biz özümüz müəyyən etmişik. Bizə heç kimdən kreditlər lazım deyil, heç kimin siyasi və maddi dəstəyi də lazım deyildir. Ermənipərəst konqresmenlər də bilməlidirlər, Azərbaycan elə ölkə deyil ki, kiminsə puluna möhtac olsun. Biz özümüz bu məsələnin həlli üçün kredit veririk, özümüz bu məsələni həll edirik və Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin və xalqlarının birliyi, iradəsi bunu da mümkün edəcəkdir.

Bu layihənin də çox böyük tarixi əhəmiyyəti var. Avropanı Asiya ilə birləşdirən, Azərbaycanı Türkiyə ilə dəmir yolu ilə birləşdirən layihə bizim həm iqtisadi, həm də siyasi gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edir. Əminəm ki, 2007-ci ildə artıq əməli, praktiki işlər, tikinti başlanacaq və qısa müddət ərzində biz Bakı–Tbilisi–Qars dəmir yolunu inşa edəcəyik. Beləliklə, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars. Mən hesab edirəm və sizə də deyirəm ki, məhz biz bunu Bakı–Tbilisi–Qars adlandırmalıyıq ki, tam şəkildə bütün coğrafi nöqtələr burada öz əksini tapsın.

2006-cı ildə çox işlər görülübdür. Bu işləri ancaq sadalamaq üçün saatlarla vaxt lazımdır. Bunu biz hamımız bilirik. Mən humanitar sahədə görülən işlər haqqında da danışmaq istəyirəm. 2006-cı ildə bu sahədə də böyük işlər görülübdür. Humanitar sahənin inkişafı üçün əməli, praktiki addımlar atılıbdır. Təhsil, səhiyyə, mədəniyyət sahələrində böyük işlər görülübdür. Ən yüksək səviyyədə, ən müasir səviyyədə 200-dən artıq məktəb tikilmiş, ən gözəl avadanlıqla təchiz olunmuşlar. Xəstəxanaların tikintisi başlanmışdır və ən qabaqcıl şirkətlərin avadanlığı da orada quraşdırılmışdır. Lənkəran xəstəxanasında açıq ürək üzərində əməliyyat keçirilmişdir. Bu da tarixi hadisədir, onu göstərir ki, biz hər şeyə qadirik. Bu onu göstərir ki, Azərbaycanda bölgələrin inkişafı, sözün əsl mənasında, sürətlə gedir. Bölgələrin inkişafı yalnız oraya yolun çəkilməsi, yaxud da hansısa müəssisənin yaradılması ilə ölçülmür. Əlbəttə, bu lazımdır və vacibdir. Eyni zamanda, insanları ən çox narahat edən, ən çox təmasda olan məsələlər də öz həllini tapmalıdır.

Hər bir ailədə uşaq var və o uşaq məktəbə gedir. Məktəbə gedəndə gərək yaxşı məktəbdə oxusun. Onun istilik sistemi də olsun, yaxşı avadanlığı, oxumaq üçün yaxşı şəraiti olsun. Müəllimlər yaxşı şəraitdə işləməlidirlər. Müəllimlər Azərbaycanda çoxdur və onların da əməyi qiymətləndirilməlidir. Onlar çox böyük işlər görürlər. Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır. Bilikli, savadlı uşaqlar, gənclər gələcəkdə Azərbaycanı idarə edəcəklər. Ona görə məktəblərdə kompüter sinifləri yaradılır, internetə qoşulur ki, uşaqlar gənc yaşlarından bunu öyrənsinlər və dünyada gedən proseslərdən xəbərdar olsunlar.

Səhiyyə, təhsil sistemlərində islahatlar əminəm ki, qısa müddət ərzində daha da sürətlə gedəcəkdir. Biz 2007-ci ildə də bu məqsədlərə kifayət qədər vəsait ayırmışıq. İndi mədəniyyət sahəsində çoxlu işlər görülür, bizim muzeylərimiz bərpa olunur, teatrlarımız bərpa olunacaqdır. 2007-ci ildə bu işlərə böyük diqqət göstəriləcəkdir.

Bir sözlə, bütövlükdə 2006-cı ilin yekunları çox müsbət olmuşdur. Deyə bilərəm ki, 2006-cı il ən uğurlu illərdən biri olmuşdur. Şübhə etmirəm ki, bu müsbət meyllər 2007-ci ildə də davam edəcək, biz səmərəli işləyəcək, Azərbaycanı daha da möhkəmləndirəcək və 2007-ci ildə qarşıda duran bütün vəzifələri yerinə yetirəcəyik.

* * *

*Müşavirədə Maliyyə naziri Samir Şərifov, İqtisadi İnkişaf naziri Heydər Babayev, Vergilər naziri Fazil Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev, Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov çıxış etdilər.*

## YEKUN NİTQİ

Beləliklə, 2006-cı ilin yekunlarının müzakirəsi bir daha onu göstərir ki, ötən il üçün nəzərdə tutulmuş bütün proqramlar yerinə yetirilibdir. Həm iqtisadi inkişaf baxımından, həm əhalinin sosial məsələlərinin həlli, həm də infrastruktur layihələrin həyata keçirilməsi baxımından, demək olar ki, 2006-cı ildə qarşıda duran bütün vəzifələr icra olunubdur.

2007-ci ildə də bizi böyük işlər gözləyir. Azərbaycanın iqtisadiyyatı 2007-ci ildə yüksək sürətlə inkişaf etməkdə davam edəcək, ilkin proqnozlara görə, ümumi daxili məhsul haradasa, 25–30 faiz artacaq, orta əməkhaqqı artacaq, minimum əməkhaqqı qaldırılacaq, adambaşına düşən ümumi daxili məhsulun həcmi kəskin şəkildə artacaq, Azərbaycanda böyük infrastruktur layihələr həyata keçiriləcəkdir. Bunları etmək üçün bütün imkanlar var, 2007-ci ilin büdcəsi təsdiq edilibdir. 2006-cı illə müqayisədə kəskin şəkildə artım nəzərdə tutulubdur. 2007-ci ildə büdcəmiz 6,5 milyard dollar təşkil edəcək və bu məbləğ bütün büdcədə nəzərdə tutulan məsələlərin həlli üçün kifayət edəcəkdir. Bunu və Azərbaycanın sürətli iqtisadi inkişafını nəzərə alaraq, əlbəttə ki, biz

2007-ci ildə ən əsas diqqəti makroiqtisadi sabitliyə yönəltməliyik. Həm neft-qaz əməliyyatlarından əldə ediləcək gəlirlər, həm də büdcə xərclərinin artırılması, əmək haqları və pensiyaların qaldırılması, əlbəttə ki, makroiqtisadi sabitliyə mənfi təsir göstərə, inflyasiyanı sürətləndirə bilər. Ona görə əsas səylərimizi bu istiqamətə yönəltməliyik. Makroiqtisadi sabitlik hər bir ölkənin iqtisadi inkişafı üçün başlıca şərtdir, xüsusilə yüksək sürətlə inkişaf edən ölkələr üçün. O ölkələrdə ki, iqtisadi artım 5–10 faiz təşkil edir, bəlkə də buna o qədər də böyük əhəmiyyət verilmir. Bizim ölkəmizdə isə iki il iqtisadi artım 26–35 faizdir və üçüncü il haradasa 30 faiz səviyyəsində olacaq, əlbəttə ki, bütün səyləri biz buna yönəltməliyik. 2006-cı ildə bu sahədə görülən işlər təqdirəlayiqdir. Bir də qeyd eləmək istəyirəm ki, inflyasiya 8,3 faiz təşkil etmişdir və bunda bütün qurumların – Milli Bankın, bütün başqa aidiyyəti qurumların rolu olmuşdur. Əminəm ki, 2007-ci ildə də bu müsbət meyllər davam edəcək və inflyasiyanı normal çərçivələrdə saxlaya biləcəyik.

Eyni zamanda, 2007-ci ildə əlavə büdcə xərclərinin artımı nəticəsində çoxsaylı layihələr həyata keçiriləcəkdir. Bu layihələr səmərəli şəkildə həyata keçirilməli, maliyyə intizamı möhkəmlənməlidir. Bizim büdcəmiz artıq çox böyük həcmdə artır, xərclər artır və əlbəttə ki, nəzarət də artmalıdır. Çünki bu olmasa, bizim qarşıya qoyduğumuz məsələlərin həlli işində problemlər yarana bilər. Ona görə bütün ayrılan xərclərdən maksimum dərəcədə səmərəli şəkildə istifadə olunmalıdır və ciddi, çoxpilləli nəzarət mexanizmi də tətbiq edilməlidir. Bu bizim üçün, Azərbaycan üçün yeni vəziyyətdir. Əvvəlki illərdə, Azərbaycanın müstəqilliyinin ilk illərində bizim əsas səylərimiz əlavə mənbələrin axtarılmasına, vəsaitin toplanmasına yönəldilmişdi.

Əlbəttə ki, bu məqsəd indi də öz aktuallığını itirməyibdir. Ancaq indi yeni vəziyyət də yaranıbdır. Bir tərəfdən, çox böyük məbləğdə olan xərcləri səmərəli idarə etmək, onların həcmini artırmaq, digər tərəfdən, onlardan səmərəli istifadə

etmək və iqtisadiyyatın ümumi meyllərinə mənfi təsirini azaltmaq lazımdır. Hər bir ölkə üçün bu, əlbəttə ki, əlavə problemlər yaradır və Azərbaycan da buna hazır olmalıdır.

Bununla bərabər, böyük planlarımız, böyük layihələrimiz var. Onlar da icra olunmalıdır. Regionların sosial-iqtisadi inkişafı proqramı davam etməlidir. Artıq bir neçə ildir ki, biz bu proqramı uğurla icra edirik və bölgələrdə vəziyyət tamamilə dəyişilmişdir. Yeni müəssisələr, fabriklər yaradılır, abadlıq işləri sürətlə gedir, ən yüksək səviyyədə infrastruktur layihələr həyata keçirilir. Biz bunu dünyada mövcud olan ən yüksək səviyyədə edirik və əlbəttə ki, bu da əlavə xərc tələb edir.

Bölgələrin inkişafı nəticəsində Azərbaycanın hərtərəfli inkişafı da təmin olunur. Qeyri-neft sektorunun inkişafı təmin edilir. Bilirsiniz ki, bu bizim üçün əsas məsələdir. Qeyri-neft sektorunun inkişafı, yerli istehsalın möhkəmlənməsi, idxaldan asılılığın azaldılması və yerli sahibkarlığın inkişafı məsələləridir. Bütün bunlar regionların inkişafı proqramı ilə birbaşa bağlı olan məsələlərdir.

Əlbəttə, dövlət tərəfindən dəstək veriləcəkdir. Bilirsiniz ki, sahibkarların fəaliyyətinin yaxşılaşması üçün dövlət tərəfindən kreditlər ayrılır, ondan səmərəli istifadə olunur. Yəqin ki, bir neçə ildən sonra artıq o kreditlərin qaytarılması prosesi başlanacaq və belə olan halda, o qaytarılan məbləğin hesabına yeni kreditlər veriləcəkdir. Mən bunu bir dəfə qeyd eləmişəm, bir də demək istəyirəm. Bu kreditlərin verilməsi kommersiya xarakteri daşımır. Məqsəd ondan ibarət deyil ki, bu kreditlərin faizindən dövlət əlavə qazanc götürsün. Məqsəd, sadəcə olaraq, sahibkarlara kömək göstərmək, yerli sahibkarları dəstəkləmək və onların ilkin kapitalının formalaşmasında iştirak etməkdir. Bu siyasət uğurla davam edir və bölgələrdə işlərin böyük əksəriyyəti məhz bunun nəticəsində görülmüşdür.

Bizim büdcəmiz və siyasətimiz sosialyönümlüdür. Azərbaycanda həm bazar iqtisadiyyatı prinsipinə sadiqlik özünü göstərir, eyni zamanda, sosial məsələlərin həllinə də böyük

diqqət yetirilir. Bizim ölkəmizin siyasətini səciyyələndirən də məhz bu amillərdir. Əgər Azərbaycanda sırf bazar iqtisadiyyatı prinsipi tətbiq olunarsa, əhalinin bir hissəsi böyük çətinliklərlə üzləşə bilər. Xüsusilə keçid dövründə yaşayan ölkələr üçün bu, adi haldır və tarixdən də biz bunu görürük. Ona görə iqtisadiyönümlü, investisiyayönümlü, bazar iqtisadiyyatı prinsiplərinə sadiq olan siyasətimiz eyni zamanda, sosial proqramlarla da tamamlanmalıdır. Bu məqsədlə də böyük işlər görülür və görüləcəkdir. Əhalinin sosial müdafiəsi məsələləri ön planda olmalıdır. Müxtəlif sosial proqramların həyata keçirilməsi, müxtəlif təşəbbüslərin başlanması bu məqsədi daşıyır. Azərbaycanda ildən-ilə minimum əməkhaqqı, minimum pensiyalar qaldırılır, orta əməkhaqqı artır. Amma hələ ki, bu bizi tam qane edə bilməz, ancaq dinamika və sürətli dinamika, əlbəttə ki, çox sevindiricidir.

2007-ci ildə də bu proses davam edəcək və daha da sürətlə gedəcəkdir, bütün müvafiq tapşırıqlar verilmişdir. Xüsusilə nəzərə alsaq ki, 2007-ci ilin əvvəlində elektrik enerjisinin qiymətlərində artım olmuşdur, biz mütləq və mütləq sosial siyasətimizi daha da sürətlə aparmalıyıq və elə etməliyik ki, əhali enerjinin qiymətinin artımından əziyyət çəkməsin. Bunu etmək üçün, əlbəttə ki, ilk növbədə maaşların artırılması nəzərdə tutulubdur. Demək istəyirəm ki, fevralın 1-dən minimum əməkhaqqını 50 manata qaldıracağıq. Nəzərə alsaq ki, 2006-cı ilin sonuna qədər Azərbaycanda minimum əməkhaqqı 30 manat idi. Bu çox böyük artımdır. Biz fevralın 1-dən bunu 50 manata çatdıracağıq və bu artım bütün insanlara şamil ediləcək, hər bir vətəndaş, hər bir ailə öz gündəlik həyatında bunu hiss edəcəkdir. Amma mən hesab edirəm ki, baxmayaraq bu çox böyük məbləğ tələb edən bir addım olacaq və xüsusilə aztəminatlı ailələrin həyat səviyyəsinin yaxşılaşması üçün çox önəmli addım olacaq, biz bununla da kifayətlənə bilmərik. Eyni zamanda, büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da fevralın 1-dən qaldırılmalıdır. Təhsil, səhiyyə, mədəniyyət,

sosial təminat, elm, idman müəssisələrində və digər sahələrdə çalışan insanların əməkhaqqı fevralın 1-dən 25 faiz qaldırılacaqdır.

Bütün bu addımlar onu göstərir ki, Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Biz imkan verə bilmərik ki, insanlar bazar iqtisadiyyatına xas olan prinsiplərin Azərbaycanda tətbiqindən əziyyət çəksinlər. Biz adada yaşamırıq. Xüsusilə son illər ərzində Azərbaycanın uğurlu iqtisadi inkişafı ona gətirib çıxarıb ki, biz artıq dünya iqtisadiyyatının bir hissəsiyik. Bizim iqtisadiyyatımız dünya iqtisadiyyatına xas olan qanunlarla idarə olunur. Başqa yol yoxdur. Bəlkə də var, amma o ölkələrdə ki, onlar həm siyasi cəhətdən, həm iqtisadi cəhətdən özlərini dünyadan təcrid ediblər. O ölkələrin uğurları müvəqqəti xarakter daşıyır və yalnız süni amillərlə tənzimlənir.

Biz isə dünya iqtisadiyyatına inteqrasiya edirik. Azərbaycan həm siyasi, iqtisadi, həm də geosiyasi cəhətdən dünya üçün çox önəmli ölkəyə çevrilir və əlbəttə ki, bazar iqtisadiyyatı prinsiplərinin Azərbaycanda tətbiqi labüddür, mümkündür və vacibdir. Ona görə bütün bu amilləri nəzərə alaraq, eyni zamanda, insanların sosial cəhətdən müdafiəsi üçün atılan addımlar da vacibdir və biz bunu edirik. Maaşların, minimum əməkhaqqının artırılması ilə yanaşı, eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, yaşa görə pensiyanın baza hissəsini də 50 manat səviyyəsinə qaldıracağıq və bu, çoxsaylı pensiyaçılar üçün böyük dəstək olacaqdır. Mən əminəm ki, biz bu sosial islahatların aparılmasını davam etdirəcəyik.

Qiymətlərin qaldırılması qaçılmaz idi. Azərbaycanda elektrik enerjisinin qiymətlərinin qaldırılması bəlkə də son ən azı 5 il ərzində geniş müzakirə olunub və bildiyiniz kimi, ötən 10 il ərzində bu qiymətlər sabit olaraq qalmışdır. Baxmayaraq ki, dünyada neftin, bütün enerji daşıyıcılarının qiyməti qalxmışdır və şübhəsiz ki, Azərbaycanda insanların həyat səviy-

yəsi də kəskin şəkildə qalxmışdır. Ona görə elektrik enerjisinin qiymətlərinin qaldırılması qaçılmaz bir məsələ idi.

Sadəcə olaraq mən hesab edirdim ki, biz ilk növbədə insanların həyat səviyyəsini yaxşılaşdırmalıyıq. O vaxt ki, Azərbaycanda əhalinin 49 faizi yoxsulluq şəraitində yaşayırdı, biz bunu edə bilməzdik. O vaxt ki, Azərbaycanda 44 faiz yoxsulluq mövcud idi, edə bilməzdik. Amma indi yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı düşübdür. Məhz bizim iqtisadi siyasətimiz nəticəsində, Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində buna nail ola bilmişik. Minimum əməkhaqqı artıq 50 manatdır, haradasa 60 dollara bərabər olacaqdır. Orta əməkhaqqı kəskin şəkildə artır. Onu da qeyd etmək istəyirəm ki, elektrik enerjisinin qiymətinin qaldırılmasından və bəzi növ yanacağın qiymətinin qaldırılmasından ölkə xəzinəsinə daxil ediləcək məbləğ təxminən 200 milyon manat, bəlkə də ondan bir az çox olacaqdır. Sosial paketin həlli üçün sadaladığım kateqoriya insanların əmək haqlarının qaldırılması üçün minimum əməkhaqqının və minimum pensiyanın qaldırılması üçün dövlət büdcəsindən haradasa 700 milyon manat vəsait ayrılması nəzərdə tutulubdur. Yəni 800 milyon dollar. Bu bir daha onu göstərir ki, elektrik enerjisinin qiymətinin qaldırılması, onun məqsədi əlavə qazanc əldə etmək deyildir. Əksinə, dövlət büdcəsinə əlavə yükdür. Çünki nəzərə alsaq ki, bu qiymətlər qalxmasaydı, bəlkə də indiki mərhələdə maaşların qaldırılmasına da ehtiyac olmazdı. Çünki bilirsiz ki, hər dəfə maaşların qaldırılması həm dövlət büdcəsi üçün əlavə yükdür, eyni zamanda, iqtisadiyyata əlavə yükdür. İqtisadi vəziyyəti gərginləşdirə, inflyasiyanı sürətləndirə bilər. Biz bütün bu amilləri nəzərə almalıyıq. Onu demək istəyirəm ki, enerjinin qiymətinin qaldırılması dövlət büdcəsinə əlavə yükdür, əlavə xərclərdir. Amma biz bunu edirik. Maksimum 200–300 milyon dolların müqabilində dövlətdən 800 milyon dollar veriləcəkdir. Ancaq kimə? Ehtiyacı olan insanlara. «Mercedes» maşını sürən, villada yaşayan, bir neçə evi olan,

mülkü olan insanlara dövlət nə üçün subsidiya verməlidir?! Qoy varlı adamların sayı artsın. Mən də bunun tərəfdarıyam və gündəlik həyatda biz bunu görürük. Azərbaycanda sahibkarlar sinfinin möhkəmlənməsi məhz bunun əlamətidir. Mən istəyirəm ki, Azərbaycanda hamı zəngin, varlı olsun, hamının imkanı geniş olsun. Qoy yaxşı pul qazanan daha da çox pul qazansın. Amma belə olan halda, dövlət maya dəyərindən aşağı qiymətə ona enerji verməməlidir. Nə üçün xarici şirkətdə işləyən, yüksək maaş alan, yaxud da ki, yerli şirkətdə yüksək maaş alan adam dövlətdən subsidiya almalıdır? Nə üçün maya dəyəri 5 qəpik olan elektrik enerjisi bu kateqoriyadan olan insanlara 2 qəpiyə satılmalıdır? Qoy onlar normal qiymət ödəsinlər və dövlət o pulu versin yoxsullara, kasıblara, ehtiyacı olanlara, sosial cəhətdən ən az müdafiə olunanlara, müəllimlərə, həkimlərə, mədəniyyət işçilərinə, bütün dövlət təşkilatlarında işləyənlərə. Bu, sosial ədalət prinsipidir. Biz bunu tətbiq edirik.

Əlbəttə, qiymətlərin artımı insanlarda müəyyən fikirlər yaradır, bu təbiidir. Ancaq hamı görəcək ki, bunun müsbət nəticələri olacaqdır. Azərbaycan vətəndaşları bundan əziyyət çəkməyəcəklər, onların maddi vəziyyəti pisləşməyəcəkdir.

Əksinə, 25 faiz maaşların qaldırılması və minimum əməkhaqqının 30 manatdan 50 manata qaldırılması bütün kommunal xərclərə veriləcək məbləği üstələyəcəkdir. Özü də nəzərə alsaq ki, açıq danışaq, bizdə elektrik enerjisinin pulunu əhalinin cəmi 50 faizi ödəyir, qalanları ödəmirlər. Mən demək istəmirəm ki, ödəməsinlər, ödəsinlər, amma bu reallıqdır. Ona görə bütün bu amillər birlikdə bir daha onu göstərir ki, atılan addım düzgün addım idi.

Bəzi müxalifət mətbuatında bunu siyasiləşdirmək, bundan siyasi dividendlər əldə etmək istəyirlər. Guya ki, Tarif Şurası heç kimdən soruşmadan bunu edibdir. Hamısı boş şeylərdir. Tarif Şurası özbaşına deyildir. Bir daha deyirəm ki, bu məsələ artıq son 5 il ərzində müzakirə edilirdi və gec-tez bu olmalı idi. Sadəcə olaraq gözləyirdik ki, insanların

maddi imkanları artsın, yaxşılaşsın, ödəniş qabiliyyəti artsın. Eyni zamanda, gözləyirdik ki, sayğaclaşma prosesi də davam etsin. Artıq sayğacların quraşdırılması başa çatır. O vaxt ki, sayğaclar yox idi, biz istəmirdik bunu edək. Eyni zamanda, gözləyirdik ki, Azərbaycanda bir müddət bundan əvvəl yaradılmış «Azəristiliktəchizat» Səhmdar Cəmiyyəti də fəaliyyətə başlasın və artıq istilik sistemini bərpa etməyə başlasın. Enerji məsələlərinə aid olan son müşavirədə o təşkilatın sədri məruzə etmişdir ki, Bakıda böyük işlər görülübdür və yüksəkmərtəbəli evlərdə istilik sisteminin bərpası prosesi sürətlə gedir. Belə olan halda, təbii ki,enerjiyə tələbat azalacaqdır. Bütün bunları biz nəzərə alırdıq. Mən hesab edirəm ki, bu qərarın qəbulunda heç bir səhvə yol verilməyib və Azərbaycan iqtisadiyyatı, Azərbaycan xalqı bunun nəticəsini görəcəkdir.

Bizim iqtisadiyyatımız sürətlə inkişaf edir. Amma enerjiyə olan süni qiymətlərlə iqtisadiyyat inkişaf edə bilməzdi. Bizim enerji sahəsindəki şirkətlər inkişaf edə bilməzdi və nəticədə nəyə gətirib çıxaracaqdı? Bəlkə bu gün, sabah yox, 5 ildən sonra enerji sektoru tamamilə dağıla bilərdi. Onda nə edəcəkdik? Biz indi bu qədər böyük vəsait ayırırıq, elektrik stansiyaları tikirik. Bundan sonra, «Bakıelektrikşəbəkə» və «Sumqayıtelektrikşəbəkə»də sağlamlaşdırma prosesi gedəndən sonra ötürücü xətlərin bərpasına böyük vəsait qoyulacaqdır. Ötürücü xətlər bərbad vəziyyətdədir. Biz stansiyaları tikirik, çox gözəl və 2007-ci ildə də tikəcəyik. Amma ötürücü xətlər olmadığına və yaxud da ki, köhnə olduğuna görə, «Barmek» şirkətinin Azərbaycanın energetika sisteminə vurduğu zərbəyə görə bəzi hallarda bunun səmərəsi olmur. Bunu etmək üçün vəsait lazımdır. Haradan o vəsait əldə olunacaqdır? Bütün şirkətlər sağlamlaşmalıdır. Süni şəkildə yaranmış bütün problemlər aradan qaldırılmalıdır. Ödəmələr problemi Azərbaycanda 15 ildir ki, mövcuddur. Biri buna borcludur, o biri ona borcludur, nəticədə belə bir zəncirvari vəziyyət yaranır ki, hamı hamıya borcludur. Elə bil

ki, hamı da zərərlə işləyir. Buna son qoyulmalıdır. Ona görə bu qərar düzgündür, eyni zamanda, bu qərar insanların sosial müdafiəsini təmin edir. Maaşların qaldırılması, minimum əməkhaqqının, minimum pensiyanın qaldırılması kommunal xərclərə ödəniləcək məbləği artıqlaması ilə təmin edəcək və ondan da çox olacaqdır.

Nəzərə alsaq ki, gələcək illərdə maaşlar, pensiyalar yenə qalxacaq, əminəm ki, bu qərarın ciddi təsiri olmayacaqdır.

O ki qaldı bundan sui-istifadə etmək istəyənlərə, onların, bütövlükdə müxalifətin siyasəti Azərbaycanda iflasa uğrayıb və bu, artıq ictimai-siyasi həyatın amili deyildir. Yəni müxalifətin mövcudluğu bütövlükdə sual altındadır və bunun səbəbkarları biz deyilik. Bunun səbəbkarları özünü müxalifət adlandıran partiyaların naftalin qoxusu gələn liderləridir. Onlar 15 ildir bu partiyaların başında duraraq faktiki olaraq, o partiyaların inkişafına imkan vermirlər. Öz siyasi ambisiyalarını təmin etmək üçün. Halbuki, o ambisiyalardan da bir şey qalmayıbdır. Onların Azərbaycan xalqına etdiyi «xidmətlər» hamıya bəllidir. Son prezident və parlament seçkilərindən sonra, ümumiyyətcə, onlar kabinetdən çıxmırlar. İndi onlar guya ki, xalqın qeydinə qalırlar. Xalqı hərəkətə çağırırlar və xalqı da günahlandırırlar. Gör bunlarda vicdansızlıq hissləri nə qədər güclüdür ki, xalqı günahlandırırlar ki, onları dəstəkləmir, yaxud da Azərbaycan iqtidarı əleyhinə hərəkət etmir. Özlərinin bütün günahlarını, eybəcərliklərini xalqın üstünə yıxmaq istəyirlər ki, xalq passivdir. Azərbaycanda xalq passiv deyildir. Bütün bu görülən işlər Azərbaycan xalqının nailiyyətləridir. Son illər ərzindəki bütün uğurlar, nailiyyətlər, Azərbaycanın uğurlu inkişafı, bölgədəki mövqelərinin möhkəmlənməsi, iqtisadi potensialının güclənməsi, siyasi proseslərin müsbət istiqamətdə inkişaf etməsi – bütün bunların təməlində xalqın iradəsi dayanır. Əgər bu olmasaydı, hansı məsələni biz həll edə bilərdik? Əgər xalqın dəstəyi olmasaydı, biz hansı proqramı həyata keçirə bilərdik? Ona görə Azərbaycan xalqını tənbeh etmək,

yaxud da ki, günahlandırmaq, ona irad tutmaq heç kimə şərəf gətirməz. Ona görə onların indiki uğursuz cəhdləri də elə uğursuz oldu. Faktiki olaraq bəzi hallarda onlara yazığım da gəlir. Çünki bilirsiniz, Azərbaycanın uğurları hər bir vətənpərvər insanı sevindirir və sevindirməlidir. Hər bir azərbaycanlı fəxr edir ki, azərbaycanlıdır, fəxr edir ki, Azərbaycan vətəndaşıdır. Bu gün Azərbaycan dünyada ən yüksək sürətlə inkişaf edir. Bunu görəndə hər bir azərbaycanlının ürəyi sevinir. Ancaq bu kateqoriya insanlar buna sevinmirlər. Əksinə, qeyd etdiyim kimi, bir məqamda Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisində yubanma oldu, sevinməyə başlamışdılar. Kim sevinirdi buna? Ermənistan, erməni lobbisi, bir də bizim müxalifət. Çox canfəşanlıqla öz qəzetlərində, müsahibələrində bildirirdilər ki, nəhayət, Bakı–Tbilisi–Ceyhan dayandı, deməli, iqtidar iflasa uğradı. Axı bu, iqtidarın layihəsi deyil, Azərbaycan xalqının layihəsidir və Azərbaycan xalqı bunun səmərəsini görür. Bizim 6,5 milyard səviyyəsində büdcəmiz haradan qaynaqlanır? Bundan qaynaqlanır, neft strategiyasından, neftdən əldə edilən gəlirlərdən, Neft Fondunda yığılan vəsaitlərdən, Neft Fondundan transfertlərdən. Bu məsələ onları açmır. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də onları açmır. İndi «Şahdəniz» qaz yatağında bir quyuda qəza baş verdi, onu bərpa etməyə çalışdılar, alınmadı. Hələ ki orada bərpa işləri aparılır. Sevinirlər buna. Axı bu qaz ucuz qiymətə Azərbaycan xalqına veriləcək, Azərbaycan tərəfindən satılacaq Avropaya, Avropa İttifaqına. Azərbaycanın mövqeləri, siyasi dayaqları möhkəmlənəcəkdir. Bu, Qarabağ məsələsinin həlli üçün çox önəmli bir addım olacaqdır. Yəni bunu görməmək mümkündürmü? Ona görə mən deyirəm ki, bu insanlar elə bil özləri tərəfindən yaradılmış dünyada yaşayırlar. Azərbaycandadırlar, eyni zamanda, Azərbaycanda deyillər. Çünki hər bir uğurumuza onlar məyus olurlar.

Körpü tikilir, sevinirlər, yazırlar ki, körpü dağıldı, uçdu. Bu, bir tərəfdən, yalan – biz onların yalanlarına öyrəşmişik, xalq da

buna öyrəşib – digər tərəfdən, onların niyyətidir. Yəni istəyirlər ki, körpü uçsun, dağılsın. Axı öz millətinə, öz torpağına belə düşməncəsinə münasibət heç cür qəbul edilmir və belə hallar çoxdur. Sadəcə olaraq, istəmirəm onların haqqında danışmaqla vaxtınızı alım. Amma məcburam, çünki bizim qərarımızın düzgün olması artıq hamı üçün bəllidir. Ancaq onlar bundan sui-istifadə etmək və özləri üçün bir fürsət əldə etmək istəyirlər ki, hə, indi qiymət qaldırıldı, xalq narazı olacaq, gəlin düşək meydanlara. Düşün meydanlara, haradasız siz? Yoxdurlar! Kabinetdən çıxmırlar. Hansı üzlə xalqa müraciət edəcəklər? Ancaq seçkilərdən seçkilərə! 2003-cü ildə prezident seçkiləri ərəfəsində çıxmışdılar bölgələrə, mitinqlər edirdilər. 2005-ci ildə parlament seçkilərinə bir ay qalmış çıxmışdılar, özlərini tərif etmək üçün. Yaxşı, haradadırlar, 2005-ci ildən iki il keçir. Bir dəfə hansısa bölgədə olublar? Bir dəfə hansısa vətəndaşın problemi ilə məşğul olublar, kömək ediblər? Yox! Ancaq gözləyirlər ki, Azərbaycanda nəsə olacaq ki, bundan fayda götürsünlər. Ay, Azərbaycanın münasibətləri filan ölkə ilə korlandı, o ölkə ilə korlandı, bu ölkə Azərbaycanı dəstəkləmir. Onların fikri özlərinə getməsin. Mən heç vaxt imkan verə bilmərəm ki, Azərbaycan, müstəqil dövlət hansısa başqa ölkənin dəstəyindən asılı olsun. Yenə deyirəm, onların fikri özlərinə getməsin, vaxtilə demişdilər ki, bizim hakimiyyətə gəlməyimiz 11 ölkədə razılaşdırılıb. Onun nəticəsi idi ki, Azərbaycan böhrana düşdü, faktiki olaraq parçalanma ərəfəsində idi və parçalanırdı. Heydər Əliyev onların xahişi, yalvar-yaxarı ilə Azərbaycana rəhbərliyə gəlməsəydi, ölürdülər, boğulurdular. Neçə dəfə Naxçıvana təyyarə göndərmişdilər ki, Heydər Əliyev, gəl bizi qurtar, öldürürlər bizi. Məhz 11 ölkənin dəstəyi ilə hakimiyyətə gələn o insanların fəaliyyəti nəticəsində belə olmuşdu.

Biz heç bir ölkədən dəstək istəmirik, heç bir ölkədən asılı deyilik və bizim siyasətimiz onu göstərir ki, Azərbaycan müstəqil ölkədir, müstəqil dövlətdir. Bütün ölkələrlə, o cümlədən böyük dövlətlərlə, qonşu ölkələrlə qarşılıqlı hörmət,

qarşılıqlı maraq çərçivəsində və əsasında münasibətlərimizi qururuq. Bundan başqa heç bir münasibətlər ola bilməz. Sadəcə, fikrimi söyləmək istəyirəm, öz xalqına nə dərəcədə hörmətsizlik edəsən ki, Azərbaycan xalqı haqqında belə fikirdə olasan.

Bir də demək istəyirəm ki, sosial paketin tətbiqindən sonra Azərbaycanda insanların vəziyyəti daha da yaxşılaşacaqdır. Biz çalışmalıyıq ki, maksimum dərəcədə bütün imkanlardan istifadə edək ki, Azərbaycanda yaranan sahibkarlar sinfi daha da möhkəmlənsin, orta təbəqə inkişaf etsin, yoxsulluğun səviyyəsi aşağı düşsün. Məni çox sevindirir ki, artıq Azərbaycanda yoxsulluq 20 faiz səviyyəsinə enibdir. Əminəm ki, 2007-ci ildə görüləcək tədbirlər nəticəsində daha da kəskin şəkildə enəcəkdir.

Bununla bərabər, hesab edirəm ki, kənd təsərrüfatında çalışan insanları da biz dəstəkləməliyik. Azərbaycan əhalisinin, demək olar, yarısı kənd təsərrüfatı ilə məşğuldur, bölgələrdə yaşayır. Kənd təsərrüfatının inkişafı üçün əlavə tədbirlər görməliyik, onu dəstəkləməliyik. Bu məqsədlə kənd təsərrüfatına təxminən 80 milyon manat həcmində subsidiya veriləcəkdir ki, kəndlilər gübrə, yanacaq ala bilsinlər və elektrik enerjisinin qiymətindən əziyyət çəkməsinlər. Bütövlükdə, gələcəkdə bu sahəyə biz daha böyük dəstək verməliyik. Biz son illər ərzində müəyyən işlər görmüşük, «Aqrolizinq» yaratmışıq və onun xətti ilə Azərbaycana texnika gətirilir. İndi inkişafın yeni mərhələsi başlayır, biz artıq Azərbaycanda kənd təsərrüfatı texnikasının istehsalı üçün əməli, praktiki tədbirlər görmüşük. Yəqin ki, bu yaxınlarda Azərbaycanda traktorlar istehsal olunmağa başlayacaqdır. Yəni «Aqrolizinq»in yaradılması kənd təsərrüfatına dəstək verir.

Amma bu, kifayət deyil, mən hesab edirəm ki, birbaşa subsidiyalar verilməlidir. Kənd təsərrüfatı ilə məşğul olan insanlara Sahibkarlığa Kömək Milli Fondu xətti ilə kreditlər verilməlidir. Onsuz da onların böyük hissəsi bölgələrə, kənd

təsərrüfatı ilə məşğul olan şirkətlərə verilir. Bu proses davam etməlidir.

Eyni zamanda, 2007-ci ildə çalışmalıyıq ki, Azərbaycana investisiyaları daha da böyük həcmdə cəlb edək ki, iri emal müəssisələri yaradılsın. Məsələn, 2006-cı ildə İmişlidə böyük şəkər zavodu tikilmişdir. Deyə bilərəm ki, MDB məkanında analoqu olmayan bir müəssisədir. Bəlkə də bu bölgədə ən müasir, ən qabaqcıl sənaye müəssisəsidir və ondan on minlərlə insan fayda götürür. İndi Azərbaycanda çuğundur əkini çox geniş vüsət alıbdır və onu da deyə bilərəm ki, kənd təsərrüfatında mövcud olan artımın müəyyən hissəsi, əhəmiyyətli hissəsi məhz çuğundur istehsalının inkişafı hesabına baş verir. Ona görə kənd təsərrüfatına veriləcək dəstək, əminəm ki, kəndlərdə yaşayan insanların da həyat səviyyəsini yaxşılaşdıracaqdır.

İstəyirəm qiymətlərlə bağlı bir məsələni də qeyd edim. Meyllər ola bilər. Belə məlumatlar gəlir ki, bazarlarda istehlak mallarının qiyməti süni şəkildə artırılır. Halbuki, onların enerji qiymətləri ilə birbaşa əlaqəsi ola bilməz. Çünki biz qiyməti, sadəcə olaraq, bir-iki həftə bundan əvvəl qaldırmışıq. Necə ola bilər indidən qiymət qalxır? İkincisi, İqtisadi İnkişaf naziri qeyd elədi və təhlil də onu göstərmişdir ki, istehlak mallarının qiymətində elektrik enerjisinin payı çox cüzi faiz təşkil edir. Ona görə bazarda bəzi natəmiz adamlar, möhtəkirlər tərəfindən qiymətlərin süni şəkildə qaldırılması təxribatdır və bunu biz təxribat kimi qiymətləndirməliyik. Təbii ki, dünyada neftin qiymətinin artımı nəticəsində və başqa qida məhsullarının, xaricdən gətirilən qida məhsullarının qiymət artımı nəticəsində istər-istəməz qiymətlər qalxır. Bu, təbii prosesdir, hər bir ölkədə var.

Amma bir var təbii proses, bir də var ki, süni şəkildə kimsə bu vəziyyətdən istifadə etmək, əlavə qazanc əldə etmək istəyir. Buna, mən bir daha demək istəyirəm, təxribat kimi baxmalıyıq və bunu edən adamlara qarşı ən ciddi tədbirlər görülməlidir. Onlar cəzalandırılmalıdırlar ki, bu vəziy-

yətdən Azərbaycan xalqının əleyhinə heç kim istifadə etməsin. Məsələ ilə çox ciddi məşğul olun. Yarmarkalar da özünü doğrultdu. Bu da çox gözəl təşəbbüs olmuşdur. Yarmarkalar davam edir və insanlar orada məqbul qiymətlərlə məhsul alırlar.

2007-ci ildə energetika sektoruna yenə də böyük diqqət göstərməliyik. Nəzərdə tutulmuş proqramlar icra olunacaq, yanvar ayında yəqin ki, Bakıda yeni modul stansiyanın tikintisi başa çatacaqdır. Ondan sonra Sumqayıt şəhərində 500 meqavat gücündə olan elektrik stansiyasının tikintisi başa çatmalıdır. Eyni zamanda, «Şimal-2» elektrik stansiyasında artıq işlər başlanmalıdır. Mingəçevirdə yenidənqurma, bərpa işləri aparılır. Bir sözlə, 2007-ci ildə enerji təhlükəsizliyi baxımından biz öz mövqelərimizi daha da möhkəmləndirəcəyik. Yenə də qeyd etmək istəyirəm ki, gələcəkdə ola bilər biz elektrik enerjisinin ixracı ilə də məşğul olaq. Amma ilk növbədə, öz tələbatımızı, artan tələbatı ödəməliyik. Çünki biz stansiyaları ona görə tikirik ki, Azərbaycan iqtisadiyyatı bunu tələb edir. Əhali artır, həyat səviyyəsi yaxşılaşır, çoxlu fərdi tikintilər aparılır, müəssisələr açılır. 3 il ərzində 520 min yeni iş yeri açılıbdır. Bu iş yerləri müəssisə, fabrik deməkdir. Onun, əlbəttə ki, əlavə enerjiyə tələbatı var. Ona görə elektrik stansiyalarının tikintisi davam edəcək, ötürücü xətlərə sox ciddi diqqət verilməlidir. «Barmek»dən qalan, yararsız vəziyyətdə olan, dağıdılmış bütün o təsərrüfata yenidən baxılmalıdır. Qeyd olundu, Prezident fondundan vəsait də ayrılıbdır. İndi şəbəkələrin öz vəsaiti olacaqdır və qısa müddət ərzində bu işləri görməliyik.

Azərbaycan Dövlət Neft Şirkəti 2007-ci ildə öz vəzifələrini bilir. Mən onlara göstəriş vermişəm və bunu icra etməyə başlayıblar. İlk və əsas səyləri qaz hasilatının artırılmasına yönəltməliyik. Əlbəttə ki, Dövlət Neft Şirkətinin neft hasilatı da artır. Ancaq nəzərə alsaq ki, artıq «Azəri», «Çıraq», «Günəşli» yataqlarından böyük həcmdə neft alırıq, ən əsas diqqəti qazın hasilatına yönəltməliyik. Qaz indi ener-

ji təhlükəsizliyinin əsas komponentidir və biz elə etməliyik ki, özümüzü qazla tam şəkildə təmin edək. Bilirsiniz ki, Rusiya tərəfindən təklif edilən qiymətə biz razı olmadıq. 230 dollar çox yüksək qiymətdir və biz, əlbəttə ki, bundan imtina etdik. Biz gözləyirdik ki, danışıqlar əsnasında «Qazprom» tərəfindən verilən yeni təklif daha aşağı olacaq, əfsuslar olsun ki, əksinə, daha da artdı – 235 dollar. Bu, ümumiyyətlə, başa düşülən addım deyildir. Onlar bununla nə demək istəyirdilər, biz bunu başa düşmədik. Amma öz tədbirlərimizi gördük, öz siyasətimizi apardıq. Bir daha göstərdik ki, heç kimdən asılı deyilik. Rusiyadan gələn qazsız yaşamışıq, yaşayaq. Ona görə ilk növbədə, öz qazımızın hasilatını artırmalıyıq və artırırıq. Artıq Neft Şirkəti bu il öz hasilatını artırıbdır. Gələn il əsaslı vəsait qoyulacaqdır.

Eyni zamanda, «Azəri», «Çıraq»dan çıxarılan səmt qazını tam şəkildə biz götürməliyik və bu məsələ ilə əlaqədar *bp* ilə və konsorsiumla danışıqlar gedir. «Şahdəniz» yatağından çıxarılacaq qazı da gözləyirik. Əfsuslar olsun ki, orada qəza baş veribdir. Ancaq belə hadisələr neft sənayesində olur. Hər halda, Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən hasil edilən neftin Rusiyaya, Novorossiysk limanına nəqlinin dayandırılması, o neftin emal zavodlarına ötürülməsi və mazuta çevrilməsi, eyni zamanda, qaz hasilatını artırmağımız – bütün bu amillər göstərir ki, biz o çətin vəziyyətdən çıxış yolunu tapa bilmişik. Mən nə üçün çətin vəziyyət deyirəm, çünki bizim «Qazprom» ilə uzunmüddətli müqaviləmiz vardı. Əgər birillik müqavilə imzalansaydı, o vaxt biz vəziyyətin istənilən şəkildə dəyişməsinə hazır ola bilərdik. Ancaq biz beynəlxalq, nüfuzlu, böyük şirkətlə – «Qazprom»la beşillik müqavilə imzalamışdıq. Əlbəttə, biz hesab edirdik ki, özünə hörmət edən hər bir şirkət beynəlxalq öhdəliklərini yerinə yetirməlidir. Biz heç ağlımıza gətirə bilməzdik ki, birtərəfli şəkildə o müqavilədən imtina olunacaq və Azərbaycana onu qane etməyən, heç bir məntiqə sığmayan və başqa MDB ölkələrinə verilən qiymətdən qat-qat üstün

qiymət elan olunacaqdır. Biz bunu gözləmirdik. Ona görə vəziyyət bir qədər çətinləşmişdi. Ancaq qısa müddət ərzində, operativ şəkildə buna baxdıq, bütün tədbirləri gördük. Artıq yanvar ayının sonudur, heç kəs də hiss etmir ki, Rusiyadan 4,5 milyard qaz gəlmir. Bir daha sübut elədik, bir daha göstərdik ki, heç kimin qarşısında baş əyən deyilik, əyilən deyilik, biz dövlətik, suveren dövlətik, ancaq qarşılıqlı maraq əsasında istənilən tərəflə əməkdaşlığımızı davam etdirə bilərik.

2007-ci ildə sənaye proqramlarının icrası başlanmalıdır. Mən bilirəm ki, hazırlıq işləri görülübdür. Həm Sənaye və Energetika Nazirliyi tərəfindən təkliflər hazırlanıbdır və indi Nazirlər Kabinetində baxılır, həm də İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanıbdır. 2007-ci ildə Dövlət İnvestisiya Şirkətinin əməli, praktiki fəaliyyəti başlanmalıdır. Yəni bəzi layihələrin hazırlıq işləri ilin birinci rübündə başa çatmalıdır və artıq praktiki tikintilər başlanmalıdır. Biz böyük layihələrdən danışırıq, onların tikintisi minimum iki il vaxt aparacaqdır. Ona görə yubanmaq olmaz, nəzərə alsaq ki, vəsaitimiz də var, qısa müddət ərzində başlamalıyıq. Büdcədən vəsait keçən il də ayrılmışdır, bu il də nəzərdə tutulub, sadəcə olaraq, bu vəsaitdən səmərəli istifadə etmək lazımdır.

Nəqliyyat sektorunda 2007-ci ildə böyük işlər görüləcəkdir. Lənkəran və Zaqatala şəhərlərində yeni aeroportlar tikiləcəkdir, magistral yolların tikintisi gedir. Şəhərlərarası yolların, Bakı dairəvi yolunun tikintisi başlanmışdır. Kənd yollarının tikintisi davam etməlidir, Bakıda körpülərin tikintisi davam edir. Mənə Nəqliyyat naziri tərəfindən verilən məlumata görə, biz nəzərdə tutduğumuz tikintilərdən başqa, yeni körpülər və yolötürücüləri tikməliyik. İndi bu, 9 yerdə nəzərdə tutulub, gələcəkdə yəqin ki, başqa yerlərdə də olmalıdır.

Elə etməliyik ki, tam şəkildə Bakının nəqliyyat problemini həll edək, insanların canını tıxaclardan qurtaraq. Bu məsələ təkcə körpülərin, yolötürücülərinin tikintisi ilə məh-

dudlaşmır. Bütövlükdə Bakının nəqliyyat sistemi yeniləşməlidir, ən müasir səviyyəyə çatmalıdır. Nəqliyyat naziri müxtəlif ölkələrdə olmuşdur. Bu yaxınlarda Koreyada olmuş, onların təcrübəsi ilə maraqlanmışdır. Biz ən müasir sistemi burada tətbiq etməliyik. Yeni yollar, yolötürücüləri, işıqforlar, nəzarət sistemi, tənzimləmə sistemi, şəhər nəqliyyatı sisteminin tənzimlənməsi – bütün bunlar vahid bir mexanizmdir. Əgər biz sadəcə, yolları, körpüləri tiksək, bu, məsələnin həlli deyildir. Ona görə biz bu məsələyə əsaslı yanaşmalıyıq və dünyada mövcud olan ən müsbət praktikanı Azərbaycanda tətbiq eləməliyik. 2007-ci ildə bu işlər başlanmalıdır.

Digər sahələrdə də 2007-ci ildə böyük işlər görüləcəkdir. Bir daha qeyd etmək istəyirəm ki, qeyri-neft sektorunun inkişafına diqqət azalmamalıdır və azalmır. Əlbəttə ki, 2007-ci ildə iqtisadiyyatın ümumi çəkisində qeyri-neft sektorunun həcmi istər-istəməz azalacaqdır. Ona görə ki, neft, qaz hasilatının artımı gözlənilir. Biz qeyri-neft sektorunu nə qədər inkişaf etdirsək, yenə də ona çata bilməz. Çünki Azərbaycanda gələn il təxminən 45–50 milyon ton neft hasilatı gözlənilir və iqtisadiyyatımızın ümumi göstəricilərinə baxanda, əlbəttə, görəcəyik ki, qeyri-neft sektorunun payı aşağı düşübdür. Ancaq həcmi artacaq və kəskin şəkildə artmalıdır. Neft gəlirlərindən elə səmərəli istifadə etməliyik ki, qeyri-neft sektoru daha da çiçəklənsin. Bu meyl artıq var və növbəti illərdə daha da sürətlə davam edəcəkdir.

2007-ci ildə ekoloji proqramlar həyata keçiriləcəkdir. Keçən il biz geniş ekoloji proqram qəbul etdik. Orada bütün vəzifələr öz əksini tapıbdır. Maliyyə mənbələri də mövcuddur. Sadəcə olaraq qısa müddət ərzində ekoloji vəziyyətin yaxşılaşması istiqamətində işlər görülməlidir. Xüsusilə Bakıda və Abşeron yarımadasında. Çünki ən ağır ekoloji vəziyyət məhz buradadır. Azərbaycanın bölgələrində ekoloji vəziyyət çox yaxşıdır. Siz də, hamımız bölgələrdə olanda görürük ki, oranın havası da təmizdir, adam rahat nəfəs alır. Amma

Bakıya qayıdanda görürük ki, havası ağırdır. Bu da təbiidir. Çünki böyük şəhərdir, həm neft-qaz mədənləri, həm tıxaclar, maşınların sayının artması havanı korlayır. Ona görə ilk və əsas diqqət Bakı və Abşerona yönəldilməlidir və biz burada nə lazımdırsa onu da etməliyik. Heç bir vəsaitin ayrılmasında məhdudiyyət olmamalıdır, əksinə, mən sizə deyirəm və tələb edirəm ki, ekoloji vəziyyətin sürətlə, maksimum dərəcədə yaxşılaşması üçün tədbirlər görün.

Bununla bərabər, Bakını içməli su ilə təmin etmək üçün 2007-ci ildə Oğuz–Qəbələ–Bakı su kəməri tikilməyə başlanacaqdır. Bu da çox böyük infrastruktur layihədir, böyük sosial layihədir. Çünki bu kəmərin tikintisinə sərf olunan vəsait heç vaxt büdcəyə qayıtmayacaqdır. Heç vaxt! Sadəcə olaraq bu bizim borcumuzdur ki, Bakı sakinləri içməli su ilə təmin olunsunlar, fasilələr aradan götürülsün. Bu çox təmiz sudur və onun kimyəvi analizi də keçirilmişdir.

İnsanın sağlamlığı üçün çox yararlı sudur. 2007-ci ildə tikintiyə başlayırıq və 2008-ci ildə tamamlamalıyıq. Mən dekabr ayında Sumqayıtda borular istehsal edən zavodda da olmuşam, görmüşəm, çox böyük nəhəng müəssisədir. Ancaq yenə də deyirəm, biz bunu, sadəcə olaraq insanların sosial problemlərinin həlli üçün, içməli su ilə təmin etmək üçün nəzərdə tutmuşduq. Amma çox yaxşı ki, bizim iş adamlarımız bunu görərək dərhal gözəl müəssisə yaradıblar və mənə verilən məlumata görə dərhal 15 milyon dollar vəsait qoyublar. İndi Azərbaycanda plastik borular istehsal olunur və pul Azərbaycandan getməyəcək, yerli istehsal bundan fayda götürəcəkdir. Gələcəkdə buna bənzər başqa layihələr də olacaq, o müəssisə yaşayacaq, başqa ölkələrdə iş görəcəkdir. Yəni baxın, Azərbaycanda bizim bu layihəmizin nəticəsi olan artıq yeni istehsal sahəsi yaradılır.

Bununla bərabər, Samur–Abşeron kanalının tikintisi davam etməlidir, Taxtakörpü su anbarının tikintisi yəqin ki, başlanmalıdır. Bunun Azərbaycanın su ehtiyatlarının səmərəli istifadəsində çox mühüm rolu vardır. Bu layihə də böyük vəsait

tələb edir. Bir hissəsini biz öz hesabımıza edirik, bir hissəsini kreditlər hesabına. Ancaq onu da demək istəyirəm ki, bu vəsait də qayıtmayacaqdır. Körpülərə, yolların salınmasına ayrılan vəsait də qayıtmayacaqdır. Yəni bütün bunları biz edirik ki, Azərbaycan vətəndaşları rahat yaşasınlar, onların bütün tələbatları ödənilsin və Azərbaycanda yaradılan infrastruktur dünyanın ən yüksək standartlarına cavab versin.

2007-ci ildə mədəniyyət sahəsində çox böyük işlər görüləcəkdir. Verilən göstərişlərə əsasən, bir sıra mədəniyyət ocaqlarının yenidən qurulması, təmiri, tikintisi nəzərdə tutulur. Güman edirəm ki, 2007-ci ildə Tarix və Ədəbiyyat muzeylərinin təmir-bərpa işləri ən yüksək səviyyədə başa çatacaqdır. Eyni zamanda, İncəsənət muzeyində, Muzey mərkəzində təmir işləri başlanacaqdır. İstiqlal muzeyi yaradılması haqqında mən sərəncam imzalamışam. Artıq variantın ilkin təklifləri verilməlidir. Azərbaycanda Xalça muzeyi tikiləcəkdir. Bu vaxta qədər olmamışdır. Bizim Xalça muzeyimiz Muzey Mərkəzində, keçmiş Lenin Muzeyində yerləşir. Mən ora gedəndə çox ürəkağrısı ilə baxırdım, çünki bizim milli sərvətimiz olan xalçalar çox pis vəziyyətdə saxlanılır. Ona görə qərar qəbul edilmişdir ki, Muğam Mərkəzi ilə üzbəüz, Bakının gözəl yerində ən müasir, gözəl Xalça muzeyi tikilsin. Onun ilkin layihəsi hazırdır, 2007-ci ildə işlər başlanmalıdır. Teatrların bərpası nəzərdə tutulubdur. Bizim teatrlarımızda da çoxdandır ki, təmir işləri aparılmır, aparılsa da, aşağı səviyyədə idi. Mən istəyirəm ki, teatrlarımız ən yüksək səviyyədə olsun. Bu məqsədlə Azərbaycan Dövlət Dram Teatrı, Opera və Balet Teatrı, Heydər Əliyev adına Saray, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Kukla Teatrı ən yüksək səviyyədə təmir olunacaqdır. Uzun illər fəaliyyətsiz qalan Yaşıl Teatr da 2007-ci ildə öz fəaliyyətini bərpa edəcəkdir. Mən keçən il vəziyyətlə tanış oldum, müvafiq göstərişlər verdim, indi orada təmir-bərpa işləri aparılır. Uzun illər bakılıların ən sevimli yerlərindən biri olan Yaşıl Teatr yararsız vəziyyətdə idi. Biz gərək onu ən yüksək səviyyədə,

faktiki olaraq, yenidən yaradaq və yay mövsümünə qədər bu teatr işə başlamalıdır.

İdman sahəsində yeni komplekslərin tikintisi davam edəcəkdir. 2007-ci ildə 17 rayonda idman kompleksinin tikintisi aparılmalıdır. Eyni zamanda, Heydər Əliyev adına İdman-Konsert Kompleksində ən yüksək səviyyədə təmir-bərpa işlərinə başlanıb, ilin ortalarında başa çatacaqdır. Biz bu il, nəhayət ki, Mingəçevir avarçəkmə bazasının bərpasına da başlayırıq.

Əlbəttə ki, bunlar görüləcək işlərin çox cüzi bir hissəsidir. Nə qədər məktəb, xəstəxana tikiləcəkdir. Məktəb tikintisi, bütün bölgələrdə Neft Şirkəti tərəfindən müasir xəstəxanaların tikintisi davam edəcəkdir. Bütün bunları, görülən və görüləcək işləri sadalamaq üçün yenə də deyirəm, bəlkə saatlarla vaxt lazımdır. Başlıca məsələ ondan ibarətdir ki, bütün bunların əsasında düşünülmüş hesablamalar, proqramlar var, vəsait mənbəyi var. Sadəcə olaraq sizdən asılıdır ki, bunları vaxtlı-vaxtında, yüksək səviyyədə təmin edəsiniz və 2007-ci ildə qarşımıza qoyduğumuz bütün vəzifələr həyatda öz əksini tapmalıdır. Mən əminəm ki, 2007-ci ildə Azərbaycanın iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək, siyasi proseslər müsbət istiqamətdə davam edəcəkdir. Azərbaycan dünyadakı mövqelərini möhkəmləndirəcək və Azərbaycan xalqı yaxşı, firavan yaşayacaqdır. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN «LE MONDE DİPLOMATİQUE» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

*Azərbaycan Respublikasının Prezident İlham Əliyev yanvarın 22-də Fransanın «Le Monde Diplomatique» qəzetinin müxbiri Sebastyen Bottariyə müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Fransa ikitərəfli münasibətləri, ümummilli lider Heydər Əliyevin müasir, müstəqil Azərbaycan dövlətinin yaranmasında xüsusi rolu, regional məsələlər, xarici ölkələrin, o cümlədən fransalı iş adamlarının fəaliyyəti üçün respublikamızda yaradılmış şərait, Azərbaycanın iqtisadi əlaqələri, ölkəmizin əldə etdiyi böyük iqtisadi uğurlar və digər məsələlər barədə suallara cavab verdi.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA PACAPAKSEYƏ**

Hörmətli cənab Prezident!

Şri-Lankanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvar olduğumu bildirirəm ki, ölkələrimiz arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 yanvar 2007-ci il*

## FRANSANIN «FİQARO» QƏZETİNƏ MÜSAHİBƏ

*23 yanvar 2007-ci il*

**– İcazənizlə, söhbətimizə neft və qaz məsələsindən başlayım və belə bir sual verim: Ötən yay Bakı–Tbilisi–Ceyhan boru kəmərinin istismara verildiyini və bu il qaz boru kəmərinin işə düşməsini nəzərə alaraq Sizin fikrinizcə neft və qaz idxalında mənbələrin müxtəlifləşdirilməsində Azərbaycan Avropaya hansı köməyi göstərə bilər?**

– Neft və qaz layihələrimizi başladığımız zaman biz, əlbəttə ki, Avropa bazarlarındakı enerji məsələsi ilə bağlı bu cür vəziyyətin yaranacağını bilmirdik. Buna görə də artıq çəkilmiş neft və qaz boru kəmərləri nəinki bizim öz tələbatlarımızın, həm də dünya bazarlarına etibarlı çıxışın təmin edilməsinə yönəlibdir. Çünki əvvəllər Azərbaycanın dünya bazarlarına birbaşa çıxışı olmayıb və bu boru kəmərinin tikintisi zəruri xarakter almışdır. Neft və qaz boru kəmərləri artıq çəkilibdir. Bakıdan Ceyhana çəkilmiş boru kəməri istifadə olunur və onunla nəql edilən neftin həcmi artmaqdadır. Bu il biz gündə təqribən bir milyon barel neft hasil edəcəyik. Türkiyəyə və oradan Yunanıstan vasitəsilə Avropaya çıxışı təmin edən qaz boru kəməri də artıq çəkilib və biz bir trilyon kubmetr təbii qaz ehtiyatı olan nəhəng «Şahdəniz» yatağında hasilat əməliyyatlarını başlamalıyıq. Ümid edirik ki, hasilat yaxın vaxtlarda başlayacaqdır.

Belə oldu ki, boru kəmərləri tikintisinin başa çatması Avropada enerji təhlükəsizliyinin gündəliyə çıxması ilə üst-üstə düşdü. Bu, böyük və müsbət hadisə oldu. Ona görə də Avropa İttifaqı ilə Azərbaycan arasında olan münasibətlərdə artıq bu müddəa var və ötən ilin noyabr ayında Brüsseldə

Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Hazırda biz Avropa ilə Azərbaycan arasında əməkdaşlığın yeni sahəsinə qədəm qoyuruq. Azərbaycan etibarlı tərəfdaşdır və bu günə qədər beynəlxalq şirkətlər ilə həyata keçirdiyimiz enerji layihələri çox uğurlu olmuşdur. Biz məsuliyyətli tərəfdaşıq və Avropanın enerji bazarında etibarlı təchizat mənbəyinə çevriləcəyik.

**– Əvvəlcə Ukrayna, sonra Gürcüstan və indi isə Azərbaycanla neft və qaz qiymətləri mübahisəsindən sonra Sizin Rusiya ilə münasibətləriniz necədir? Siz bu sahədə tam mənada müstəqilsinizmi?**

– Bəli, biz müstəqilik. Amma bununla belə, son dörd-beş il ərzində biz Rusiya ilə çox fəal əməkdaşlıq etmişik. Biz əvvəlki vaxtda Rusiyadan qaz alırdıq və öz qaz hasilatımız tələbatımızı tam ödəmədiyinə görə, həmin qazı elektrik stansiyalarında istifadə edirdik. Biz öz tələbatımızın yarısı həcmində qaz hasil edirik. Buna görə də daha səmərəli iqtisadi dividendləri əldə etmək üçün və bundan əlavə, elektrik stansiyaları üçün ekoloji cəhətdən daha təmiz enerji daşıyıcısını istifadə etmək məqsədi ilə biz Rusiyadan min kubmetri 110 ABŞ dollarına 4,5 milyard kubmetr həcmində qaz alırdıq. Bu qiymət təqribən digər keçmiş Sovet İttifaqı respublikalarına da tətbiq olunurdu. Bu il onlar Azərbaycan üçün min kubmetrin qiymətini 235 dollara qaldırmışdılar. Biz bundan birmənalı şəkildə imtina etdik. Biz Rusiya vasitəsilə nəql etdiyimiz neftimizi elektrik stansiyalarını təchiz edəcək yanacağa çevirmək üçün onu neft emalı zavodlarına yönəltdik. Beləliklə, «Qazprom»la qaz əməkdaşlığımız bitdi. Biz bundan əziyyət çəkmirik. Əlbəttə ki, biz bu əməkdaşlığı qəbul oluna biləcək qiymətlə davam etdirmək istədik, lakin onun olduqca yüksək və qeyri-faydalı olmasını gördükdə razılıq vermədik.

**– Sizin fikrinizcə, Rusiya enerji daşıyıcılarını öz təsirini gücləndirmək üçün vasitə hesab edirmi?**

– Bunu şərh etmək çətindir. Rusiya ilə ikitərəfli münasibətlərimizə gəldikdə deyə bilərəm ki, bu, olduqca müsbət

istiqamətdə inkişaf etmişdir və indi də inkişaf edir. Bizim bir çox ümumi layihələrimiz var və hesab etmirik ki, Azərbaycan üçün qazın qiymətinin qaldırılmasında siyasi məna var idi. Biz öz tələbatlarını ödəyən və böyük həcmdə enerji daşıyıcıları hasil edən ölkəyik. Bu il ölkəmiz 30 milyon tondan çox neft hasil etmişdir.

**– Gəlin digər qonşunuz haqqında danışaq. Söhbət İrandan gedir. Son xəbərlərdə bu ölkənin adı nüvə böhranı ilə bağlanılır. Siz müəyyən hərbi əməliyyatların keçirilməsi ehtimalından narahatsınızmı? ABŞ və ya İsrail İrana qarşı hərbi əməliyyatlar keçirməyə cəhd edə bilər. Bu Sizi narahat edirmi?**

– Biz mövcud və potensial münaqişələrin olduğu bir regionda yaşayırıq. Ona görə biz region üçün təhdidləri minimal səviyyəyə endirməyə çalışmalıyıq. Regionun hər bir ölkəsi baş verə biləcək hərbi əməliyyatlardan əziyyət çəkəcəkdir. Bu, region üçün böyük fəlakət olardı. Biz hesab edirik ki, əməkdaşlıq və danışıqlar həll olunmamış məsələlərin aradan qaldırılması və ümumi həll variantının tapılmasında ən münasib yoldur.

**– Zənnimcə, mən bu sualı ötən dəfə Sizə vermişdim, əgər İrana qarşı hərbi əməliyyatlar keçirilərsə, onda Azərbaycanın mövqeyi necə olacaqdır? Siz ərazinizdən uçuşlara icazə verərsiniz, yoxsa?..**

– Biz heç vaxt elə bir addım atmarıq ki, qonşulara ziyan dəysin. İran qonşumuzdur və bizim çox yaxşı münasibətlərimiz var. İranda milyonlarla azərbaycanlı yaşayır. Bu, təqribən 30 milyon insandır. Bizim hökumətlərarası sazişimiz var və orada qeyd edilir ki, ölkələrimizdə bir-birimizə qarşı heç bir addım atılmayacaqdır və ya bir-birimizə ziyan gətirəcək heç bir tədbir görülməyəcəkdir.

**– Lakin bildirilir ki, İran Azərbaycanda müəyyən rol oynamağa çalışır və buradakı islamçı hərəkatları və partiyaları canlandırmaq istəyir. Bu məsələ narahatlıq doğururmu?**

– Xeyr. Biz dünyəvi ölkəyik. Bizim tamamilə fərqli olan idarəçilik strukturumuz var. Dini amil və ya ekstremizm na-

rahatlıq doğura biləcək məsələ kimi, Azərbaycanda mövcud deyildir. Biz nəinki Konstitusiyaya əsasən, həm də insanların gündəlik həyatı timsalında dünyəvi ölkəyik. Ona görə də bu bizim üçün təhlükə, bizi narahat edə biləcək məsələ deyildir. Azərbaycanda bir çox müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Burada bir çox millətlərin nümayəndələri yaşayır. Biz olduqca yüksək dözümlülük səviyyəsi və bütün ənənələrə hörmətlə yanaşılması ilə seçilən çoxmillətli ölkəyik. Eyni zamanda, ölkəmizdə din dövlətdən ayrıdır.

**– Eşitdim ki, Moskvada bir görüş keçirilibdir. Görüş sizin və Ermənistanın Xarici İşlər nazirləri arasında Dağlıq Qarabağ məsələsi ilə bağlı təşkil olunmuşdur. Bu məsələdə irəliləyiş nə yerdədir?**

– Əfsuslar olsun ki, hələlik heç bir nəticə yoxdur. Bu əsasən Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə bağlıdır. Bu ölkə beynəlxalq hüququn bir çox elementlərini pozur və Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Ərazimizin 20 faizi işğal altındadır. Etnik təmizləmə siyasəti başa çatdırıldıqdan və nəinki Dağlıq Qarabağın özündən, həm də onun ətrafındakı ərazilərdən sonuncu azərbaycanlı qovulandan sonra onlar bu yaxınlarda qondarma Konstitusiya ilə bağlı «referendum» keçirmişlər. Bu tamamilə qanunsuz bir hərəkət idi. Bütün beynəlxalq təşkilatlar bunu pislədi. ATƏT, o cümlədən bu təşkilatın Minsk qrupunun həmsədrləri olan Birləşmiş Ştatlar, Fransa və Rusiya, habelə Avropa İttifaqı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, GUAM, Türkiyə – hamı bu addımı pislədi və bəyan etdilər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər. Bundan əlavə, Azərbaycanın ərazi bütövlüyü Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır və dəstəklənir. Ona görə də Ermənistanın Dağlıq Qarabağı Azərbaycandan qoparmağa yönəlmiş bütün cəhdləri heç bir uğur gətirməyəcək və belə cəhdlərin heç bir gələcəyi yoxdur. Onlar, sadəcə, anlamalıdırlar ki, bu

heç vaxt baş tutmayacaqdır. Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə heç vaxt razılıq verməyəcəkdir. Onlara Azərbaycanın ərazi bütövlüyü çərçivəsində yüksək səviyyəli muxtariyyət təklif olunur.

Bu cür muxtariyyətin nümunələri bir çox ölkələrdə var. Yəni həmin yerlərdə azlıqlar azlıq kimi yaşayır. Azlıq olmaq o demək deyil ki, sən yaşadığın ərazini ölkədən qoparmaq hüququna maliksən. Dünyada yaşayan hər bir azlıq özünə müstəqillik tələb etsə nələr baş verər? Bu, fəlakət olar. Bir çox ölkələrdə azlıqlar var və həmin dövlətlər normal yaşayır.

Bizim də təklif etdiyimiz ondan ibarətdir ki, Dağlıq Qarabağ ermeniləri Azərbaycanın hüdudları çərçivəsində mümkün yüksək muxtariyyət statusuna malik ola bilərlər. Lakin onlar buna razılaşmır. Onlar beynəlxalq dəstəyə göz dikiblər və bu dəstək də get-gedə azalır. Onlar erməni lobbisinə arxalanırlar. Həmin lobbi isə ermənilərin müxtəlif ölkələrdəki təcavüzkar hərəkətlərini dəstəkləyir. Lakin bunun yalnız müvəqqəti təsiri var. Bu gün Ermənistan öz qüdrətini artıran və hər bir baxımdan – iqtisadi, siyasi, hərbi cəhətdən çox güclənən Azərbaycanla rəqabət apara bilməz. Yaxşısı budur ki, onlar bu gün təqdim olunan təklifləri anlasınlar. Sabah və yaxud bir ildən sonra təkliflərimiz daha da sərtləşə bilər. Belə olarsa, onlar özlərini daha çətin vəziyyətə salacaqlar. Bir sözlə, 2006-cı ilin nəticəsiz başa çatmasının səbəbi Ermənistanın siyasəti ilə bağlıdır.

Mən sizə əlavə bir məsələni deyə bilərəm. Prezident Şirak hər iki ölkənin başçısını Fransaya dəvət edərək, Rambuye qəsrini onların ixtiyarına verdiyi vaxt Ermənistan prezidenti danışıqları sonuncu mərhələ ərəfəsində tərk etmişdir. Biz birinci gün görüşdük və nəzərdə tutulurdu ki, ikinci gün də görüş olacaqdır. Hətta planlaşdırılırdı ki, prezident Şirak da sonda bizə qoşulacaqdır. Lakin Ermənistan prezidenti imtina etdi və olduqca müəmmalı səbəb gətirərək, danışıqları yarımçıq qoyub getdi. Məhz bu onların yürütdüyü siyasətin açıq-aydın təzahürüdür. Onlar məsələni yubandırmaq, vaxt udmaq istəyirlər. Bilmirəm, onlar bunu nəyə arxalanaraq

edirlər? Bununla belə, uğursuz danışıqların ağırlığını bizim üzərimizə atmaq istəyirlər. Lakin bütün beynəlxalq ictimaiyyət və ATƏT-in Minsk qrupu görür ki, məhz onların siyasəti nəticəsində münaqişənin həlli baş tutmur. Beləliklə, vaxt keçdikcə kimin hansı vəziyyətdə olduğu bəlli olacaqdır. Biz danışıqları daimi apara bilmərik.

**– Azərbaycan tərəfindən bildirilir ki, əgər bu məsələ ATƏT və ya onun Minsk qrupu çərçivəsində öz həllini tapmasa, onda bəlkə Birləşmiş Millətlər Təşkilatı bununla məşğul olsun?**

– Bu, tam sizin təsvir etdiyiniz kimi deyildir. Biz hazırda hesab etmirik ki, Minsk qrupu hər hansı digər təşkilat ilə əvəz edilsin. Lakin eyni zamanda, düşünürük ki, əgər digər təşkilatlar da bu məsələ ilə məşğul olsa, bunun faydası ola bilər. Misal üçün, iki il bundan əvvəl Avropa Şurası münaqişə ilə bağlı qətnamə qəbul etmişdir və orada aydın şəkildə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Bu, həll üçün yeni əsas yaradan müsbət siyasi bəyanat idi. Avropa İttifaqı Ermənistan və Azərbaycanla imzaladığı beşillik proqrama bu məsələ ilə bağlı müddəanı əlavə etmişdir. Avropa İttifaqı ilə imzaladığımız «Yeni qonşuluq siyasəti» haqqında sənəddə ölkəmizin ərazi bütövlüyü aydın şəkildə tanınır. Bunlar vacib rol oynayır. Eyni sözləri Birləşmiş Millətlər Təşkilatına da şamil etmək olar. Daha sonra GUAM təşkilatı var. Onun dörd üzvü var və onların üçündə eyni münaqişə mövcuddur. Onlar bu məsələ ilə bağlı BMT-də təşəbbüs irəli sürmüşlər və bu hazırda müzakirə olunmaqdadır. Bu, formatı dəyişmək cəhdi kimi qəbul edilməməlidir, müzakirəni daha da genişləndirmək səyləri ilə bağlıdır. Təbii ki, Ermənistan buna qarşı çıxır, çünki onlar hesab edirlər ki, beynəlxalq təşkilatlar bu münaqişə haqqında nə qədər az məlumatlı olsalar, bu onların xeyrinə olacaqdır. Onlar münaqişənin nəticələri ilə bağlı ictimai rəyi çaşdırmağa çalışırlar. Lakin bu baş tutmur və hamının bu haqda məlumatı var. Məhz bu səbəbə görə biz məsələni digər təşkilatlarda da müzakirə etmək təşəbbüsünü irəli sürmüşük.

**– Burada hər hansı beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi varmı? Bu, Ermənistan üçün problem ola bilərmi?**

– Mən belə hesab etmirəm. Fikrimcə, əgər onlar bütün qoşunları işğal olunmuş ərazilərdən çıxarsalar, Dağlıq Qarabağdakı ermənilərin təhlükəsizliyini təmin etmək üçün müəyyən müddət beynəlxalq sülhü mühafizə əməliyyatları aparıla bilər. Biz buna etiraz etmirik. Bu hətta Ermənistan həmin məsələnin üzərində dayandığı halda da baş tuta bilər, çünki həmin qüvvələr bizə lazım deyildir. Əgər onlar öz rahatlıqlarını təmin etmək istəyirlərsə və yaxud münaqişənin yenidən başlanması ehtimalından çəkinirlərsə, onda biz bunu müzakirə edə bilərik. Lakin bu günə qədər bizim aramızda heç bir beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi məsələsi olmamışdır. Yəni özümüz təmas xəttindəyik.

**– Əgər bu məsələdə Rusiya, Avropa İttifaqı və ya Birləşmiş Ştatların roluna gəlsək Sizin fikrinizcə hansı tərəf öz təzyiqini artırmalıdır?**

– Onların hamısı. Minsk qrupu sizin indicə qeyd etdiyiniz həmsədr ölkələrdən ibarətdir. Onlar vahid heyət kimi işləyir və bizə yardım etməyə çalışırlar. Rusiya, Fransa və Birləşmiş Ştatların nümayəndələri bizimlə görüşməyə gəlir, məsələnin həllinə kömək məqsədi ilə Azərbaycana və Ermənistana səfərlər edirlər. Eyni zamanda, prezidentlər və Xarici İşlər nazirləri arasında müzakirə olunan məsələləri yekun formaya salmağa çalışırlar. Biz onları bir qrup kimi dəyərləndiririk və hesab edirik ki, onlardan hər birini fərdi qaydada qiymətləndirməkdənsə, bu ən münasib formatdır.

**– Siz vaxt meyarının Azərbaycan və Ermənistan tərəfindən istifadə olunduğunu qeyd etdiniz. Lakin vaxt məhduddur və bəlkə də məsələ yubansa daha pis olar. Siz məsələnin hərbi yolla həllini nəzərdə tutursunuzmu və Azərbaycanın hərbi baxımdan inkişafını necə görürsünüz?**

– Biz mümkün olan həll yollarının heç birini istisna edə bilmərik. 12 illik atəşkəsdən sonra Azərbaycanın münaqişə-

nin sülh danışıqları əsasında həllinə sadiq olması faktı bizim iradəmizi aydın şəkildə nümayiş etdirir. Lakin 12 il danışıqlar aparmaq və bu müddət ərzində ərazilərin işğal altında qalmasına dözmək və heç bir nəticə olmasa da işğala yenə də sülh yolu ilə son qoymağa çalışmaq, ola bilsin ki, tarixdə ən nadir hallardan biridir. Gələcəkdə biz bu danışıqları nə qədər aparmalıyıq? Əlavə on iki il də gözləməliyik? Bu belə olmayacaqdır. Burada vaxt məhdudiyyəti və səbrin hüdudları var. Ötən illər ərzində, yəni on il bundan əvvəl Ermənistan ilə Azərbaycan arasındakı qüvvələrin tarazlığı siyasi əhəmiyyət baxımından müəyyən dərəcədə eyni idi. Bəlkə də onlar daha üstün vəziyyətdə idilər, çünki onlarınkı kimi, bizim Qərbdə və digər ölkələrdə güclü lobbimiz yox idi. Bunu iqtisadi və hərbi baxımdan da demək olardı.

İndi isə qüvvələrin tarazlığı dəyişibdir. İqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından təxminən 7 dəfə böyükdür. Bizim təkcə builki hərbi büdcəmiz Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. 2007-ci il üçün hərbi xərclərimiz 1 milyard ABŞ dolları səviyyəsində nəzərdə tutulur. Dövlət büdcəmiz 6,5 milyard dollardır. Ermənistanın büdcəsi isə yalnız 1 milyard dollardır. Bir sözlə, bu aydındır.

Bundan əlavə, gələcək üçün iqtisadi perspektivlər də genişdir. Dünya Bankının qənaətinə görə, Azərbaycan gələn iyirmi il ərzində enerji layihələrindən 140 milyard dollar əldə edəcəkdir. Bu həddindən artıq böyük həcmdə maliyyə vəsaitidir. Biz həmin vəsaitləri güclü ölkə qurmaq üçün sərf edirik. İnsanlara daha yaxşı əməkhaqları, pensiyalar verməyə, iş yerləri və infrastruktur yaratmağa çalışırıq. Lakin eyni zamanda, bir Prezident kimi, mənim üçün və hesab edirəm ki, bütün Azərbaycan vətəndaşları üçün Dağlıq Qarabağ münaqişəsinin həlli bir nömrəli məsələdir. Ölkənin iqtisadi potensialı, siyasi əhəmiyyəti və çəkisi, enerji sahəsində əməkdaşlığı və sair meyarlar əsasında Azərbaycanın öz məqsədinə çatmaq, yəni torpaqlarını azad etmək iqtidarında olmasını hesablamaq çətin deyildir. Biz bunu sülh yolu ilə etmək

arzusundayıq və müharibənin yenidən başlanmasını istəmirik. Lakin başqa yol qalmasa, heç nəyi istisna etmək olmaz.

**– Bəs bu cür böyük hərbi büdcə ilə siz nə edəcəksiniz? Silah alacaqsınızmı?**

– Bəli. Biz bir zox silahları alırıq. Yəni bizim müdafiə gücümüzü möhkəmləndirəcək daha çox silahları almaqdayıq.

**– İkitərəfli məsələlərə gəldikdə, Sizin Fransaya dövlət səfərinizin əsas məqsədi nədən ibarətdir?**

– Prezident seçildikdən sonra mən bir neçə dəfə Parisdə səfərdə olmuşam. Yeri gəlmişkən deyim ki, Prezident kimi mənim ilk rəsmi səfərim məhz Fransaya olmuşdur. Bu, seçkilərdən üç ay sonra, 2004-cü ilin yanvar ayında baş tutdu. Daha sonra mən Fransaya bir neçə dəfə işgüzar səfər etmişəm. Lakin bu dəfə dövlət səfəri olacaq. Bu ən yüksək səviyyəli səfərdir və gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafında çox böyük rol oynayacaqdır. Mən prezident Şirakla dəfələrlə görüşmüşəm. Bizim ikitərəfli münasibətlər, regional inkişaf və təbii ki, Dağlıq Qarabağ məsələsinin həllinə dair olduqca səmimi və dostcasına müzakirələrimiz olmuşdur. İndiki səfər fikir mübadiləsi aparılması üçün əlavə bir imkan olacaqdır.

Ölkələrimiz arasında çox gözəl siyasi əlaqələr var. İqtisadi əməkdaşlıq artır. Fransa şirkətləri Azərbaycanın müxtəlif sahələrində çox fəaldır. Biz Fransa sənayesinin bir çox məhsullarını, məsələn, milli hava şirkətimiz üçün «Airbus» təyyarələri alırıq. Bu il Azərbaycan Hava Yolları üçün əlavə Fransa təyyarələrinin alınması ilə bağlı daha bir müqavilə imzalanacaqdır. Vertolyotlar və bir çox digər məhsullar da alınır.

Təbii ki, Azərbaycanın maliyyə resursları artdıqca, biz ticarət münasibətlərimizi daha da genişləndirmək imkanlarına malik olacağıq. Bizim bir çox infrastruktur və inkişaf layihələrimiz var. Fransa şirkətlərinin yaxşı nüfuzu və iş keyfiyyəti var və onlar Azərbaycanda daha fəal ola bilər. Əvvəlki səfərlərim zamanı fransız sahibkarları ilə MEDEF-də iki görüşüm olub və Azərbaycanda gələcək fəaliyyət sahə-

ləri müzakirə edilibdir. Bu görüşlərin çox yaxşı nəticəsi olmuşdur. Onlar ölkəmizə böyük şirkətlər qrupu ilə gəlmiş və müvafiq iş aparmışlar. Azərbaycanda biznes aparmaq sahəsində böyük imkanlar vardır. Ölkələrimiz və prezidentlər arasında çox güclü siyasi, dostluq münasibətləri olduğunu da nəzərə alsaq, biznes adamları üçün yaxşı fürsət yaranıb və bu gün seçim böyükdür.

**– Üzr istəyirəm, insan hüquqlarını müdafiə təşkilatları və Avropa Şurası həmişə şikayətlənir ki, ölkənizdə vəziyyət daha da çətinləşir. Sizin cavabınız necə olardı?**

– Mən elə hesab etmirəm ki, onlar bunu deyirlər. Fikrimcə, onlar deyirlər ki, vəziyyət daha da yaxşılaşır. Sizin məlumatınız artıq köhnəlibdir. Artıq altı ildir ki, biz Avropa Şurasına üzv olmuşuq. Həmin təşkilata qəbul olunmaq məhz Azərbaycanın öz seçimi idi. Biz bunu qəsdən və ya kiminsə təzyiqi altında etməmişik. Təbii ki, qəbul olunduqda biz üzərimizə öhdəliklər götürmüşük və onları yerinə yetiririk. Həmin öhdəliklərin yerinə yetirilməsi sadəcə onunla bağlı deyil ki, bunu Avropa Şurası qarşısında etmək lazımdır. Bu, ölkəmizin inkişafına yardım edir. Buna görə də Avropa Şurasına qəbul olunduqdan sonra Azərbaycanın tənqid edildiyi bir çox məsələlər aradan qaldırıldı. Biz onları həll etdik. «Siyasi məhbuslar məsələsi» deyilən məsələ öz həllini tapdı. Ölkəmiz Avropaya daha sıx inteqrasiya edən və daha açıq olan ölkəyə çevrilir. Ona görə də son illər ərzində biz o qədər də tənqid yox, müsbət mesajlar alırıq. Tənqidə gəldikdə isə o hər zaman var. Demokratiya baxımından ən inkişaf etmiş ölkələr də bəzən Avropa Şurası tərəfindən tənqid edilir. Bu normaldır. Tənqid obyektiv olduqda və bizim inkişafımıza xidmət etdikdə ona çox dözümlü yanaşırıq.

Bundan əlavə, mən sizə deyə bilərəm ki, ötən ilin noyabr ayında Avropa İttifaqı ilə imzalanmış beşillik proqram siyasi və iqtisadi mövzularla yanaşı, insan hüquqları və demokratik prosesə aid hissəni də özündə əks etdirir. Bu da bizim seçimimiz idi. Heç kəs bizi bunu imzalamağa məcbur etmə-

mişdir. Bu addımı atdıq, çünki hesab edirik ki, bizə lazımdır. İndi biz Azərbaycanda olan iqtisadi, siyasi və demokratik meyarları Avropa İttifaqında olan meyarlara uyğunlaşdırmağa çalışırıq. Bu bizə lazımdır və belə razılaşmalara gəlməyimizin və həmin öhdəlikləri götürməyimizin əsas səbəbidir.

Demək istəyirəm ki, Azərbaycan öz tələbatlarını ödəyən ölkədir, heç kimdən asılı deyildir. Bizim kadrlarımız və olduqca istedadlı insanlarımız var. Biz önəmli coğrafi məkanda yerləşirik. Ölkəmiz regional işlərə lazımi dərəcədə inteqrasiya olunubdur. İqtisadi baxımdan öz tələbatlarımızı ödəyirik. Bundan başqa, artıq başlanmış və gələcəkdə uzun illər, onilliklər ərzində davam etdiriləcək böyük neft və qaz hasilatı ilə biz lazımınca formalaşmış dövlətik. Bu gün və sabah gücümüz yalnız və yalnız artacaqdır. Buna görə də biz hər hansı yardıma xüsusi ehtiyac duymuruq. Avroatlantik məkana inteqrasiya ilə bağlı siyasətimiz və baxışlarımız, sadəcə, onunla bağlı deyil ki, kimsə gəlib bizə yardım etsin və ya problemlərimizi aradan qaldırsın. Bunun səbəbi ondan ibarətdir ki, biz bu yolu ölkənin gələcəyi üçün düzgün yol kimi qəbul edirik.

İqtisadi, siyasi və insan hüquqları sahələrinin inkişafı – bunlar hamısı bir-biri ilə bağlıdır. Ölkədə azad cəmiyyət olmalıdır. Əgər siz insan hüquqları baxımından dünya xəritəsinə baxsanız görərsiniz ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə bu hüquqlar daha yaxşı müdafiə olunur. Niyə? Çünki onlar daha inkişaf etmiş ölkələrdir və orada insanların tələbatları ödənilir. Yoxsul ölkələrdə insanlar bir çox hallarda demokratiya haqqında düşünmürlər. Onlar özlərinin gündəlik tələbatları haqqında düşünürlər. Ona görə də daha demokratik cəmiyyətə doğru addım atmaq üçün biz eyni zamanda, iqtisadiyyatı inkişaf etdirməli və insanlar üçün azad şəraiti təmin etməliyik. Sahibkarlığı inkişaf etdirməliyik. Tənzimləyici orqanlardan olan şəxslərin müdaxiləsini məhdudlaşdırmalıyıq. Özəlləşdirməni irəliyə aparmalıyıq. Özəl sektoru inkişaf etdirməliyik. Bu gün iqtisadiyyatımızın 76 faizini özəl sektor təşkil edir. Bu, irəliyə doğru

aparan yoldur. Ona görə də hesab edirəm ki, demokratik gələcəyə doğru aparan yolda biz irəliləyişə nail olmuşuq.

**– Sonuncu sualımı verim. Hazırda Fransada Türkiyənin Avropa İttifaqına qoşulması ilə bağlı mübahisələr gedir. Əminəm ki, Siz Türkiyənin həmin quruma daxil olmasını istəyirsiniz.**

– Bəli. Əlbəttə ki, istəyirik. Bu, düzgün olardı.

**– Siz bu ölkənin Avropa İttifaqına daxil olmasını necə əsaslandırardınız?**

– İlk növbədə onu deyim ki, Türkiyənin Avropa İttifaqının üzvü olmağa haqqı var, çünki bu məsələ uzun illər ərzində müzakirə edilmişdir. Bu yaxınlarda Türkiyədən xeyli sonra müraciət etmiş ölkələr onun üzvünə çevrilmişlər. Həmin ölkələrdəki inkişaf səviyyəsi Türkiyənin səviyyəsindən o qədər də fərqlənmir. Ona görə də fikrimcə, Türkiyənin Avropa İttifaqında olmağa tam hüququ var. Bu, Türkiyə və Avropa, habelə bütün region üçün vacibdir. Çünki Türkiyə qəbul olunarsa, bu o deməkdir ki, Avropa İttifaqının sərhədləri bizim sərhədlərə çatacaqdır. Bu isə Cənubi Qafqaz ölkələrini Avropaya daha sıx bağlayacaqdır. Bundan əlavə, Avropa bizim regionda və Mərkəzi Asiyada fəaliyyətini daha da genişləndirə bilər. Bu, dini dözümlülük baxımından da çox vacibdir. Əgər Türkiyə Avropa İttifaqının üzvü olsa, onda bu təşkilatın xristian ölkələrin klubuna bənzəməsi barədə gəzən söhbətlərə son qoyulacaqdır. İndi həmin söhbətlər artmaqdadır. Bu, sivilizasiyalararası dialoq baxımından da əhəmiyyətlidir, çünki hazırda bu haqda da çox danışılır. Lakin əslində vəziyyət fərqlidir və biz, əksinə, müxtəlif dinlərin nümayəndələri arasında gərginliyi görürük. Bu hətta Avropada da müşahidə olunur. Bir sözlə, bu, regional inkişafa və region ölkələrinin Avropa İttifaqına inteqrasiyasına çoxtərəfli təsir göstərəcəkdir.

**– Çox sağ olun.**

– Sağ olun.

## «VALMONT» ŞİRKƏTİNİN PREZİDENTİ MOGENS BEYİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Prezident sarayında «Valmont» şirkətinin prezidenti Mogens Beyin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının iş adamlarının və ayrı-ayrı mühüm şirkətlərinin ölkəmizdəki fəaliyyətindən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı kənd təsərrüfatı sahəsində çalışan özəl şirkətlərlə əməkdaşlıq edən «Valmont» şirkətinin də Azərbaycanda həyata keçirdiyi proqramların uğurlu olacağına əminliyini bildirdi.*

*«Valmont» şirkətinin prezidenti Mogens Bey onların fəaliyyətini daim dəstəkləyən Azərbaycan prezidenti İlham Əliyevə minnətdarlıq etdi. Qonaq bildirdi ki, əgər prezidentin dəstəyi olmasaydı, nəzərdə tutulan layihələri reallaşdırmaq mümkün olmazdı. O, rəhbərlik etdiyi şirkətin həyata keçirdiyi konkret layihələr barədə dövlətimizin başçısına məlumat verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev şirkətin fəaliyyətinin daha da genişləndirməsinin vacibliyini və dövlət tərəfindən hər cür kömək göstəriləcəyini bildirdi.*

*Qonaqlar Azərbaycan prezidentinə şəkil və kitab təqdim etdilər.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*24 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 24-də İsveçrəyə yola düşmüşdür.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də axşam İsveçrə Konfederasiyasına gəlmişdir.*

*Dövlətimizin başçısı Sürix Hava Limanından Davos şəhərinə yola düşmüşdür.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAVOSDA DÜNYA İQTİSADİ FORUMUNUN İCLASINDA

*25 yanvar 2007-ci il*

*İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu işə başlamışdır.*

*Yanvarın 25-də Davosun «Morasani Şveizerhof» mehmanxanasında Davos forumunun «Neft geosiyasətinin artan əhəmiyyəti» mövzusunda ilk iclası keçirilmişdir. Prezident İlham Əliyev islasda iştirak etmişdir.*

*Ümumiyyətlə, Davos forumu kimi tanınan bu ənənəvi tədbir bu il «Güclərin qlobal balansının yerdəyişməsi» devizi altında keçirilir. Builki forumda dünyanın 90-a yaxın ölkəsindən təxminən 2,5 min nümayəndə, o cümlədən 20-dən çox ölkənin dövlət və hökumət başçıları, 100-ə yaxın nazir, qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak edirlər. Ənənəyə görə dünyanın ən böyük 800-dən çox şirkətinin rəhbərləri də bu beynəlxalq tədbirə dəvət olunmuşlar. Forum günlərində, yəni yanvarın 28-dək 200-dən çox iclas və «dəyirmi masa» keçiriləcəkdir.*

*Forumun ilk iclasını Dünya İqtisadi Forumunun banisi və icraçı prezidenti Klaus Şvab açdı. Azərbaycan prezidenti İlham Əliyevə, digər dövlət və hökumət başçılarına, bütün qonaqlara tədbirdə iştirak etdiklərinə görə dərin təşəkkürünü bildirdi. O bu mötəbər tədbirin səmərəli əməkdaşlıq şəraitində keçəcəyinə əminliyini söylədi, iştirakçılara uğurlar arzuladı.*

*Azərbaycan prezidenti İlham Əliyev iclasda çıxış etdi. Dövlətimizin başçısı ölkəmizdə qlobal enerji layihələrinin həyata keçirildiyini vurğuladı, bunun bütün dünya üçün əhəmiyyətli olduğunu bildirdi. Prezident İlham Əliyev enerji təhlükə-*

*sizliyi məsələsində Azərbaycanın rolunun günbəgün artdığını söylədi, energetika sahəsində əldə olunan uğurlardan, bütövlükdə ölkəmizin iqtisadi potensialından danışdı.*

*İclasda iştirak edən ABŞ, Rusiya, Böyük Britaniya, Kanada, Fransa, Almaniya, İsveç, İsveçrə, Finlandiya, Braziliya, Malayziya, Niderland, Səudiyyə Ərəbistanı, Koreya Respublikası, Norveç, Çin, Küveyt, Qazaxıstan, Belçikanı təmsil edən nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər. Onlar əsasən neft-qaz ölkəsi kimi tanınan ölkələrdə iqtisadi inkişafdan söhbət açdılar.*

*Çıxışlarda neft-qaz ixracısına çevrilən Azərbaycanın Avropanın enerji təhlükəsizliyi sahəsində gördüyü işlər yüksək qiymətləndirildi, ölkəmizdə bu istiqamətdə aparılan siyasətin uğurlu və uzaqgörən olduğu xüsusi vurğulandı.*

*İclasda neft sənayesinin son 100 illik tarixinə nəzər salındı, enerji daşıyıcılarının dünya bazarlarına çatdırılması, bazar rejimi və sərmayə qoyuluşları çərçivəsində geosiyası vəziyyətin dinamikasının dəyişildiyi bildirildi. Eyni zamanda, dünyada baş verən iqlim dəyişikliyi və neft hasilatının yüksək həddə çatması, qlobal enerji təhlükəsizliyi kimi məsələlərdən bəhs edildi, bu baxımdan beynəlxalq əlaqələrin ön plana çıxarılmasının zəruriliyi xüsusi vurğulandı. Müzakirələr zamanı beynəlxalq enerji sektorunda hazırkı geosiyası vəziyyətin idarə olunması üçün sərmayəçilərin üzərinə düşən mühüm vəzifələrdən, ayrı-ayrı regionlarda enerji sektorunun milliləşdirilməsi və Avropa İttifaqının bu sahədə təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi və gücləndirilməsi baxımından görəcəyi işlərdən də geniş söhbət açıldı. Xüsusi vurğulandı ki, azad ticarət və iqtisadi bazar sistemi, qiymətlərin yüksək olması investisiya qoyuluşuna birbaşa təsir edə bilər. Bəşəriyyətin həyatında enerji daşıyıcıları əsas rol oynayır, bu baxımdan mövcud sistemlər inkişaf etdikcə beynəlxalq vəziyyətə və geosiyası məsələlərə təsir göstərir. Bütün bunları nəzərə alaraq, terror təhlükəsindən qorunmaq üçün enerji mənbələrinin və ötürücü xətlərin mühafizə olunması günün reallığı və zamanın tələbidir.*

*Bununla da iclas başa çatdı.*

## AZƏRBAYCAN PESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*25 yanvar 2007-ci il*

### Dünya İqtisadi Forumunun icraçı prezidenti ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davosda Konqres Mərkəzində Dünya İqtisadi Forumunun İcraçı prezidenti Klaus Şvabla görüşmüşdür.*

*Görüşdə bu beynəlxalq tədbirin uğurla keçdiyi və ölkələr arasında iqtisadi əməkdaşlığın genişlənməsi işində rolu qeyd olundu.*

*Klaus Şvab Azərbaycan prezidentinin bu mötəbər forumda iştirakının əhəmiyyətini vurğuladı. Ölkəmizdə böyük iqtisadi uğurların qazanılması, yüksək inkişaf sürətinə nail olunması, Azərbaycanın enerji sahəsində artan rolu, regional əməkdaşlıqda iştirakı yüksək qiymətləndirildi.*

### Hollandiyanın «Şell» şirkətinin icraçı direktoru ilə görüş

*Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda, «Morasani» mehmanxanasında Hollandiyanın «Şell» şirkətinin icraçı direktoru Yeroyn Van der Veer ilə görüşmüşdür.*

*Azərbaycanın bu şirkətlə əməkdaşlığının perspektivlərinin müzakirə olunduğu görüşdə Yeroyn Van der Veer «Şell»in Azərbaycan ilə energetika sahəsində əməkdaşlıq etməyə böyük maraq göstərdiyini söylədi.*

*Prezident İlham Əliyev onların bu istəyini müsbət qarşıladığını və «Şell» ilə əməkdaşlığın başlanması üçün ölkəmizdə müvafiq tapşırıqlar veriləcəyini bildirdi.*

## İranın sabiq Prezidenti ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Davos Forumu çərçivəsində İran İslam Respublikasının sabiq prezidenti Məhəmməd Xatəmi ilə görüşmüşdür.*

## «Soros» fondunun prezidenti ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də «Soros» Fondunun prezidenti Corc Soros ilə görüşmüşdür.*

*Corc Soros son illər Azərbaycanda gedən proseslər, ölkəmizin gələcək inkişaf perspektivləri haqqında fikirlərini söylədi və bu proseslərdən razı qaldığını bildirdi. Eyni zamanda, bu baxımdan Azərbaycan prezidentinin fikirlərini öyrənmək, nəzərdə tutulan proqramlar barədə məlumat almaq istədiyini söylədi.*

*Prezident İlham Əliyev Azərbaycanda gedən proseslərin gələcəkdə hansı istiqamətlərdə davam etdiriləcəyi barədə danışdı.*

*Görüş zamanı Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri və xüsusilə Avropada, Avrasiyada enerji təhlükəsizliyi məsələləri ətrafında geniş fikir mübadiləsi aparıldı. Həmçinin bir sıra regional məsələlər barədə də müzakirələr oldu.*

*Corc Soros Azərbaycanda həyata keçirilən bir sıra təşəbbüslərin razılıqla qarşılandığını bildirərək Neft Fondu ilə bağlı şəffaflığın təmin olunması təşəbbüsünü xüsusi vurğuladı və dedi ki, bu, dünyanın bir çox dövlətləri üçün bir nümunədir.*

*Prezident İlham Əliyev Azərbaycanda təhsil sahəsində, yoxsulluğun aradan qaldırılması ilə bağlı görülən tədbirlərdən də bəhs etdi.*

*Bu istiqamətdə işlərin davam etdirilməsini yüksək qiymətləndirən Corc Soros Azərbaycan hökuməti ilə əməkdaşlıq etmək arzusunda olduğunu bildirli.*

## ABŞ-ın «Sisko» şirkəti idarə heyətinin sədri ilə görüş

*Yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Amerika Birləşmiş Ştatlarının «Sisko» şirkəti idarə heyətinin sədri Con Çambers ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanda informasiya texnologiyalarının inkişafı, ölkəmizdə xüsusi iqtisadi zonaların yaradılmasında «Sisko» şirkətinin iştirakı məsələləri müzakirə olundu.*

*Con Çambers dedi ki, son zamanlar Azərbaycanda texnoloji tutumlu iqtisadi sektorların informasiya texnologiyalarının inkişafına yönəldilmiş dövlət siyasəti, prezident İlham Əliyevin bu istiqamətdəki siyasəti çox dəstəklənir. Biz bu sahədə Azərbaycan hökuməti ilə hərtərəfli əməkdaşlıq etməyə hazırıq. O vurğuladı ki, bu əsasən Azərbaycanda yeni tipli informasiya infrastrukturunun qurulması, xüsusi iqtisadi zonaların yaradılması, bu sektora sərmayələrin gətirilməsi və digər məsələlərlə bağlıdır.*

## Ukraynanın Baş naziri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Ukraynanın Baş naziri Viktor Yanukoviç ilə görüşmüşdür.*

*Azərbaycan ilə Ukrayna arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyinin bildirildiyi görüşdə siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın daim genişlənməsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlarda regional səviyyədə əməkdaşlığının möhkəmləndirildiyi vurğulandı və bunun gələcəkdə də davam etdiriləcəyinə əminlik ifadə olundu.*

*Viktor Yanukoviç Azərbaycana səfərinin uğurla keçdiyini məmnunluqla xatırlatdı.*

## «Enerji–2007: neft siyasətinin yeni erası» mövzusunda keçirilmiş iclasda

*Davos Forumu çərçivəsində Konqres Mərkəzində «Enerji–2007» Neft siyasətinin yeni erası» mövzusunda iclas keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev iclasda iştirak etmişdir.*

*Dövlətimizin başçısı iclasda çıxış edərək, ölkəmizin gələcəyinə yönəlmiş neft strategiyasından, onun uğurlu nəticələrindən söz açdı, neft kapitalını insan kapitalına çevirmək üçün tədbirlər görüldüyünü söylədi. Prezident İlham Əliyev ölkəmizdə son illərdə dünyada analoqu olmayan iqtisadi artımın müşahidə edildiyini, ötən il ümumi daxili məhsulun həcminin 35 faiz artdığını vurğuladı. Dövlətimizin başçısı dedi ki, əsas məqsədimiz ölkəmizi neft və qaz sahəsinin asılılığından xilas edərək, yeni sahələrin dirçəldilməsi ilə Azərbaycanı inkişaf etdirməkdir.*

*İclasda Amerika Birləşmiş Ştatlarının Energetika naziri Samuel Bodman, Ukraynanın Baş naziri Viktor Yanukoviç, Rusiyanın «Qazprom» şirkətinin nümayəndəsi Aleksandr Medvedev, Hollandiyanın «Şell» şirkətinin icraçı direktoru Yeroyn Van der Veer, «Eksson-Mobil» korporasiyasının və Çinin nümayəndələri çıxış etdilər. Onlar neft və qazla bağlı gələcək planlardan danışdılar. Bildirildi ki, enerji daşıyıcılarının təhlükəsizliyinin fundamental məsələləri və bu sahədə siyasi təsirin maksimum azaldılması zəruridir. Ümumiyyətlə, forum çərçivəsində keçirilən digər iclas və «dəyirmi masa»larda iqlim dəyişikliyi, beynəlxalq layihələrin həyata keçirilməsi, antikorrupsiya məsələləri, habelə Asiya ölkələrində iqtisadi inkişaf, iqtisadi landşaftın ümumi dəyişikliyi, İraq və Yaxın Şərqdə vəziyyət ilə bağlı müzakirələr aparılacaqdır.*

## Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Jan Lemyer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bu beynəlxalq bank arasında uğurlu əməkdaşlıq qeyd olundu, əlaqələrin hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## MDB və Baltik Dövlətləri Yəhudi İcmaları Federasiyasının rəhbəri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də günün sonunda MDB və Baltik Dövlətləri Yəhudi İcmaları Federasiyasının rəhbəri Lev Levayev ilə görüşmüşdür.*

*Lev Levayev Azərbaycanda müxtəlif xalqlara və dinlərə mənsub insanların, o cümlədən yəhudilərin azad yaşaması üçün hər cür şəraitin yaradıldığını vurğuladı, bunun rəhbərlik etdiyi təşkilat tərəfindən yüksək qiymətləndirildiyini söylədi. O, bütün bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Lev Levayev xüsusi vurğuladı ki, Azərbaycanda tarixən müxtəlif xalqlara və milli azlıqlara münasibətdə yüksək tolerantlığın indi də davam etməsi Azərbaycan xalqının tarixi nailiyyətlərindən biridir.*

*Prezident İlham Əliyev Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinə dövlət tərəfindən daim diqqət və qayğı göstərildiyini və bunun gələcəkdə də davam edəcəyini bildirdi.*

## AZƏRBAYCAN RESRUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*29 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Fransa Respublikasına ilk dövlət səfərinə gəlmişdir.*

*Parisin Beynəlxalq «Orli» Hava Limanı Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş, dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı təyyarənin pilləkəni yanında Fransanın Müdafiə naziri xanım Mişel Allio-Mari, Paris hərbi qarnizonunun rəisi, Parisin Val de-Marn regionunun prefekti və digər rəsmi şəxslər böyük hörmətlə və səmimiyyətlə qarşıladılar.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın Dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev «Orli» hava limanında hərbi vertolyotla Fransa paytaxtının memarlıq incilərindən olan Əlillər evinin yerləşdiyi meydana gəldi. Dövlətimizin başçısı buradan süvari milli qvardiyaçıların müşayiəti ilə onun üçün ayrılmış fəxri iqamətgaha – «Marini» sarayına gəldi.*

*Xatırladaq ki, bu tarixi məqamı Parisin yüzlərlə sakini böyük maraqla müşahidə etdi. Meydanda və yolboyu Azərbaycanın Dövlət bayraqları asılmışdı.*

## Yelisey sarayında rəsmi qarşılanma

*Yanvarın 29-da Fransa prezidentinin iqamətgahında – Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayda Azərbaycanın və Fransanın dövlət bayraqları asılmışdı. Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev hərbi marşın sədaları altında fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Fransa Respublikasının Prezidenti Jak Şirak hörmət və ehtiram əlaməti olaraq Azərbaycan prezidenti İlham Əliyevi sarayın pilləkənləri önündə böyük səmimiyyətlə və ehtiramla qarşıladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA RESPUBLİKASININ PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Paris,*
*Yelisey sarayı*

*29 yanvar 2007-ci il*

*Yanvarın 29-da Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Fransa Respublikasının Prezidenti Jak Şirak arasında təkbətək görüş keçirilmişdir.*

*Prezident Jak Şirak Azərbaycan prezidentinin Fransaya dövlət səfərindən çox məmnun olduğunu, son zamanlar Azərbaycanla Fransa arasındakı əməkdaşlığın inkişaf etdiyini və bu il Fransada «Azərbaycan İli»nin keçiriləcəyini vurğuladı, münasibətlərin həm siyasi, həm də iqtisadi baxımdan çox vacib və səmərəliliyini qeyd etdi.*

*Prezident İlham Əliyev təşəkkür edərək Fransaya dövlət səfərinin onun üçün çox şərəfli olduğunu nəzərə çatdırdı və prezident seçildikdən sonra ilk rəsmi səfərini də Fransaya etdiyini bildirdi.*

*Dövlət başçıları enerji layihələri, Cənubi Qafqazda vəziyyət və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi apardılar.*

*Prezident İlham Əliyev Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum layihələri haqqında danışaraq onların əhəmiyyətini vurğuladı, ötən ilin noyabrında Brüsselə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalandığını xatırlatdı. Dövlətimizin başçısı bildirdi ki, beləliklə, Azərbaycan Xəzər regionundan Avropa bazarlarına neft*

*və qaz ixrac edən ilk ölkə olacaqdır. Bu da Azərbaycan dövlətinin seçimidir.*

*Regionda gedən proseslərin müzakirəsi zamanı prezident Jak Şirak öz ölkəsinin mövqeyini ifadə edərək dedi ki, biz çox istərdik, Azərbaycanın yerləşdiyi regionda sülh və sabitlik şəraiti olsun.*

*Prezidentlər görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların son vəziyyətini də müzakirə etdilər.*

*Prezident İlham Əliyev həmsədrlərin regiona axırıncı səfəri barədə danışaraq keçirilən görüşlərin faydalı olduğunu söylədi. Dövlətimizin başçısı Azərbaycan və Ermənistan prezidentlərinin son görüşünün Minskdə keçirildiyini bildirərək dedi ki, Ermənistan öz təcavüzkar siyasətinə son qoymalıdır və bundan sonra Cənubi Qafqaz regionunda sabitlik təmin edilə və daha çox inkişaf əldə oluna bilər.*

*Prezident Jak Şirak vurğuladı ki, Minsk qrupunun həmsədri kimi, Fransa regiona sülhün daha tez bir zamanda gəlməsi, qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması üçün bütün nüfuzundan və imkanlarından istifadə edəcəkdir.*

## «FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU» VƏ «HEYDƏR ƏLİYEV» ORDENLƏRİNİN TƏQDİM OLUNMA MƏRASİMİ

*Paris,*
*Yelisey sarayı*

*29 yanvar 2007-ci il*

*Yanvarın 29-da Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə «Fəxri legionun böyük xaç komandoru» ordeninin və prezident Jak Şiraka «Heydər Əliyev» ordeninin təqdim olunma mərasimi keçirilmişdir.*

*Mərasimdə Azərbaycan prezidentinin xanımı Mehriban Əliyeva, Fransa prezidenti Jak Şirakın xanımı Bernadet Şirak, habelə dövlətimizin başçısını müşayiət edən nümayəndə heyətinin üzvləri iştirak edirdilər.*

*Əvvəlcə Azərbaycan prezidenti İlham Əliyev Fransa prezidenti Jak Şiraka üzərində onun portreti toxunmuş xalça hədiyyə etdi. Dövlət başçıları xalçanın önündə xatirə şəkli çəkdirdilər. Sonra Fransa prezidenti Jak Şirak dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.*

*Prezident Jak Şirak Fransanın ən yüksək ordenini Azərbaycan prezidenti İlham Əliyevə təqdim edərək dedi:*

– Əziz dost, bildiyiniz kimi, 2004-cü ildə mən atanızın təltif olunduğu «Fəxri legion» ordenini Sizə verdim. Siz bilirsiniz ki, mən ona böyük hörmət və böyük dostluq hissləri bəsləyirdim. Mən həmin mükafatı Sizə təqdim edərkən çox böyük həyəcan hissi keçirirdim. İndi isə Siz ölkəmizə ilk dövlət səfərinə gəlmisiniz. Ona görə də böyük məmnuniyyətlə Sizi Fransanın yüksək mükafatı – «Fəxri legion» ordeninin ən yüksək dərəcəsi ilə təltif etmək istəyirəm.

Bildiyiniz kimi, bu orden Napoleon tərəfindən təsis olunmuşdur və bütün fransızlar öz ölkəsinin fərqlənmə nişanlarına və medallarına çox sadiqdirlər. Bəzən əcnəbilər bizə gülərək deyirlər ki, iki fransız görüşdükdə əgər bir-birini tanımırlarsa, ilk növbədə fərqlənmə nişanlarına baxırlar.

Bu mükafatı böyük məmnunluqla Sizə təqdim edirəm.

*Sonra Azərbaycan prezidenti İlham Əliyev Fransa prezidenti Jak Şiraka «Heydər Əliyev» ordenini təqdim edərək dedi:*

– Hörmətli cənab Prezident, bu gün mənim üçün çox əziz bir gündür. Fransanın ən yüksək ordenini almaq çox böyük şərəfdir. Siz qeyd etdiniz ki, üç il bundan əvvəl mən Fransada rəsmi səfərdə olarkən prezident Heydər Əliyevin təltif edildiyi ordeni almaq mənə nəsib olmuşdur. Sizin şəxsi dostluğunuz Fransa–Azərbaycan münasibətlərinin inkişafında xüsusi rol oynamışdır. Məhz sizin birgə fəaliyyətiniz nəticəsində Fransa–Azərbaycan münasibətləri sürətlə inkişaf etmişdir və bu gün ən yüksək zirvəyə qalxmışdır. Bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə biz çox uğurlu əməkdaşlıq edirik, Fransa bizim üçün dost ölkədir, çox yaxın tərəfdaşdır. Mən çox şadam ki, bizim aramızda olan şəxsi münasibətlər də ən yüksək zirvədədir. Biz bir-birimizə dost deyirik və bu, sözün əsl mənasında, böyük dostluğun nümunəsidir.

Bu gün Sizin tərəfinizdən Fransa dövlətinin ən yüksək ordeni ilə təltif olunmaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Demək istəyirəm ki, bundan sonra da iki ölkə arasında olan münasibətlərin inkişafında öz səylərimi göstərəcəyəm.

Mən bu gün böyük məmnunluq hissi ilə Sizi Azərbaycan dövlətinin ən yüksək ordeni – «Heydər Əliyev» ordeni ilə təltif edirəm. Bu orden çox nadir hallarda təqdim olunur. Bu üçüncü ordendir və mən onu bu gün Sizə təqdim edirəm. Bu həm Azərbaycanın ən yüksək mükafatıdır, eyni zamanda, Sizin dostunuz Heydər Əliyevin adını daşıyan ordendir. Sizi təbrik edirəm.

## AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA İLƏ FRANSA PREZİDENTİNİN XANIMI BERNADET ŞİRAKIN GÖRÜŞÜ

*29 yanvar 2007-ci il*

*Yanvarın 29-da Azərbaycan prezidentinin xanımı, Milli Məclisin deputatı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyeva Yelisey sarayına gəldi.*

*Fransa prezidentinin xanımı Bernadet Şirak Azərbaycan prezidentinin xanımını sarayın önündə səmimiyyətlə qarşıladı.*

*Sonra dövlət başçılarının xanımları arasında görüş keçirildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ VƏ XANIMININ ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ DÖVLƏT QƏBULUNDA NİTQ

*Paris, Yelisey sarayı*

*29 yanvar 2007-ci il*

### Fransa prezidenti Jak Şirakın nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım!

Xanımım və mən Sizi Parisdə qəbul etməkdən çox məmnunuq. Bütün fransızlar adından ən dərin səmimiyyətlə Sizə xoş gəlmisiniz deyirik. Münasibətlərimizin tarixində bu ilk dövlət səfəri ölkələrimiz arasındakı dostluğu alqışlamaq fürsətidir. Bu güclü və səmimi dostluğun təşəbbüskarı Sizin atanız mərhum Heydər Əliyev olmuşdur. İcazə verin bu təntənəli anları onun xatirəsi ilə bağlayaq.

Cənab Prezident!

Ölkələrimiz arasındakı münasibətlərin tarixi hələ ki qısadır. Lakin bu münasibətlər bizim ziyalılarımız və böyük yazıçılarımız tərəfindən əsrlər boyu formalaşdırılmış tellərə söykənir.

Bölgədəki xalqların özünəməxsusluğu Xəzər sahillərinin çoxsaylı səyahətçiləri arasında Fransada və Avropada ən yaxşı tanınan Aleksandr Dümanın «Qafqaza səyahət» əsərində təsvir olunmuşdur. 1858-ci ildə Bakıda Düma qonağı olduğu ev sahiblərinin fransız mədəniyyəti və fəlsəfəsinə marağına valeh olmuşdur. Paytaxt şəhəri cazibəsinə vurulmuş Düma sizin poeziya ənənələrinizin və onun böyük nümayəndələrinin, o cümlədən məşhur Nizami Gəncəvinin

əsərlərinin və böyük şairəniz Natəvanın heyranedici təsirinə qapılmışdır. Belə deyirlər ki, Natəvan öz istedadı və gözəlliyi ilə onu məftun etmişdir.

İlk Azərbaycan Respublikasının süqutundan sonra Azərbaycan ziyalılarının bir sıra böyük şəxsiyyətləri, təbii ki, məhz Fransaya üz tutdular. Mən Fransanı ikinci vətən seçmiş və yazıçı həyatını Bakı və Paris arasında paylaşan Baninin adını çəkmək istərdim. Mən parlamentin sədri və Versal konfransında Azərbaycan nümayəndə heyətinin başçısı, son məskəni olan Sen-Klodda dəfn edilmiş Əlimərdan bəy Topçubaşovun adını çəkmək istərdim.

1991-ci ildə, bir çoxlarının tərəddüd etdiyi vaxtda Fransa Türkiyə ilə birlikdə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olmuş və ona öz inamını ifadə etmişdir.

Ölkənizin müstəqilliyini müşayiət edən sınaq illərindən sonra mərhum atanız Azərbaycan üçün yeni yüksəliş şəraiti yarada bilmişdir. Onun 1994-cü ildə ölkənizin karbohidrogen ehtiyatlarının istismara verilməsi, Bakı–Tbilisi–Ceyhan neft boru kəmərinin və Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin inşası ilə bağlı strateji qərarlarına Fransa öz dəstəyini vermişdir. Həmin qərarlar Sizin ölkənizə dünyada ən yüksək iqtisadi artım göstəricisinə nail olmağa imkan vermişdir. Bu qərarlar Sizə vətəndaşlarınızın legitim arzularına və daha böyük iqtisadi və sosial inkişafa doğru yönələn ümidlərinə cavab vermək vasitəsinə çevrilmişdir. Eyni zamanda, uzaq perspektivdə ölkənizdə sabitlik və firavanlığı təmin edəcək ictimai azadlıqlar və demokratiyanın möhkəmləndirilməsinə yönəlmiş arzu və ümidlərdən də söhbət gedir. Bu Sizin ölkənizdəki dini dözümlülük və bərabərlik ənənəsinə tam uyğun bir yoldur. Xatırlatmaq lazımdır ki, ölkəniz qadınlara seçki hüququnu hələ 1918-ci ildə vermişdir.

Cənab Prezident!

Tarixinizin bu yeni mərhələsində Fransa əsl demokratiya, eləcə də müasir və çoxşaxəli iqtisadiyyatın yaradılmasına kömək göstərmək üçün öz milli təcrübəsini Sizinlə paylaş-

mağa və xüsusən də hüquqi dövlətin formalaşması sahəsində əməkdaşlığı möhkəmləndirməyə hazırdır.

Fransız şirkətləri öz təcrübələrini iqtisadi inkişafınız üçün bölüşməyi arzulayır. Onlar Bakı, onun strateji ürəyi olan Xəzərdə karbohidrogen ehtiyatlarının istismarında, habelə digər sektorlara sərmayə qoyulmasında fəaliyyətlərini genişləndirməyə hazırdırlar.

Şirkətlərimiz istər ətraf mühit, şəhərsalma işləri, bank sektoru, sığorta, istərsə də kənd təsərrüfatı, yeyinti sənayesi sahələrində ölkənizin tələbatlarına cavab vermək iqtidarında olacaqdır. Mən onlarla işləməyi tam səmimiyyətlə Sizə tövsiyə edirəm.

Eyni zamanda, biz qarşılıqlı mədəni əlaqələrimizi gücləndirmək istəyirik. 2004-cü ildə «Orangerie» muzeyində «Bakı–Paris» sərgisindən sonra Fransada böyük Azərbaycan mədəniyyəti günləri layihəsi fransız ictimaiyyətinə Azərbaycanı, əsasən də onun valehedici muğam sənəti, böyük bəstəkarlar Üzeyir Hacıbəyov və Qara Qarayevin yaradıcılığından bugünkü müasir əsərlərə qədər musiqi ənənələri ilə yenidən tanış olmağa imkan verəcəkdir.

Cənab Prezident!

Siz bilirsiniz ki, on ildən artıq müddət ərzində Fransa Minsk qrupu çərçivəsində ağrılı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini əsirgəməmişdir.

Mən bunu Yerevanda bəyan etmişəm. Bu axşam bunu bir daha Sizə deyirəm. Fransa bu gün inanmaq istəyir ki, sülh vaxtı artıq yetişmişdir. Fransa buna inanmaq istəyir, çünki o, müharibənin nəyə bərabər olduğunu bilir. Buna nail olmaq son addımın atılmasını tələb edir. Çətin bir addımdır. Elə bir addımdır ki, insanların gələcəyinə yönəlmiş etimad aktı olacaqdır. Cəsarətli hərəkəti status-kvonun zahiri təhlükəsizliyindən üstün tutmaq lazımdır. Bu son addım həm Bakıda, həm Yerevanda atıla bilər, çünki onun nəticəsində nurlu həyatın, sülh və firavanlığın üfüqləri açılacaqdır. Mən bu arzuları bütün Cənubi Qafqaz xalqları üçün ifadə etmək istərdim.

Cənab Prezident!

İndi isə icazə verin badəmi Azərbaycanın, onun xalqının və gələcəyinin şərəfinə qaldırım.

Cənab Prezident, mən badəmi Sizin şərəfinizə və çox dərin hörmət bəslədiyim xanımınız Mehriban Əliyevanın şərəfinə qaldırıram.

Mən badəmi bu axşam öz iştirakları ilə bizim dostluğumuza və bu dostluğun gələcəyinə inandıqlarını nümayiş etdirən iki ölkənin bütün yüksək vəzifəli şəxslərinin şərəfinə qaldırıram.

Yaşasın Azərbaycan!

Yaşasın Fransa!

Yaşasın bizim dostluğumuz!

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident!

Əziz dost!

Hörmətli xanım Bernadet Şirak!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, məni ölkənizə dövlət səfərinə dəvət etdiyinizə görə Sizə ürəkdən təşəkkür edir, Fransa torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Keçirdiyimiz görüşlərdən çox məmnunam. Biz ikitərəfli əməkdaşlıqla, bir sıra regional və beynəlxalq məsələlərlə bağlı geniş və səmərəli fikir mübadiləsi apardıq. Şübhəsiz ki, bütün bunlar, həmçinin qəbul etdiyimiz Birgə Bəyannamə və imzalanacaq sənədlər əməkdaşlığımızın daha da inkişafına və dərinləşməsinə öz töhfəsini verəcəkdir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, əməkdaşlığımızın səviyyəsi yüksəkdir. Fransa Azərbaycanın iqtisadi tərəfdaşları sırasında birinci beşliyə daxildir. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin həcmi son illər ərzində təxminən 3 dəfə artıbdır. Fransa şirkətləri Azərbaycanın iqtisadi inkişafında

yaxından iştirak edir, Fransa iş adamları energetika və infrastruktur sektorunda, aviasiya, mülki təhlükəsizlik, maliyyə, istehsal, xidmət sahələrində və digər sahələrdə fəallıq göstərirlər.

Sevindirici haldır ki, Fransa Azərbaycanın beynəlxalq miqyasda və Avropa qitəsində enerji təhlükəsizliyinə töhfəsinə xüsusi önəm verir. Xəzər dənizinin zəngin karbohidrogen ehtiyatlarının hasilatı və dünya bazarlarına nəqli sahəsində əldə etdiyimiz uğurlarda Fransanın mövqeyi bizim üçün çox əhəmiyyətlidir. Biz həmçinin Azərbaycanın demokratik inkişafına Fransanın göstərdiyi dəstəyi vacib hesab edirik.

Eyni zamanda, ölkələrimiz beynəlxalq terrorizm, nüvə silahlarının yayılması, narkotik maddələrin qanunsuz dövriyyəsi və digər müasir çağırış və təhdidlərə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı və NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində sıx əlaqələrimiz məmnunluq doğurur. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanması etibarlı tərəfdaşlığımızın parlaq nümunəsidir.

Xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həlli sahəsində ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın və cənab Prezident, şəxsən Sizin fəaliyyətinizi yüksək qiymətləndiririk.

Azərbaycan ilə Ermənistan arasında gedən danışıqlar prosesini daim diqqətinizdə saxladığınıza, münaqişənin aradan qaldırılması istiqamətində göstərdiyiniz şəxsi səylərə görə Sizə təşəkkürümü bildirirəm. Əminəm ki, münaqişənin sülh yolu ilə aradan qaldırılması Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olması, regionun Avroatlantik strukturlarına inteqrasiyası sahəsində yeni səhifə açacaqdır.

Bu gün Azərbaycan böyük sürətlə inkişaf edir. Həyata keçirilən siyasi və iqtisadi islahatlar ölkənin dinamik inkişafına imkan yaradıbdır. 2005-ci ilədək, on il ərzində Azərbaycanda ümumi daxili məhsulun artımı hər il 10 faizdən çox olmuşdur. 2005-ci ildə isə bu, 26 faiz, 2006-cı ildə 35 faiz artmışdır. Son üç il ərzində ölkədə 500 mindən çox yeni iş yeri açılmışdır. Azərbaycanda çox yaxşı sərmayə mühiti vardır. Son 10 ildə iqtisadiyyatımıza 33 milyard dollar sərmayə qoyulmuşdur.

Azərbaycan regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək beynəlxalq layihələr həyata keçirir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu layihələri bütün regionun inkişafında və Azərbaycanın Avropaya inteqrasiyasında mühüm rol oynayacaq, ölkələrimizi birləşdirən möhkəm əməkdaşlıq körpüsü olacaqdır.

Mən Azərbaycan ilə Fransa arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, dost ölkənizə səfərim, Sizinlə görüşümüz, apardığımız fikir mübadiləsi bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli cənab Prezident!

İcazə verin bu badəni Sizin şərəfinizə, xanım Bernadet Şirakın şərəfinə, ölkələrimiz arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırım!

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*30 yanvar 2007-ci il*

### Naməlum əsgərin məzarı önünə əklil qoyulması mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da səhər Parisin Yelisey xiyabanına gələrək, Fransanın azadlıq rəmzi sayılan «Zəfər tağı»nın altında dəfn olunmuş Naməlum əsgərin məzarı önünə əklil qoymuşdur.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın Dövlət himnləri səsləndi.*

*Əklilqoyma mərasimini izləmək üçün buraya minlərlə paytaxt sakini toplaşmışdı. Dövlətimizin başçısı burada İkinci dünya müharibəsinin Fransadan olan iştirakçıları ilə səmimi görüşdü, Paris sakinlərini salamladı.*

*Şəhərin «Zəfər tağı» istiqamətində bütün yolları bağlanmışdı. Xatırladaq ki, bu yollar ali qonaqların Fransaya səfəri zamanı çox nadir hallarda bağlanır. Bu, Azərbaycan prezidenti İlham Əliyevin dövlət səfərinə çox böyük əhəmiyyət verilməsinin daha bir təzahürüdür.*

### Paris şəhər meriyasında görüş

*Yanvarın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Paris şəhər meriyasının binasına gəlmişdir.*

*Binanın qarşısında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi və ali qonağa hörmət və ehtiram əlaməti olaraq atlı milli qvardiyanın əsgərləri düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Paris şəhərinin meri Bertran Delanoe böyük hörmətlə qarşıladı.*

*Sonra prezident İlham Əliyev ilə Paris şəhərinin meri Bertran Delanoe arasında görüş oldu.*

*Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, tarixi, mədəni, iqtisadi və siyasi sahələrdə əlaqələrin genişləndiyi bildirildi. Həmçinin humanitar sahədə əməkdaşlıq üçün böyük potensialın olduğu və bu istiqamətdə əlaqələrin genişləndirilməsinin vacibliyi vurğulandı.*

*Prezident İlham Əliyev eyni zamanda, Bakı ilə Paris arasında münasibətlərin inkişaf edərək, ölkələrimiz arasındakı səviyyəyə çatmasının zəruriliyini söylədi. Dövlətimizin başçısı Parisin merini Bakıya dəvət etdi.*

*Bertran Delanoe dəvəti məmnunluqla qəbul etdi və dövlətimizin başçısına dərin təşəkkürünü bildirdi.*

*Görüşün sonunda Azərbaycan prezidenti İlham Əliyev və Parisin meri Bertran Delanoe respublikamızın Dövlət gerbinin təsviri olan perqamenti imzaladılar.*

## FRANSA İCTİMAİYYƏTİNİN VƏ DİPLOMATİK KORPUSUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Paris şəhər meriyasında Fransa ictimaiyyətinin və diplomatik korpusun nümayəndələri ilə görüşü keçirilmişdir.*

*Meriyanın «Bayramlar» salonuna toplaşanlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.*

*Azərbaycanın, Fransanın, eləcə də meriyanın himnləri səsləndirildi.*

*Görüşü Paris şəhərinin meri Bertran Delanoe açdı. O, ali qonağı və xanımını, habelə dövlətimizin başçısını müşayiət edən nümayəndə heyətini salamladı, bu görüşü özləri üçün tarixi hadisə adlandırdı. Azərbaycanın 1991-ci ildə müstəqilliyini əldə etdiyi zaman Fransanın ölkəmizi tanıyan ilk ölkələrdən olduğunu bildirdi. Mer xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini, ölkələrimiz arasında əlaqələrin inkişafındakı rolunu xatırlatdı və hazırda qarşılıqlı münasibətlərin prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirildiyini söylədi. Bertran Delanoe Azərbaycan xalqının keçdiyi şərəfli tarixi yoldan, ölkəmizdə demokratik cəmiyyətin formalaşdırılması üçün görülən tədbirlərdən, habelə Azərbaycanın üzləşdiyi çətinliklərdən söhbət açdı. O dedi ki, Fransa Ermənistanla Azərbaycan arasında sülhün yaranacağına əmindir.*

*Paris şəhərinin meri Azərbaycanı inkişaf edən dövlət kimi səciyyələndirərək dedi ki, iqtisadi inkişaf sürətinə görə ölkə dünyada birinci yeri tutur. Bakı ilə Paris arasında iqtisadi, mədəni, humanitar və digər sahələrdə əməkdaşlıq zəruridir. Mer*

*vurğuladı ki, Azərbaycanın Avropaya inteqrasiya siyasəti dəstəklənir və Azərbaycan Avropa üçün mühüm ölkəyə çevrilir.*

*Sonra dövlətimizin başçısı görüş iştirakçıları qarşısında nitq söylədi.*

**İ l h a m  Ə l i ye v:** Hörmətli cənab mer!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətinə Fransada göstərdiyiniz qonaqpərvərliyə görə sizə və bütün Fransa xalqına öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Mənim Fransaya dövlət səfərim iki ölkə arasında möhkəmlənən əlaqələrin inkişafı deməkdir. Bu, əlaqələrə yeni təkan verəcəkdir. Bizim aramızda olan əlaqələr bütün sahələri əhatə edir və çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, mədəni və bütün başqa sahələrdə biz, sözün əsl mənasında, tərəfdaşıq və bizim tərəfdaşlığımız, əməkdaşlığımız təkcə iki ölkə arasında olan münasibətlərə yox, eyni zamanda, regionda gedən proseslərə də öz müsbət təsirini göstərir.

Cənab mer öz çıxışında qeyd etdi ki, Azərbaycan cəmi 15 ildir müstəqil ölkə kimi yaşayır. Təbii ki, bu, tarix baxımından çox qısa bir müddətdir. Ancaq buna baxmayaraq, bu qısa müddət ərzində Azərbaycan çox böyük uğurlara nail ola bilmişdir və indi ölkəmiz çox dinamik şəkildə inkişaf edir. Siyasi islahatlar uğurla davam etdirilir. Azərbaycan Avropa Şurasının üzvüdür, Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasəti» proqramının iştirakçısıdır və bütövlükdə Avropa məkanına bizim inteqrasiyamız çox uğurla davam edir. İqtisadi sahədə ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz artmışdır, 2006-cı ildə isə 35 faiz artıb və Azərbaycan çox zəngin ölkəyə çevrilir. Həyata keçirilən nəhəng enerji layihələri həm ölkənin tələbatlarını tam şəkildə ödəyəcək, eyni zamanda, Avropanın enerji təhlükəsizliyi məsələlərinə də öz töhfəsini verəcəkdir. Keçən ilin sonunda Avropa İttifaqı ilə Azərbaycan

arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandumun icrası nəticəsində Avropanın enerji təhlükəsizliyi məsələlərinə Azərbaycan öz töhfəsini verəcəkdir.

Fransa şirkətləri ilə çox uğurlu əməkdaşlıq edirik, bu əməkdaşlığın artıq böyük tarixi var və bundan çox məmnunuq. Mənim səfərim çərçivəsində yeni sahələr üzrə anlaşmalar imzalanacaq və beləliklə, Fransa şirkətlərinin Azərbaycanda fəaliyyəti daha da genişlənəcəkdir.

Bizim təbii ehtiyatlarımız, əlbəttə ki, böyük sərvətdir və Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət göstərir. Ancaq bunlar tükənən sərvətlərdir. Bundan daha da dəyərli sərvət ondan ibarətdir ki, Azərbaycanda bütün millətlər, bütün dinlərin nümayəndələri bir ailə kimi, qardaş kimi yaşayırlar. Azərbaycanda mövcud olan milli və dini tolerantlıq, dözümlülük həm ölkəmizi zənginləşdirir, həm də başqa bölgələr üçün nümunə ola bilər.

Siyasətimizin əsas istiqamətləri ondan ibarətdir ki, biz güclü iqtisadi potensial yaratmalıyıq, siyasi islahatları davam etdirməliyik, demokratikləşmə, insan hüquqları məsələlərində böyük nailiyyətlər əldə etməliyik, cəmiyyətdə sosial ədalət prinsipini bərqərar etməliyik və beynəlxalq müstəvidə özümüzə mənsub olan yeri tutmalıyıq. Bütün bu məqsədlərə nail olmaq üçün Fransa ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük ehtiyac var. Sadaladığım bütün bu məsələlərdə biz uğurlu əməkdaşlıq edirik.

Bir sözlə, Azərbaycan ötən 15 il ərzində öz dövlət müstəqilliyini təsdiq edib, iqtisadi potensialını möhkəmləndirib və Avropa ilə inteqrasiya siyasətini davam etdirir. Bizim çox gözəl iqtisadi perspektivlərimiz var. Dünya Bankının verdiyi məlumata görə, növbəti 20 il ərzində təkcə neft əməliyyatlarından ölkəmiz 140 milyard dollar qazanc əldə edəcəkdir. Bu vəsaitdən istifadə edib biz Azərbaycanı hərtərəfli inkişaf etdirəcək, müasirləşdirəcək və dünyanın inkişaf etmiş ölkəsinə çevirəcəyik.

Ancaq bununla bərabər, bu məqsədlərə çatmaq üçün təbii ki, bizim regionda sülh, təhlükəsizlik bərqərar olunmalıdır. Əfsuslar olsun ki, hələ buna nail ola bilməmişik və regional məsələlərə ən böyük təhlükə Ermənistanın Azərbaycana 15 ilə yaxın davam edən təcavüzüdür. Bu təcavüzün nəticəsində azərbaycanlılara qarşı edilən etnik təmizləmə siyasətidir və torpaqlarımızın 20 faizinin işğal olunmasıdır, 1 milyondan artıq azərbaycanlının qaçqın-köçkün vəziyyətinə düşməsidir. Biz tələb edirik ki, ərazi bütövlüyümüz bərpa olunsun. Azərbaycanın ərazi bütövlüyü bütün dünya ictimaiyyəti tərəfindən tanınır və dəstəklənir. Birləşmiş Millətlər Təşkilatı tərəfindən və bütün beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir və tanınır və təbii olaraq, biz tələb edirik ki, ərazi bütövlüyümüz bərpa olunsun. XXI əsrdə bir ölkənin başqa bir ölkənin ərazisini işğal etməsi və 15 ilə yaxın müddətdə işğal altında saxlaması dözülməz və qəbuledilməzdir. Ermənistan–Azərbaycan münaqişəsinin həlli işində Fransa çox fəal iştirak edir və bu fəallığa görə biz Fransa rəhbərliyinə öz minnətdarlığımızı bildirmək istəyirik. Mən ümid edirəm ki, Cənubi Qafqazda mövcud olan bütün münaqişələr öz həllini tapacaq, bütün separatçı qüvvələr öz əməllərindən əl çəkəcək və nəhayət, bölgəmizə sülh gələcəkdir.

Əziz dostlar, mən bir daha demək istəyirəm ki, Fransa bizim üçün dost, tərəfdaş ölkədir. Bunu müxtəlif məsələlərlə, misallarla sübut etmək olar. Mən sizin vaxtınızı almaq istəmirəm. Bir məsələni deyə bilərəm ki, prezident vəzifəsinə seçiləndən sonra mən ilk rəsmi səfərimi 2004-cü ilin yanvar ayında Fransaya etmişəm. Ondan sonra da ölkənizdə dəfələrlə olmuşam, indi isə dövlət səfərindəyəm. Bu gün cənab merlə söhbət əsnasında biz qeyd etdik ki, Parislə Bakı arasında münasibətlər də Fransa–Azərbaycan münasibətləri səviyyəsinə qalxmalıdır və yəqin ki, yaxın zamanlarda biz buna nail olacağıq.

Əziz dostlar, mənə və nümayəndə heyətinə göstərdiyiniz diqqətə, məhəbbətə və qonaqpərvərliyə görə sizə bir daha

ürəkdən minnətdarlığımızı bildirmək istəyirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev salona toplaşan Fransa ictimaiyyətinin nümayəndələri, eləcə də, diplomatik korpusun nümayəndələri ilə görüşüb səmimi söhbət etdi. Onlar Azərbaycanda gedən iqtisadi proseslərlə maraqlandılar və ölkənin iqtisadi inkişafı, Avropaya inteqrasiya, demokratik cəmiyyət qurulması istiqamətində prezident İlham Əliyevin səylərini yüksək qiymətləndirdilər və onunla görüşməkdən məmnun olduqlarını söylədilər.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*Paris,*
*«Matinyon» sarayı*

*30 yanvar 2007-ci il*

## Sənədlərin imzalanma mərasimi

*Yanvarın 30-da Parisdə «Matinyon» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Fransanın Baş naziri Dominik de Vilpenin iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında əməkdaşlıq memorandumu»nu, «Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Fransa Respublikasının Mədəniyyət və Kommunikasiya Nazirliyi arasında muzey işi sahəsində əməkdaşlığa dair protokol»u, «Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası və Fransa Milli Kitabxanası arasında qarşılıqlı əməkdaşlıq haqqında memorandum»u Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Fransa tərəfindən bu ölkənin Xarici İşlər naziri Filipp dü Biazi imzaladılar.*

*«Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Fransa tərəfindən bu ölkənin Turizm naziri İv Bertran imzaladılar.*

*«Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Fransa Respublikasının*

*Əmək, Sosial Bərabərlik və Yaşayış Nazirliyi arasında iki-tərəfli əməkdaşlıq haqqında inzibati razılaşma»nı Azərbaycan tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova, Fransa tərəfindən bu ölkənin Əmək, Sosial Bərabərlik və Yaşayış naziri Katrin Dotrin imzaladılar.*

*«Azərbaycan Respublikası hökuməti və Fransa Respublikası hökuməti arasında mülki müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq və yardım haqqında saziş»i Azərbaycan tərəfindən Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov, Fransa tərəfindən Ərazi və Abadlaşdırma naziri Nikola Sarkozi imzaladılar.*

*«Azərbaycan Respublikası Milli Elmlər Akademiyası və Fransa Respublikası Milli Elmlər, Araşdırmalar Mərkəzi arasında elmi əməkdaşlıq saziş»ini Azərbaycan tərəfindən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Fransa tərəfindən Milli Elmlər, Araşdırmalar Mərkəzinin rəhbəri xanım Tapi Roşinyak imzaladılar.*

*«Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Fransanın «KNİM» təşkilatı arasında razılaşma memorandumu»nu Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, Fransa tərəfindən «KNİM» təşkilatının rəhbəri Filip Suli imzaladılar.*

*Bu sənəd Bakı şəhəri ətrafındakı tullantılardan istifadə məqsədi daşıyır.*

*«Dörd ATR tipli təyyarənin alınması ilə bağlı «Azərbaycan Hava Yolları» Dövlət Konserni – Azal və ATR tipli təyyarələrin istehsalçı şirkəti arasında saziş»i Azərbaycan tərəfindən Konsernin Baş direktoru Cahangir Əsgərov, Fransa tərəfindən ATR şirkətinin icraçı direktoru Filip Bonyato imzaladılar.*

## Fransanın Baş naziri adından rəsmi nahar

*Yanvarın 30-da Fransanın Baş naziri Dominik de Vilpenin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və onun xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi nahar verildi.*

## Fransa Milli Assambleyasının sədri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Fransa parlamentinin aşağı palatasının – Milli Assambleyanın binasına gəlmişdir.*

*Burada Azərbaycan prezidentinin şərəfinə ancaq nadir dövlət başçılarına göstərilən hörmət və ehtiram əlaməti olaraq, süvari milli qvardiyaçılardan ibarət fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi binanın önündə Milli Assambleyanın sədri Jan-Lui Debre səmimiyyətlə qarşıladı.*

*Azərbaycanın və Fransanın dövlət bayraqları önündə xatirə şəkli çəkdirildikdən sonra prezident İlham Əliyev ilə Jan-Lui Debre arasında görüş oldu.*

*Milli Assambleyanın sədri dedi ki, Azərbaycan prezidentinin Fransaya dövlət səfərinin ikitərəfli əlaqələrin inkişafı baxımından böyük əhəmiyyəti var. Milli Assambleyada keçirilən görüş deputatlar, Fransanın iqtisadi strukturlarında məşğul olan iş adamları və digər insanlar üçün Azərbaycanda və regionda gedən proseslər barədə bilavasitə Sizdən məlumat almaq baxımından çox dəyərlidir.*

*Prezident İlham Əliyev dedi ki, son üç ildə Fransaya beş dəfə səfər etməyim Azərbaycanın bu ölkə ilə əlaqələrə böyük əhəmiyyət verdiyini göstərir. Siyasi sahədə əlaqələrimiz uğurla inkişaf edir, Fransa bizim üçün dost ölkədir. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişafında Fransanın rolunu qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə geniş əməkdaşlığın olduğunu xatırladaraq qeyd etdi ki, Fransaya ötən səfərim zamanı Tuluza şəhərində olduq və aerobus tipli təyyarələr aldıq. Bu gün imzalanan sənədə görə isə yeni ATR tipli təyyarələr alınacaqdır. Energetika və digər sahələrdə də əməkdaşlıq münasibətlərimizin inkişafını göstərir.*

*Söhbət zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Prezident İlham Əliyev Minsk qrupunun həmsədri kimi, Fransanın danışıqlar prosesində fəal*

*iştirakını və bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həllinə sadiq olduğunu yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Ermənistanın Azərbaycana qarşı təcavüzü, ermənilərin etnik təmizləmə siyasəti barədə danışdı, ərazilərimizin 20 faizinin işğal edildiyini, 1 milyon insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü bildirdi.*

*Görüşdə parlamentlərarası əlaqələrin genişlənməsinin əhəmiyyəti və bu baxımdan qarşılıqlı səfərlərin rolu vurğulandı. Bildirildi ki, əməkdaşlığın bundan sonra da genişlənməsi üçün yaxşı imkanlar vardır.*

## «Qaz de France» şirkətinin prezidenti ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda Fransanın «Qaz de France» şirkətinin prezidenti və Baş direktoru Jan Fransua Sireli ilə görüşmüşdür.*

*Jan Fransua Sireli rəhbərlik etdiyi şirkətin fəaliyyəti və gördüyü işlər haqqında dövlətimizin başçısına məlumat verərək, Azərbaycan ilə əməkdaşlığı genişləndirmək istədiyini bildirdi.*

*Prezident İlham Əliyev bu şirkətlə əməkdaşlığa müsbət baxdığını söyləyərək, birgə işlərin görülməsi üçün yaxşı imkanların olduğunu vurğuladı.*

## «VİNCİ» şirkəti idarə heyətinin sədri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da Parisdə onun üçün ayrılmış iqamətgahda Fransanın «VİNCİ» şirkətinin idarə heyətinin sədri İv Tibo Silqi ilə görüşmüşdür.*

*İv Tibo Silqi Azərbaycan prezidentinin Fransaya dövlət səfərini yüksək qiymətləndirərək, onu çox gözəl və tarixi hadisə adlandırdı.*

*Görüşdə səfər zamanı imzalanmış sənədlərin ikitərəfli əlaqələrin gələcək inkişafına böyük təkan verəcəyi vurğulandı.*

*«VİNCİ»-nin idarə heyətinin sədri Azərbaycan ilə əməkdaşlığa üstünlük verdiyini və bu baxımdan konkret layihələrin olduğunu söylədi.*

*Prezident İlham Əliyev ölkəmizdə xarici şirkətlər, iş adamları üçün hər cür şəraitin yaradıldığını bildirdi.*

## «Sosiete Generale» şirkətinin baş icraçı direktoru ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda «Sosiete Generale» şirkətinin Baş icraçı direktoru Daniel Buton ilə görüşmüşdür.*

*Görüşdə «Sosiete Generale» şirkətinin Azərbaycanla yaxşı əməkdaşlıq qurduğu vurğulandı. Eyni zamanda bildirildi ki, əlaqələrin daha da genişləndirilməsi üçün şirkət konkret işlər görür və artıq bir sıra layihələri maliyyələşdirir. Nəzərdə tutulan yeni layihələrə də sərmayə qoyulacaq və Azərbaycanın bank sektorunda müəyyən işlər görüləcəkdir.*

## «BNP paribas» bankının direktorlar Şurasının sədri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda Fransanın ikinci ən böyük bankı olan «BNP Paribas»ın direktorlar Şurasının sədri Mişel Pebero ilə görüşmüşdür.*

*Azərbaycan prezidentinin Fransaya dövlət səfərinin əhəmiyyətini vurğulayan Mişel Pebero bankın fəaliyyəti barədə məlumat verdi.*

*Görüşdə ölkələrimiz arasında əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev «BNP Paribas»ın Azərbaycanda bir sıra layihələri maliyyələşdirdiyini xatırladaraq dedi ki, bundan sonra qeyri-neft sektoruna da sərmayə qoyulması məqsədəuyğun olardı. Eyni zamanda, Azərbaycanda gedən iqtisadi proseslərə təkan verə bilən sahələr üzrə də fəaliyyət mümkündür.*

## NATO Parlament Assambleyasının sədri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 30-da onun üçün ayrılmış iqamətgahda NATO Parlament Assambleyasının sədri Pyer Löluş ilə görüşmüşdür.*

*Pyer Löluş Fransada keçiriləcək prezident seçkiləri ərəfəsində bu ölkədə gedən proseslər, seçkilərə hazırlıq barədə dövlətimizin başçısına məlumat verdi.*

*Görüşdə bir sıra regional məsələlərə dair geniş fikir mübadiləsi aparıldı.*

## FRANSA SENATI SƏDRİNİN ADINDAN ZİYAFƏT

*Paris*

*30 yanvar 2007-ci il*

*Fransa Senatının sədri Kristian Ponsölenin adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə ziyafət verilmişdir.*

*Dövlətimizin başçısı İlham Əliyev Fransa Senatına gəldi. Burada Azərbaycanın və Fransanın dövlət bayraqları asılmış, fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Fransa Senatının sədri Kristian Ponsöle böyük hörmət və ehtiramla, səmimiyyətlə qarşıladı.*

*Azərbaycan prezidenti və Fransa Senatının sədri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Sonra Fransa Senatının sədri Kristian Ponsölenin adından Azərbaycan prezidentinin və xanımının şərəfinə ziyafət verildi.*

*Senatın üzvləri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Fransa Senatının sədrinə təqdim olundu.*

*Fransa Senatının sədri və Azərbaycan prezidenti ziyafətdə nitq söylədilər.*

### Fransa Senatının sədri Kristian Ponsölenin nitqi

Cənab Azərbaycan Respublikasının Prezidenti!
Çox hörmətli xanım Əliyeva!
Cənab nazirlər!
Cənab senatorlar və əziz həmkarlar!
Cənab səfirlər!

Zati-aliləri, xanımlar və cənablar, artıq gördüyünüz kimi, bu axşam buraya müxtəlif sahələrdən olan, lakin bir-biri ilə sıx dostluq əlaqələri qurmuş məsuliyyətli şəxslər toplaşmışdır. Mən buraya toplaşan böyük fransız–Azərbaycan ailəsini görməkdən olduqca məmnunam. Sizləri görməkdən və sizə əziz dostlar kimi müraciət etməkdən çox şadam.

Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

İlk öncə, cənab Prezident, icazə verin son illər ərzində, xüsusən də 2004-cü ilin yanvar ayında xaricə, Fransaya ilk səfəriniz çərçivəsində Sizinlə görüşdüyümüz tarixi salonda Sizi yenidən qəbul etməkdən məmnun olduğumu bildirim. Bu, ölkə başçısı kimi, Sizin ilk rəsmi səfərinizdir və biz bunu olduqca yüksək qiymətləndiririk. Mən Sizin və xanımınızın müşayiəti ilə burada, Senat sədrinin salonunda keçirilən yeni görüşü əlaqələrimizin möhkəmləndirilməsinə sadiqliyinizin rəmzi və dostluq əlaməti kimi dəyərləndirirəm.

Cənab Prezident, ölkələrimiz arasında mövcud olan münasibətlər gözəldir. Apardığımız siyasi dialoq zəngin və genişdir. Bu iş məni çox sevindirir, çünki əminliyin bəzən tərəddüdlə əvəz olunduğu bir vaxtda dünyada sabitliyi, tarazlığı və təhlükəsizliyi arzulayan ölkələr arasında əməkdaşlığın aparılması böyük əhəmiyyət daşıyır.

Parlamentlərarası əməkdaşlığımız fəaldır, qarşılıqlı səfərlər dövri xarakter daşıyır. Onun dinamik inkişafı əsasən Fransa–Qafqaz parlamentlərarası qrupunun sədri, burada əyləşən həmkarımız və dostumuz Ambruaz Düponun fəaliyyəti ilə bağlıdır. Mədəni əlaqələrimiz inkişaf edir və Senat hazırkı mədəni mübadilələrimizin tanınmış qüvvəsi olan Bakıda Fransa Mədəniyyət Mərkəzinin yaradılması layihəsini dəstəkləməyindən qürur hissi duyur. Bildiyiniz kimi, həmin mərkəz Senatın təşəbbüsü ilə təsis edilmişdir və mən çox şadam ki, onun fəaliyyəti uğurludur və o, münasibətlərimizin inkişafına xidmət edir.

Aydındır ki, iqtisadi əlaqələrimiz siyasi münasibətlərimiz səviyyəsində deyil, lakin bu qeyri-tarazlığın aradan qaldırıl-

ması üçün hər iki tərəfdən böyük səylərin göstərildiyini bilirəm. Bu baxımdan, cənab Prezident, icazə verin, Sizin həmçinin bu məqsədə nə qədər yüksək dərəcədə nail olmağa çalışdığınızı vurğulayım. Ötən ilin dekabr ayında fransız sahibkarlardan ibarət nümayəndə heyətini şəxsən qəbul etdiniz və hazırkı səfəriniz çərçivəsində artıq bir neçə müqavilə imzalanmışdır. İqtisadiyyatının şaxələndirilməsi yolunda böyük səylər göstərən və 2005-ci ildə 26 faiz iqtisadi artım göstəricisi ilə seçilən Azərbaycana fransız müəssisələrinin artan marağını müşahidə etməkdən şadam.

Cənab Prezident, əziz dostum!

Azərbaycan elə burada qəbul etmək şərəfinə nail olduğum rəhmətlik atanızın rəhbərliyi altında, indi isə Sizin rəhbərliyinizlə çox dəyişikliklərdən keçmişdir. Lakin özünün ənənəvi dəyərlərini, dini dözümlülüyünü və nəhayət, hələ 1918-ci ildə qadınlara seçki hüququ verərək onların mövqeyini möhkəmləndirmək əzmini qoruyub saxlaya bilmişdir. Təbii, biz bunu etiraf etməliyik ki, siz qadın ilə kişi arasındakı bərabərliyi bizdən öncə tanımısınız.

İrəliyə doğru atılmış bu cür gözəl addımla yanaşı, təhdidlər hələ də qalmaqdadır. Söhbət sülhdən gedir. Bildiyiniz kimi, Fransa Senatı – icazə verin, mən bunu bir daha xatırladım – Cənubi Qafqazda münaqişələrin aradan qaldırılmasına öz fəal töhfəsini verir. Fransa Senatının sədri olduğum vaxtdan etibarən mən cənubi Qafqazın üç parlamenti arasında əməkdaşlıq və müzakirələrin aparılması məqsədi ilə şəxsən çalışmışam. 1999-cu ilin dekabr ayında Versalda təşkil etdiyim ilk görüşdən sonra bir çox bu cür toplantılar keçirilmişdir. Göstərilmiş səylər turizm və mədəni irsin qorunması sahələrində regional əməkdaşlığı inkişaf etdirmək qərarı ilə nəticələndi. Bu məqsədlə hesabatlar hazırlanmış və hər bir tərəfə göndərilmişdir. Biz Senatda ümid edirik ki, onlar gələn aylar ərzində hamı tərəfindən müzakirə olunacaqdır. Bilirəm ki, sülhün bərqərar olunmasına sadiqliyi ilə tanınan ölkənizin dəstəyinə arxalana bilərəm. Münaqişələrin ədavət və güc hesabına həllinin mümkünsüzlüyünü anlamaq

nəinki vətəndaşların, o cümlədən siyasətçilərin ən böyük məsuliyyətidir. Sülh gələcəkdir. Biz onu bir çox zamanlar faydasız olan, əsrlər boyu aparılmış müharibələr və münaqişələrdən sonra Avropada hiss etmişik.

Xüsusən Minsk qrupu daxilində çalışan və daimi sadiqliyinə bələd olduğunuz Fransa və Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində ölkənizlə tədbirlər planı imzalamış bütün Avropa hələ də həll olunmamış Dağlıq Qarabağ münaqişəsinin qəti və razılaşdırılmış formada nizamlanmasında sizin tərəfinizdə olacaqdır. Mən belə ümidlərə əlavə əsasları görürəm.

Yekun olaraq icazə verin bu badəni xalqlarımız arasındakı dostluğun şərəfinə, Sizin və xanım Əliyevanın şərəfinə qaldırım.

Yaşasın Azərbaycan!

Yaşasın Fransa!

Yaşasın Fransa–Azərbaycan dostluğu!

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab sədr!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mənim Fransaya dövlət səfərim başa çatmışdır. Sabah mən Vətənə qayıdacağam. Deyə bilərəm ki, səfər çox uğurlu keçmişdir və səfərdən sonra ikitərəfli münasibətlərin inkişafı üçün də böyük işlər görüləcəkdir. Bu səfər Fransa–Azərbaycan münasibətlərinin inkişafında çox önəmli rol oynayacaqdır. Səfər zamanı keçirilən danışıqlar, fikir mübadiləsi, imzalanmış sənədlər bizim ölkələrimizi bir-birinə daha da sıx bağlayacaqdır. İkitərəfli münasibətlər çoxşaxəlidir. Çox şadam ki, Fransa Senatının bu münasibətlərin inkişafında çox böyük rolu vardır və Azərbaycanda bunu çox yaxşı bilirlər.

Hörmətli cənab sədr, Sizin bu işlərdə fəal iştirakınız Azərbaycanda çox böyük rəğbətlə qarşılanır. Siz Azərbaycanın dostu kimi, təbii olaraq çalışırsınız ki, həm Fransa–

Azərbaycan münasibətləri daha sürətlə inkişaf etsin, həm də bizim yaşadığımız bölgədə, Cənubi Qafqazda tezliklə sülh, təhlükəsizlik tam şəkildə bərqərar olunsun. Bizim siyasi münasibətlərimiz – şübhəsiz, bunu haqlı olaraq qeyd etdiniz – ən yüksək səviyyədədir. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərində Fransanın çox böyük rolu vardır və bu dəstəyə görə mən Fransa hökumətinə, Senata, bütün dostlarımıza minnətdaram.

Azərbaycanın Avropa təşkilatları ilə səmərəli əməkdaşlığı, davam edən işbirliyi həm bizim üçün çox böyük əhəmiyyət kəsb edir, eyni zamanda Avropanın enerji təhlükəsizliyi üçün də önəmli yer tutur. Mən bilirəm ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış yeni qonşuluq proqramının həyata keçirilməsində Fransanın çox böyük rolu olmuşdur. Ümid edirəm ki, növbəti beş il ərzində Azərbaycanda mövcud olan vəziyyət, meyarlar Avropa meyarlarına daha da yaxın olacaqdır.

Bununla bərabər, üç ay bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Bu memorandumun icrası nəticəsində Azərbaycanın zəngin neft-qaz ehtiyatları, o cümlədən Avropa istiqamətinə nəql olunacaq və beləliklə, bizim əməkdaşlığımız daha da geniş şəkildə davam edəcəkdir.

Fransa böyük dövlətdir, Avropanın aparıcı ölkəsidir, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvüdür. Bir sözlə, dünyada gedən proseslərə Fransanın çox böyük təsiri var. Əlbəttə ki, Fransanın beynəlxalq gündəliyi də çox genişdir. Bizim üçün çox vacibdir ki, bölgəmizdə, xüsusilə Cənubi Qafqazda mövcud olan münaqişələrin həllində Fransanın çox böyük rolu var və ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransa səmimi olaraq çalışır ki, bölgədə sülh bərpa edilsin.

Hər bir münaqişənin həlli üçün başlıca amil beynəlxalq prinsiplərin qorunub saxlanmasıdır. Azərbaycanın ərazi bütövlüyünü tanıyan ölkə kimi, Fransa münaqişənin həllinə öz dəyərli töhfəsini verir. Biz istəyirik ki, münaqişənin həllində, ilk

növbədə, beynəlxalq hüquq prinsipləri əsas götürülsün və eyni zamanda, ədalət bərpa olunsun. Çünki bizim torpaqlarımızın uzun illər ərzində işgal altında qalması həm beynəlxalq hüquq normalarının, eyni zamanda, ədalətin pozulmasıdır.

Bizim münasibətlərimizin qısa, ancaq çox zəngin tarixi vardır. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Fransa bizim müstəqilliyimizi tanıyan ilk ölkələrdən biri olmuşdur. Ancaq bizim strateji əməkdaşlığımız 1993-cü ilin sonunda başlamışdır. O vaxt Heydər Əliyev prezident vəzifəsinə seçiləndən iki ay sonra ilk rəsmi səfərini Fransaya etmişdi və o gündən bu günə qədər bizim münasibətlərimiz sürətlə inkişaf edir. Azərbaycanda insanlar ənənələrə çox sadiq olurlar və bu gözəl ənənəni biz də yaşadırıq. Mən də 2003-cü ilin oktyabr ayında prezident vəzifəsinə seçiləndən üç ay sonra ilk rəsmi səfərimi Fransaya etmişdim. Bu həm ənənələrə sədaqətimizi əks etdirən amildir, eyni zamanda, bizim xarici siyasətimizin əlamətidir. O vaxtdan bu günə qədər, üç il ərzində mən Fransada dəfələrlə olmuşam və hər dəfə, əziz dostum, Sizinlə görüşmüşük, çox dəyərli fikir mübadiləsi aparmışıq. Hər dəfə Sizinlə görüşmək mənim üçün çox xoşdur. Ölkələr arasında münasibətlər müxtəlif amillərə söykənir. Onlardan biri də dostluqdur, mehribançılıqdır, o da bizim aramızda var.

Hörmətli cənab sədr, bu badəni Sizin şərəfinizə qaldırmaq istəyirəm. Fransa–Azərbaycan əlaqələrinin şərəfinə qaldırmaq istəyirəm.

Yaşasın Fransa!

Yaşasın Azərbaycan!

* * *

*Ziyafətdən sonra prezident İlham Əliyev Senatın Xatirə kitabını imzaladı.*

*Dövlətimizin başçısına və xanımına Fransa Senatı adından xatirə hədiyyəsi təqdim edildi.*

*Azərbaycan prezidenti cənab Kristian Ponsöleyə yadigar olaraq hədiyyə təqdim etdi və xatirə şəkli çəkdirildi.*

# FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN İŞGÜZAR ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*31 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Fransa paytaxtının «Paris-Nord» vağzalından yüksək sürətli «TGV» qatarı ilə ölkənin ən şimalında yerləşən Nord-Pa-de-Kale regionunun baş şəhəri olan Lillə gəlmişdir. Prezident İlham Əliyevi dəmir yolu vağzalında Nord-Pa-de-Kale regional Şurasının sədri Daniel Perşeron qarşıladı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Fransanın şimalında yerləşən Nord-Pa-de-Kale regionunun baş şəhəri olan Lilldə bu bölgənin iş adamları ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı regionun Ticarət Palatasına gəldi. Binanın qarşısında prezident İlham Əliyevi palatanın sədri Patrik Van den Şrik böyük hörmət və ehtiramla qarşıladı. O, palatanın tarixi və fəaliyyəti barədə dövlətimizin başçısına məlumat verərək dedi ki, Palatanın yerləşdiyi bina 1910-cu ildə bu bölgədə toxuculuqla məşğul olan iş adamları tərəfindən tikilmişdir, geniş salonları və iş otaqları vardır. Ticarət Palatası əsasən regionun iş adamlarının istər ölkə daxilində, istərsə də xaricdə fəaliyyəti üçün lazımi məsləhətlər verir.*

*Sonra Ticarət Palatasının iclas salonunda regionun işgüzar adamları ilə görüş keçirildi. Patrik Van den Şrik görüşü açaraq, ali qonağı və onu müşayiət edən şəxsləri bir daha salamladı. O dedi ki, Azərbaycan prezidenti İlham Əliyevin Lill şəhərinə gəlməsi bizim üçün böyük və əlamətdar hadisədir, son bir neçə ildə biz belə yüksək qonaq qarşılamamışdıq. Ticarət palatasının sədri işgüzar dairələrin nümayəndələrini təqdim*

*edərək bildirdi ki, Lill şəhəri Fransanın sənaye mərkəzlərindən biridir.*

*Əvvəllər toxuculuq üzrə tanınan bu regionun böyük iqtisadi potensialı vardır. Burada müxtəlif sahələr üzrə bir çox nüfuzlu şirkətlərin, universitetlərin elmi-tədqiqat mərkəzləri də yerləşir. Coğrafi baxımdan əlverişli məkanda yerləşən regionun iş adamları Böyük Britaniya, Hollandiya, Belçika, Almaniya və Avropanın digər ölkələri ilə geniş əlaqələr qurmuşlar və onların 100 milyonadək istehlakçısı vardır. Fransanın, o cümlədən bu bölgənin iş adamları Azərbaycanla da əməkdaşlığa böyük maraq göstərirlər. Bu həm işgüzar dairələrin nümayəndələri, həm də ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsi üçün çox əhəmiyyətlidir. Patrik Van den Şrik dövlətimizin başçısına regiona gəldiyinə, görüşdə iştirak etməklə onlara böyük şərəf verdiyinə görə bir daha təşəkkür etdi və bu görüşün birgə əməkdaşlıq üçün səmərəli olacağına əminliyini bildirdi.*

*Prezident İlham Əliyev görüşdə nitq söylədi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mənim Fransaya dövlət səfərim başa çatır. Bu günlər ərzində ölkələrimiz arasında olan əlaqələr yeni təkan almışdır. Səfər günlərində geniş danışıqlar aparılmış, iki ölkə arasında iqtisadi, mədəni və digər sahələrin inkişafı üçün lazım olan sənədlər imzalanmışdır. Deyə bilərəm ki, bu səfərdən sonra Fransa–Azərbaycan münasibətləri yeni pilləyə qalxmışdır. Ölkələrimiz arasında mövcud olan gözəl siyasi əlaqələr, təbii ki, iqtisadi sahədə işlərin görülməsinə kömək göstərir və biz ümid edirik ki, Fransa–Azərbaycan ticarət əlaqələri də sürətlə inkişaf edəcəkdir.

Sizə deyə bilərəm ki, artıq neçə ildir Fransanın tanınmış, aparıcı şirkətləri Azərbaycanda işləyir, sərmayə qoyur, müxtəlif layihələr üzərində çalışırlar və biz onların Azərbaycandakı fəaliyyətini çox yüksək qiymətləndiririk. Mən ümid edirəm ki, bu səfərdən sonra Fransa şirkətləri Azərbaycanda

daha da fəal işləyəcəklər və beləliklə, bizim iqtisadi əlaqələrimiz daha da möhkəmlənəcəkdir. Eyni zamanda, Fransanın regionları ilə Azərbaycan arasında mümkün olan əlaqələrin inkişafı üçün də gözəl imkanlar vardır. Mən çox şadam ki, səfər zamanı sizin regiona – Nord-Pa-de-Kale regionuna gəlmişəm və əminəm ki, bu səfərdən sonra bu regiondan olan iş adamları da Azərbaycana gələcəklər və biz birlikdə işləyəcəyik.

İndi Azərbaycanda bizneslə məşğul olmaq çox əlverişli iş olubdur. Azərbaycanda çox gözəl investisiya mühiti var və son 10 il ərzində ölkə iqtisadiyyatına 33 milyard dollar sərmayə qoyulmuşdur. Bizim tərəfdaşlarımız dünyanın aparıcı şirkətləridir. Onların böyük əksəriyyəti, əlbəttə ki, energetika sektorunda fəaliyyət göstərir. Amma biz istəyirik ki, böyük şirkətlər, o cümlədən Fransa şirkətləri iqtisadiyyatın digər sahələrində də işləmək üçün Azərbaycana gəlsin. Çünki bir daha demək istəyirəm ki, iş görmək, gözəl iqtisadi imkanlar əldə etmək üçün Azərbaycanda çox yaxşı şərait vardır.

Azərbaycanda iqtisadi inkişaf da çox sürətlə gedir və bu baxımdan ölkəmiz dünyada birinci yeri tutur. 2005-ci ildə iqtisadiyyatımız 26 faiz, 2006-cı ildə isə 35 faiz artmışdır. Çox güman ki, bu il də iqtisadi artım təxminən eyni səviyyədə olacaqdır. Beləliklə, üç il ərzində Azərbaycanda ümumi daxili məhsul 2 dəfə artacaqdır. Əlbəttə ki, bu, investisiyaların qoyuluşu üçün də çox önəmli məsələdir və biz gözəl investisiya mühitindən istifadə edib dünyanın müxtəlif yerlərindəki şirkətlərlə səmərəli əməkdaşlıq edirik. Bir də demək istəyirəm ki, Fransa şirkətlərinin bu işlərdə xüsusi yeri vardır. Biz, sadəcə, istəyirik ki, daha da fəal olsunlar.

Dövlətimizin gəlirləri artır, büdcəmiz artır və beləliklə, növbəti illərdə Azərbaycanda çoxlu layihələr həyata keçiriləcəkdir. Bizim ölkəmiz müasirləşir. İnfrastruktur layihələr böyük sərmayə qoymaq fikrindəyik. Tikinti işlərində böyük layihələr nəzərdə tutulur. Fransa şirkətlərinin böyük təcrübəsi, şöhrəti var və onlar bu gözəl imkanlardan faydalana bilərlər.

Əgər Fransa şirkətləri Azərbaycanda investor kimi fəaliyyət göstərmək istəsələr, biz buna çox sevinərik. Əgər kontraktçı kimi işləmək istəsələr, bunun üçün də imkanlar var. Çünki bir daha bildirmək istəyirəm ki, gələn illərdə Azərbaycanda, demək olar, iqtisadiyyatın bütün sahələrinə dövlət xətti ilə böyük sərmayələr qoyulacaqdır. Biz sadəcə, istəyirik ki, bu işləri yaxşı şirkətlər ən yüksək səviyyədə görsünlər.

Hər bir iqtisadi uğurun əsasında siyasi sabitlik məsələləri dayanır. Əgər Azərbaycanda siyasi sabitlik olmasaydı, biz heç vaxt ölkəmizə bu qədər xarici sərmayə gətirə bilməzdik. Potensial investorlar üçün bu amil də çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan siyasi cəhətdən çox sabit ölkədir. Artıq Azərbaycanın həm regional, həm siyasi, həm də iqtisadi məsələlərdə aparıcı rolu vardır. Bizim tərəfimizdən və xarici tərəfdaşlarla birlikdə inşa edilmiş neft-qaz kəmərləri Azərbaycanın təbii sərvətlərini Avropa və dünya bazarlarına çatdırır. Azərbaycan Avropanın enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə başlamışdır.

Bizim Fransa ilə olan əlaqələrimizin bir hissəsi də Avropa İttifaqı–Azərbaycan əlaqələri çərçivəsində həyata keçirilir. Avropa İttifaqı ilə keçən ilin noyabr ayında imzalanmış «Yeni qonşuluq siyasəti»nə dair müqavilə ölkəmizi Avropaya daha da yaxınlaşdıracaqdır. Yəni bütün bu amillər, əlbəttə ki, bütövlükdə Azərbaycanın gələcək inkişafını müəyyən edəcək, Avropa ilə Azərbaycan arasında mövcud olan çox gözəl əlaqələri daha da möhkəmləndirəcək, Azərbaycanı Avropa üçün çox möhkəm tərəfdaşa çevirəcək və beləliklə, bizim həm siyasi, iqtisadi, həm də başqa sahələrdə olan münasibətlərimiz genişlənəcəkdir. Fransanın böyük şirkətləri, transmilli şirkətlər, əlbəttə ki, bu imkanlardan istifadə edirlər, Azərbaycanda olan vəziyyətlə tanışdırlar. Biz istəyirik ki, orta səviyyəli şirkətlər, orta təbəqənin maraqlarını əks etdirən şirkətlər Azərbaycanda işləsinlər və beləliklə, əlaqələrimiz daha da möhkəmlənsin. Çünki siz də bunu yaxşı bilirsiniz ki, inkişaf etmiş ölkələrdə iqtisadi potensialın formalaşması işində orta səviyyəli şirkətlər əksəriyyət təşkil edir.

Mən çox istərdim ki, Fransanın regionlarında fəaliyyət göstərən, xüsusilə sizin regionda işləyən şirkətlər Azərbaycanı tanısınlar, özləri üçün kəşf etsinlər, Azərbaycana gəlsinlər və bizimlə işləsinlər. Ümid edirəm ki, bu görüşdən sonra biz bunun şahidi olacağıq.

Bir məsələni də demək istəyirəm ki, bu səfər zamanı mənə və bizim nümayəndə heyətinə çox böyük hörmət, böyük qonaqpərvərlik göstərilmişdir. Mən Fransanın ən yüksək ordeni ilə təltif olunmuşam. Bu mənim üçün çox böyük şərəfdir. Bu bir daha göstərir ki, bizim aramızda olan əlaqələr səmimidir, dostluq əsasında qurulubdur, uzunmüddətlidir, iki ölkə üçün faydalıdır və Fransa–Azərbaycan xalqları üçün əhəmiyyətlidir. Mən bu fürsətbən istifadə edib sizin hamınızı Azərbaycana dəvət edirəm.

* * *

*Sonra Fransanın «Eurosasd», «Euroteks», «Mod-Material», «Tekmipol Lill Metropol», «Transport Terrestr Promosyon» şirkətlərinin nümayəndələri çıxış etdilər, təmsil etdikləri şirkətlər barədə məlumat verdilər.*

*Onlar əsasən kənd təsərrüfatı, səhiyyə, yüngül sənaye, mebel, məişət əşyaları istehsalı, istehsal müəssisələri üçün yeni texnologiyaların hazırlanması, elmi - tədqiqat işlərinin görülməsi, rabitə və informasiya texnologiyaları, şəhər nəqliyyatı, yükdaşıma və digər sahələrdə fəaliyyət göstərdiklərini söylədilər, Azərbaycanda da işləmək istədiklərini bildirdilər.*

**Daniel Perşeron** (*Nord-Pa-de-Kale Regional Şurasının sədri*): Biz yüksək səviyyəli xalqın təmsilçilərinin – Azərbaycan prezidenti İlham Əliyevin və nümayəndə heyəti üzvlərinin bu görüşdə iştirakını özümüz üçün böyük şərəf və tarixi hadisə olduğunu hesab edirik. Cənab Prezident, biz Sizi bu gözəl salonda dərin hörmət və ehtiram hissi ilə salamlayırıq. Mən ona görə böyük hörmət və ehtiramla deyirəm ki, Sizin dərin hörmət bəslədiyim, tarixi və mədə-

niyyəti qarşısında baş əydiyim xalqınız vardır. Mən əvvəllər Türkiyədə çalışdığım zaman bütün bunları dərindən öyrənmişəm, şahidi olmuşam. Fransanın bu şimal bölgəsi zəngin sənaye potensialına malikdir. Siz siyasi iradəniz, təcrübəniz və gücünüzlə ölkənizdə iqtisadi sərbəstliyə, iqtisadi artıma nail olmusunuz və xalqlar arasında əməkdaşlığa üstünlük verirsiniz.

İqtisadi dirçəliş üçün möhkəm sabitliyin olduğunu və inkişaf edən ölkə kimi, həmçinin «qara qızıl» və digər sərvətlərlə zəngin Azərbaycanda yaradılmış sərmayə mühitindən Fransa şirkətlərinin də faydalanmasının vacibliyini və bunun hər iki tərəf üçün sərfəli olacağını vurğulayıram. Mən yüksək səviyyəli siyasi lider kimi, prezident İlham Əliyevin fəaliyyətini bir daha təqdir edirəm.

**İ l h a m Ə l i y e v:** Mən xoş sözlərinizə görə, bizə göstərilən qonaqpərvərliyə görə sizə ürəkdən təşəkkür edirəm. Biz sizinlə ilk dəfədir görüşürük və ilk dəfədir ki, sizin regiona səfər edirik. Amma əminəm ki, məndə və nümayəndə heyətinin hər bir üzvündə belə bir təəssürat var ki, biz bir-birimizi çoxdan tanıyırıq. Bu çox önəmli məsələdir və hər bir uğurlu layihənin həyata keçirilməsi üçün başlıca şərtdir. İnsanlar arasında olan münasibət, qarşılıqlı maraq və xoş niyyət, Fransa–Azərbaycan münasibətləri, Fransa və Azərbaycan xalqlarının dostluğu, əlbəttə ki, bütün gələcək layihələri həyata keçirəcəkdir.

Mən bu görüşə gələn bütün insanlara, xüsusilə burada öz fəaliyyəti haqqında məlumat verən dostlarımıza təşəkkürümü bildirirəm. Çox maraqlı məlumat verdilər. Əminəm ki, gələcəkdə biz perspektivi görəcəyik.

* * *

*Palatanın sədri Patrik Van den Şrik Azərbaycan prezidenti ilə keçirilən bu görüşün çox faydalı nəticələr verəcəyini vurğuladı və dedi ki, bu görüş həm də gələcək görüşlərin və əməkdaşlığın təməlini qoydu.*

## FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN PREFEKTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nord-Pa-de-Kale regionu prefektliyinin binasına gəlmişdir.*

*Prefekt Daniel Kanepa dövlətimizin başçısını binanın önündə böyük hörmət və ehtiramla qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev ilə prefekt Daniel Kanepa arasında görüş oldu.*

*«Marifo» zalında keçirilən görüşdə Daniel Kanepa prezident İlham Əliyevin Fransaya dövlət səfərinin böyük maraqla izləndiyini, dövlətimizin başçısına bu regiona gəldiyinə görə dərin minnətdarlığını söylədi və bundan şərəf duyduqlarını vurğuladı. O, ümidvar olduğunu bildirdi ki, bu səfər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə təkan verəcəkdir.*

*Görüşdə Azərbaycan ilə Fransanın ayrı-ayrı bölgələri, o cümlədən çox böyük iqtisadi potensialı olan Nord-Pa-de-Kale regionu arasında iqtisadi əməkdaşlığın dərinləşməsinin və müxtəlif sahələr üzrə yeni əlaqələrin yaradılmasının faydalı olacağı vurğulandı.*

*Görüşdən sonra Fransanın Nord-Pa-de-Kale regionunun prefekti Daniel Kanepanın adından prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə nahar verildi.*

### Fransa Veteranlarının İşləri naziri Hamlaui Mekaşeranın çıxışı

Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Parisdə iki gün olduqdan sonra Siz bu regionun iqtisadi dairələri ilə görüşmək məqsədilə buraya səfər edirsiniz. Lill

şəhəri və Nord-Pa-de-Kale regionunun rəhbərləri bu gün Sizi qəbul etməkdən şərəf hissi duyurlar. Bu regionun hökuməti və siyasi, idarəçilik, iqtisadi və mədəni dairələri adından Sizə səmimi-qəlbdən «Xoş gəlmisiniz!» deyirəm.

Gördüyünüz kimi, region dinamik inkişaf edir. Parislə və digər Avropa ölkələrinin paytaxtları ilə yüksək sürətli qatarların birləşdirdiyi Lill şəhəri və Nord-Pa-de-Kale regionu milli iqtisadiyyatda xüsusi yer tutur və mühüm rol oynayır.

Cənab Prezident!

Hörmətli xanım Əliyeva!

Mən şübhə etmirəm ki, bu səfər ölkələrimizin qarşılıqlı marağına xidmət edən əlaqələrimizi daha da inkişaf etdirməyə imkan yaradacaqdır.

Sizi dünən «Zəfər Tağı» qarşısında qəbul etməkdən böyük şərəf hissi duydum. Naməlum əsgərin məzarına əklil qoyduqdan sonra Sizi siyasi, iqtisadi və mədəni məna daşıyan səfəriniz zamanı müşayiət etməkdən çox məmnun oldum.

Fransa ilə Azərbaycan arasında müasir əlaqələrin tarixinin qısa olmasına baxmayaraq, onlar qarşılıqlı hörmət və ehtirama əsaslanır. Cənab Prezident, xanım Əliyeva, mən bu səfərin nəticəsində münasibətlərimizin daha da möhkəmlənməsindən məmnunam.

Mən öz badəmi ölkələrimiz və xalqlarımız arasında formalaşmış dostluğun şərəfinə, habelə Sizin və xanım Əliyevanın şərəfinə qaldırmaq istəyirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab nazir!

Hörmətli prefekt və xanımı!

Xanımlar və cənablar!

Üç gün çox tez keçdi. Bu gün mənim Fransaya dövlət səfərimin üçüncü və sonuncu günüdür. Amma əminəm ki, bu qısa müddət ərzində görülən işlər Fransa–Azərbaycan münasibətlərinin inkişafı üçün çox böyük rol oynayacaqdır.

Azərbaycan müstəqil ölkə kimi gəncdir, biz müstəqilliyimizin 16-cı ilini yaşayırıq. Müstəqilliyimizi bərpa etdikdən

sonra Fransa–Azərbaycan münasibətləri çox sürətlə inkişaf etmişdir və deyə bilərəm ki, bu gün ən yüksək zirvəyə qalxmışdır. Bu səfər və səfər zamanı aparılmış danışıqlar, imzalanmış sənədlər, əlbəttə ki, əlaqələrimizin uzunmüddətli perspektivlərini müəyyən edəcəkdir.

Mən çox şadam ki, səfərin sonunda Nord-Pa-de-Kale regionuna gəlmişəm, Lill şəhərindəyəm. Bu gün Ticarət Palatasında keçirilən görüş çox ümidverici olmuşdur.Bu regionun çox güclü sənaye potensialı var. İndi Azərbaycanın da iqtisadi siyasətinin əsas istiqaməti sənayeləşmə ilə bağlıdır. Ona görə də əminəm ki, iqtisadi sahədə yaranan əlaqələr yaxın zamanlarda öz gözəl nəticələrini verəcəkdir.

Mən Ticarət Palatasındakı çıxışımda bütün iş adamlarını Azərbaycana dəvət etdim və əmin olduğumu bildirdim ki, əgər onlar Azərbaycanda iş görsələr səhv etməzlər. Bizim ölkələrimiz arasında əlaqələr çoxşaxəlidir, siyasi, iqtisadi, sənaye, bütün başqa sahələrdə bu əlaqələr möhkəmlənir. Şübhəm yoxdur ki, bu səfərdən sonra əlaqələr daha da güclü olacaqdır.

Səfərimin sonunda mən bizə göstərilən qonaqpərvərliyə görə Fransanın rəhbərliyinə – Prezidentə, Baş nazirə, bütün başqa vəzifəli şəxslərə, Fransa xalqına bir daha öz təşəkkürümü bildirmək və bu badəni Fransa xalqının şərəfinə qaldırmaq istəyirəm.

## «ALSTOM» ŞİRKƏTLƏR QRUPUNUN ZAVODU İLƏ TANIŞLIQ

*31 yanvar 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lill şəhərində «Alstom» şirkətlər qrupunun zavodunda olmuşdur.*

*Şirkətlər qrupunun sədri Patrik Krom dövlətimizin başçısını səmimiyyətlə qarşıladı.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, burada Avropanın və dünyanın əksər ölkələri üçün sürət qatarları, dəmir yolu nəqliyyatı üçün avadanlıq istehsal olunur. Bu sahədə «Alstom» dünyada birinci yeri tutur. Dünyanın 70 ölkəsində fəaliyyət göstərir. Lill şəhərindəki zavodda 60 min işçi çalışır. Şirkətlər qrupunun gəlirinin 90 faizi Fransa ərazisindəki fəaliyyətdən əldə olunur.*

*Prezident İlham Əliyev zavodla yaxından tanış oldu, ayrı-ayrı istehsal sahələrini gəzdi.*

*Müəssisədə tədqiqat işlərinin aparılması üçün 33 laboratoriya var. Dünya üzrə 50 şirkəti birləşdirən «Alstom» şirkətlər qrupunun ümumilikdə 200 min işçisi, 2400 tədqiqatçısı vardır. Baş müssisənin ümumi gəliri 14 milyard dollardır. Burada sürət qatarları 1978-ci ildən başlayaraq istehsal olunur. Bu qatarların sürəti saatda 300 kilometrdən çoxdur. Zavod nəqliyyat infrastrukturu sahəsində layihələrin həyata keçirilməsində də iştirak edir. Metro vaqonları istehsalında dünyada ikinci yeri tutur. Paris, London, Nyu-York, Vaşinqton, Karakas, Sinqapur, Şanxay, İstanbul və Afina kimi şəhərlərin yeraltı nəqliyyat sistemi «Alstom» tərəfindən qurulmuşdur. Şirkətlər qrupu elektrik stansiyalarından ötrü avadanlığın istehsalı ilə də məşğul olur və SES-lər üçün avadanlıq buraxılmasında liderdir.*

*Azərbaycan prezidenti İlham Əliyev zavodda hazır vaqonlara baxdı. Bildirildi ki, bu vaqonlar Sinqapurun sifarişi ilə hazırlanmışdır.*

*Dövlətimizin başçısı hər cür rahatlıqla təmin olunan, yüksək zövqlə hazırlanan vaqona əyləşdi, ikimərtəbəli və birmərtəbəli vaqonların dizaynına və quruluşuna baxdı və burada xatirə şəkli çəkdirdi.*

*Prezident İlham Əliyev nəhəng zavodla tanışlıqdan məmnunluğunu söylədi və bu cür müasir müəssisə ilə əməkdaşlığın faydalı olacağını vurğuladı.*

*Azərbaycan prezidentinə xatirə olaraq vaqon maketi hədiyyə olundu.*

## Səfər başa çatdı

*Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri başa çatdı.*

*Dövlətimizin başçısı Lill şəhərinin hava limanına gəldi.*

*Azərbaycanın və Fransanın dövlət bayraqları ilə bəzədilmiş hava limanında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Fransanın dövlət himnləri səsləndi. Prezident İlham Əliyev fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyevi Fransa hökumətinin, eləcə də Nord-Pa-de-Kale regionunun yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

## İRANIN RADİO VƏ TELEVİZİYA TƏŞKİLATININ SƏDRİ İZZƏTULLAH ZƏRĞAMİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında İran İslam Respublikasının Radio və Televiziya Təşkilatının sədri İzzətullah Zərğamini qəbul etmişdir.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, qonağın ölkəmizə bu səfərinin televiziya və radio sahəsində əməkdaşlığa töhfə verəcəyini bildirdi.*

*İzzətullah Zərğami İran İslam Respublikasının Prezidenti Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin inkişafını vurğulayan qonaq bu əlaqələrin radio və televiziya sahəsində də genişlənəcəyinə əminliyini söylədi.*

*Azərbaycan prezidenti İlham Əliyev İran prezidenti Əhmədinejadın salamlarına görə minnətdarlıq etdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## BMT-nin ÖLKƏMİZDƏKİ REZİDENT - ƏLAQƏLƏNDİRİCİSİ MARKO BORSOTTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi Makro Borsottini səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Prezident İlham Əliyev cənab Makro Borsottinin ölkəmizdəki fəaliyyətini yüksək qiymətləndirdi. Ötən dövr ərzində təhsil, səhiyyə və digər humanitar sahələrdə həyata keçirilən layihələrin uğurlu olduğunu xatırladan Azərbaycan prezidenti bu əməkdaşlığın gələcəkdə də inkişaf edəcəyinə əminliyini vurğuladı. Dövlətimizin başçısı İlham Əliyev Marko Borsottinin bundan sonra da Azərbaycanla sıx əlaqələr saxlayacağına ümidvar olduğunu söylədi.*

*Azərbaycandakı fəaliyyətindən məmnun qaldığını vurğulayan Marko Borsotti BMT-nin rezident-əlaqələndiricisi kimi fəaliyyətinə yaradılan şəraitə görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi. O, gələcəkdə harada işləyəcəyindən asılı olmayaraq Azərbaycanla daim əlaqə saxlayacağını və BMT tərəfindən ölkəmizdə həyata keçirilən layihələrin davamlı olacağını vurğuladı.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İslam İnqilabı günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–İran münasibətlərinin, ənənəvi dostluq və mehriban qonşuluq əlaqələrimizin və əməkdaşlığımızın inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 fevral 2007-ci il*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabı günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvar olduğumu bildirirəm ki, tarixən mehriban qonşuluq və dostluq şəraitində yaşamış xalqlarımızın istək və məramı ilə ölkələrimiz arasındakı münasibətlər daim inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 fevral 2007-ci il*

## GƏNCLƏR GÜNÜNÜN 10-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÖLKƏNİN GƏNCLƏR TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*2 fevral 2007-ci il*

Əziz dostlar!

Mən sizi Gənclər günü münasibətilə ürəkdən təbrik edirəm və sizin simanızda bütün Azərbaycan gənclərini bu gözəl bayram münasibətilə təbrik edirəm. Azərbaycanda onuncu ildir bu gün qeyd olunur. Bu on il ərzində Azərbaycan gəncləri öz fəaliyyəti ilə sübut etmişlər ki, onlar ölkəmizin dəyərli vətəndaşlarıdır.

Bildiyiniz kimi, Gənclər gününün təsis edilməsi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə olmuşdur. O bu məsələlərə daim böyük diqqət göstərmişdir. Hələ 70-ci illərdə Azərbaycanda gənc nəslin yetişdirilməsi üçün böyük işlər görmüşdür. Yəqin bilirsiniz ki, o illər ərzində Azərbaycan gəncləri Sovet İttifaqının aparıcı ali məktəblərinə oxumağa göndərilmişdir. Həmin insanlar bu gün müstəqil Azərbaycana ləyaqətlə xidmət edirlər.

Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Çünki gələcəkdə ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaqdır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr yaşayır, milli dəyərlər yaşayır və ölkənin hərtərəfli, uğurlu inkişafı üçün, Azərbaycan xalqının rifah halının yüksəldilməsi üçün hər bir vətəndaş, hər bir insan öz əməyini göstərməlidir.

İndiki gənclər müstəqillik dövründə formalaşırlar. Bu, böyük xoşbəxtlikdir, böyük səadətdir. Bəzi hallarda indiki

gənclərin ağlına da gələ bilməz ki, vaxtilə yaşadığımız ölkədə müəyyən məhdudiyyətlər var idi, azadlıqlar yox idi. Sərbəst fikir söyləmək, ayrı fikirdə olmaq, dünyanı görmək kimi təbii olan imkanlar hər bir insan üçün mövcud deyildi. Bizim böyük xoşbəxtliyimiz ondadır ki, bu gün müstəqil ölkə kimi yaşayırıq. Azərbaycan xalqı müstəqilliyə qovuşmuşdur. Eyni zamanda, müstəqil, açıq dövlətə xas olan bütün əlamətlər Azərbaycanda mövcuddur. Gənclərdən bir şey tələb olunur ki, onlar yaxşı oxusunlar, bilikli, savadlı olsunlar, öz Vətəninə sadiq olsunlar və özlərinin fəaliyyəti ilə bu gün və gələcəkdə ölkəmizin inkişafına xidmət etsinlər.

Mən qeyd etdim ki, 70-ci illərdə məhz müasir dünyagörüşlü gənclərin formalaşması üçün ulu öndər Heydər Əliyev çox böyük tədbirlər görmüşdür. Bu gün bu siyasət davam edir. Bildiyiniz kimi, bu yaxınlarda Azərbaycan gənclərinin dünyanın aparıcı ali məktəblərində təhsilinin təşkil olunması üçün müvafiq qərarlar qəbul edilmişdir. Mən əminəm ki, yaxın zamanlarda yüzlərlə Azərbaycan gənci dünyanın aparıcı təhsil ocaqlarında oxuyacaq, yaxşı mütəxəssislər olacaq və ondan sonra Vənətə qayıdıb doğma ölkəmizin inkişafı üçün çalışacaqdır.

Deyə bilərəm ki, təhsil hər bir ölkənin inkişafında başlıca rol oynayır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini əgər gözdən keçirsək görərik ki, məhz o ölkələrdə inkişaf var ki, orada elm, bilik, təhsil yüksək səviyyədədir. Bu, gənc yaşlardan, məktəbdən başlayır. Biz də istəyirik ki, Azərbaycan hərtərəfli inkişaf etmiş ölkə olsun. Bizim böyük təbii sərvətlərimiz var, çox əlverişli coğrafi mövqeyimiz var. Ancaq sözün əsl mənasında, inkişaf etmiş ölkə olmaq üçün çox bilikli insanlar olmalıdır. Ona görə mən çalışıram ki, bütün məktəblərdə ən müasir tədris prosesi tətbiq olunsun, məktəblərin maddi-texniki bazası möhkəmlənsin, uşaqlar yaxşı şəraitdə oxusunlar. Hər bir məktəbdə kompüter sinfi yaradılır və əminəm ki, gələn ilin sonuna qədər bütün məktəblər internetə qoşulacaqdır. Bu nə deməkdir? Bu, bilik, savad deməkdir, dünyaya açıqlıq deməkdir. Bu, Azərbaycanın

dünyaya inteqrasiyası deməkdir. Əminəm ki, 5–10–15 ildən sonra yetişən savadlı, bilikli insanlar Azərbaycanı inamla irəliyə aparacaqlar. Bizim məqsədimiz bundan ibarətdir: ölkəmiz möhkəmlənsin, güclənsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, ölkə qarşısında duran bütün vəzifələr həll olunsun, bölgədə bizim mövqeyimiz daha da güclü olsun. Artıq biz bunu da görürük ki, Azərbaycan bölgənin lider dövlətinə çevrilibdir. Təkcə biz yox, regionun məsələləri ilə məşğul olan bütün təşkilatlar da bunu açıq-aydın görürlər.

Azərbaycanın gələcək inkişafında gənclərin rolu çox böyükdür. Çünki bilirsiniz ki, ölkə əhalisinin əksəriyyəti gənclərdir və onlar bütün sahələrdə çalışırlar. Bir daha demək istəyirəm ki, ilk istəyim, ilk tələbim ondan ibarətdir ki, gənclər yaxşı oxusunlar. Bunun üçün biz lazımi şərait yaratmağa çalışırıq. Ali məktəblərdə oxuyan gənclərin təqaüdləri də qaldırılıb, digər məsələlər öz həllini tapır. Təhsili bitirdikdən sonra, əlbəttə ki, gənclər Azərbaycanda iqtisadi və digər sahələrdə olan imkanlardan səmərəli şəkildə istifadə etməlidirlər. İndi bu imkanlar var və mən çox istəyirəm ki, gənclər bütün sahələrdə fəal iştirak etsinlər, cəmiyyətin fəal üzvləri olsunlar. Bu, ölkəmiz üçün, gələcək üçün lazımdır. Hesab edirəm ki, indi Azərbaycanda mövcud olan iqtisadi və siyasi vəziyyət bütün bu imkanları yaradır.

Gənclər bütün sahələrdə fəal iştirak edirlər və çox şadam ki, idman sahəsində də çox fəaldırlar. Azərbaycanın idman şöhrətini yüksəklərə qaldıran məhz gənclərdir. Bu həm vətənpərvərlik ruhunun yüksəlməsi, həm ölkənin imici üçün və həm də insanların sağlamlığı üçün lazımdır. Məhz buna görə Azərbaycanda yeni idman komplekslərinin tikintisi geniş vüsət almışdır. Ölkəmizin müxtəlif bölgələrində biz bunu edirik və beləliklə, gənclər üçün gözəl şərait yaradırıq. Öz növbəsində, gənclər də öz uğurları ilə bütün Azərbaycan xalqını sevindirirlər.

Orduda xidmət edən gənclər bizim dəyərli vətəndaşlarımızdır. Orduda xidmət edən insanların böyük əksəriyyəti gənclərdir. Onlar Vətəni qoruyurlar, düşmənlə üzbəüz möv-

qedə dayanırlar. Azərbaycanın müstəqilliyini qoruyur və möhkəmləndirirlər. Lazım gələn anda məhz onlar doğma torpaqların azad olunması üçün ilk addımı atacaqlar.

Bildiyiniz kimi, biz əlimizdən gələni edirik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə öz həllini tapsın. Bu istiqamətdə bütün siyasi və diplomatik addımlar atılır. Diplomatik və siyasi uğurlar da kifayət qədərdir. Ancaq buna baxmayaraq, qarşı tərəfin qeyri-konstruktiv mövqeyinə görə, hələ ki, biz bu məsələni həll edə bilmirik. Baxmayaraq ki, artıq bütün dünya ictimaiyyəti, Birləşmiş Millətlər Təşkilatı, bu məsələ ilə birbaşa məşğul olan qurumlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir və münaqişənin məhz ərazi bütövlüyü əsasında həll olunmasını dəstəkləyirlər. Deyə bilərəm ki, bu bizim böyük diplomatik uğurumuzdur. Çünki əvvəlki illərdə bəzi hallarda beynəlxalq təşkilatların mövqeyi o qədər də birmənalı deyildi. İndi bu birmənalıdır və nəinki beynəlxalq təşkilatların, eyni zamanda, dünyanın aparıcı dövlətlərinin rəhbərlərinin də mövqeyi bundan ibarətdir. Yəni bu bizim üçün əlavə dəstəkdir. Ancaq Ermənistan bütün beynəlxalq normaları pozubdur, beynəlxalq davranış qaydalarına əməl etmir və hesab edir ki, status-kvo vəziyyəti əbədi davam edəcəkdir. Bu belə deyil, bunun limiti var, çərçivələri var. Azərbaycanın artan həm iqtisadi, həm siyasi, həm də hərbi gücü və ölkəmizin məsələyə münasibətinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsi bizim mövqeyimizi gücləndirir.

Mən istəyirəm ki, məsələ sülh yolu ilə həll edilsin, istəmirəm ki, müharibə olsun. Çünki müharibə olarsa, gənclərimiz qurban gedəcək, şəhidlərimiz olacaq, qan töküləcək, göz yaşları axıdılacaqdır. Mən bunu istəmirəm. Mən istəyirəm ki, Azərbaycanın işğal olunmuş torpaqları sülh yolu ilə qaytarılsın. Ancaq eyni zamanda, biz hər bir başqa vəziyyətə də hazır olmalıyıq. Məhz bu məqsədlə Azərbaycanda gedən güclü ordu quruculuğu prosesi bu gün artıq bizə imkan vermişdir ki, bölgədə qüvvələr nisbətini öz xeyrimizə dəyişək. Artıq bizim üstünlüyümüz təkcə siyasi və iqtisadi meyarlarla

ölçülmür. Bizim gücümüz, o cümlədən hərbi sahədə də özünü göstərir. Güclü orduya malik olmaq o deməkdir ki, istənilən anda öz doğma torpaqlarımızı biz azad edə bilərik. Biz dünya tarixindən görürük ki, bəzi hallarda müharibəni başlamaq heç lazım olmur. Sadəcə olaraq, artan güc, potensial və imkanlar qarşı tərəfi daha da konstruktiv edir.

Biz ümid edirik ki, məsələni tezliklə həll edəcəyik. Çünki vaxt bizim tərəfimizdədir. Ermənistanla Azərbaycanın inkişafı arasında mövcud olan uçurum dərinləşir, genişlənir. Biz yenə də istəyirik ki, məsələ tezliklə həll olunsun. Bizim qaçqın-köçkün soydaşlarımız tezliklə öz torpaqlarına qayıtsın və ondan sonra orada geniş bərpa işləri aparılacaqdır. Azərbaycanın indi buna imkanları çatır. Biz istəyirik ki, işğal olunmuş əraziləri tezliklə bərpa edək. Orada gözəl binalar tikək, infrastruktur layihələ həyata keçirək ki, bizim insanlarımız öz doğma torpaqlarında yaşasınlar.

Bir sözlə, Azərbaycan rəhbərliyi və şəxsən Prezident bu məsələlərlə məşğul olur, bu məsələlərə görə məsuliyyət daşıyır, danışıqlar aparır, bütün başqa lazımi tədbirləri görür. Ancaq eyni zamanda, bu işlərdə mən daim xalqın dəstəyini hiss edirəm və görürəm. Mənim mövqeyim xalqın mövqeyidir və xalqın dəstəyi, onun iradəsi mənə güc verir. Ona görə bu məsələdə bütün cəmiyyət birləşməlidir və belə də var. Azərbaycan cəmiyyətinin bu məsələ ilə bağlı fikri tam formalaşıb və birmənalıdır. Biz bu mövqedən dönməyəcəyik və çalışacağıq ki, məsələni tezliklə həll edək.

Gənclərin Azərbaycan cəmiyyətində rolu çox böyükdür. Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə aparan da, bu müstəqilliyi bərpa edən də gənclər olmuşdur. Müstəqilliyimizin ilk illərində, çox ağır illərdə gənclər həmişə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün çalışmışlar. Azərbaycan xalqı əsrlər boyu müstəqillikdən məhrum idi və müstəqilliyə nail olmaq istəyirdi. Müstəqilliyi əldə etmək böyük nailiyyət, böyük xoşbəxtlikdir. Eyni zamanda, bunu qoruyub saxlamaq, möhkəmləndirmək, ölkəni həqiqi mənada müstəqil dövlətə çevirmək daha böyük fədakarlıq tələb edir.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan tam şəkildə müstəqil ölkədir. Müstəqil ölkədir ona görə ki, müstəqil siyasət aparır, ona görə ki, heç kimdən asılı deyildir. Ona görə ki, Azərbaycan xalqının taleyi Azərbaycanda həll olunur. Ona görə ki, bütün dünya ictimaiyyəti ilə, qonşu ölkələrlə, beynəlxalq təşkilatlarla, böyük dövlətlərlə qarşılıqlı hörmət, qarşılıqlı maraq əsasında münasibətlərini qurub və bu, artıq reallıqdır. Azərbaycanın hörməti artır, təsiretmə imkanları artır. Bölgədə gedən proseslərə bizim təsirimiz çox böyük dərəcədə artmışdır. Bizim iştirakımız olmadan bölgədə və geniş mənada regionda heç bir məsələ həll oluna bilməz. Biz nəinki regional proqramların iştirakçısıyıq, hətta onların təşəbbüskarıyıq. Bizimlə məsləhətləşirlər və bir çox hallarda regional məsələlərdə Azərbaycanın sözü həlledici olubdur.

Biz böyük, Azərbaycanın gələcəyini və bölgədə vəziyyəti müəyyən edən nəhəng layihələrin də təşəbbüskarı və icraçısıyıq. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri Azərbaycanın tarixi nailiyyətləridir. Azərbaycan iqtidarının, xalqının iradəsi olmasaydı, bunların heç biri həll oluna bilməzdi.

İndi biz Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi üzərində işləyirik. Sizə onu da açıq deyə bilərəm ki, Azərbaycanın mövqeyi və tələbkarlığı, inadkarlığı burada çox böyük rol oynamışdır. Artıq biz bu layihəni də həyata keçiririk, gerçəkliyə çeviririk. Baxmayaraq ki, bildiyiniz kimi, dünyada bu layihəyə münasibət birmənalı deyildir. Bu da çox maraqlı məsələdir. Çünki Bakı–Tbilisi–Qars birinci layihə deyil ki, Ermənistandan yan keçir. Bundan əvvəl Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilmişdir. O da Ermənistan ərazisindən keçmir. Bakı–Tbilisi–Ərzurum qaz kəməri də Ermənistandan yan keçir. Nədənsə, məhz Bakı–Tbilisi–Qars layihəsi belə bir müqavimətlə qarşılanır. Buna baxmayaraq, Azərbaycanın kifayət qədər imkanları var. Yenə də deyirəm, biz regional müstəvidə öz qonşularımızla çox səmərəli əməkdaşlıq aparırıq və bu layihəni də icra edəcəyik.

Müasir Azərbaycanın inkişafının əlamətlərindən biri odur ki, biz qarşıya qoyulan məsələlərə nail oluruq. Hələ elə bir məsələ olmayıb ki, biz onu qarşıya qoyaq, həll etməyə çalışaq və buna nail olmayaq. Biz qarşıya qoyduğumuz bütün məsələləri vaxtlı-vaxtında və uğurla həll edirik. Bu məsələlər, bu layihələr Azərbaycanın hərtərəfli inkişafına, Azərbaycanın mövqelərinin möhkəmlənməsinə xidmət edir və nəticə etibarilə xalqın rifah halını yaxşılaşdırır. Hesab edirəm ki, bu günə qədər görülmüş bütün işlər öz nəticəsini vermişdir. Gələcəkdə də böyük planlarımız var və onları həyata keçirmək üçün gənclərin fəallığı lazımdır. Bu var və davam etməlidir.

Gənclərin həyatının yaxşılaşması, onlardan ötrü yeni imkanların yaradılması üçün dövlət də öz tərəfindən əlindən gələni etməlidir. Biz bunu edirik. İqtisadi inkişaf, regionların sosial-iqtisadi inkişafı, kreditlərin verilməsi, Azərbaycanda müxtəlif iqtisadi layihələrin həyata keçirilməsi bir tərəfdən, digər tərəfdən də sosial qayğı artır. İpoteka kreditlərinin verilməsinə artıq başlanmışdır. İndi onların şərtləri dəyişdi, daha da məqbul şərtlər tətbiq olunur ki, gənclər daha geniş şəkildə bundan istifadə edə bilsinlər. Başqa layihələr də var və olacaqdır.

Bizim həm iqtisadi islahatlarımız uğurla davam edir, həm də sosial məsələlərin həlli üçün çalışırıq. Daim fikirləşirik ki, sosial məsələlər tezliklə həll olunsun, Azərbaycan xalqı yaxşı yaşasın. Biz müstəqilliyimizin 16-cı ilini yaşayırıq və deyə bilərəm ki, ancaq keçən il Azərbaycan 1990-cı ilin iqtisadi potensialına bərabər göstəricilərə nail olmuşdur. Yəni ötən 15 ildə Azərbaycanda gedən proseslər, aparılan işlər bizim iqtisadiyyatımızı 1990-cı ilin səviyyəsinə gətirib çatdırmışdır. Amma onu da deyə bilərəm ki, başqa keçmiş sovet respublikaları hələ 1990-cı ilin səviyyəsinə çatmayıbdır.

Yəni bu, tarixi bir proses idi. Bir tərəfdən, Azərbaycan xalqı xoşbəxt xalqdır ki, öz müstəqilliyinə nail olub və bu gün biz müstəqil ölkə kimi yaşayırıq. Digər tərəfdən, biz nə qədər məhrumiyyətlərdən əziyyət çəkmişik, müstəqilliyi-

mizin ilk illəri iqtisadi böhranla, siyasi böhranla müşayiət olunurdu. Ancaq indi Azərbaycan elə səviyyədədir ki, bundan sonra ancaq inkişaf olacaq, ancaq irəliləyiş olacaqdır. Bunu sürətlə irəliyə aparmaq bizdən asılıdır. İnsanların sosial vəziyyəti, ilk növbədə kasıb təbəqənin sosial vəziyyəti bizi daim düşündürməlidir. Elə etməliyik ki, Azərbaycanda kasıblar təbəqəsi olmasın, yoxsulluq aradan qaldırılsın. Baxmayaraq ki, inkişaf etmiş ölkələrdə də yoxsulluq var. Ancaq mən hesab edirəm, yoxsul o adam ola bilər ki, o, sadəcə işləmək istəmir. İşləmək istəyən işlə təmin olunmalıdır. Ancaq hər bir ölkədə elə insanlar var ki, işləmək istəmirlər, yaxud da başqa mövqedədirlər. Azərbaycanda yoxsulluğun aradan qaldırılması proqramı icra ediləcəkdir. Azərbaycan xalqı xoşbəxt yaşamalıdır və biz buna nail olmalıyıq. Əlbəttə ki, bunu etmək üçün bütün cəmiyyət fəal olmalıdır və hər bir insan öz yerində ümumi işə töhfə verməlidir. Nəzərə alsaq ki, bir daha demək istəyirəm, Azərbaycan əhalisinin əksəriyyəti gənclərdir və əlbəttə, onların üzərinə də böyük vəzifə düşür.

Əziz dostlar, sizin üçün bu əziz gündə bütün bu nailiyyətlərlə bir daha sizi ürəkdən təbrik etmək istəyirəm. Bildiyiniz kimi, siyasətə qoşulanda mən də gənc idim, gənc yaşlarımdan bu işlərlə məşğul olurdum. Həm Milli Məclisdə, eyni zamanda, Dövlət Neft Şirkətində, Yeni Azərbaycan Partiyasında. İndi, əlbəttə ki, yaş baxımından özümü gənc hesab edə bilmərəm. Ancaq ürəkdə mən sizinləyəm, qəlbən gəncəm. Vaxt keçir və insan heç fərqində də olmur ki, artıq o, gənc deyildir. Amma əsas odur ki, hər bir insanın həyatı mənalı keçsin. O mənada mənalı ki, hər bir insan çalışsın, doğma Vətəninə xidmət eləsin. Mənə ən böyük sevinc gətirən budur. Görəndə ki, Azərbaycanın inkişafı uğurla davam edir, ölkəmizin nüfuzu artır, mənə bundan böyük mükafat ola bilməz. Mən sizi də bu fəallığa çağırıram, mən sizi əməllərə çağırıram, ölkə üçün, xalq üçün, millət üçün çalışmaq – bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha sizi ürəkdən təbrik edirəm və hər bir işinizdə uğurlar arzulayıram. Sağ olun.

*Görüşdə Gənclər və İdman naziri Azad Rəhimov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Ramil Həsənov, Gənc İqtisadçılar Birliyinin sədri, Milli Məclisin deputatı, iqtisad elmləri namizədi Azər Əmiraslanov, «İrəli» Ümumrespublika Gənclər Hərəkatının həmtəsisçisi Fərhad Məmmədov, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sərdi, «Hərbi and» qəzetinin təsisçisi Emin Həsənli, Azərbaycan Milli Elmlər Akademiyasının Botanika və Mikrobiologiya institutlarının, Mərkəzi Nəbatat Bağının Birləşmiş Gənc Alimlər Şurasının sədri, biologiya elmləri namizədi, Ümumdünya Alimlər Federasiyasının Azərbaycanda ilk təqaüdçüsü Tubuxanım Qasımova çıxış etdilər.*

## YEKUN NİTQİ

Bugünkü görüşdə çox maraqlı fikirlər, təkliflər səsləndi. Mən hesab edirəm ki, Gənclər və İdman Nazirliyi bütün bunları ümumiləşdirib təkliflə çıxış etməlidir və biz əlavə tədbirlər haqqında qərar verməliyik. Bildiyiniz kimi, 2007-ci il Azərbaycanda «Gənclər ili» elan olunmuşdur. Çoxlu tədbirlər keçiriləcəkdir. Mən çox istərdim ki, həm o tədbirlərin məzmunu, forması müasir səviyyəyə uyğun olsun, həm də gənclər 2007-ci ildə görüləcək işlərdən doğrudan da daha çox faydalansınlar.

Bildiyiniz kimi, indi bölgələrdə gənclər evlərinin tikintisi nəzərdə tutulubdur. Bu da çox gözəl təşəbbüsdür. Sadəcə olaraq elə etməliyik ki, bu hansısa bir formal tədbirə çevrilməsin. Yəni gənclər evlərində doğrudan da gəncləri maraqlandıran tədbirlər, sərgilər, hansısa görüşlər keçirilsin. Bütövlükdə, gənclərin asudə vaxtını daha da səmərəli təşkil etmək üçün daha çox işləməliyik.

Bu gün səslənən fikirlərdə və təkliflərdə, eyni zamanda, hesabat xarakterli çıxışlarda mən bir daha gördüm ki, gənclər doğrudan da həyatımızın bütün sahələrində fəal iştirak edirlər. Siyasi, iqtisadi, ictimai işlərlə məşğuldurlar, ölkənin hərtərəfli inkişafında fəal iştirak edirlər. Çox gözəldir, çox

yaxşıdır, çox əlamətdar hadisədir. Bununla bərabər, gənclərin asudə vaxtı da yaxşı keçməlidir. Təbii ki, hər bir insan, hər bir gənc öz asudə vaxtını özü bildiyi kimi keçirir. Mən də xatırlayıram, gənc olanda asudə vaxtımı, əlbəttə ki, özüm istədiyim kimi keçirirdim. Ancaq o illərdə o qədər də böyük seçim yox idi. Çünki qapalı bir ölkə idi, imkanlar çox məhdud idi və ideoloji çərçivələr də çox insanları incidirdi. Bu gün isə biz tam başqa şəraitdə yaşayırıq və imkanlar da çoxdur. Amma bununla bərabər, hesab edirəm, gənclərin asudə vaxtlarının səmərəli, maraqlı keçməsi üçün dövlət qurumları da öz təkliflərini verməlidir.

Məsələn, idman çox gözəl bir imkandır. İnsanlar idmanla məşğul olanda pis vərdişlərdən uzaq olurlar, narkotik vasitələrdən istifadə etmirlər, mənəvi cəhətdən də sağlam olurlar. Bütövlükdə, geniş mənada insanları, gəncləri maraqlandıran tədbirlər keçirilməlidir. Həm şəhərlərdə, xüsusilə də rayonlarda. Şəhərlərdə, təbii ki, ictimai həyat, mədəni həyat daha zəngindir. Bölgələrdə isə hələ ki, o səviyyəyə çata bilməmişik.

Ona görə də xüsusilə bölgələrdə, rayonlarda, kəndlərdə gəncləri cəlb etmək üçün, onların həyatını daha da maraqlı etmək üçün praktiki tədbirlər keçirilməlidir.

Bəzi hallarda hesabat naminə hansısa tədbir keçirilir. Bundan biz yavaş-yavaş əl çəkməliyik. Təbdir gərək məhz maraqlılığı ilə insanları cəlb etsin və gənclər də onda iştirak etmək istəsinlər. Ona görə mən hesab edirəm ki, həm bu gün səslənən, eyni zamanda, nazirlik xətti ilə görülən işlər əsasında ümumiləşdirilmiş formada gərək təkliflər verilsin. 2007-ci il çox önəmli ildir, çünki gənclər ilidir. Ondan sonrakı illərdə də gənclər ili olacaqdır. Çünki gənclər, yenə də deyirəm, cəmiyyətin aparıcı hissəsidir, böyük hissədir və elə etməliyik ki, onların həyatı mənalı, maraqlı keçsin.

Burada eyni zamanda, eşitdim ki, beynəlxalq təşkilatlarda bizim gənclərimiz çox fəal iştirak edirlər. Bu çox sevindirici haldır. Mən də bilirəm, bu gün də deyildi ki, beynəlxalq, regional təşkilatlarda, başqa təşkilatlarda Azərbaycan nümayəndələri artıq qabaqcıl yerlərə çıxırlar. Bu bir

tərəfdən, ölkə gənclərinin potensialını əks etdirir. Çünki beynəlxalq təşkilatlarda yüksək vəzifədə çalışmaq böyük bilik və peşəkarlıq tələb edir. Digər tərəfdən, ölkənin ümumi inkişafını əks etdirir. Biz beynəlxalq təşkilatlarda iştirakımızı daha da artırmalıyıq və çalışmalıyıq ki, Azərbaycanda beynəlxalq tədbirlər daha çox keçirilsin.

Bu gün səslənən təkliflər arasında Azərbaycanda siyasətlə məşğul olan gənclərin tədbirlərinin keçirilməsi fikri də çox maraqlı məsələdir. Azərbaycanda tədbirlər nə qədər çox keçirilərsə, dünyada Azərbaycan haqqında bir o qədər çox məlumat olacaqdır. Biz hələ ki, özümüzü tanıtmalıyıq. Bəzi hallarda Azərbaycan haqqında dünyada mövcud olan məlumat həqiqəti tam əks etdirmir. Bunun müəyyən səbəbləri var. Obyektiv səbəblər var ki, ölkəmiz gəncdir və müstəqilliyimizin ilk illərində o qədər problem var idi ki, bu məsələ bir növ arxa plana keçmişdi. Digər tərəfdən, o da həqiqətdir ki, biz ölkələrdən biriyik ki, bizə qarşı mütəşəkkil qaydada kampaniya aparılır. Dünya erməni lobbisi Azərbaycanı hədəfə götürübdür. Azərbaycanı ləkələmək, hörmətdən salmaq üçün Azərbaycan haqqında olmazın şayiələr yayırlar. Onların pulu çoxdur, diasporları güclüdür və dünyanın kütləvi informasiya vasitələrində kifayət qədər imkanları var. Azərbaycan haqqında çirkin məqalələrin arxasında əksər hallarda erməni təşkilatları dayanır. Ancaq biz vəziyyəti artıq dəyişirik və Azərbaycan haqqında dünyada mövcud olan təsəvvür reallığa yaxınlaşır. Amma tam reallığı əks etdirmir.

Bilirsiniz ki, mənim həm ölkə daxilində, həm də xaricdə çoxsaylı görüşlərim olur. Xüsusilə xarici təşkilatların ilk dəfə Azərbaycana gələn nümayəndələri çox həyəcanla bildirirlər ki, biz başqa fikirdə idik. Hesab edirik ki, Azərbaycanda vəziyyət tam başqadır. Biz bu barədə qəzetdən, internetdən oxuyuruq. Amma görəndə ki, Azərbaycan inkişaf edir, ölkədə siyasi vəziyyət sabitdir, Azərbaycan tolerantlıq məkanıdır, əhalinin həyat səviyyəsi yaxşılaşır, şəhərimiz gözəlləşir, bölgələrimiz gözəlləşir, onlar doğrudan da bunu gözləmirlər.

Xüsusilə son zamanlar gələn qonaqlar bölgələrə də gedirlər. Bölgələrə gedib oradakı dəyişən vəziyyəti görürlər. Əlbəttə ki, bu, Azərbaycanın, necə deyərlər, nə qədər vacib bir ölkə olduğunu bir daha göstərir. Ən önəmlisi isə ondan ibarətdir ki, reallığı əks etdirir. Özümüzü tərifləmək, yaxud da ki, olmayan məsələlərlə öyünmək bizə lazım deyildir. Sadəcə, bizim reallığımız dünyaya məlum olsa, bu bizim üçün kifayətdir. Ona görə beynəlxalq əlaqələrin möhkəmlənməsi işinə daha da böyük diqqət göstərilməlidir.

Mən qeyd etdim ki, artıq Prezident proqramı işlənir, xarici institutlarda, aparıcı ali məktəblərdə Azərbaycan tələbələrinin oxuması məsələsi həll olunur. Bu məsələ Təhsil Nazirliyinə həvalə olunub, amma hesab edirəm ki, Gənclər və İdman Nazirliyi də iştirak etməlidir ki, biz ən dəyərli, ən bilikli gənclərin təhsil almasını bu proqrama daxil edək. Bu məsələ dövlət xətti ilə maliyyələşdiriləcək və əlbəttə ki, xaricdə, xarici ölkələrin aparıcı məktəblərində oxuyan gənclər Vətənə dönəndə artıq öz peşəkarlığı ilə ölkəmizin inkişafına xidmət göstərəcəklər.

Bəzi hallarda belə fikirlər də səslənir ki, onlar gedib orada oxuyacaqlar, sonra qalacaqlar, gəlməyəcəklər. Belə fikirlər də var. Mən hesab edirəm, səmimi deyirəm, əgər belə olarsa, bunda da böyük qəbahət görmürəm. Hər halda, onlar Azərbaycan vətəndaşlarıdır, Azərbaycana bağlı olan insanlardır. Xaricdə də yaşasalar, işləsələr, yenə də əminəm ki, Azərbaycana xidmət edəcəklər. Ancaq biz elə etməliyik ki, xaricdə təhsillərini başa çatdırandan sonra Azərbaycanda elə vəziyyət olsun ki, burada elə imkanlar yaransın, elə əməkhaqqı verilsin ki, onlar üçün fərq etməsin, xaricdə işləsinlər, yaxud da Azərbaycanda. Biz Azərbaycanda bu meyarları qaldırmalıyıq. Məsələn, Avropa İttifaqı ilə noyabr ayında imzalanmış «Yeni qonşuluq siyasəti» proqramının tərkib hissəsi ondan ibarətdir ki, Azərbaycanda mövcud olan standartlar qaldırılsın. Biz bunu istəyirik. Biz istəyirik ki, standartlar Avropa İttifaqının standartlarına uyğun olsun. O, ikinci məsələdir ki, biz Avropa İttifaqına daxil olacağıq, ya olma-

yacağıq, Avropa İttifaqı bunu istəyəcək, yaxud da ki, Azərbaycan istəyəcək. Bu, sonranın məsələsidir. Azərbaycan üçün, özünü hər cəhətdən təmin edən ölkə üçün o qədər də vacib məsələ deyildir. Ancaq biz istəyirik ki, dünyanın ən qabaqcıl praktikası, təcrübəsi Azərbaycanda tətbiq olunsun. O da Avropadadır. Siz də xaricdə olursunuz, internet vasitəsilə, başqa vasitələrlə bunu bilirsiniz, biz də görürük. Ən mütərəqqi quruluş, ən qabaqcıl texnologiyalar Avropadadır, iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələr Avropa İttifaqı ölkələridir. Biz də çalışmalıyıq ki, Azərbaycanda bütün standartlar yüksək səviyyəyə cavab versin. Bunu etmək üçün bizim imkanlarımız var, maliyyə, iqtisadi imkanlar var, istedadlı insanlar var, ölkədə bütövlükdə inteqrasiya meylləri güclüdür, ölkə rəhbərliyinin siyasəti də bundan ibarətdir. Ona görə bu yolda heç bir maneə yoxdur, sadəcə olaraq, iradə lazımdır, o da var. Bir də ki, işin düzgün qurulması.

Ona görə mən istisna etmirəm ki, yaxın zamanlarda Azərbaycanda həyat səviyyəsi, mövcud olan standartlar, demokratik proses, ictimai proseslər Avropanın aparıcı ölkələrindəkindən fərqlənməyəcəkdir. Həyat səviyyəsinin yaxşılaşdırılması bu işdə vacib məsələdir. Çünki biz ilk növbədə, zəngin ölkəyə çevrilməliyik. İnsanlar varlı, zəngin olmalıdır, yaxşı maaş almalıdır, rahat yaşamalıdırlar. Budur məqsəd, hər bir ölkə bunu istəyir. Biz də buna yaxınlaşırıq və bu prosesi biz kompleks şəkildə aparmalıyıq.

Bir məsələ o biri məsələyə təkan verir. Yaxşı hazırlıqlı kadrlar, peşəkar mütəxəssislər, bilikli insanlar eyni zamanda, ölkənin tərəqqisini müəyyən edəcəkdir, ölkənin sosial-iqtisadi inkişafı, siyasi proseslərin müsbət məcrada inkişaf etməsi şərait yaradır ki, belə mütərəqqi kadrlar yetişsin, hazırlansın.

Bəzi ölkələr var ki, onların da təbii sərvətləri var. Bəzi hallarda onlar hesab edirlər ki, bu təbii sərvətlər 100 il, 200 il olacaq, ondan sonra nə olacaq, Allah bilir. Biz başqa yolla gedirik. Bizim də təbii sərvətlərimiz bizə ən azı 100 il ərzində xidmət edəcəkdir, özü də böyük həcmdə. Onu da bilirsiniz ki,

Azərbaycanı hansı böyük imkanlar gözləyir. Neft-qaz hasilatı və nəqli hesabına əldə olunacaq gəlirlər milyardlarla ölçülür. Ancaq düşünürük ki, bu bizim üçün, sadəcə olaraq, gözəl bir imkandır. Sərvətləri bizə Allah yetirib və biz də onların işlənilməsinə nail olmuşuq, neft-qaz kəmərlərini tikmişik. Bu imkandan da istifadə etməliyik ki, ölkəmiz hərtərəfli inkişaf etsin. Bu işdə hər bir vətəndaş fəal iştirak etməlidir. Dövlət siyasəti bundan ibarətdir və bütün görülən işlər bunu göstərir. Neft-qaz ehtiyatları və onların işlənilməsi, nəqli, satışı, sadəcə, bir vasitədir ki, Azərbaycanda bütün başqa sahələr – təhsil, səhiyyə, sosial məsələlər, elm inkişaf etsin.

Bu gün burada deyildi ki, informasiya-kommunikasiya texnologiyalarına da biz böyük diqqət göstəririk. Qeyd olundu ki, mənim Davos İqtisadi Forumu çərçivəsində dünyanın aparıcı informasiya-kommunikasiya şirkətlərinin rəhbərləri ilə söhbətlərim, görüşlərim olmuşdur. Özü də demək istəyirəm ki, onların təşəbbüsü ilə olmuşdur. Yəni bu görüşlər üçün onlar təşəbbüs göstərmişdilər. Bunu nəyə görə deyirəm? Çünki bu onu göstərir ki, Azərbaycan çox cəlbedici, çox maraqlı ölkəyə çevrilir. Nəyin hesabına? Azərbaycan kimi çox ölkə var. Onun hesabına ki, artıq sübut etmişik, biz böyük şirkətlər üçün etibarlı tərəfdaşıq. Sübut etmişik ki, Azərbaycanda gözəl investisiya mühiti var. Biz göstərmişik ki, iqtisadi artım baxımından Azərbaycana dünyada bərabər ölkə yoxdur. İkinci ildir biz bu liderliyi saxlayırıq və 2007-ci ildə də belə olacaqdır. Biz sübut etmişik ki, bu iqtisadi artım, ümumi daxili məhsulun artımı və neft gəlirləri Azərbaycanda yoxsulluğun azaldılmasına xidmət edir. Neft hasil edən bəzi başqa ölkələrdə belə deyildir. Nə qədər çox neft hasil edilirsə, yoxsulluq o qədər də çox artır. Çünki o gəlirlər bərabər şəkildə bölünmür. Çox kiçik təbəqə varlanır, ölkə əhalisi isə kasıblaşır və səfalət içində yaşayır. Amma baxın, Azərbaycanda üç il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 20 faizə enibdir. Yəni bu onu göstərir ki, bizim siyasətimiz öz nəticəsini verməkdədir. Dünyanın aparıcı

biznes elitası, hansı ki, Davos Forumunda iştirak edirdi, bunu görür və ona görə informasiya-kommunikasiya texnologiyaları sahəsində Azərbaycanla əməkdaşlıq etmək istəyirlər. Eyni zamanda, görürlər ki, biz də bu sektoru prioritet etmişik. Mən hesab edirəm ki, bizim gənclərimiz bu məsələyə çox böyük diqqət göstərməlidirlər. Çünki gələcək bununla bağlıdır. Dünyanın texnologiya baxımından gələcək inkişafı bu sektorla bağlıdır və bütün imkanlar var ki, Azərbaycan bu sahədə regional mərkəzə çevrilsin.

Çünki bir daha demək istəyirəm, beynəlxalq maliyyə qurumları ilə bizim gözəl münasibətlərimiz 10 ildən artıqdır ki, davam edir. Ölkədə ibtidai baza yaradılır. Bu sahəni inkişaf etdirmək üçün insanlar gərək geniş mənada bu texnologiyalara sahib olsunlar. Biz isə məktəblərdə artıq kompüter sinifləri yaradırıq. Hər bir uşaq kompüteri bilməlidir.

Mən də o görüşlərdə dedim ki, biz çox istəyirik ki, dünyanın aparıcı şirkətləri ilə bu sahədə əməkdaşlıq edək, ancaq siz sərmayə qoya da bilərsiniz, qoymaya da. Sizin sərmayənizə o qədər də ehtiyacımız yoxdur, bizim öz imkanımız var, öz pulumuz var. Biz sadəcə olaraq o texnologiyaları Azərbaycana gətirmək və güclü istehsal bazası yaratmaq istəyirik. Bu müasirlikdir, dünyaya inteqrasiyadır. Görün neft-qaz amili nə qədər qısa müddət ərzində Azərbaycanın hərtərəfli inkişafında artıq öz rolunu oynamışdır. Bu sahə inkişaf edir, qeyri-neft sektoru inkişaf edir, yol infrastrukturu, elektrik stansiyalarının tikintisi, su xətlərinin çəkilişi, qazpaylayıcı şəbəkənin bərpası, səhiyyə ocaqlarının, məktəblərin tikintisi – bütün bunların təməlində 1994-cü ildə ulu öndər tərəfindən başlanmış uğurlu neft strategiyamız dayanır. O illərdə çoxlu mülahizələr, bəzi hallarda şayiələr var idi ki, Azərbaycanda neft strategiyası iflasa uğrayacaq, Bakı–Ceyhan neft kəməri boş qalacaq, başqa ölkələrin nefti olmasa, o səmərəsiz olacaqdır. İndi artıq altı aydır ki, Bakı–Tbilisi–Ceyhan fəaliyyətdədir. Yaxın vaxtlarda tam gücü ilə işləyəcək, özü də Azərbaycan nefti ilə. Əgər başqa ölkələrin nefti daxil olacaqsa, gərək onda əlavə tədbirlər görək ki,

kəmərin imkanlarını genişləndirək. Yəni sübut elədik və bizim də əsas məqsədimiz kiməsə nəsə sübut etmək deyildir. Biz öz işimizi görürük, öz iqtisadiyyatımızı inkişaf etdiririk. Azərbaycanın milli maraqlarını müdafiə edirik, heç kimə güzəştə getmirik. Eyni zamanda, əməkdaşlığa da hazırıq. Nə vaxt ki, bu əməkdaşlıq bizim işimizə uyğun gəlir, biz bunu edirik. Görəndə ki, bu əməkdaşlıq, yaxud da hansısa təklif birtərəfli əməkdaşlıqdır, əlbəttə, biz buna gedə bilmərik və heç kim bizi buna məcbur edə bilməz.

Bir daha demək istəyirəm, Azərbaycanda artıq reallıq ondan ibarətdir ki, ölkəmiz dünya birliyinin çox önəmli ölkəsinə çevrilib və bunu təkcə neftlə, qazla bağlamaq düzgün deyildir. Əlbəttə, neft-qaz məsələləri indi dünyada gündəliyin birinci məsələlərinə çevrilibdir. Avropanın enerji təhlükəsizliyi məsələləri Avropa üçün bütövlükdə təhlükəsizlik məsələləri deməkdir. Əgər xəritəyə və neft-qaz hasil edən ölkələrə baxsaq görərik ki, burada Azərbaycan Avropa bazarı üçün yeganə yeni mənbədir. Yəni başqa yeni mənbə yoxdur. Köhnə mənbələr var, orada da hasilat artırıla bilər, yaxud da azala bilər. Amma yeni mənbə yoxdur. Bu Azərbaycandadır. Bu, Azərbaycanın önəmini artırır və şübhəsiz ki, Azərbaycan rəhbərliyi bundan istifadə edir. Sözün yaxşı mənasında istifadə edir ki, öz önəmini artırsın, özünü narahat edən problemləri həll etsin, istifadə edir ki, Azərbaycanı çox güclü ölkəyə çevirsin.

Ancaq Azərbaycanın artan önəmi təkcə bununla ölçülmür. Azərbaycan dünyəvi dövlətdir, ölkəmizdə dini tolerantlıq ən yüksək səviyyədədir.

İndi dünyada, hətta ən inkişaf etmiş ölkələrdə sivilizasiyalar arasında dialoq haqqında danışırlar, əslində isə əfsuslar olsun ki, qarşıdurma baş verir. Bəzi hallarda bunu süni şəkildə yaradırlar, bəzi hallarda təbii olaraq baş verir. Yəni deyə bilərəm ki, dinlərarası dialoq bir az zəifləyibdir. Amma Azərbaycanda mövcud olan vəziyyət tolerantlığın, birliyin ən gözəl, ən parlaq nümunəsidir. Bizim bu təcrübəmiz başqa ölkələr üçün də maraqlıdır. Bizim təcrübəmiz artıq öyrənilir

və soruşurlar ki, siz buna necə nail ola bilmisiniz? Bizim üçün bu təbiidir. Əlbəttə, bu, dövlət siyasətidir. Amma bununla bərabər, bu, insanların ürəyində olan duyğulardır. Azərbaycan xalqının mentalitetidir. Azərbaycanda yaşayan bütün xalqların birliyidir. Milliyyətindən, dinindən asılı olmayaraq, hər bir vətəndaş bizim üçün əzizdir, bizim qardaşımızdır.

Azərbaycanın coğrafi vəziyyəti. Avropanı Asiya ilə birləşdirən yollar Azərbaycandan yan keçə bilməz. Biz nəinki coğrafi nöqtəyik, məntəqəyik, eyni zamanda, infrastruktur məsələlərini də həll edirik. Dəmir yolları, aeroportlar, dəniz tankerləri, avtomobil yolları onun üçündür ki, Azərbaycan bölgənin əsas mərkəzi olsun. Bunu edirik və qısa müddət ərzində artıq etmişik. Dünyada Azərbaycanın artan imkanları da bəllidir. Bunu görürlər, ona görə də bizim nüfuzumuz, təsiretmə imkanlarımız artır. Yəni bütövlükdə mən deyə bilərəm ki, yaxın və uzaq gələcəkdə ölkə qarşısında problem görmürəm.

Bir problem var – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Onu da biz həll edəcəyik. Təbiidir ki, biz bunu həll edəcəyik, çünki Ermənistan bizimlə heç cür rəqabət apara bilməyəcəkdir. Xarici havadarları, xarici diasporu nə qədər də olsa, rəqabət apara bilməyəcəkdir. Çünki bizim aramızda olan fərq getdikcə artır. Nəzərə alsaq ki, bizim üçün Dağlıq Qarabağ məsələsi bir nömrəli məsələdir, bütün səylərimizi – siyasi, iqtisadi, hərbi, coğrafi, nəqliyyat – bu məsələnin həllinə yönəldirik. Hamı belə etməlidir, bu hər bir vətəndaş üçün bir nömrəli problem olmalıdır. İşlədiyi yerdən asılı olmayaraq, hər bir vətəndaş öz fəaliyyəti ilə bu problemin həllini yaxınlaşdırmalıdır. Kiminsə buna daha çox imkanı var, kiminsə az, amma hər bir insanın beynində bu daim olmalıdır. Bu bizim ağrılı yerimizdir. Azərbaycanlıları ordan etnik təmizləmə nəticəsində çıxarıb, sonra «referendum» keçirmək ən böyük ədalətsizlik, ən böyük cinayətdir. Heç kim «referendumu» tanımadı, heç kim də heç vaxt tanımayacaqdır. Biz bu problemi həll edəcəyik. Bunu həll etmək üçün bizim siyasətimiz var, qısamüddətli və uzun-

müddətli planlarımız var, biz bunu həyata keçiririk və keçirəcəyik. Yaxşı olar, Ermənistanda bunu tez başa düşsünlər ki, özlərini daha da ağır vəziyyətə salmasınlar.

Bəzi hallarda hesab olunur ki, bu münaqişədə Azərbaycan uduzmuş tərəfdir. Mən isə belə hesab etmirəm.

Düzdür, bizim torpaqlarımız işğal altındadır və Azərbaycan bundan əziyyət çəkir. Amma biz o torpaqları geri qaytaracağıq. Ancaq bu atəşkəs rejimi ərzində Ermənistanın da inkişafına baxın, Azərbaycanın da inkişafına. Atəşkəs rejimi ərzində Ermənistan əhalisinin yarısı ölkəni tərk edibdir. Bu hamıya aydın olan məsələdir. Düzdür, Ermənistanda onlar statistik rəqəmləri süni şəkildə artırırlar ki, bilinməsin orada axın var. Amma biz bunu bilirik, qonşu ölkələr də bunu bilir. İqtisadi cəhətdən Ermənistan bütün beynəlxalq layihələrdən təcrid olunmuş vəziyyətdədir. Onları təcrid olunmuş vəziyyətə biz salmışıq. Mən bunu deyirəm və açıq şəkildə bəyan edirəm. Bəzi hallarda bəzi təşkilatlar, ölkələr bizi qınamaq istəyirlər ki, siz Ermənistanı təcrid edirsiniz. Deyirəm bəli, biz edirik və bundan sonra da edəcəyik. Bütün imkanlardan istifadə edəcəyik ki, istədiyimizə nail olaq.

Bu müddət ərzində Azərbaycan möhkəmləndi, qarşıda duran bütün vəzifələri yerinə yetirdi, əvvəllər müəyyən mənada başqa ölkələrdən olan asılılığımızı aradan qaldırdıq. Bu indi sıfır səviyyəsindədir. Həyat da bunu göstərir. Ermənistan isə əksinə, getdikcə həm beynəlxalq təşkilatlardan, həm də regional ölkələrdən daha da çox asılı vəziyyətə düşür. İqtisadi baxımdan, sosial inkişaf baxımından müqayisəedilməz vəziyyətdəyik. Ona görə bu hələ böyük sualdır ki, müharibənin birinci mərhələsi kimin xeyrinə başa çatdı. Nəzərə alsaq ki, bu, müharibənin birinci mərhələsidir və əgər məsələni sülh yolu ilə həll edə bilməsək, onun ikinci mərhələsi olacaqdır. İkinci mərhələ faktiki olaraq, Ermənistanın sonu ola bilər. Onlar bunu bilməlidir və başa düşməlidirlər ki, bizim də səbrimizin hüdudları var.

Mən bu gün burada səslənən fikirlərlə çox razıyam, gənclərin əhval-ruhiyyəsi də yaxşıdır. Onların fikirləri də

məni çox sevindirir. Sizin simanızda – burada siz bütün Azərbaycan gənclərini təmsil edirsiniz – bir daha görürəm ki, Azərbaycanda çox dəyərli gənc nəsil yetişir. Bu çox böyük nailiyyətdir, çox böyük sərvətdir. Çünki çıxışımın əvvəlində onu qeyd etdim, bir daha demək istəyirəm ki, Azərbaycanı gələcəkdə siz idarə edəcəksiniz. Bugünkü gənclər, fəal gənclər, vətənpərvər, ölkəyə bağlı olan, bilikli, peşəkar insanlar. Bütün bu amillər olmalıdır. Adam vətənpərvər ola bilər və olmalıdır! Amma onun biliyi olmaya bilər, yaxud da ki, peşəkar olmaya bilər. Onda onun Vətənə xidməti bizi tam qane edə bilməz. Həm peşəkarlıq, həm torpağa bağlılıq, həm yüksək insani keyfiyyətlər – bütün bu amillər olmalıdır. Bütün bunlar da Azərbaycan gənclərində var. Azərbaycan gəncləri Azərbaycanın tarixindən, milli dəyərlərindən qidalanırlar. Onlar Azərbaycan xalqının bir parçasıdır. Milli mənəvi dəyərlərimiz bizim üçün ən başlıca rol oynayır. Bizim tariximiz, dəyərlərimiz, ənənələrimiz – budur bizi yaşadan. Uzun illər, əsrlər boyu müstəmləkə vəziyyətində yaşayan Azərbaycan insanlarını millət kimi, azərbaycanlı kimi saxlayan da məhz bunlar – bizim ənənələrimiz, tariximiz, dilimiz, mədəniyyətimiz olub və gələcəkdə də belə olacaqdır. Müəyyən dövrlər olur – ölkənin inkişaf dövrü, yaxud da ki, tənəzzül dövrü olur. Əgər bu dəyərlər varsa, heç kim millətə heç nə edə bilməz.

Bax, bu gözəl əhval-ruhiyyə ilə mən sizdən bu gün ayrılıram, sizi bir daha bu gözəl bayram münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, Azərbaycan gəncləri həmişə olduğu kimi, ölkəmizin inkişafına öz töhfələrini verəcəklər.

Bu gün bizimlə bərabər Teymur Rəcəbov buradadır. Onu böyük qələbə münasibətilə sizin adınızdan, bütün Azərbaycan xalqı adından təbrik etmək istəyirəm. Dünyanın ən mötəbər turnirində birinci yeri tutmaq böyük qəhrəmanlıq və böyük qələbədir. Biz hamımız ona azarkeşlik edirdik. İzləyirdik ki, necə oynadı, necə oynayacaq və çox sevinirdik. Biz inanırdıq ki, belə də olacaqdır. Bəlkə də hələ 10 il bundan əvvəl mən bilirdim ki, belə olacaqdır. Bu, böyük

qələbədir və şahmat tacının əldə edilməsi üçün böyük addımdır. Şəhriyarı da mən təbrik edirəm, onlar ikisi dünya şahmatçılarının reytinq cədvəlində birinci onluğa daxil olublar. Bu da böyük nəticədir. Orada Rusiyadan da iki nəfər var. Bundan sonra Azərbaycandan yəqin ki, daha da çox olmalıdır.

Sizi bir daha təbrik edirəm və hamınıza uğurlar arzulayıram. Həmişə fəal olun, möhkəm olun və bilin ki, mən həmişə sizinləyəm.

## «DOİNG BUSNESS–2007»nin MÜƏLLİFİ, DÜNYA BANKININ BAŞ İQTİSADÇISI SİMEON DJANKOV VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ MENECERİ QREQORİ YEDJEYÇAK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında «Doing Busness–2007»nin müəllifi, Dünya Bankının baş iqtisadçısı Simeon Djankovu və bankın Azərbaycan üzrə meneceri Qreqori Yedjeyçakı qəbul etmişdir.*

*Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri ilə yaxından tanış olmaq məqsədilə ölkəmizə səfər etdiklərini bildirən qonaqlar görüləcək işlər barədə dövlətimizin başçısına məlumat verdilər.*

*Prezident İlham Əliyev Azərbaycanda iqtisadi sahədə əldə olunan uğurlar barədə ətraflı danışdı və bu qurum ilə Azərbaycanın İqtisadi İnkişaf Nazirliyi arasında əməkdaşlığın gələcəkdə səmərəli olacağına və ölkəmizdə gedən inkişaf prosesləri barədə beynəlxalq aləmdə real təsəvvürün yaradılması sahəsində konkret işlərin görüləcəyinə əminliyini bildirdi.*

## AVROPA ŞURASI KATİBLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU JAN-LUİ LORA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Avropa Şurası Katibliyinin siyasi məsələlər üzrə Baş direktoru Jan-Lui Loranı və Avropa Şurası Baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi Denis Bribosianı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın uğurla həyata keçirildiyi qeyd olundu və bu beynəlxalq qurumla Azərbaycanın, o cümlədən ölkəmizin müvafiq strukturlarının əlaqələrinin bundan sonra genişlənəcəyinə əminlik ifadə edildi.*

## «BOİNQ–MÜLKİ AVİASİYA TƏYYARƏLƏRİ» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU SKOTT KARSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də ABŞ-ın «Boinq–Mülki aviasiya təyyarələri» şirkətinin prezidenti və Baş icraçı direktoru Skott Karsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkəmizin son illər əldə etdiyi iqtisadi uğurlardan danışdı və Azərbaycanın regionda lider dövlətə çevrildiyini vurğuladı. Azərbaycan prezidenti ABŞ-ın «Boinq–Mülki aviasiya təyyarələri» şirkəti ilə Azərbaycanın 6 ildən artıq bir dövrü əhatə edən uğurlu əməkdaşlığından məmnunluğunu ifadə etdi və şirkətin rəhbərinin ölkəmizə bu səfərinin əməkdaşlığımıza yeni imkanlar açacağına əminliyini bildirdi. Ölkəmizin regiondakı mövqeyindən danışan dövlətimizin başçısı Azərbaycanın sərnişin və yükdaşımaları üçün cəlbedici ölkə olduğunu və respublikamızın iqtisadi inkişaf potensialının gələcəkdə tam təmin edilməsi üçün daha yeni təyyarələrə ehtiyacı olduğunu bildirdi.*

*«Boinq–Mülki aviasiya təyyarələri» şirkətinin prezidenti və Baş icraçı direktoru Skott Karson Azərbaycanda gedən sürətli iqtisadi inkişafın, ölkənin hər yerində aparılan tikinti və abadlaşdırma işlərinin onlarda böyük təəssürat yaratdığını qeyd etdi. O, ölkəmizlə əməkdaşlıqdan razı qaldıqlarını vurğuladı və yeni Boinq-787 təyyarələrini regionda ilk dəfə olaraq Azərbaycana gətiriləcəyini planlaşdırdıqlarını bildirdi.*

## GÖRKƏMLİ FİZİK, KEÇMİŞ SSRİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Prezident sarayında görkəmli fizik, keçmiş SSRİ Elmlər Akademiyasının həqiqi üzvü Roald Zinnuroviç Saqdeyevi qəbul etmişdir.*

*Akademik Saqdeyev Bakıya ötən səfəri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü məmnunluqla xatırladaraq bu görüşdən aldığı xoş təəssüratın bu günə kimi onun qəlbində yaşadığını vurğuladı.*

*Dövlətimizin başçısı akademik Saqdeyevin ölkəmizə səfərinin Azərbaycanın beynəlxalq elmi-ictimai əlaqələrinin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Qambiya münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 fevral 2007-ci il*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ, ABŞ–AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ DANİEL SULLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Prezident sarayında ABŞ Dövlət katibinin iqtisadiyyat, energetika və biznes məsələləri üzrə müavini, ABŞ–Azərbaycan Birgə İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Daniel Sullivanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dəniel Sullivan ölkəmizə səfərin əsas məqsədinin ABŞ–Azərbaycan İqtisadi Əməkdaşlıq üzrə İşçi qrupunun Birgə İqtisadi Əməkdaşlıq Komissiyasına çevrilməsi barədə hökumətlərarası sazişin imzalanması olduğunu vurğuladı. O, son illərdə, xüsusilə prezident İlham Əliyevin ABŞ-a səfərindən ötən müddətdə iqtisadi əlaqələrin sürətlə inkişaf etməsinin belə bir komissiyanın yaradılmasını zəruri etdiyini bildirdi. Qonaq iqtisadi əlaqələrin tez bir zamanda belə səviyyəyə çatdırılmasında Azərbaycan prezidentinin rolunu yüksək qiymətləndirdi.*

*Dövlətimizin başçısı bu səfərin Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Ölkələrimiz arasında iqtisadi əlaqələrin səviyyəsini qaldırmaq üçün hər iki tərəfin maraqlı olduğunu qeyd edən prezident İlham Əliyev iqtisadi əməkdaşlığın yalnız neft sektorunda deyil, qeyri-neft sektorunda da uğurla inkişaf etməsinin önəmli olduğunu vurğuladı. Azərbaycanın iqtisadi cəhətdən sürətlə inkişaf etdiyini xatırladan*

*dövlətimizin başçısı ABŞ şirkətlərinin ölkəmizlə əməkdaşlığından məmnunluğunu söylədi.*

*Daniel Sullivan ölkəsinin Azərbaycan ilə qeyri-neft sektorunda da fəal əməkdaşlıq etməkdə maraqlı olduğunu və rəhbərlik etdiyi nümayəndə heyətinin əsasən ABŞ-ın qeyri-energetika sahəsini təmsil etmələrini bu marağın bariz nümunəsi olduğunu bildirdi. Qonaq dedi ki, nümayəndə heyətinə ABŞ-ın mühüm dövlət orqanları və nazirliklərinin nümayəndələrinin daxil olması ABŞ-ın Azərbaycan ilə iqtisadi əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsinə önəm verməsinin göstəricisidir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*7 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Gürcüstana işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Gürcüstan paytaxtına gəlmişdir.*

*Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət bayraqları ilə bəzədilmiş Tbilisi Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Milli geyimli qız və oğlan Azərbaycan prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Gürcüstanın Baş naziri Zurab Noğaideli və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha – «Tbilisi–Mariott» mehmanxanasına yola düşdü.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

*7 fevral 2007-ci il*

*Fevralın 7-də Tbilisidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Prezidentlər Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həm ikitərəfli, həm də regional əlaqələr baxımından əhəmiyyətini xüsusi vurğuladılar. Bildirildi ki, bu əməkdaşlığın xalqlarımızın rifahının yüksəldilməsində də böyük rolu olacaqdır.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edildi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

*«Tbilisi–Mariott» mehmanxanası*

*7 fevral 2007-ci il*

*Fevralın 7-də «Tbilisi-Mariott» mehmanxanasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə dost və qardaş ölkələr arasında münasibətlərin uğurla inkişafından məmnunluq bildirildi, Azərbaycan və Türkiyənin qlobal enerji layihələrində və Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə dair imzalanacaq layihədə iştirakının bu münasibətləri daha da möhkəmləndirəcəyi vurğulandı.*

*Bu əməkdaşlığın regionda sülhə, sabitliyə xidmət etdiyinin bildirildiyi görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə də fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞANIN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*7 fevral 2007-ci il*

*Fevralın 7-də Gürcüstan parlamentinin binasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğanın üçtərəfli görüşü olmuşdur.*

*Prezident Mixeil Saakaşvili bu görüşün və Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin əhəmiyyətini vurğuladı, onun regional əməkdaşlığın inkişafına xidmət edəcəyini söylədi.*

*Prezident İlham Əliyev Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin zəruriliyindən danışaraq dedi ki, bu bizi daha sıx birləşdirəcək, regional əməkdaşlığı daha da genişləndirəcəkdir. Bu layihənin həyata keçirilməsi həm də regiona sabitlik, sülh gətirəcək və ümumiyyətlə, ölkələrimizin, xalqlarımızın iqtisadi maraqlarına cavab verir. Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin iqtisadi əhəmiyyətindən danışan dövlətimizin başçısı bildirdi ki, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə düşməsi əlaqələrimizi daha da möhkəmləndirəcəkdir. Üç ölkə arasında enerji sahəsində əməkdaşlıq var, lakin qeyri-neft sektorunda da əlaqələrin genişlənməsi vacibdir və hazırda bu istiqamətlərdə konkret işlər görülür. Prezident İlham Əliyev 2007-ci ildə Azərbaycanın neft və qaz hasilat və ixracını genişləndirəcəyini bildirdi və dedi ki, bu gün görülən işlər ölkələrimiz və xalqlarımız arasında, eləcə də*

*regional əməkdaşlığın daha da genişləndirilməsi və möhkəmləndirilməsinə xidmət edir.*

*Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Bakı–Tbilisi–Qars dəmir yolu layihəsindən danışarkən onu «Dəmir İpək Yolu» adlandırdı. O, Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri də daxil olmaqla, üç böyük layihənin regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfə verdiyini dedi və xalqlarımızın firavanlığı üçün əhəmiyyətini vurğuladı. Baş nazir dedi ki, Asiya ilə Avropanı birləşdirəcək dəmir yolu layihəsi regional əməkdaşlığa daha bir nümunədir.*

## TBİLİSİ BEYNƏLXALQ HAVA LİMANININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Tbilisi Beynəlxalq Hava Limanının təntənəli açılış mərasimi olmuşdur.*

*Mərasimi Türkiyənin «TAV» şirkətinin sədri açdı. Türkiyənin Baş naziri, Azərbaycan prezidenti və Gürcüstan prezidenti çıxış etdilər. Bildirildi ki, Türkiyənin «Tənə Akfen» («TAV») şirkəti tərəfindən tikilmiş Tbilisi Beynəlxalq Hava Limanı ildə 2,8 milyon sərnişin daşıması üçün nəzərdə tutulmuşdur. Hava limanı «TAV» şirkətinə 20 illiyə icarəyə veriləcəkdir. 25 min kvadratmetr ərazisi olan hava limanının tikintisinə 28,5 milyon dollar vəsait xərclənmişdir.*

*Beynəlxalq hava limanının açılışını bildirən lenti kəsən prezidentlər və Baş nazir müasir dizayn üslubunda tikilmiş, hər bir şərait yaradılmış, Avropa standartlarına uyğun aerovağzal binası ilə tanış oldular.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli cənab Baş nazir!

Əziz xanımlar və cənablar!

Mən sizin hamınızı, ilk növbədə bütün Gürcüstan xalqını yeni aeroportun işə düşməsi ilə əlaqədar ürəkdən təbrik edirəm. Çox gözəl binadır, ən müasir səviyyədə tikilib və uzun illər Gürcüstana xidmət edəcəkdir.

Bu gün çox əlamətdar gündür. Bu gün çox mühüm addımlar atılıbdır. Deyə bilərəm ki, üç ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyubdur. Bir müddət bundan

əvvəl imzalanmış müqavilələr, xüsusilə Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilişinə dair imzalanmış bütün sazişlər bizim əməkdaşlığımızı daha da möhkəmləndirir. Əminəm ki, bütövlükdə, gələcəkdə energetika sektorundan sonra nəqliyyat sektoru bizim bölgədə ən önəmli istiqamətlərdən biri olacaqdır. Energetika sektorunda əldə edilmiş uğurlar, həyata keçirdiyimiz nəhəng transmilli layihələr bir başlanğıc idi.

Gürcüstan və Azərbaycan yeni müstəqil ölkələrdir. Müstəqilliyimizin ilk illəri hər iki ölkə üçün çox çətin və ağır keçmişdir. Deyə bilərəm ki, bizim müstəqilliyimiz təhlükə qarşısında idi və biz çox böyük mübarizələr apararaq bugünkü səviyyəyə gəlib çatmışıq. Bu gün isə inkişaf dövrüdür. Bu gün ölkələrimiz yeni inkişaf strategiyasını müəyyən edirlər. Bizim birliyimiz, birgə layihələrimiz və energetika sektorunda, xüsusilə Bakı–Tbilisi–Ceyhan neft kəməri ilə başlanmış əməkdaşlığımız digər sahələrə də öz təsirini göstəribdir. Əgər 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanmasaydı və onun məntiqi nəticəsi olan Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, nə Bakı–Tbilisi–Ərzurum qaz kəməri, nə də Bakı–Tbilisi–Qars dəmir yolu reallığa çevrilərdi. Ancaq indi bütün bunlar gerçəklikdir, mümkün olmuşdur. Bu da onu göstərir ki, mümkün olmayan məsələ yoxdur. Əgər rəhbərlərin iradəsi varsa, xalqların rəhbərlərə dəstəyi varsa, istənilən məsələni həll etmək mümkündür. Biz də bu gün bu yoldayıq.

Bizim birliyimiz artır, Türkiyə–Azərbaycan–Gürcüstan qardaşlığı möhkəmlənir. Bizim xalqlarımız da qardaşlıq münasibətləri ilə bir-birinə çox bağlıdırlar. Bu gözəl layihələr isə bizi daha da sıx birləşdirir. İqtisadi sahədə artan əməkdaşlığımız iqtisadiyyatlarımızı da bir-birinə bağlayır, mənfəətlərimizi də bir-birindən asılı edir və bizim uğurlu gələcəyimiz də bir-birimizin uğurlarından asılıdır. Məhz buna görə bizim birliyimiz davam etməli, möhkəmlənməlidir. Əminəm ki, gələcəkdə yeni, böyük layihələr həyata keçiriləcəkdir.

Bu gün bu bölgədə, Cənubi Qafqazda başlanmış və artıq bütün regiona yayılan layihələr geniş mənada bütün qitəyə öz təsirini göstəribdir. Enerji təhlükəsizliyi məsələləri indi

dünya siyasətinin gündəliyində duran bir nömrəli məsələdir. Azərbaycan, Gürcüstan və Türkiyə Avropanın enerji təhlükəsizliyinə çox dəyərli töhfələrini verir. Bu, birinci addımdır. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin işə düşməsi və gələcəkdə fəaliyyəti Avropaya açılan ilk pəncərədir. Bütün bu layihələr enerji və nəqliyyat dəhlizini möhkəmləndirir. Əgər regionumuzun xəritəsinə baxsaq görərik ki, müxtəlif imkanlar var, müxtəlif dəhlizlər açıla bilər. Ancaq o dəhlizlər işləyir ki, dəhliz keçən ölkələr buna öz dəstəyini verir. Ərazidən keçən yollar əhəmiyyətli yollardır. Sabitlik var, inkişaf var. Sabitlik olan yerə investisiyalar da qoyulacaq, maraq da artacaq və beləliklə, bölgəmiz inkişaf edəcəkdir.

Biz hələ çox işləməliyik, ölkələrimizi möhkəmləndirməliyik. Biz, sadəcə olaraq, inkişafın hələ birinci mərhələsindəyik. Birinci mərhələni uğurla başa vurduq, öz müstəqilliyimizi sübut etdik, iqtisadi potensialımızı özümüz gücləndiririk. Gələcəkdə həm regionda, həm də daha geniş mənada Avropada gedən işlər bizim əməkdaşlığımızdan xeyli dərəcədə asılı olacaqdır. Azərbaycan çox təhlükəsiz və etibarlı enerji ehtiyatlarına sahib olan, onları təhlükəsiz yollarla dünya bazarlarına çatdıran ölkədir və bizim tərəfdaşlarımız da bu işlərə öz töhfələrini verirlər.

Bu gün nəqliyyat günüdür. Mən bunu belə adlandırardım. Eyni zamanda, çox tarixi gündür. Bakı–Tbilisi–Qars layihəsinə başlanması və Tbilisi Beynəlxalq Hava Limanının işə düşməsi çox əlamətdar hadisələrdir. Ancaq bir məsələyə diqqət çəkmək istəyirəm ki, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars layihələrini biz birlikdə etmişik, Tbilisi hava limanında isə Azərbaycan bir az yaddan çıxıbdır. Bu, Türkiyə–Gürcüstan layihəsidir. Əgər dəvət etsəydiniz, biz də burada iştirak edə bilərdik. Amma buna baxmayaraq, biz də bir dost kimi, qardaş kimi, buna sevinirik. Əminəm ki, Gürcüstanın yeni açılan qapıları, yeni hava qapıları buraya çoxlu işlər gətirəcək, dostlar gələcək, əməkdaşlıq artacaq, investisiyalar gələcəkdir. Beləliklə, ölkəniz inkişaf edəcəkdir. Bir dost, qardaş kimi və Gürcüstanı sevən

bir insan kimi, mən bunu arzulayıram. Bu gözəl gündə bütün Gürcüstan xalqına xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, bütün arzularınıza çatasınız. Arzu edirəm ki, ölkənizdə sülh olsun, inkişaf, mehribanlıq olsun və xalqınız rahat, firavan yaşasın. Biz – sizin dostlarınız da buna baxaq, sevinək. Sizi bir daha təbrik edirəm.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*7 fevral 2007-ci il*

## Heydər Əliyev adına prospektin təntənəli açılış mərasimi

*Fevralın 7-də Gürcüstan paytaxtının mərkəzində Heydər Əliyev adına prospektin təntənəli açılış mərasimi olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvili mərasimdə iştirak edirdilər.*

*Mərasimə toplaşan minlərlə sakin əllərində Azərbaycanın və Gürcüstanın dövlət bayraqları, prezidentləri salamlayan şüarlarla dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Prezidentlər İlham Əliyev və Mixeil Saakaşvili üzərində gürcü və ingilis dillərində «Heydər Əliyev prospekti» sözləri yazılan xatirə lövhəsinin üzərindən ağ örtüyü götürdülər.*

*Kür çayının sağ sahilində yerləşən prospektin uzunluğu 3,7 kilometrdir. Hündürlüyü 4 metr olan xatirə lövhəsində göstərilir ki, buradan Bakıya olan məsafə 556 kilometr, Ankaraya isə 1441 kilometrdir.*

*İncəsənət ustaları Azərbaycan xalq mahnıları ifa etdilər.*

*Sonra prezidentlər İlham Əliyev və Mixeil Saakaşvili Tbilisi sakinlərinə yaxınlaşıb onlarla səmimi görüşdülər.*

## Tbilisi metrosunun «Azadlıq meydanı» stansiyası ilə tanışlıq

*Fevralın 7-də Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvili Tbilisi metropoliteninin*

*təmir-bərpa işləri aparılmış «Azadlıq meydanı» stansiyası ilə tanış oldular.*

*Dövlət başçıları ekskalatorla stansiyaya endilər. Prezident Mixeil Saakaşvili bildirdi ki, bu stansiya əvvəllər Leninin adını daşımışdır. Müstəqillik əldə etdikdən sonra isə «Azadlıq meydanı» adlanır. Keçən ilin dekabrında təmir olunmuş və hazırda sərnişinlərin ixtiyarına verilmişdir.*

## Mərkəzi universitet klinikası ilə tanışlıq

*Fevralın 7-də Azərbaycan prezidenti İlham Əliyev və Gürcüstan prezidenti Mixeil Saakaşvili Tbilisinin Vaja Pşavela prospektində tikilən Mərkəzi universitet klinikası (keçmiş Respublika xəstəxanası) ilə tanış oldular.*

*Səhiyyə işçiləri prezidentləri səmimiyyətlə qarşıladılar.*

*Klinikanın direktoru Nikoloz Tibşidze məlumat verdi ki, 1974-cü ildə tikilmiş binada keçən il əsaslı təmir-tikinti və yenidənqurma işlərinə başlanmışdır.*

*Prezidentlər ayrı-ayrı şöbələrə baxdılar, quraşdırılmış müasir avadanlıqla yaxından tanış oldular. Bildirildi ki, tibb universitetinin tələbələri bu klinikada ixtisasartırma kursları keçəcəklər.*

*Gürcüstanın Sosial Müdafiə, Əmək və Səhiyyə naziri Vladimir Gipaşvili prezident İlham Əliyevə məlumat verərək dedi ki, tikinti və yenidənqurma işləri bu il başa çatacaq, ərazi daha da genişləndiriləcək və burada böyük bir tibb mərkəzi yaranacaqdır.*

*Prezidentlər klinikaya hədiyyə olunmuş təcili tibbi yardım maşınlarına da baxdılar.*

## ÜÇTƏRƏFLİ REGİONAL ƏMƏKDAŞLIQ SAMMİTİ SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*Fevralın 7-də Gürcüstan parlamentinin binasında Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli regional əməkdaşlıq sammiti sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Əvvəlcə Gürcüstan prezidenti Mixeil Saakaşvili, sonra Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və Azərbaycan prezidenti İlham Əliyev bəyanatla çıxış etdilər.*

**Gürcüstan prezidenti Mixeil Saakaşvilinin bəyanatı**

Hörmətli cənab Prezident İlham Əliyev!

Hörmətli cənab Baş nazir Rəcəb Tayyib Ərdoğan!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı burada, Gürcüstanın paytaxtı Tbilisi şəhərində salamlamaq istəyirəm. Bu bizim həyatımızda çox mühüm bir gündür. Ümumiyyətlə, regionun tarixində mühüm bir mərhələdir. Bu gün biz Tbilisi Bəyannaməsini imzalayacağıq, bundan başqa, Bakı–Tbilisi–Qars dəmir yolu tikintisinin layihəsinin artıq başlanması ilə bağlı sazişi imzalayacağıq.

Biz bilirik ki, regionumuzda digər vacib layihələr də nəzərdə tutulur və gələcək üçün böyük layihələr də var. Lakin həmin layihələr arasında bu layihə adi insanların, vətəndaşların, xalqlarımızın həyatının daha da yaxşılaşdırılması üçün ən vacib bir layihədir. Bu layihə bizim üçün iki siyasi məna daşıyır və ümumiyyətlə, tamamilə strateji baxımdan yeni bir durumun formalaşmasına zəmin yaradacaq, üç ölkəni bir-birinə daha da yaxınlaşdıracaqdır. Bir tərəfdən, Mərkəzi Asiya, Çin, digər tərəfdən, Avropa bu məkanda qovuşacaqdır. Biz artıq yeni mərhələnin başlanmasından danışa bilə-

rik. Bunu İpək Yolunun bərpası layihəsinə də aid etmək olar. Bu o deməkdir ki, layihə hər bir ölkə üçün fayda gətirəcək, həmçinin tərəfdaşlarımız üçün də xeyirli olacaqdır. Hazırkı layihə bizim gələcəkdə atacağımız addımların uğurunun əsas şərtidir. Hər üç ölkə əlindən gələni əsirgəməyəcək, yükdaşımalarını davam etdirəcəkdir.

Bundan sonra ölkəmizin dəmir yolu xətləri Avropanın dəmir yolu şəbəkəsinə qoşulmaq imkanı əldə edəcəkdir. Nəinki ölkəmizdən, eyni zamanda, regionumuzdan, o cümlədən Mərkəzi Asiyadan daşınan malların ərazimizdən keçməsi üçün imkan yaranacaqdır. Bir sözlə, bu layihənin gerçəkləşməsi ümumi baxımdan coğrafi vəziyyətə də yenilik gətirəcəkdir. Biz artıq keçmişdə yaşadığımız günləri keçmişdə qoyaraq gələcək dövrə nəzər salırıq. Gürcüstan layihənin tam lazımi səviyyədə həyata keçirilməsi üçün bütün işləri yerinə yetirəcəkdir.

Bizim Türkiyə ilə sərhədimiz ən şəffaf sərhəddir. Bu illər ərzində, demək olar ki, 1,5 milyon şəxs həmin sərhədi keçmişdir. Bizim Türkiyə ilə xüsusi viza rejimimiz vardır və bu daha asanlaşdırılmış qaydada həyata keçirilir. Bundan əlavə, biz bu layihənin həyata keçirilməsindən sonra əldə olunacaq nəticələrdən üç ölkədə eyni qaydada, eyni dərəcədə istifadə edə biləcəyik.

Bu il İstanbul–Batumi avtomobil xətti də çəkiləcəkdir. Çox yüksək standartlara cavab verən yol olacaq və bu o deməkdir ki, adi vətəndaşlar Tbilisidən səhər-səhər öz maşınlarına əyləşib, rahat şəkildə istədikləri ünvana çata biləcəklər. Eyni zamanda, biz Tbilisidə qatara minərək heç bir qatar dəyişmədən birbaşa Fransaya və digər Avropa ölkələrinə gedə biləcəyik.

Gürcüstanın Azərbaycan və Türkiyə ilə birgə uğurlu əməkdaşlığı nəticəsində, Azərbaycan hökumətinin yorulmaz səyləri nəticəsində bu il ərzində alternativ qaz mənbəyi hesabına ölkəmiz mavi yanacaqla təmin olundu və bu bizim üçün müstəsna xaratker daşıyan mənbədir. Yadımdadır, biz hansı böyük çətinliklərlə üzləşmişik. İndi isə biz bu çətinlikləri

aradan qaldırmaqdayıq. Bildiyiniz kimi, ötən il Gürcüstan elektrik enerjisindən və qazdan məhrum olmuşdu, Azərbaycan bizim köməyimizə gəldi, qışın nə qədər soyuq olmasına baxmayaraq, Azərbaycan bizə öz yardım əlini uzatdı, Gürcüstanı enerji ilə təchiz etdi. Biz bunu heç vaxt yaddan çıxarmayacağıq. Bu bizim ölkələrimiz arasındakı dostluğun bir nümunəsidir. Azərbaycan qəbul etdiyi qərarı yerinə yetirdi və Gürcüstana qaz verdi. Bu qərarın qəbul edilməsi olduqca böyük cəsarət tələb edirdi. Bildiyiniz kimi, təbii qazın qiyməti təkcə Gürcüstan üçün yox, eyni zamanda, Azərbaycan üçün artırılmışdır. Azərbaycana qaz verən şirkətin hansı addımlar atdığı məlumdur. Qazın qiyməti artırıldıqdan sonra çətinliklərə baxmayaraq, Azərbaycan buna müqavimət göstərə bildi, müstəqil şəkildə öz qərarını qəbul etdi. Gürcüstan bunu heç vaxt yaddan çıxarmayacaqdır. Bax, biz bu yolla öz dostluğumuzu sınaqdan keçiririk. Bu yolla ölkələrimiz arasında ənənəvi münasibətlərimizin daha da möhkəmlənməsinə, sarsılmaz xarakter almasına nail oluruq. Bu çox genişmiqyaslı, çoxşaxəli münasibət deməkdir.

Biz bu layihə ilə həm də Türkiyəyə və digər yerlərə, məkanlara, ölkələrə çıxış əldə edəcəyik.

Bu bizim böyük nailiyyətimizdir. Biz istəmirik ki, heç bir ölkə bu transformasiya prosesindən kənarda qalsın. Hesab edirik ki, istənilən ölkə bərabərlik prinsipi əsasında iradələrinə arxalanaraq, irəliyə addımlar atmalıdır və hamı bu əməkdaşlığa başlamalıdır. Ona görə qonşu Ermənistanla da dostluq münasibətlərimizi inkişaf etdirməliyik. Çünki onların da alternativ enerji mənbələrinə ehtiyacları vardır. Bu əməkdaşlıq vacibdir və ümumi addımlar atmaq lazımdır.

Bir daha demək istəyirəm ki, biz keçmişdə çətin anlar yaşamışıq. Hazırda böyük bir cəsarətli addım atmışıq. Belə bir sazişin imzalanması ilə ölkələrimizin parlaq gələcəyini təmin edirik. Bu layihə ilə bağlı mən hər üç ölkəni təbrik edirəm. İndi biz bu sənədləri imzalayacağıq. Bir sözlə, böyük nəqliyyat-tikinti layihəsinə başlayacağıq.

Biz paytaxtımızda 6 ay bundan əvvəl hava limanının da tikintisinə başlamışıq və artıq bu böyük layihəni başa çatdırırıq. Beləliklə, dostluğumuzu, aramızda olan yaxınlığı möhkəmləndirəcəyik və qarşılıqlı əməkdaşlığı bu cür yollarla davam etdirəcəyik.

Mən Azərbaycan prezidentinə və Türkiyənin Baş nazirinə təşəkkür edir, bu cür vacib əməkdaşlığa görə onlara dərin minnətdarlığımı bildirirəm.

**Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın bəyanatı**

Hörmətli Prezidentlər!

Dəyərli Baş nazir, dəyərli nazirlər!

Hörmətli qonaqlar!

Sizləri hörmət və ehtiramla salamlayıram. Öncə belə bir mənalı gecədə sizlərlə birlikdə olmaqdan böyük məmnuniyyət hissi keçirdiyimi ifadə etmək istəyirəm. Göstərdikləri qonaqpərvərliyə görə Gürcüstan prezidenti hörmətli Saakaşvili başda olmaqla, Gürcüstanın rəsmi şəxslərinə öz adımdan və nümayəndə heyətimin üzvləri adından təşəkkür edirəm.

Azərbaycan prezidenti hörmətli İlham Əliyevin də bu mərasimdə iştirak etməsi bizləri son dərəcə məmnun etmişdir. Çünki bu gün bir yerə toplaşmaqla birlikdə dünyaya çox mühüm mesaj veririk. Regional əməkdaşlıq necə ola bilər – bunun nümunəsini göstəririk. Regional əməkdaşlıq edərkən hazırda üçüncü addımı atırıq. Birinci addım, bildiyiniz kimi, Bakı–Tbilisi–Ceyhan neft kəməri idi. İkincisi Bakı–Tbilisi–Ərzurum, digər adı ilə «Şahdəniz» layihəsi idi. İndi də üçüncü addımı artırıq. O da Bakı–Tbilisi–Qars layihəsidir, tarixi İpək Yolunun artıq bir dəmir yoluna çevrilməsi hadisəsidir. Təbii ki, bunun arxasınca gələn müxtəlif layihələr də var. Ancaq bu həmrəylik sadəcə, regional əməkdaşlıqla məhdudlaşmır. Eyni zamanda, bu dəmir yolu üzərindəki hər bir stansiya bir sülh stansiyası, dostluq və həmrəylik stansiyası olaraq, dünyaya mesajını verir. Qafqazın vəziyyəti hər kəsə məlumdur. Ancaq indi Qafqaz bu regional əməkdaşlıqla

fərqli bir mesaj verərək, artıq bir həmrəylik mərkəzi olduğunu nümayiş etdirir.

Hazırda Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi ilə bağlı Çərçivə Sazişinin imzalanması mərasimi münasibətilə bir yerə toplaşmışıq. Bu çox mənalı görüşdür. Bu sənədi biz bu gün imzalayırıq. Ancaq bizdən sonra gələn nəsillər də bizləri xeyirlə yad edəcəklər. Mən indi bunu burada görürəm. Bu gün imza atdığımız bu layihə ilə müştərək gələcəyimizi qurur və müştərək tariximizin zənginliyini müştərək gələcəyə birlikdə aparırıq. Bu baxımdan bugünkü mərasim çox əhəmiyyətlidir. Xüsusilə qitələrin, dənizlərin, xalqların və mədəniyyətlərin bir-birinə qovuşduğu geosiyasi bir məkanda yerləşən ölkələrimizin tarixi və coğrafi məsuliyyətlərini dərk edirik.

İnşasına 2007-ci ildə başlanacaq dəmir yolunun Türkiyəyə aid layihəsi başa çatdırılmışdır, Gürcüstana aid layihə də sürətlə başa çatır. Ümid edirəm ki, dəmir yolunun təməlini yay aylarında birlikdə qoyacağıq və o, Xəzər hövzəsini Avropaya birləşdirəcəkdir. Yəni təsəvvür edin, Xəzərdən keçərək Asiyadan Çinə qədər uzanan yol digər tərəfdən İstanbul boğazından keçir və Avropanın ən ucqar guşələrinə qədər uzanır.

Bu layihənin başqa bir xüsusiyyəti də hava yolu, avtomobil yolu ilə birlikdə bölgədə nəqliyyat növləri və imkanlarının genişləndirilməsinə xidmət etməsidir.

Bir az əvvəl hörmətli Prezidentin də dediyi kimi, Tbilisi hava limanı yenidən qurulmuşdur və bir az sonra onun da açılışı olacaqdır. Bu işi bir Türkiyə şirkətinin görməsi bizi sevindirmişdir. Ən qısa zamanda Batumi hava limanının da açılışı olacaqdır. Bundan sonra Batumi və Trabzon hava limanları müştərək istifadəyə veriləcəkdir. Bütün bunlar xalqlarımız arasındakı əlaqələri möhkəmləndirməklə yanaşı, nəqliyyat sahəsində alternativ yolların artırılmasına da xidmət edəcəkdir.

Bu gün Qafqazda hələ də öz həllini tapmayan problemlər var. Biz onları dərk edirik. Bu münaqişələr tezliklə ədalətli

həllini tapmalıdır. Türkiyə olaraq, biz indiyə kimi bu məqsədlə hər cür dəstək verdiyimiz kimi, bundan sonra da eyni mövqedə olacağıq.

Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm. İndi enerji təhlükəsizliyi dünyanın ən mühüm məsələlərindən biridir. Bilirəm ki, bizim də, Gürcüstanın da enerji məsələsində çətinlikləri var. Hazırda bu məsələdə ən əlverişli vəziyyətdə olan Azərbaycanın da müəyyən çətinlikləri var. Azərbaycan indi bu çətinliklərin öhdəsindən gəlmək səviyyəsinə çatmışdır. Aramızda olan həmrəylik bizim də yükümüzü azaldır, inanıram ki, bu həmrəylik bizi gələcəkdə daha yaxşı mövqeyə çatdıracaqdır. Necə ki, Bakı–Tbilisi–Ceyhan vasitəsilə dünya Azərbaycandan sanki nəfəs almaq imkanı əldə etdi, eləcə də Bakı–Tbilisi–Ərzurum layihəsi vasitəsilə Avropa Azərbaycandan yenə bir nəfəs almaq imkanı əldə edəcəkdir. Çünki Yunanıstana qədər uzanan kəmər hazırda tamamlanmaqdadır. Bunun tamamlanması ilə Avropa bu sülh düşüncəsi ilə öz payını alacaqdır.

Mən göstərdikləri səylərə görə xüsusilə hörmətli Prezidentlərə və Baş nazirlərə, nazirlərə, bu layihədə əməyi olan firmalara, bundan sonra əməyi olacaq firmalara istər öz adımdan, istərsə də ölkəm və millətim adından təşəkkür edirəm. Bu birliyimizin möhkəmlənərək davam etməsi arzusu ilə sizləri ən səmimi hisslərlə salamlayıram.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli Prezident!
Hörmətli cənab Baş nazir!
Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən qardaş Gürcüstan torpağında yenidən olmağımdan böyük məmnunluq hissimi ifadə etmək istəyirəm. Bu gün çox gözəl bir gündür. Səhər tezdən mən Tbilisi şəhərindəyəm və dostum Mixeil ilə neçə yerlərə baş çəkmişəm. Yeni tikilən xəstəxana, təmir olunmuş metro stansiyası, Tbilisinin yeni görkəmi ilə tanış oldum. Bu gün

biz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan sahilyanı küçənin açılış mərasimində iştirak etdik. Bu küçəyə Heydər Əliyevin adı verilibdir. Yəni çox zəngin proqramımız var idi. Təbii ki, bu gün imzalanacaq sənədlər tarixi baxımdan, bugünkü vəziyyət və üç ölkənin gələcək işbirliyi, əməkdaşlığı baxımından çox böyük əhəmiyyət kəsb edir. Mən demək istəyirəm ki, imzalanacaq sənədlər bizim dostluğumuzu daha da möhkəmləndirəcəkdir. Bu gün artıq burada deyildi ki, bu əməkdaşlıq böyük və gözəl tarixə malikdir. Bizim tərəfimizdən həyata keçirilən nəhəng transmilli layihələr, enerji layihələri, Azərbaycan nefti və qazını dünya bazarlarına çıxaran layihələr çox böyük fədakarlıq tələb edirdi, çox böyük müdriklik, cəsarət tələb edirdi. Biz bunları çox ağır siyasi və geosiyasi durumda həyata keçirdik. Əgər xatırlayırsınızsa, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə dair müxtəlif fərziyyələr irəli sürülürdü, şayiələr yayılırdı. Çox güclü müqavimət var idi. Ancaq bütün bunlara baxmayaraq, bu nəhəng layihə artıq reallıqdır və Azərbaycan nefti bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Nəyin hesabına biz buna nail ola bildik? İlk növbədə, üç ölkə arasında və üç xalq arasında olan dostluq, qardaşlıq hesabına.

Əlbəttə ki, bu layihələrin həyata keçirilməsində çoxlu vacib amillər olmuşdur – peşəkar insanlar, bizə dəstək verən maliyyə qurumlarının imkanları, bizimlə bərabər çalışan xarici neft şirkətlərinin yatırımları, investisiyaları ilə fəaliyyəti. Ancaq ilk növbədə, bu üç ölkənin iradəsi və qətiyyətidir. Bu gün Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinin başlanması ilə əlaqədar imzalanacaq sənədlər bu görülən işlərin məntiqi nəticəsidir. Əgər bu böyük layihələrin adlarına fikir versəniz görərsiniz ki, bunlarda da oxşarlıq var: Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars. Yəni Bakı ilə Tbilisi və Türkiyənin üç şəhəri. Bu onu göstərir ki, üç ölkə arasında olan əməkdaşlıq öz konkret nəticələrini verir. Onu göstərir ki, bizim strateji xəttimiz, siyasətimiz uğurludur. Bu bir daha bizim siyasətimizin təntənəsinin

əlamətidir. Xüsusilə yeni müstəqil ölkələrin – Gürcüstanın, Azərbaycanın müstəqilliyinin bir daha təntənəsidir. Biz sübut etdik ki, müstəqil ölkələr kimi yaşaya və yaxşı yaşaya bilərik, qarşımızda duran bütün vəzifələri özümüz həll edə bilərik.

Biz 15 ildir ki, müstəqilik. Müstəqillik hər insan üçün, hər bir ölkə üçün ən böyük dəyərdir. Biz uzun illər, əsrlər boyu bu müstəqillikdən məhrum olmuşduq. İndi biz onu qazanmışıq. Amma biz elə etməliyik ki, bu, əbədi olsun, dönməz olsun. Bizim xalqlarımız bunun bəhrəsini görsünlər, insanlarımız daha da yaxşı yaşasınlar, iqtisadi artım olsun. Bunların hamısı var. Əgər sadəcə olaraq, Türkiyə, Gürcüstan və Azərbaycanın iqtisadi inkişafına nəzər salsanız görərsiniz ki, hər üç ölkədə çox kəskin şəkildə iqtisadi artım var, insanların həyat səviyyəsi, sosail rifahı yaxşılaşır, qlobal, transmilli layihələr öz həllini tapır və üç ölkə, üç qardaş həm öz xalqları üçün, həm də regionun inkişafı üçün əlindən gələni edir.

Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum layihələri kimi, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin də həyata keçirilməsi regiona sabitlik, əməkdaşlıq gətirəcəkdir. Regionun problemlərinin həlli üçün önəmli rol oynayacaq, bizi birləşdirəcək, qitələri birləşdirəcəkdir. Gələcəkdə bu yoldan müxtəlif ölkələr, tərəflər istifadə edə bilər. Biz isə bundan, əlbəttə ki, həm siyasi, həm iqtisadi, həm də regional müstəvidə böyük fayda götürəcəyik. Əminəm ki, işlər düzgün istiqamətdə gedəcəkdir.

Bizim ölkələrimiz, yəni Gürcüstan və Azərbaycan qarşısında duran ən önəmli problem ərazi bütövlüyümüzün bərpasıdır. Biz separatizmdən əziyyət çəkirik, etnik təmizləmə siyasətindən əziyyət çəkirik, bizim ərazi bütövlüyümüz pozulubdur. Bu, ən böyük ədalətsizlik, bütün beynəlxalq hüquq normalarının pozulması deməkdir. Biz mübarizə aparırıq və bundan sonra da aracağıq. Çalışacağıq ki, bunu ədalətli, beynəlxalq hüquq əsasında, dünya praktikası əsasında həll edək. Ancaq bunu həll etmək üçün biz güclü

olmalıyıq. Bizim gücümüz isə birliyimizdədir. Sizin uğurlarınız bizi sevindirir. Bu gün səhərdən buradayam, baxıram və görəndə ki, Tbilisidə böyük yeniliklər var, mənim ürəyim sevinir. Çünki siz güclü olsanız, biz də güclü olacağıq.

Bu gün görülən işlərin tarix qarşısında böyük əhəmiyyəti var. Biz bu gün bu tarixi yazırıq. Bəlkə də bəziləri indi bunu tam şəkildə dərk edə bilmir ki, bu gün atılan addımlar uzunmüddətli inkişaf strategiyamızı müəyyən edir, xalqlarımızın əbədi müstəqil yaşamasını təmin edir. Ona görə mən bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi tarixi nailiyyətdir, böyük uğurdur. İndi biz elə etməliyik ki, bunu vaxtında başa çatdıraq. Nəzərə alsaq ki, biz indiyə qədər görülmüş işləri vaxtında başa çatdırmışıq, əminəm ki, Bakı–Tbilisi–Qars dəmir yolu da vaxtında başa çatacaqdır və onun açılışında birlikdə iştirak edəcəyik.

Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm və qardaş Türkiyə, Gürcüstan xalqlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

Sağ olun.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin, Gürcüstan prezidenti Mixeil Saakaşvilinin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə sənədlər imzalandı.*

*Əvvəlcə Azərbaycan prezidenti İlham Əliyev, sonra Gürcüstan prezidenti Mixeil Saakaşvili və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan «Regional əməkdaşlığa ümumi baxış haqqında Tbilisi Bəyannaməsi»ni imzaladılar.*

*«Bakı–Tbilisi–Qars yeni dəmir yolu xətti haqqında saziş»i Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfindən İqtisadi İnkişaf naziri Georgi Arveladze, Türkiyə tərəfindən Nəqliyyat naziri Binali Yıldırım imzaladılar.*

*«Bakı–Tbilisi–Qars yeni dəmir yolu xətti layihəsinin həyata keçirilməsi çərçivəsində Marabda–Türkiyə Cümhuriyyəti*

*sərhədinə qədər (Karksaxi) dəmir yolu sahəsinin maliyyələşdirilməsi, layihələndirilməsi, inşası, reabilitasiyası – yenidən qurulması və istismarının prinsip və şərtləri haqqında Azərbaycan Respublikası hökuməti və Gürcüstan hökuməti arasında saziş»i Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, Gürcüstan tərəfindən İqtisadi İnkişaf naziri Georgi Arveladze imzaladılar.*

*«Bakı–Tbilisi–Qars yeni dəmir yolu xətti layihəsinin Marabda–Türkiyə Cümhuriyyəti sərhədinə qədər dəmir yolu sahəsinin maliyyələşdirilməsinin şərtlərinə dair kredit sazişi»ni Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, Azərbaycan Beynəlxalq Bankı Açıq Səhmdar Cəmiyyəti idarə heyətinin sədri Cahangir Hacıyev, Gürcüstan tərəfindən «Azərbaycan Beynəlxalq Bankı–Gürcüstan» Səhmdar Cəmiyyətinin Baş direktoru Samir Vəliyev və «Marabda–Karksaxi Dəmir Yolu» Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Ramaz Georqadze imzaladılar.*

*Sonra prezidentlər və Baş nazir xatirə şəkli çəkdirdilər.*

## Səfər başa çatdı

*Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana işgüzar səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısını Tbilisi Beynəlxalq Hava Limanında Gürcüstan prezidenti Mixeil Saakaşvili, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla, səmimiyyətlə yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

## SAXTA DƏRMANLARA QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Müasir dövrdə dövlətlər müxtəlif qlobal təhlükələrlə üzləşir. Dövlətlərin iqtisadi mənafelərinə ciddi təhdid yaradan və insan sağlamlığını, bütövlükdə gələcək nəsillərin sağlamlığını böyük zərbə altında qoyan kontrafakt dərman məhsullarının dövriyyəsi bu təhlükələrə qarşı dünya dövlətlərinin səylərinin birləşdirilməsini zəruri edir.

İnsanlığa qarşı yönəlmiş belə cinayətlərin qarşısının alınmasından dünya ölkələri fəaliyyətlərini əlaqələndirməklə, qlobal səviyyədə məlumat mübadiləsini təşkil etməklə yanaşı, milli səviyyədə qanunvericiliklərini, institusional mexanizmlərini təkmilləşdirməli, müasir informasiya texnologiyalarından istifadə etməklə dərmanların keyfiyyətinə nəzarət sistemini gücləndirməlidirlər.

Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunması, saxta məhsullara, o cümlədən saxta dərmanlara qarşı mübarizə ümumdövlət vəzifəsi kimi qəbul olunur. Ölkəmizdə azad sahibkarlığın inkişafı, sağlam rəqabətin formalaşması, işgüzar mühitin fəallaşması, eləcə də istehlak bazarının saxta məhsullardan qorunması, istehlakçıların hüquqlarının müdafiəsi və insanların sağlamlığının təmin olunması Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir. Müvafiq dövlət orqanları saxta dərmanların ölkəyə idxalının qarşısının alınması, belə preparatların dövriyyədən çıxarılması, saxta dərman istehsal edən şəxslərin aşkar edilərək məsuliyyətə cəlb olunması üçün daim iş aparır, bu sahədə tərəfdaş ölkələrlə, Ümumdünya Gömrük Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Ümumdünya Əqli Mül-

kiyyət Təşkilatı, İnterpol və digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Əminəm ki, bu əməkdaşlıq daha səmərəli şəkildə davam edəcək, konfransdan əldə olunacaq nəticələr bütün iştirakçı dövlətlər üçün faydalı olacaq və saxta dərmanlara qarşı mübarizəmizi gücləndirəcəkdir.

Ölkələrimizi narahat edən ciddi məsələlərdən birinə həsr olunmuş beynəlxalq konfransın Bakı şəhərində keçirilməsi münasibətilə sizi ürəkdən təbrik edir, fəaliyyətinizdə müvəffəqiyyətlər arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2007-ci il*

## ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında ATƏT Parlament Assambleyasının sədri Qoran Lenmarkerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonağı yeni vəzifəyə seçilməsi münasibətilə təbrik etdi, onunla keçirdiyi əvvəlki görüşlərini xatırlatdı. Hazırda regionda vəziyyətin sürətlə dəyişdiyini bildirən Azərbaycan prezidenti hadisələrin müsbət istiqamətdə inkişaf etdiyini, irimiqyaslı layihələrin həyata keçirilməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı müsbət meyllərlə yanaşı, regionda mövcud olan münaqişələrin ümumi inkişaf prosesinə böyük əngəl törətdiyini də bildirdi.*

*Prezident İlham Əliyev yeni dəmir yolu layihəsinin icrasına başlanılması münasibətilə Gürcüstanda olduğunu və bu layihənin son dərəcə böyük əhəmiyyət daşıdığını vurğuladı. Ermənistanın ölkəmizə təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulduğunu bildirən dövlətimizin başçısı maneələrə baxmayaraq, ölkəmizin iqtisadiyyatının dinamik şəkildə yüksəldiyini və Azərbaycanın artıq güclü enerji təminatçısına çevrildiyini bildirdi.*

*Qoran Lenmarker Azərbaycanda yüksək iqtisadi inkişafı və eyni zamanda, çox mühüm amil kimi, insanlarda nikbin əhval-ruhiyyəni müşahidə etdiklərini vurğuladı. O, Azərbaycanda təkcə iqtisadi sahədə deyil, digər sahələrdə də inkişafın müşahidə olunduğunu bildirdi.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın müxtəlif sahələrinə dair fikir mübadiləsi aparıldı.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XURŞİD ƏNVƏR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Xurşid Ənvəri qəbul etmişdir.*

*Saxta dərmanlara qarşı mübarizə üzrə beynəlxalq konfransın işində iştirak etmək üçün Bakıya gəldiyini söyləyən Xurşid Ənvər prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda böyük nailiyyətlərin əldə edildiyini vurğuladı, İƏT ilə Azərbaycan arasında əlaqələrin daim genişləndiyini bildirdi. Eyni zamanda, Pakistan–Azərbaycan ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini qeyd edən qonaq ötən il Pakistanın Baş naziri Şövkət Əzizin Bakıda prezident İlham Əliyevlə keçirdiyi görüşün bu baxımdan mühüm rol oynadığını dedi. Ermənistanın Azərbaycana təcavüzü məsələsinə toxunan Baş katib bu təcavüzün Pakistan xalqı tərəfindən qəti şəkildə pisləndiyini vurğuladı.*

*Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının Bakı sammitini məmnunluqla xatırlatdı və həmin vaxt çox uğurlu ikitərəfli görüşlərin keçirildiyini, mühüm məsələlərin müzakirə edildiyini bildirdi. Azərbaycan–Pakistan ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı bu münasibətlərin həqiqi dostluq və qardaşlıq xarakteri daşıdığını söylədi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ GİYA KAVTARADZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında Gürcüstan Respublikasının Ədliyyə naziri Giya Kavtaradzeni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Gürcüstana səfərini xatırlatdı və həmin səfər zamanı imzalanan Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin böyük əhəmiyyət daşıdığını, ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan və Gürcüstanın müxtəlif qurumları, o cümlədən hüquq-mühafizə orqanları arasında əlaqələrin ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətini qeyd etdi. Azərbaycan prezidenti Ədliyyə nazirlikləri arasındakı əlaqələrin də ümumi əməkdaşlığın genişlənməsinə xidmət etdiyini söylədi.*

*Qonaq Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana səfərinin və bu səfər zamanı dəmir yolu layihəsinə dair müqavilənin imzalanmasının böyük önəm daşıdığını vurğuladı. Gürcüstanla Azərbaycan arasında əməkdaşlığın digər sahələrdə olduğu kimi, ədliyyə sahəsində də uğurla inkişaf etdiyini bildirən Giya Kavtaradze dedi ki, Bakıya səfərinin əsas məqsədi də Azərbaycanın ədliyyə sistemi ilə əlaqələri daha da genişləndirməkdir.*

## İTALİYANIN BEYNƏLXALQ TİCARƏT NAZİRİNİN MÜAVİNİ, SENATOR MİLOS BUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Prezident sarayında İtaliyanın Beynəlxalq Ticarət nazirinin müavini, senator Milos Budinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bildirdi ki, ölkəmizin iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Azərbaycanın maliyyə imkanları getdikcə artır, ölkədə geniş investisiya layihələri həyata keçirilir. Azərbaycan uzun müddətdir ki, İtaliya şirkətləri ilə uğurlu əməkdaşlıq edir, indiki mövcud iqtisadi və maliyyə durumu isə əməkdaşlıq üçün daha böyük imkanlar açır.*

*Senator Milos Budi İtaliya–Azərbaycan münasibətlərinin yüksələn xətlə inkişafda olduğunu bildirdi. O, Azərbaycanın regional və beynəlxalq siyasətdə rolunun getdikcə artdığını xatırladaraq dedi ki, bu, İtaliya şirkətlərinin Azərbaycana olan marağını daha da gücləndirir. Qonaq əmin olduğunu bildirdi ki, İtaliya–Azərbaycan münasibətləri Avropada sabitlik və sülh prosesi çərçivəsində daha da möhkəmlənməkdədir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASI PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*9 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Prezident sarayında İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi, Xarici İşlər nazirinin müavini Mehdi Səfərini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla İran arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Mehdi Səfəri İran prezidenti Mahmud Əhmədinejadın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Azərbaycan prezidenti salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını İran prezidentinə çatdırmağı xahiş etdi.*

## MƏŞHUR NEFTÇİ-GEOLOQ, TANINMIŞ ALİM FƏRMAN SALMANOVLA GÖRÜŞ

*Prezident sarayı*

*9 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Prezident sarayında məşhur neftçi-geoloq, tanınmış alim Fərman Salmanovu qəbul etmişdir.*

*Fərman Salmanov Bakıya gəlişindən və Azərbaycan prezidenti ilə görüşməyindən böyük qürur hissi keçirdiyini bildirdi, Azərbaycanda onun məişət şəraitinin yüksək səviyyədə təmin olunmasına görə dövlətimizin başçısına minnətdarlığını yetirdi.*

*Prezident İlham Əliyev görkəmli alimin geologiya elmində böyük xidmətlərini qeyd edərək onun elmi nailiyyətlərinin vətənimiz üçün daim iftixar hissi doğurduğunu vurğuladı. Dövlətimizin başçısı Fərman Salmanova vətənində bundan sonra da həmişə diqqət göstəriləcəyini bildirdi.*

*Fərman Salmanov Azərbaycan prezidentinə geoloji süxurlardan hazırlanmış xatirə saatını hədiyyə etdi.*

## BİR QRUP ZİYALIYA ORDENLƏRİN VƏ FƏXRİ ADLARIN VƏSİQƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*12 fevral 2007-ci il*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, mən sizin hamınızı ürəkdən salamlayıram. Siz müxtəlif vaxtlarda Azərbaycan Respublikasının yüksək mükafatları ilə təltif olunmusunuz. Mən bu gün bu ordenləri və fəxri adları sizə təqdim etmək istəyirəm. Siz ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatında çox fəal iştirak edirsiniz və öz fəaliyyətinizlə ölkəmizin möhkəmlənməsində çox böyük rol oynayırsınız. Sizi Azərbaycanda yaxşı tanıyırlar. Sizin fəaliyyətiniz Azərbaycan xalqı tərəfindən bəyənilir və yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, siz bu yüksək mükafatlara layiq görülmüsünüz.

Mən çox məmnunam ki, bütövlükdə Azərbaycanın hərtərəfli inkişafı çox sürətlə gedir. Bu inkişaf hər bir vətəndaşdan asılıdır. Bu bütün sahələrdə olmalıdır. İlk növbədə iqtisadi-siyasi sahədə ki, həm iqtisadi potensial, həm də siyasi mövqelər baxımından ölkəmiz daha da möhkəmlənsin. Şübhəsiz ki, bu, ölkəmizin uzunmüddətli inkişafını təmin edəcək, insanların həyat səviyyəsini yaxşılaşdıracaqdır. Bununla bərabər, mədəni irsimizin qorunmasında, mədəni həyatın zənginləşdirilməsində böyük işlər görülür. Azərbaycanın məhz hərtərəfli tərəqqisi ölkəmizin dinamik inkişafına imkan yaradır. Ölkəmizin aparıcı simaları, elitası da bütün bu işlərdə çox fəal iştirak edir. Bu hər bir cəmiyyətdə, o cümlədən Azərbaycan cəmiyyətində də var. Biz ümid edirik ki, artıq müəyyən edilmiş bütün proqramlar yaxın gələcəkdə uğurla

icra olunacaq, ölkəmizdə gedən böyük quruculuq, abadlıq işləri davam edəcək və hər bir vətəndaş bu müsbət dəyişiklikləri öz gündəlik həyatında görəcəkdir.

Mən bir daha demək istəyirəm ki, sizin fəaliyyətiniz hər bir azərbaycanlı üçün çox doğmadır. Mən sizi yaxından tanıyıram və əminəm ki, dövlətimizin bu yüksək mükafatları sizi yeni uğurlara nail olmağa sövq edəcəkdir. Bu həm yaxşı stimuldur, eyni zamanda, sizin əməyinizin qiymətləndirilməsidir. Bu da lazımdır. Əminəm ki, bu qərar, yəni sizə bu yüksək ordenlərin və fəxri adların verilməsi Azərbaycan xalqı tərəfindən bəyənilir. Sizi bir daha ürəkdən təbrik edirəm.

İndi isə istəyirəm bu mükafatları sizə təqdim edim.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xalq şairi Qabil İmamverdiyevin «İstiqlal» ordeni, respublikanın Baş prokuroru Zakir Qaralovun «Azərbaycan Bayrağı» ordeni, iqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri Vahid Axundovun, Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovun, Dəvəçi Rayon İcra Hakimiyyətinin başçısı Sündüz Babayevanın, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Mehbalıyevin «Şöhrət» ordeni ilə təltif olunması, yazıçı Mövlud Süleymanlıya «Xalq yazıçısı», Tofiq Ağababayev, Nazim Bəykişiyev, Xanlar Əhmədov, Arif Hüseynov, Ağəli İbrahimov, Səlhab Məmmədov və Mirnadir Zeynalova «Xalq rəssamı» fəxri adlarının verilməsi barədə sərəncamları oxundu.*

*Prezident İlham Əliyev ordenləri və fəxri adların vəsiqələrini onlara təqdim etdi.*

**Qabil İmamverdiyev** (*Xalq şairi*)**:** Hörmətli Prezidentimiz, bu yüksək mükafata layiq görülən adamlar kimi, mən də yaşlaşanda uşaqlaşan, həyatımın müdrikləşən çağında fəxr edirəm. Mənə «Şöhrət» ordenini ölməz prezidentimiz Heydər Əliyev təqdim etmişdir. Ömür vəfa elədi,

Allah ömür verdi yaşayıram, «İstiqlal» ordenini də Siz verdiniz mənə. Elə bildim ki, iki ordendi mənə təqdim etdiniz.

Möhtərəm Prezidentimiz, «Rübailər» miniatür nəşrdir, Sizə, birini də Mehriban xanıma bağışlayıram.

Balaca Yardımlıdan tutmuş, möhtəşəm Parisə qədər bu məkan dairəsində Sizin gördüyünüz işlərə xarici qonaqlar da, adicə kənd sakini də heyrandır. Bunlar adi həqiqətlərdir. Bunları görməmək qeyri-mümkündür. Sizin həm daxili, həm xarici siyasətiniz səmərələri ilə bərabər göz qabağındadır.

Türkan, Zirə, Xınalıq, Yardımlı, Lerik, başqa kəndlər, yaşayış məntəqələri – möhtərəm Prezident, – Sizin oralara Mehriban xanımla, Heydər Əliyev Fondunun rəhbəri ilə bir yerdə getməyiniz, məsələləri yerində həll etməyiniz çox böyük işdir. Siz həm də çörəkverən Prezidentsiniz! Çünki bütün diplomatik irəliləyişlərlə bərabər, bütün başqa işlərlə bərabər, hər yerdə məktəblərin, xəstəxanaların tikilməsi ilə bərabər, Siz camaatın gündəlik vəziyyətinin qayğısına qalırsınız. Siz insanların rihaf halını yaxşılaşdırırsınız. Böyük bir ailə başçısı kimi, Siz ölkəmizə gələn gəlirləri tənzim edirsiniz.

Məni eşitdiyinizə görə təşəkkür edirəm, Sizə cansağlığı, böyük işlərinizdə uğurlar arzulayıram. Çox sağ olun.

**Fərhad Xəlilov** *(Xalq rəssamı)*: Sizə dərin şəxsi minnətdarlığımı bildirirəm ki, mənə belə qiymət vermisiniz. Mən sənətimizin inkişafı üçün bundan sonra da çalışacaq, əlimdən gələni edəcəyəm. Demək istəyirəm ki, rəssamlarımız bu günə qədər Sizinlə görüşümüzün təsiri altında yaşayırlar. Bir müddət bundan əvvəl biz görüşmüşdük. Səmimi deyirəm ki, nəinki rəssamlar, ümumiyyətlə, həmin görüşü izləyənlərin çoxu mənə zəng edir və bu görüşdən məmnunluqlarını bildirirlər. Doğrudan da mən deyərdim ki, bu görüşün sədası ayrı şəhərlərə də çatıbdır. Mən bu yaxınlarda Moskvada idim, orada bizim konfederasiyanın iclası keçirilirdi. Mən bilərəkdən onlara dedim ki, bizim Azərbaycanın prezidenti müasir İncəsənət muzeyi, rəssamlar üçün müasir şəhərcik tikilməsi barədə qərarlar verir. Onlar dedilər ki, doğrudan da bugünkü zamanda belə qərar vermək nadir hadisədir. Dedim ki,

mən hələ hamısını demirəm, bu ikisini deyirəm. İnandırım Sizi ki, ayağa qalxıb əl çaldılar və dedilər ki, biz də köçürük Azərbaycana.

Həqiqətən də, Siz qısa zamanda şəxsən rəssamlara nə qədər yaxşılıqlar etmisiniz – fəxri adların verilməsi və sair. Allaha şükür ki, imkanlar da var.

Nəinki mükafat alanların, ümumiyyətlə, bütün rəssamların adından Sizə uğurlar və cansağlığı arzulayıram.

**Z a k i r  Q a r a l o v** (*Azərbaycan Respublikasının Baş prokuroru*): Möhtərəm cənab Prezident, ulu öndərimiz Heydər Əliyevin təsis etdiyi «Azərbaycan Bayrağı» ordeninə layiq görülməyim, bu yüksək dövlət mükafatının şəxsən Sizin tərəfinizdən təqdim olunmasından böyük şərəf hissi keçirirəm və bu təltifi bütövlükdə Azərbaycan Respublikası Prokurorluğu kollektivinin əməyinə dövlət səviyyəsində verilən qiymət kimi qəbul edirəm. Sizin uğurlu, cəsarətli, yeni və müasir məzmunlu dövlət siyasətinizin nailiyyətləri göz qabağındadır. Bütün bu uğurlar hər bir Azərbaycan vətəndaşının qürur mənbəyidir. Bu uğurların əsası olan ictimai asayişin, ictimai-siyasi sabitliyin qorunması, qanunun aliliyinin, vətəndaşlarımızın hüquq və azadlıqlarının təmin olunması, sözsüz ki, prokurorluğun qarşısında duran əsas vəzifələrdən biridir.

Möhtərəm cənab Prezident, Sizin bilavasitə nəzarətiniz və dəstəyiniz sayəsində, bütün sahələrdə olduğu kimi, məhkəmə hakimiyyətinin tərkib hissəsi olan prokurorluq orqanlarında da müvafiq fərmanlara və sərəncamlara uyğun olaraq yenidənqurma və islahatlar prosesi davam etdirilir. Peşə bayramımız ərəfəsində əməkdaşlarımızın böyük bir qrupunun yüksək, dövlət mükafatlarına, ali xüsusi rütbələrə layiq görülməsinə, eyni zamanda, prokurorluq işçilərinin maddi, sosial rifahının yaxşılaşdırılması istiqamətində gördüyünüz işlərə görə Respublika Prokurorluğunun kollektivi adından Sizə dərin təşəkkürümüzü bildiririk.

**İ l h a m  Ə l i y e v:** Mən də sizi bir daha təbrik edirəm. Bugünkü görüşdə cəmiyyətimizin bütün sahələrində çalışan

insanlar iştirak edirlər – ziyalılar, hüquq-mühafizə orqanlarının nümayəndələri, iqtisadçılar, icra hakimiyyətinin nümayəndələri. Yəni bu onu göstərir ki, hər bir insanın əməyi qiymətləndirilir və hər bir sahə vacibdir. Əgər iqtisadi potensial olmasa, heç bir məsələni həll etmək mümkün deyildir.

Fərhad müəllim qeyd etdi ki, indi bizim imkanlarımız artır. Bu doğrudan da belədir. Mən də çox istəyirəm ki, artan bu imkanları ilk növbədə, həm ölkənin möhkəmlənməsinə, həm də insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldək. Biz xüsusilə ziyalıları mükafatlandırmalıyıq, onlara dəstək verməliyik. Çünki əfsuslar olsun ki, bazar iqtisadiyyatı şəraitində bəzi hallarda bu sahə yaddan çıxır. Əgər biz ən inkişaf etmiş ölkələrin təcrübəsini götürsək, yaxud da orada olan vəziyyətə baxsaq görərik ki, həmin ölkələrdə ziyalı təbəqə dövlət tərəfindən heç bir qayğı görmür. Yəni orada bütün münasibətlər bazar iqtisadiyyatı prinsipinə o qədər söykənib ki, artıq o cəmiyyət özü-özünü idarə edir. Biz isə hələlik bu səviyyəyə çatmamışıq. Ona görə dövlət tərəfindən mütləq və mütləq dəstək, qayğı olmalıdır.

Azərbaycan cəmiyyətində həmişə ziyalılara böyük hörmət olubdur. Onların sözünə, əsərlərinə böyük maraq, tələbat olubdur. İndi bizim artan imkanlarımız məsələləri həll etməyə şərait yaradır. Rəssamlar şəhərciyi, müxtəlif tədbirlərin keçirilməsi. Rəssamlarla görüşdən sonra Fərhad müəllimlə söhbət əsnasında danışdıq ki, əlavə tədbirlər həyata keçiriləcəkdir. Artıq bu barədə qərarlar verilir. O ki qaldı şəhərciyin yaradılmasına, mən təkliflər gözləyirəm. Hazır olan kimi biz dəhal bunun maliyyə tərəfini təmin edəcəyik.

Azərbaycanın uğurlu inkişafı ölkə daxilində və ətrafında sabitlik olmadan mümkün deyildir. İnkişaf üçün həm ölkə daxilində vəziyyət normal olmalıdır və bu da var. Həm də qonşu ölkələrlə münasibətlərimizdə də gərək əməkdaşlıq, qarşılıqlı hörmət, qarşılıqlı maraq olsun. Bu da var. Azərbaycanın həyata keçirdiyi nəhəng layihələr bunu göstərir. Biz bu yaxınlarda Bakı–Tbilisi–Qars kimi tarixi bir layihəyə qədəm qoyduq. Bunun tarixi əhəmiyyəti illər keçdikcə daha

da aydın görünəcəkdir. Amma biz indidən bilirik ki, bu, Azərbaycanın inkişafına, xalqın rifahına, Azərbaycanın mövqelərinin möhkəmlənməsinə yönəldilmiş addımdır. Azərbaycan bu işlərdə aparıcı rol oynayır. Bu eyni zamanda, ölkəmizi gücləndirir, bizim imkanlarımızı artırır və nəticədə sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşması, maaşların, pensiyaların qaldırılması da mümkündür. Bu var. Biz bu işləri görürük və çox istəyirəm ki, daha da sürətlə getsin.

Bölgələrdə abadlıq işləri aparılır. Üç ildir ki, regional inkişaf proqramı qəbul edilibdir. Üç il tarix baxımından çox qısa bir müddətdir. Amma baxın, bu üç il ərzində bizim rayonlarımız abadlaşıb, orada dəyişikliklər baş verir, məktəblər, xəstəxanalar tikilir, sosial infrastruktur yaradılır, iş yerləri açılır, insanlar daha yaxşı yaşamağa başlamışlar. Bu proses daha da sürətlə gedəcəkdir. Bizim uğurlarımızın əsasında cəmiyyətin birliyi və müxtəlif sahələrdə çalışan insanların fəallığı dayanır. Bu fəallıq var. Bütövlükdə mən görürəm ki, indi Azərbaycanda nikbinlik əhval-ruhiyyəsi var. İlk növbədə ona görə ki, bu günə qədər görülən bütün işlər öz nəticələrini veribdir. Ona görə ki, əhali baxımından, ərazi baxımından böyük ölkə olmayan Azərbaycan böyük işlərlə məşğuldur, regionun inkişafı üçün həm neft sahəsində, həm energetika sahəsində, həm də nəqliyyat sahəsində çox fəal işlər görür. İnsanlar da görürlər ki, Azərbaycanın nüfuzu artır. Təbii ki, hər bir vətəndaş, hər bir azərbaycanlı bundan qürur hissi keçirir.

Bu gün xarici səfərlərdən də söhbət açıldı. Bu səfərlər də ölkəmizin əhəmiyyətini, inkişafını göstərir. Bizim xalqımız uzun illər, əsrlər boyu müstəqillikdən məhrum idi. Biz müstəmləkə kimi, müttəfiq respublika kimi yaşamışdıq. Böyük bir nailiyyət, tarixi nailiyyətdir ki, biz müstəqilik. Müstəqil ölkə kimi cəmi 15 ildir yaşayırıq. Bu 15 il ərzində Azərbaycan o qədər sürətlə inkişaf edib ki, dünyanın aparıcı ölkələri ilə artıq bərabər səviyyədə əməkdaşlıq edir. Ona görə gedən bu proseslər, eyni zamanda iqtisadi islahatlar, ölkəmizin möhkəmlənməsi və ən önəmlisi, bizi gələcəkdə gözləyən uğurlar və nəticələr, əlbəttə ki, insanlarımızı ruhlandırır.

Ona görə cəmiyyətdə də bu nikbinlik ruhu çox güclüdür və bu çox gözəl göstəricidir. Yəni inam var və işləmək üçün istək də var. Hər bir vətəndaş fəal olmalıdır, hər bir insan öz çalışdığı yerdə ölkəmizin möhkəmlənməsində fəal iştirak etməlidir.

Bir daha qeyd etmək istəyirəm ki, bu gün burada, demək olar ki, Azərbaycan cəmiyyətinin kiçik bir nümunəsi iştirak edir. Mən sizi bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, siz gələcəkdə də öz fəaliyyətinizlə ölkəmizi möhkəmləndirəsiniz və doğma Vətənə bundan sonra da ləyaqətlə xidmət edəsiniz.

Təbrik edirəm, sizə uğurlar arzulayıram.

## ABŞ MÜDAFİƏ NAZİRİNİN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ PİTER RODMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 12-də Prezident sarayında ABŞ Müdafiə nazirinin beynəlxalq təhlükəsizlik məsələləri üzrə müavini Piter Rodmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Piter Rodman bildirdi ki, Bakıya səfərin məqsədi ölkələrimiz arasında təhlükəsizlik məsələlərinə dair dialoqu, tərəfdaşlığı daha da genişləndirməkdir. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü Birləşmiş Ştatların strateji maraq dairəsindədir, biz sizinlə mövcud olan tərəfdaşlığı yüksək qiymətləndiririk və Azərbaycanla etibarlı tərəfdaşlıq əlaqələrinin qurulmasında maraqlıyıq.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında təhlükəsizlik, antiterror əməliyyatları və digər sahələrdə uğurla inkişaf edən tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini bildirdi. O, Azərbaycanla ABŞ arasında tərəfdaşlıq əlaqələrinin çox yaxşı tarixi olduğunu xatırladaraq, bunun gələcəkdə də inkişaf etdiriləcəyinə ümidvar olduğunu söylədi. Prezident İlham Əliyev qeyd etdi ki, biz enerji təhlükəsizliyinin müxtəlif aspektləri, regional əməkdaşlıq məsələləri üzərində işləyirik. Bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir.*

## AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ ÜÇİLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ

*«Gülüstan» sarayı*

*13 fevral 2007-ci il*

*Fevralın 13-də «Gülüstan» sarayında Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçilliyinə həsr olunmuş konfrans keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev konfransda iştirak etmişdir. Dövlətimizin başçısı əvvəlcə foyedə açılmış «Regional inkişafın üç ili: nailiyyətlər və perspektivlər» mövzusunda sərgidə ölkəmizin müxtəlif regionlarını əhatə edən yüngül sənaye, qida, mebel, maşınqayırma sənayesi, turizm, səhiyyə, kənd təsərrüfatı, elektrotexnika, kompüter, məişət avadanlığı istehsalı, şərabçılıq sektorlarında yeni yaradılmış müəssisələrin istehsal etdiyi məhsullara baxdı.*

*Məlumat verildi ki, ötən üç ildə ölkə üzrə 520 min 343 yeni iş yeri açılmışdır. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilən kreditlərin həcmi 155,5 milyon manat təşkil etmişdir. Fond tərəfindən 5385 layihə maliyyələşdirilmişdir. Bu dövrdə 15 min 560 yeni müəssisə açılmışdır. İqtisadi rayonlar üzrə göstəricilər də maraqlıdır. Abşeron iqtisadi rayonu üzrə 30 min 610 yeni iş yeri yaradılmış, 849 müəssisə açılmış, rayona yönəldilən kreditlərin ümumi məbləği 21,4 milyon manat olmuşdur. Aran iqtisadi rayonu üzrə 149 min 216 yeni iş yeri, 1500 müəssisə yaradılmışdır. Gəncə–Qazax iqtisadi rayonu üzrə 56 min 261 iş yeri açılmışdır. 808 müəssisənin işə düşdüyü iqtisadi rayona 17,6 milyon manat kredit verilmişdir. Quba–*

*Xaçmaz iqtisadi rayonu üzrə də göstəricilər uğurludur. Belə ki, burada 31 min 537 yeni iş yeri, 352 müəssisə yaradılmışdır. Naxçıvan iqtisadi rayonunda isə 24 min 812 iş yeri açılmış, yeni yaradılan müəssisələrin sayı 958-ə çatmışdır. Verilmiş kreditlərin məbləği isə 10,7 milyon manat təşkil edir. 15 min 158 yeni iş yerinin yaradıldığı Dağlıq Şirvan iqtisadi rayonu üzrə 209 müəssisə açılmışdır. Şəki–Zaqatala iqtisadi rayonu üzrə 26 min 426 iş yeri yaradılmış, 11,7 milyon manat kredit yönəldilmişdir. Qarabağ iqtisadi rayonu üzrə nəticələr belədir: 12 min 198 yeni iş yeri və 330 yeni müəssisə. Lənkəran iqtisadi rayonunda isə 49 min 519 iş yeri yaradılmış, 602 yeni müəssisə açılmış, 11,9 milyon manat kredit ayrılmışdır.*

*Lənkəran iqtisadi rayonunun göstəricilərini əks etdirən bölmə ilə tanışlıq zamanı monitor vasitəsilə «Fəxrəddin–K» Məhdud Məsuliyyətli Cəmiyyətin Xırdalan şəhərindəki yeni kərpic zavodu ilə canlı əlaqə yaradıldı, prezident İlham Əliyev bu istehsal müəssisəsinə xeyir-dua verərək kompüterin düyməsini basdı və zavod işə düşdü.*

*Sonra regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üçilliyinə həsr olunmuş film göstərildi.*

*Prezident İlham Əliyev konfransı giriş nitqi ilə açdı.*

**İlham Əliyev:** Hörmətli xanımlar və cənablar!

Bu gün nümayiş etdirilən film açıq-aydın göstərir ki, regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. Son üç il ərzində, demək olar ki, regionlarımızın siması dəyişdi. Bölgələrdə aparılan quruculuq, abadlıq işləri həm ölkə iqtisadiyyatına çox böyük töhfə verir, eyni zamanda, insanların həyat səviyyəsini yaxşılaşdırır. Proqram qəbul olunanda məhz bunlar bizim üçün əsas məqsədlər idi. İlk növbədə Azərbaycanın hərtərəfli inkişafını təmin etmək, qeyri-neft sektorunu təmin etmək, eyni zamanda, insanları işlə təmin etmək məqsədləri qoyulmuşdu. Bu üç ilin təcrübəsi onu göstərir ki, biz bu istiqamətlərdə istədiyimizə nail ola bilmişik.

Son üç il ərzində 520 min yeni iş yeri açılmışdır. Bu o deməkdir ki, yeni müəssisələr yaradılır, insanlar işlə təmin olunur, işsizlik aradan qaldırılır, yerli istehsal yaranır və bu, idxalı əvəzləyir, ölkə iqtisadiyyatına böyük dəstək verilir, kənd təsərrüfatı inkişaf edir.

Beləliklə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsiri çoxşaxəlidir. Bunun həm siyasi, həm iqtisadi, həm də sosial mənası çox böyükdür. Mən çox şadam ki, bu üç il ərzində görülən işlər doğrudan da Azərbaycanın regionlarının inkişafına yenilik gətirdi. Regionda fəaliyyət göstərən insanlar çox fəaldırlar. Azərbaycan əhalisinin əksəriyyəti regionlarda yaşayır. Belə olan halda biz diqqətimizi daha da artırmalıyıq, onlara hərtərəfli dəstək verməliyik.

Bu gün burada, birinci mərtəbədə sərgi ilə tanış olarkən bir daha gördüm ki, qısa müddət ərzində Azərbaycanda istehsal olunan məhsulların keyfiyyəti artır, müxtəlifliyi təmin olunur. Eyni zamanda, bu məhsullar ən yüksək dünya standartlarına cavab verir və həm Azərbaycan bazarını təmin edir, həm də ixrac olunur. Qeyri-neft məhsullarının ixracı getdikcə artmaqdadır. Əlbəttə ki, bunun müxtəlif səbəbləri var. Əsas səbəbi ondan ibarətdir ki, bizim qəbul etdiyimiz bütün proqramlar, o cümlədən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. Çünki proqram qəbul olunarkən bütün vacib məsələlər öz əksini tapmışdır.

Bununla bərabər, əlbəttə, müxtəlif dövrlərdə bu proqrama dəyişiklik də edilirdi. Mənim rayonlara səfərlərim nəticəsində müxtəlif bölgələrin inkişafına dair əlavə olaraq 8 xüsusi sərəncam imzalanmışdır. O sərəncamlarda da açıq-aydın göstərilir ki, hansı işlər görülməlidir. Bizim proqramlarımız konkretdir, burada görüləcək işlər, onların maliyyə mənbələri müəyyən olunur, icraçı tərəf də müəyyən edilir və vaxt da qoyulur. Məhz buna görə biz bütün bu proqramların icrasında uğurlar əldə edə bilmişik. Düzdür, bəzi məqamlarda, bəzi hallarda proqramın icrası tam şəkildə təmin olunmur. Bu məqsədlə mütəmadi qaydada aidiyyəti orqanlar ilə

müşavirələr keçirilir, məsələlər müzakirə edilir. Bu konfransın da məqsədi məhz bundan ibarətdir: ilk növbədə, görülən işlər haqqında hesabat vermək, görülən işlərə qiymət vermək, onları təhlil etmək, digər tərəfdən, qüsurları aradan qaldırmaq. Çünki bildiyimə görə bəzi hallarda proqramda nəzərdə tutulmuş məsələlər öz həllini tapmır. Bunun müəyyən müxtəlif səbəbləri var. Deyə bilərəm ki, həll olunmayan bu məsələlər çox cüzi faiz təşkil edir. Amma mən istəməzdim ki, hansısa həll olunmayan məsələ qalsın. Ona görə konfransda gərgin iş aparılmalıdır və ilk növbədə, biz çatışmayan cəhətlər üzərində dayanmalıyıq.

Azərbaycanın hərtərəfli inkişafı müxtəlif mənbələrdən qaynaqlanır. Regionların sosial-iqtisadi inkişaf proqramı onun bir hissəsidir. Bu proqram eyni zamanda, iqtisadiyyatda gedən ümumi meyllərin təzahürüdür. Çünki ildən-ilə artan iqtisadi potensial, möhkəmlənən iqtisadiyyat, artan büdcəmiz bu proqramın icrasına da kömək göstərir. Bildiyiniz kimi, dövlət həm prioritet istiqamətləri müəyyən edir, eyni zamanda, sahibkarlığın inkişafı üçün də praktiki işlər görür.

Biz dövlət büdcəmizdə sahibkarlığın inkişafına yönəldilmiş məsələləri əks etdiririk. Güzəştli şərtlərlə kreditlərin verilməsi sahibkarlığın inkişafına böyük dəstəkdir. Buna mənəvi və siyasi dəstəyi də əlavə etsək görərik ki, Azərbaycan dövləti bu sahəyə öz konkret töhfəsini verir. Azərbaycanda iqtisadi artım dünyada analoqu olmayan səviyyəyə gəlib çatıbdır. Son iki il əzrində iqtisadi artım müvafiq surətdə 26 və 35 faiz olmuşdur. Bu il də yəqin ki, haradasa bu səviyyədə olacaqdır. Yenə də demək istəyirəm ki, büdcə gəlirləri çox kəskin şəkildə artmışdır. Əgər biz proqramı qəbul edəndə büdcə xərcləri təxminən 1,4 milyard dollar səviyyəsində idisə, 2007-ci ildə bu, 6,5 milyard dollar səviyyəsində və bundan da artıq olacaqdır. Yəqin ki, bir neçə aydan sonra büdcəyə yenidən baxılmalıdır. Çünki bizim əlavə gəlir mənbələrimiz aşkar olunub və büdcəmiz daha da artacaqdır. Bu da öz növbəsində, ölkədə geniş infrastruktur layihələrin həyata keçirilməsinə imkan yaradır. Əgər biz

bölgələrin inkişafını istəyiriksə, infrastruktur layihələri icra etməliyik. Burada filmdə göstərildi ki, təkcə 2006-cı ildə Azərbaycanda 4 yeni elektrik stansiyası tikilibdir. Buna böyük ehtiyac var. Azərbaycan iqtisadiyyatı artır, yeni iş yerləri açılır, müəssisələr fəaliyyətə başlayır, fərdi tikinti sürətlə gedir. Bütün bunlar əlavə enerji mənbəyi tələb edir. Elektrik stansiyalarının tikintisi bütün iqtisadiyyata güclü təkan verir. Həm magistral, həm şəhərlərarası, həm də kənd yollarının çəkilməsi – bütün bunlar iqtisadi artıma birbaşa təsir edən məsələlərdir.

Yəni dövlət öz üzərinə düşən bütün vəzifələri icra edir, sahibkarlara siyasi dəstək verir, onları müdafiə edir, hər il onlara güzəştli şərtlərlə təxminən 100 milyon dollar səviyyəsində kreditlər ayırır. İnfrastruktur layihələri həyata keçirir və bölgələrdə sosial infrastrukturun möhkəmlənməsi üçün fəal iştirak edir ki, insanlar bölgələrdən şəhərlərə gəlməsinlər. Yəni Azərbaycanda miqrasiya prosesləri azalıbdır. Mən çox istərdim ki, tamamilə dayandırılsın. Biz bölgələrdə elə şərait yaratmalıyıq ki, heç kim şəhərə gəlmək istəməsin. Bu məqsədlə məktəblər, xəstəxanalar, digər sosial obyektlər tikilir, bütövlükdə bölgələr abadlaşdırılır. İndi bölgələrdə, rayonlarda olan insanlar bu dəyişiklikləri görürlər, şəhərlərimiz, rayonlarımız abadlaşır. Mənim də tələbim ondan ibarətdir ki, bütün işlər ən yüksək səviyyədə görülməlidir. Bakıda hansı səviyyədə görülürsə, ən ucqar rayonda da belə səviyyədə görülməlidir. Çünki mən istəyirəm ki, Azərbaycan müasir dövlətə çevrilsin və bu müasirlik müxtəlif meyarlarla, o cümlədən keyfiyyətlə ölçülür. İş gərək keyfiyyətli görülsün. Beləliklə, biz ölkəmizi gücləndirəcəyik. Bizim çox gözəl imkanlarımız vardır.

Bir daha demək istəyirəm ki, Azərbaycanda iqtisadi artım ən yüksək səviyyədədir və bu göstəriciyə görə biz dünyada lider ölkəyik. Ancaq prezident kimi, məni daha çox sevindirən başqa rəqəmlərdir. Məni daha çox sevindirən odur ki, Azərbaycanda son üç il ərzində yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə azalıbdır, 49 faizdən 20 faizə enibdir. Bu

onu göstərir ki, bizim bütün iqtisadi islahatlarımız insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilibdir.

Biz hamımız bilirik, siz də bilirsiniz ki, keçid dövründə yaşayan ölkələrdə çox ciddi iqtisadi islahatlar ilk növbədə insanların həyat səviyyəsinə mənfi təsir göstərir. Biz Sovet İttifaqının təcrübəsini unutmamışıq. Sovet İttifaqı dağılanda, yeni ictimai-siyasi quruluşa başlayanda, demək olar ki, sovet xalqı – keçmiş müttəfiq respublikalarda yaşayan insanlar tamamilə müflisləşmişdi. Çünki bu iqtisadi islahatlar bir tərəfdən, ölkənin inkişafına lazım idi, digər tərəfdən, insanlara çox böyük əziyyətlər gətirmişdir. Bizim isə iqtisadi islahatlarımız, tam şəkildə bazar iqtisadiyyatı prinsiplərinə əsaslanmış siyasətimiz ilk növbədə sosialyönümlüdür. Məhz buna görə iqtisadi islahatların icrası nəticəsində yoxsulların sayı artmayıb, olduğu kimi qalmayıb, azalıb, özü də kəskin şəkildə.

Bu eyni zamanda onu göstərir ki, bizim uğurlu neft strategiyamız da öz bəhrəsini verməkdədir. 1994-cü ildə bu salonda ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış «Əsrin müqaviləsi»nin icrası nəticəsində böyük işlər görülübdür və Azərbaycan böyük neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Ancaq biz tarixdən və neft hasil edən bəzi başqa ölkələrin təcrübəsindən onu da bilirik ki, neft-qaz heç də bütün hallarda xoşbəxtlik, rifah, ədalət gətirmir. Bəzi hallarda neft-qaz hasil edən ölkələrdə kiçik bir təbəqə varlanır, əksəriyyət isə kasıblaşır. Ancaq Azərbaycanda ilk növbədə, şəffaflığın təmin olunması, Neft Fondunun yaradılması, şəffaflıq təşəbbüsünə qoşulmağımız və liderliyimiz ona gətirib çıxarıb ki, Azərbaycanda neft gəlirləri ədalətli bölünür. Yəni xalq tərəfindən bölünür. Bu qərarı xalq verir. Çünki məsələ Milli Məclisdə müzakirə olunur və xalq da Milli Məclisə seçdiyi nümayəndələr vasitəsilə bu məsələləri həll edir. Ona görə neft strategiyamız uğurludur ki, Azərbaycan xalqına xidmət edir. Əlbəttə, neft kəmərlərinin, qaz kəmərlərinin tikintisi, bütün strateji və geosiyasi məsələlərin çox ağır şəraitdə həlli bizim böyük nailiyyətlərimizdir. Amma bununla bərabər, əsas uğur odur ki, Azərbaycan xalqı bundan faydalanır. Bizim ildən-ilə

artan büdcəmiz, artan iqtisadi imkanlarımız bizə şərait yaradır ki, yaxşı işləyək. Şərait yaradır ki, quraq, yaradaq, tikək, ölkəmizi abadlaşdıraq, güclü infrastruktur tədbirləri görək. Beləliklə, Azərbaycanın gücü artır.

Bu yaxınlarda Gürcüstanda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə dair üçtərəfli sazişin bağlanması bizim qələbəmizdir. Azərbaycan, Türkiyə, Gürcüstan xalqlarının qələbəsidir. Bunun çox böyük strateji və tarixi əhəmiyyəti var. Biz özümüzü dəmir yolu vasitəsilə Türkiyə ilə birləşdiririk. Biz bu yol ilə özümüzü Avropa ilə birləşdiririk. Azərbaycan ərazisi ilə yüklər Asiyadan Avropaya və əksinə keçəcəkdir. Sözün əsl mənasında, tranzit ölkəyə çevrilirik. Əgər buna bizim tərəfimizdən yaradılmış enerji dəhlizlərini də əlavə etsək, görərik ki, Azərbaycanın strateji əhəmiyyəti artır. Əhəmiyyət artdıqca, əlbəttə, ölkənin bütün problemləri daha da asanlıqla öz həllini tapacaqdır.

Bizim düşünülmüş proqramlarımız, siyasətimiz var. Bu siyasət uğurla icra olunur və açıq-aydın bəyan edilibdir. 2003-cü ildə verilmiş bütün vədlər həyatda öz əksini tapır. Beş il ərzində 600 min yeni iş yerinin açılması bəyan edilmişdi və artıq onların 520 mini yaradılıbdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin başa çatdırılması, Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin başa çatdırılması, Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətə başlaması, tikintisi məsələləri o vaxt bəyan edilmişdi. İndi biz bunun həyata keçirilməsini görürük. Bütün başqa sahələrdə görürük – iqtisadi, siyasi, sosial məsələlərin həlli, insanların rifah halının yaxşılaşdırılması, maaşların, pensiyaların qaldırılması. Son üç il ərzində Azərbaycanda minimum əməkhaqqı bir neçə dəfə qaldırılıbdır. Düzdür, hələ ki, onun səviyyəsi bizi tam qane edə bilməz. Prezident kimi, məni qane edə bilməz. Çünki mən istəmirəm Azərbaycanda kimsə maddi cəhətdən əziyyət çəksin. Mən istəyirəm ki, hamı yaxşı yaşasın, hamının geniş imkanları olsun və buna nail olacağıq. Amma bu dinamika onu göstərir ki, bizim siyasətimiz uğurludur.

Biz çalışırıq ki, özəl sektor inkişaf etsin. Əgər rəqəmlərə nəzər salsanız görərsiniz ki, son üç il ərzində özəl sektorun ümumi daxili məhsuldakı payı 73 faizdən 81 faizə qalxıbdır. Bu onu göstərir ki, biz Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərini tam şəkildə tətbiq edirik. Azərbaycan iqtisadiyyatı, demək olar ki, tam şəkildə müasir metodlarla, üsullarla idarə olunur. Biz özümüzü həm siyasi cəhətdən, həm də iqtisadi cəhətdən dünyaya inteqrasiya edirik. Beynəlxalq təşkilatlarla uğurlu və qarşılıqlı maraq əsasında əməkdaşlıq edirik. Azərbaycan öz tərəfindən bu əməkdaşlığa töhfəsini verir.

Azərbaycanda ictimai-siyasi vəziyyət çox müsbətdir və hər bir iqtisadi inkişafın təməlində məhz siyasi sabitlik amili dayanır. Uzağa getmək lazım deyil, sadəcə, bəzi ölkələrin uzaq və yaxın tarixinin təcrübəsinə nəzər salmaq kifayətdir. Harada siyasi sabitlik pozulur, xaos yaranır, orada dərhal iqtisadi məsələlər çətinləşir və iqtisadiyyat tənəzzülə uğrayır. Nəticədə insanlar əziyyət çəkirlər və problemlər yaranır. Harada sabitik var, ictimai-siyasi vəziyyət müsbətdir, orada inkişaf var. Bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlərdir. Azərbaycanın üstünlüyü də məhz bundadır. Bizdə həm siyasi proseslər düzgün istiqamətdə inkişaf edir və Azərbaycan xalqı tərəfindən bu siyasət dəstəklənir, həm də iqtisadi sahədə ölkəmiz, deyə bilərəm ki, dünyada analoqu olmayan sürətlə inkişaf edir.

İkinci belə ölkə yoxdur ki, çox qısa müddətdə öz büdcə gəlirlərini beş dəfə artırsın və belə böyük həcmdə iqtisadi artıma nail ola bilsin. Deyə bilərəm ki, 2005–2007-ci illərdə biz ümumi daxili məhsulun həcmini təxminən iki dəfə artıracağıq. Ölkələr var ki, bunu etmək üçün onlara 20–30 il vaxt lazımdır. Amma biz bunu maksimum üç ilə, üç il yarıma edəcəyik. Bu nə deməkdir? Bəlkə də bunu sizə demək yersizdir, çünki burada oturanların əksəriyyəti iş adamlarıdır, bizneslə məşğuldurlar. Bütün bu iqtisadi məsələləri yaxşı bilirlər və yaxşı görürlər ki, indi Azərbaycanda bizneslə məşğul olmaq üçün yaxşı şərait var. Dövlət biznesi dəstəkləyir. Prezident kimi, mən bütün hallarda biznes mühitinin yaxşılaşdırılması üçün

əlimdən gələni edirəm. Biz gərək həm xarici investisiyaları təşviq edək, həm də yerli investisiyaları. O da çox sevindiricidir ki, artıq yerli investisiyalar, onların çəkisi ümumi insevtisiya portfelində artır və daha da artacaqdır.

Təbii ki, bunun içində dövlət xətti ilə investisiyalar kifayət qədərdir. Biz 2007-ci il üçün dövlət investisiya proqramını tərtib etmişik. Orada təxminən 1,5 milyard manat səviyyəsində sərmayə qoyuluşu nəzərdə tutulur. Dövlət İnvestisiya Şirkətinin yaradılmasının məqsədi də ondan ibarətdir ki, biz özəl sektora bir az da dəstək verək, təkan verək. Biz Dövlət İnvestisiya Şirkətini nə üçün yaratdıq? Ona görə ki, o, 100 milyon manat nizamnamə kapitalı ilə başqa yerlərdən investisiyalar cəlb etsin, investorları əmin etsin, onları arxayın etsin ki, Azərbaycanda onların investisiyaları batmayacaqdır.

Bir sözlə, biz vaxtilə neft sektorunda necə vəziyyət yaratmışdıqsa, indi qeyri-neft sektorunda da elə vəziyyət yaratmalıyıq. Mənim yaxşı xatirimdədir, 1994-cü ildən sonra müxtəlif fikirlər var idi ki, xarici şirkətlər gələcək, bizim neftimizi aparacaqlar, gərək bizim neftimiz suyun dibində qalsın, gələcək nəsillər üçün saxlayaq. Biz gərək heç kimə heç bir güzəşt etməyək, o nefti özümüz hasil edək. Əgər o vaxt bu fikirlər üstünlük təşkil etsəydi, Azərbaycanın indiki durumunu təsəvvür etmək çətin olardı.

Məhz bizim siyasətimiz, Heydər Əliyevin siyasəti, onun neft strategiyası ölkəmizə bütün bu imkanları yaratdı. Təsəvvür edin, əgər 1996-cı ildə «Şahdəniz» qaz yatağı üzrə müqavilə imzalanmasaydı, biz bu gün haradan qaz alacaqdıq? Bu problem daha hansı ciddi problemlərə gətirib çıxaracaqdı? Əgər «Azəri», «Çıraq» yataqları üzrə müqavilə imzalanmasaydı, Azərbaycan iqtisadiyyatı nəyin hesabına indi bu yüksək sürətlə inkişaf edəcəkdi?! Biz nəyin hesabına büdcəmizi dolduracaqdıq və bütövlükdə Azərbaycan hansı səviyyədə olacaqdı? Azərbaycanda siyasi və başqa problemlər çoxalacaqdı. Çünki bizim yerləşdiyimiz bölgənin öz xüsusiyyətləri var və biz güclü olmalıyıq. Öz siyasətimizi, müstəqil siyasətimizi aparmaq üçün biz güclü olmalıyıq. Bu güc də

bizdə var. Haradandır? İqtisadi potensialdan və xalqın iqtidarla olan birliyindən!

Son üç il ərzində Azərbaycanda proseslər təxminən bu çərçivələrdə getmişdir. Bu təcrübə uğurludur. Əlbəttə ki, ölkənin böyük problemləri var, biz də bunları bilirik və çalışırıq ki, həll edək. İqtisadi problemlər kifayət qədərdir. Bəzi hallarda Azərbaycanda sosial ədalət prinsipləri pozulur və bu, prezident kimi, məni çox incidir. Çünki bütün işlərdə ədalət olmalıdır. Hamı bilməlidir ki, ədalət zəfər çalmalıdır və cəmiyyət ədalətli olmalıdır, qanunlar işləməlidir. Biz hüquqi dövlət yaradırıq. Nə üçün? Ona görə yox ki, bizə kimsə bunu tövsiyə edir. Ona görə ki, biz istəyirik Azərbaycanın uzunmüddətli inkişafı təmin olunsun. O cümlədən biznes mühitinin yaxşılaşdırılması üçün mütləq və mütləq hüquqi dövlət yaradılmalıdır. Hələ biz deyə bilmərik ki, bunu yaratmışıq. Hələ ki, kifayət qədər ədalətsiz qərarlar var, müdaxilələr var, o cümlədən biznesə müdaxilələr var. Mən hər dəfə deyirəm ki, buna son qoyulmalıdır. Hər dəfə iş adamlarını çağırıram ki, əgər belə hallar varsa, müraciət etsinlər. Mənə ünvanlanan bütün müraciətlər çatır. Bilirəm ki, ölkədə nələr baş verir, həm məlumat alıram, həm də bölgələrdə oluram. Yəni bu problemlər də həll olunmalıdır. Əgər biz istəyiriksə doğrudan da müasir dövlət, güclü siyasi sistem yaradaq, mütləq qanunun aliliyi təmin edilməlidir. Bu işdə biz hamımız fəal olmalıyıq. Bu məsələni təkcə yuxarıdan tətbiq etmək olmaz. Elə məsələ var ki, prezidentin qərarları, hökumətin qərarları bunda həlledicidir. O cümlədən müxtəlif proqramların icrası da bunu göstərir. Elə məsələlər var ki, bütün cəmiyyət burada iştirak etməlidir. Çünki bunlar gərək bütün cəmiyyəti cəlb etsin və daha da fəal etsin.

Ona görə hələ kifayət qədər həll olunmamış problemlər var. Bu problemlər təkcə infrastruktur çatışmazlığı ilə bağlı deyildir. Digər dərin problemlər var. Onların böyük əksəriyyəti keçmişdən, yəni sovet keçmişindən qalan məsələlərdir. Deyə bilərəm ki, bütün bunlar postsovet ölkələri üçün adi haldır. Biz çalışmalıyıq ki, bunları aradan qaldıraq. Bu

çətindir, bəzi hallarda müqavimətlə rastlaşırıq. Ancaq biz bunu etməliyik və edirik də. Azərbaycanın 15 illik müstəqillik dövrü göstərib ki, biz müstəqil, suveren dövlət kimi yaşayırıq. Azərbaycan xalqı öz gələcəyini özü istədiyi kimi müəyyən edir və Azərbaycan xalqının iradəsi görülən bütün işlərdə əsasdır. Ən vacibi bundan ibarətdir.

Onu da bilirik ki, bizi gözəl perspektivlər gözləyir. Çünki Azərbaycan öz neft-qaz potensialının işə salınmasında işində yalnız ilkin mərhələdədir. Yəni hələ bizi gözləyən səviyyəyə tam çatmamışıq. 2007-2008-ci illərdə Azərbaycanda neft-qaz hasilatı kəskin şəkildə artacaq, bizə əlavə imkanlar yaradacaqdır. Biz də elə etməliyik ki, bu əlavə imkanlar mütləq və mütləq ölkəmizin hərtərəfli inkişafına, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilsin. Bunu da edirik.

Bütövlükdə mən gələcəyə çox böyük nikbinliklə baxıram. Görəndə ki, bizim həm ölkədaxili, həm də regional bütün təşəbbüslərimiz icra olunur, görəndə ki, bizim təşəbbüslərimizə qoşulanların sayı çoxalır, deməli, Azərbaycanın önəmi artır. Ən əsası isə ölkə daxilində bütün istiqamətlərdə gördüyümüz işlər öz nəticələrini verir. Amma mən istəyirəm ki, daha da tez versin. Mən ona görə bütün hökumət üzvlərini, iş adamlarını tələsdirirəm ki, tez edin, ancaq keyfiyyətli iş görün. Elə edin ki, tələbatımızı tam şəkildə ödəsin. Elə edin ki, dünyanın ən yüksək standartları Azərbaycanda tətbiq olunsun. Nə üçün biz hansısa aşağı standartlarla yaşamalıyıq? Nə üçün Azərbaycan xalqı yaxşı yaşamamalıdır? Biz buna layiqik. Buna intellektual potensialımız da, maddi imkanlarımız da çatır.

Məni çox üzür və incidir ki, yenə də Azərbaycan əhalisinin 20 faizi yoxsulluq səviyyəsindədir. Düzdür, yenə demək istəyirəm ki, yoxsulların sayı kəskin şəkildə düşübdür. Amma 20 faiz az deyil. Nə üçün bizim insanlarımız yoxsulluq şəraitində yaşamalıdırlar? Biz onlara necə kömək edək? Necə edək ki, onlar yoxsulluqdan çıxsınlar, yaxşı yaşasınlar, onların ailələrinin üzü gülsün? Necə? Məni düşündürən budur və bunu etmək üçün biz hamımız işləməliyik. İş adamları,

dövlət, bütün yerli icra orqanları – hamımız birgə işləməliyik. Əlbəttə ki, təbiidir – bütün ölkələrdə belədir – iş adamları öz biznesləri haqqında düşünməli, biznesi inkişaf etdirməlidirlər. Eyni zamanda, imkanı olanda çətin vəziyyətdə yaşayanlara da əl uzatmalıdırlar. Mən belə biznes, iş adamlarını təqdir edirəm və sizi də bu işlərə çağırıram.

Sizə deyə bilərəm ki, Azərbaycan prezidenti kimi, mən bundan sonra da ölkədə biznesin inkişafı üçün əlimdən gələni edəcək və bütün lazımi tədbirləri görəcəyəm. Güclü infrastrukturun yaradılması üçün də bütün qərarlar verilib və veriləcəkdir. Sosial məsələlərin həlli üçün qərarlar verilib və veriləcəkdir. Sizdən, yəni iş adamlarından ancaq yeni bir şey tələb olunur: keyfiyyətli iş görülməli, Azərbaycana sərmayə qoyulmalıdır. Əgər sizə hasısa iş üçün, fəaliyyət üçün məhsul almaq lazımdırsa və bu məhsul Azərbaycanda istehsal olunursa və keyfiyyətcə yaxşıdırsa, Azərbaycan məhsulunu alın. Sizin şirkətlərinizdə çalışan insanlara da yaxşı baxın, onların həm iş şəraiti yaxşı olmalıdır, yüksək maaş almalıdırlar, həm də onlara münasibət yüksək olmalıdır. Belə olan halda, Azərbaycanın qarşısında heç bir problem qalmaz.

Mən sizə deyə bilərəm ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində və dövlət tərəfindən verilən bütün imtiyazlar, kreditlər, investisiya şirkətinin, «Aqrolizinq»in yaradılması, texnikanın alınması, kəndlilərə gübrə və yanacaq almaq üçün 80 milyon manat həcmində vəsaitin ayrılması çox böyük təkan verəcəkdir. Bu təkan elə güclü olacaq ki, artıq bundan sonra çarx sürətlə fırlanacaqdır. Biz isə öz tərəfimizdən biləndə ki, o bir az yavaşıyır, onda daha da böyük dəstək verəcəyik. Burada dövlətlə biznes bir olmalıdır. Çünki bizim məqsədimiz birdir və istəyimiz də birdir – ölkəmiz möhkəmlənsin və hər bir vətəndaş yaxşı yaşasın.

Mən ümid edirəm ki, bugünkü konfransın – burada bütün rayonların icra hakimiyyəti başçıları iştirak edirlər, onların hamısını mən Bakıya çağırmışam – birinci hissəsi başa çatandan sonra bölmələrdə iş gedəcəkdir. Çox açıq fikir

mübadiləsi aparılmalıdır. Əlbəttə, bir daha deyirəm ki, görülən işlər haqqında hesabat verilməli, təhlil aparılmalıdır: bundan sonra nə kimi işlər görüləcək və əsas hansı problemlər çətinlik yaradır. Ona görə mən istəyirəm ki, bugünkü konfrans çox açıq və işgüzar şəkildə keçsin və biz 2007-ci il üçün nəzərdə tutduğumuz bütün məsələləri həll edək.

* * *

*Konfransın işində İqtisadi İnkişaf naziri Heydər Babayev, Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf naziri Famil Seyidov, Dünya Bankının Azərbaycan üzrə meneceri Qreqori Jedjayrak, Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, «Azqida» Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Yusif Musayev, Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayev, «Fəxrəddin –K» Məhdud Məsuliyyətli Cəmiyyətinin sədri Fəxrəddin Baxışov, «Aqrarkredit» Səhmdar Kredit Təşkilatı idarə heyətinin sədri Məmməd Musayev çıxış etdilər.*

## YEKUN NİTQİ

Çıxışlarda biz daha çox hesabat məlumatları eşitdik və görürük ki, müxtəlif yerlərdə, bölgələrdə iqtisadi artım sürətlə gedir. Adətən, biz ümumilikdə Azərbaycanın iqtisadi artımı haqqında söhbət açırıq, amma müxtəlif bölgələrin də nəticələrini bilməliyik. Naxçıvanda, Xaçmazda, Yevlaxda və başqa şəhərlərdə və rayonlarda da iqtisadi göstəricilər müsbətdir. İnsanların işlə təmin olunması və xaricdə yaşayan vətəndaşlarımızın Azərbaycana qayıtması bizi çox sevindirir. Çünki bu onu göstərir ki, artıq Azərbaycanda işləmək üçün, yaxşı maliyyə imkanları əldə etmək üçün şərait yaxşılaşır. Əlbəttə ki, bu müsbət meyllər getdikcə daha da möhkəmlənəcəkdir. İndi bəzi hallarda Azərbaycanda işçi tapmaq problemə çevrilibdir. Xüsusilə tikinti sektorunda. Əminəm ki, gələcəkdə nəzərdə tutduğumuz bütün proqramlar icra olunduqca, Azərbaycanda işsizlik problemi tamamilə ara-

dan qaldırılacaqdır. Sadəcə, işləmək istəməyənlər işsiz olacaqlar. Yəni bütün inkişaf etmiş ölkələrdə olduğu kimi.

Mən Dünya Bankının nümayəndəsinin çıxışına da diqqətlə qulaq asdım. Deyə bilərəm ki, Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlıq, bunun əsas istiqamətləri həm də Azərbaycanda regionların sosial-iqtisadi inkişafı proqramı və başqa sahələrdəki proqramlarla sıx uzlaşır. Bu onu göstərir ki, bizim birgə fəaliyyətimiz uğurludur və fikirlərimiz üst-üstə düşür. Uzun illər ərzində Azərbaycan beynəlxalq maliyyə qurumları ilə çox səmərəli əməkdaşlıq edibdir. Bu əməkdaşlıq bizə çox böyük imkanlar yaradıb, Azərbaycan beynəlxalq maliyyə qurumlarından yardımlar alıbdır. İndi bizim iqtisadi vəziyyətimiz elədir ki, buna artıq ehtiyac yoxdur və istisna olunmur ki, gələcəkdə Azərbaycan özü donor ölkəyə çevriləcəkdir.

Biz bu məsələləri artıq müzakirə edirik və birinci növbədə mənəvi borcumuzu qaytarmalıyıq. Çünki əfsuslar olsun ki, dünyada çox ağır şəraitdə yaşayan ölkələr kifayət qədərdir. Müstəqilliyimizin ilk illərində, maddi imkanlarımız olmadığı bir vaxtda məhz beynəlxalq maliyyə qurumları bizə kömək etdilər. Xüsusilə onlardan gələn yardımlar çətin şəraitdə yaşayan qaçqın-köçkün soydaşlarımızın həyat səviyyəsini yaxşılaşdırmaq üçün həlledici rol oynamışdır. İndi biz, demək olar ki, bütün bu məsələləri öz üzərimizə götürmüşük və bu da təbiidir. Çünki ölkə zənginləşir. Yenə də deyirəm, əlbəttə ki, gələcəkdə beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığımızın istiqamətləri də dəyişəcək və artıq dəyişir. Amma bununla bərabər, müxtəlif proqramlar çərçivəsində biz birgə işləri davam etdirməliyik. Səhiyyə, təhsil, ekoloji məsələlər bizi də, beynəlxalq maliyyə qurumlarını da çox düşündürür. Bu istiqamətdə Azərbaycanda artıq böyük işlər görülübdür. Bilirsiniz ki, məktəb tikintisi çox geniş vüsət alıbdır. Keçən il 200-ə yaxın məktəb tikilibdir. Bu il də çoxlu məktəblərin tikintisi nəzərdə tutulur və təhsilin keyfiyyətinə də böyük diqqət göstərilir.

Kompüter texnologiyaları məktəblərə daxil olur və bu da çox vacibdir. Bütövlükdə Azərbaycan yaxın gələcəkdə informasiya-kommunikasiya texnologiyaları üçün çox cəlbedici ölkəyə çevriləcək və bu texnologiyaları tam şəkildə Azərbaycanda tətbiq etmək üçün ilkin baza təhsili olmalıdır. Geniş kütlə, xüsusilə uşaqlarımız, gənclərimiz bu texnologiyaları bilməlidir, kompüterlə işləmək üçün treninq keçməlidirlər. Bu treninqlər ilk növbədə məktəblərdə həyata keçirilməlidir.

Səhiyyə sisteminin möhkəmlənməsi işində planlarımız çox böyükdür. İndi müxtəlif bölgələrdə müasir diaqnostika və müalicə mərkəzləri tikilir. Həm diaqnostika, həm də müalicə bir yerdə olacaqdır. Çünki bəzi hallarda insanlarımız bu imkanları hələ əldə etməyiblər ki, vaxtlı-vaxtında müayinədən keçsinlər, onların xəstəlikləri vaxtında müəyyən olunsun. Belə imkan olan halda, əlbəttə ki, insanların sağlamlığı möhkəm olacaq və daha çox yaşayacaqlar. Bildiyiniz kimi, bu müalicə və diaqnostika mərkəzləri bölgələrdə tikilir və tikiləcəkdir. Bu il nəzərdə tutmuşuq ki, 7 rayonda yeni müasir mərkəz istifadəyə verilməlidir. İlk belə mərkəzlər Lənkəranda və Naxçıvanda istifadəyə verilib və yəqin televiziyadan görürsünüz ki, ən yüksək dünya səviyyəsindədir. Yəni dünyada hansı qabaqcıl texnologiya varsa, onlarda da var. Hansı gözəl müalicələr varsa, bizdə də var. Belə də olmalıdır.

Əlbəttə ki, səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmlənməsi üçün əlavə tədbirlər də görüləcəkdir. Mən göstəriş vermişəm və bu məsələ üzərində işləyirlər – Azərbaycanda təcili tibbi yardımın fəaliyyətini möhkəmləndirməliyik. Yeni maşınlar alınmalı, yeni avadanlıq quraşdırılmalıdır və bütün təcili tibbi yardım maşinlarında bütün dərmanlar olmalıdır, xəstələr də bundan istifadə etməlidirlər.

Ekologiya məsələləri həm bizi, həm də Dünya Bankını çox narahat edir. Biz geniş ekoloji proqramı qəbul edəndən dərhal sonra Dünya Bankından nümayəndələr gəlmiş və bizimlə bərabər işləmək arzularını bildirmişdilər. Bu da çox

müsbət haldır. Bu elə sahədir ki, oraya qoyulan sərmayə birbaşa gəlir gətirmir. Ancaq bu, bütövlükdə ölkənin inkişafı, insanların sağlamlığı, təbiətin qorunması üçün bizə lazımdır. Düzdür, Azərbaycanda ekoloji vəziyyət yaxşıdır. Ancaq Bakı və Abşeron yarımadası haqqında bunu demək olmaz. Çünki uzun illər boyu neftlə çirklənmiş torpaq, gölməçələr burada ekoloji vəziyyəti mənfiyə doğru tam şəkildə dəyişmişdir. Bunları təmizləmək, bu vəziyyəti aradan qaldırmaq üçün böyük vəsait lazımdır. Bəlkə də yüz milyonlarla dollar vəsait lazımdır və biz bunu edəcəyik. Çünki bu, insanların sağlamlığı üçün lazımdır. Görəndə ki, beynəlxalq təşkilatlar da bu işlərə qoşulur, əlbəttə ki, bu bizə daha da güc verir. Ancaq ilk növbədə, biz bunu öz imkanlarımız hesabına etmək istəyirik. Qəbul edilmiş ekoloji proqramda da bütün bu məsələlər təsdiq olunub və bu il onun icrasına başlanmalıdır.

Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiya üçün çox mühüm bir vasitədir. Bizim çox gözəl təbiətimiz var. Bəlkə nadir ölkələrdən biriyik ki, burada istənilən təbii şərait, istənilən təbii iqlim var. Qısa müddət ərzində, bir-iki saat maşınla getməklə, bir iqlimdən başqa iqlimə keçə bilirik. Yəni dünyada buna çox nadir hallarda rast gəlinir. Təyyarəyə minmək lazım deyil ki, başqa bölgəyə gedək. İndi ən müasir standartlara cavab verən yollar salınır. Dəmir yolu sistemini biz möhkəmləndirməliyik. Bunun üçün də göstərişlər verilibdir. İndi şəhərləri birləşdirən sürətli dəmir yolunun mümkünlüyü araşdırılır.

Turizmin inkişafı üçün bütün şərait var və lazımi göstərişlər də verilibdir. Bizim böyük sahilyanı zonamız var və onu inkişaf etdirməliyik. Sahilyanı zonada müasir infrastruktur yaradılmalıdır. Şəmsəddin Xanbabayev dedi, mən Xaçmazda olarkən Nabrana getdim, turizm zonası ilə tanış oldum. Əlbəttə ki, müəyyən işlər görülübdür. Amma açıq deməliyəm ki, bunlar dünya səviyyəsindən hələ çox uzaqdır. Çox uzaqdır!

Biz əgər istəyiriksə ki, Azərbaycanda güclü turizm mərkəzi yaradılsın, bütün işləri ən yüksək səviyyədə görməliyik. Xarici mütəxəssislər gəlməlidir, onlar bu məsələni araşdırmalıdırlar, texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır. Bütün turizm infrastrukturunun Baş planı hazırlanmalıdır və ondan sonra biz işə başlamalıyıq. Düzdür, bu vaxta qədər görülən işlər deyə bilərəm ki, iş adamlarının fədakarlığının nəticəsidir. Mən də onların fəaliyyətini bəyənirəm.

Amma mən istəyirəm ki, burada, Azərbaycanda, bizim ölkəmizin gözəl yerlərində o gözəl təbiətə uyğun gözəl turizm infrastrukturu yaradılsın. Bu məqsədlə yay turizminin, eyni zamanda, qış turizminin inkişafı üçün artıq müvafiq tapşırıqlar verilibdir. İndi bizim dağ rayonlarında qış turizminin inkişafı üçün infrastruktur layihələr işlənilir və əminəm ki, ilin ortalarına qədər təkliflər veriləcək və böyük quruculuq işləri başlanacaqdır. Yollar, elektrik xətləri, su xətləri çəkilməli və qış idman növləri ilə məşğul olmaq üçün xüsusi şərait yaradılmalıdır.

Nəqliyyat infrastrukturumuzu da məhz ona görə möhkəmləndiririk ki, həm iqtisadi cəhətdən, həm də turizmin inkişafı üçün bizə əlavə imkanlar yaradır. Yeni aeroportlar tikilir, ilk növbədə yeni yollar, kənd yolları, xüsusilə turizm yerlərinə yollar çəkilməlidir ki, insanlar o yerlərə rahatlıqla çata bilsinlər. Xınalıq yolu haqqında da burada deyildi. Əvvəllər Xınalığa getmək üçün 5-6 saat vaxt lazım idi. Özü də ildə ancaq 3-4 ay mümkün idi. Amma indi biz 40-50 dəqiqəyə Qubadan oraya gedirik. Beləliklə, o bölgə də dirçələcək və oradakı insanlar da daha rahat yaşayacaqlar.

Ona görə işlərdə həm özümüz fəal olmalıyıq, həm də Azərbaycanda fəaliyyət göstərən beynəlxalq təşkilatlarla, xüsusilə Dünya Bankı ilə daha da sıx işləməliyik. Çünki bizim məqsədlərimiz üst-üstə düşür və bu günə qədər bizə verilən tövsiyələr, məsləhətlər və əvvəllər verilən kreditlər bizim üçün çox dəyərli olmuşdur.

Mən bölgələrə tez-tez gedirəm, vəziyyətlə tanış oluram. Bu gün sərgidə nümayiş etdirilən məhsulların əksəriyyəti ilə

elə bölgələrdə tanış olurdum, görürdüm ki, Azərbaycanda xüsusilə emal sənayesi inkişaf edir. Bu da çox gözəl göstəricidir. Bizim təbiətimiz elədir ki, özümüzü, demək olar, yüz faiz qida məhsulları ilə təmin edə bilərik. Sadəcə olaraq, müasir emal müəssisələri yaradılmalıdır. Onlardan bir neçəsi artıq fəaliyyət göstərir, özü də ən yüksək səviyyədə.

Ancaq hələ ki, bu kifayət deyildir. Siz də bilirsiniz, qida məhsullarının böyük bir hissəsi Azərbaycana hələ xaricdən gətirilir. Bizim isə imkanlarımız var ki, maksimum dərəcədə bunu Azərbaycanda istehsal edək. Xaricdən də gəlsin, mən demirəm ki, gəlməsin, amma Azərbaycanda istehsalı mümkün olmayan, yaxud da ki, hansısa xüsusi bir texnologiya tələb edən məhsullar gəlsin. Bahalı məhsullar gəlsin. Amma gündəlik tələbat malları yüz faiz Azərbaycanda istehsal olunmalıdır. Bunu etmək üçün biz gərək fəal işləyək. İlk növbədə bu məqsədlə verilən kreditlərin məbləği də artırılıbdır. İlk mərhələdə sahibkarlara ayrılan kreditlər kiçik rəqəm təşkil edirdi, çünki biz istəyirdik ki, sahibkarların maksimum geniş dairəsi bundan faydalansın. Bu il isə biz bu limiti qaldırmışıq. İndi 3 milyon dollar həddindədir. Gələcəkdə bəlkə bundan da artıq etməliyik. Mən şəxsən hesab edirəm ki, 2008-ci ildə sahibkarlara verilən kreditlərin məbləğini kəskin şəkildə qaldırmalıyıq. Birincisi, bizim maddi imkanlarımız daha da artacaq və büdcəmiz daha da böyük olacaqdır. İkinci tərəfdən, bu vaxta qədər verilən kreditlər artıq qaytarılmağa başlanacaq və beləliklə, əlavə vəsait yaranacaqdır. Ümumi məbləği artırandan sonra, əbləttə ki, limit həddini də qaldırmalıyıq. Yəqin 5 milyon dollara yaxın, ondan daha da çox ki, müxtəlif yerlərdə o pulla müasir emal müəssisəsi tikilə bilsin.

Bu gün bu iş başlanmışdır və mən bunu görürəm, Azərbaycan istehlakçıları da görürlər. Çünki yerli mallardan istifadə etməyə başlamışıq. Amma elə etməliyik ki, yerli mallar bizi tam şəkildə, yüz faiz təmin etsin. Bununla bərabər, Azərbaycanda digər məhsulların istehsalı başlanıbdır. Aşağıda sərgidə televizorlar, kondisionerlər göstərilir,

bayırda avtomobillər var, yəni Azərbaycan artıq bu məhsulları da istehsal etməyə başlayıbdır. Bu, əlbəttə ki, başlanğıcdır, birinci addımdır. Mən əminəm ki, bu müsbət istiqamətdə bundan sonra daha da ciddi tədbirlər görüləcəkdir.

Bir sözlə, Azərbaycanın bütövlükdə iqtisadi potensialının möhkəmlənməsi artıq heç kəsdə şübhə doğurmur. Biz bunu edirik və bunun əsas, möhkəm təkanvericisi, əlbəttə ki, energetika sektorudur, neft-qaz amilidir. Neft-qaz amili Azərbaycanın iqtisadiyyatında getdikcə daha da böyük rol oynayacaq, çünki bizim neft-qaz hasilatımız artacaqdır. Qeyri-neft sektorunda da istehsal artacaqdır. Amma təbii ki, o, yüksək sürətlə arta bilməz. Yəni müqayisədə fərq hələ uzun illər qalacaqdır. Biz elə etməliyik və edirik ki, neft-qaz sektorunda əldə edilən mənfəət, gəlirlər, qeyri-neft sektorunun inkişafına yönəldilsin.

Bir də demək istəyirəm ki, biz inkişaf etmiş ölkələrin təcrübəsini öyrənmişik və görmüşük ki, onlar nəyin hesabına inkişaf edibdir. Təbii sərvətlər hesabına, yaxud da hansısa xüsusi coğrafi vəziyyət hesabına yox. Elə ölkələr var ki, onlardan heç bir dəhliz keçmir, adadır və heç bir təbii sərvətləri yoxdur. Amma ən inkişaf etmiş ölkələrdir. Nəyin hesabına? Savad, bilik, təhsil! Ona görə mən informasiya-kommunikasiya texnologiyalarının Azərbaycanda tətbiqini prioritet məsələ elan edirəm. Mənim informasiya-kommunikasiya texnologiyaları sahəsində dünyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşlərim də məhz bundan qaynaqlanır ki, onlar Azərbaycana gəlsinlər. Azərbaycana yeni investisiyalar gəlsin, biz özümüz dövlət tərəfindən, Dövlət İnvestisiya Şirkəti tərəfindən bu investisiyaları qoyaq. Texnoparklar yaradaq, Azərbaycanda çox güclü informasiya-kommunikasiya mərkəzi yaradaq. Bu gələcəkdir, gələcəyin inkişafıdır. Neft-qaz amili, sadəcə olaraq, bizə əlavə maddi güc verir, rahatlıq verir. Bizi əmin edir ki, iqtisadi cəhətdən özümüzü təmin edə və bəzi hallarda başqalarına da kömək göstərə bilərik. Bu, inkişaf etmiş ölkələrin təcrübəsidir.

Neft-qaz hasil edən ölkələrin təcrübəsi başqadır. Düzdür, orada da müxtəliflik var, amma bəzi hallarda nə qədər çox neft hasil olunursa, ölkə o qədər çox kasıblaşır, neftin nə qədər çox ixracı təmin edilirsə, insanlar o qədər çox müflisləşirlər. Belə nümunələr kifayət qədərdir. Amma biz daim bunu yadda saxlamalıyıq və elə etməliyik ki, neft-qaz amili Azərbaycana rifah gətirsin, sülh, insanlara rahatlıq gətirsin. Yoxsulluğun azaldılması, iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı – o cümlədən neft sektorunun fəaliyyəti nəticəsində – onu göstərir ki, şəffaflıq da təmin olunmalıdır və təmin edilir. Şəffaflıq bütün hallarda lazımdır, ilk növbədə hasilat sənayelərində. Əgər bunu təmin etməsək, gələcəkdə bizi böyük problemlər gözləyər. Ona görə hərtərəfli inkişaf, biznes mühitinin yaxşılaşdırılması, neft-qaz sektorunun inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi də prioritet məsələ kimi qalır. Yeni müəssisələr, fabriklər, infrastruktur layihələr, elektrik stansiyaları, yollar, turizm, təhsil, səhiyyə, ekologiya – bütün bu istiqamətlərdə bizim proqramlarımız var və icra olunur. Əsas odur ki, daha da sürətlə icra olunsun və xüsusilə bölgələrdə proseslər daha da sürətlə getsin. Abadlıq işləri, bütün işlər zövqlə görülməlidir, yeni tikilən binalar müasir standartlara cavab verməlidir. Mən bir dəfə bunu demişəm, bir də demək istəyirəm ki, bizim mütəxəssisləri – rəssamları, dizaynerləri, zövqü olan insanları cəlb etmək lazımdır. Yoxsa hər kəsin zövqü ilə iş görsək, o qədər də ürəkaçan mənzərə yaranmayacaqdır.

Bir sözlə, mən ümid edirəm ki, bu gün burada davam edəcək konfrans yeni fikirlər gətirəcəkdir. Bir də deyirəm, istəyirəm ki, bölmələrdə daha çox narahatlıq doğuran problemlər haqqında söhbət açılsın, müəyyən edilsin və əgər lazım olarsa, biz əlavə təbirlər də görərik. Məsələn, mən rayonlara gedərkən vəziyyətlə tanış oluram, ondan sonra zona müşavirəsi keçirirəm, əlavə təbdirlər müzakirə olunur, harada nə çatışmırsa, əlavə edirik, sərəncam imzalanır və icra edilir. Geniş mənada bütün bölgələri, bütün rayonları əhatə edən bu konfrans bax, bu əsas məqsədi bilməlidir.

Mən bir də demək istəyirəm ki, bütövlükdə həm Azərbaycanın iqtisadi inkişafı baxımından, həm də regionların inkişafı baxımından vəziyyət çox müsbətdir. Biz qarşıya qoyduğumuz bütün məsələləri ardıcıllıqla, məqsədyönlü şəkildə, vaxtlı-vaxtında həll edirik. Sadəcə olaraq, bu yüksək sürəti saxlamalıyıq və ölkəmizi bundan sonra da gücləndirməliyik. Bu işlərdə sizə uğurlar arzulayıram, sağ olun.

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Estoniya münasibətləri mövcud ənənələrə əsaslanaraq, bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2007-ci il*

**BRUNEY DƏRÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Bruney Dərüssalamın milli bayramı – Milli gün münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı xoş münasibətlər, dostluq və əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da öz inkişafını davam etdirəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*14 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Almaniya Federativ Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Almaniyanın dövlət bayraqları ilə bəzədilmiş Berlin şəhərinin «Teygel» hava limanında Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Almaniyanın yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla qarşıladılar. Prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim olundu.*

*Azərbaycan prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlətimizin başçısı hava limanından onun üçün ayrılmış iqamətgaha – «Adlon Kemkinski» mehmanxanasına yola düşdü.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Almaniyanın Federal Kanslerinin iqamətgahına gəlmişdir. Burada dövlətimizin başçısının rəsmi qarşılanma mərasimi oldu.*

*Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.*

*Binanın önündə Azərbaycan prezidenti İlham Əliyevi Almaniyanın Federal Kansleri xanım Angela Merkel böyük hörmət və ehtiramla qarşıladı.*

*Azərbaycanın nümayəndə heyəti Kansler Angela Merkelə, Almaniyanın rəsmi şəxsləri isə prezident İlham Əliyevə təqdim olundu.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Almaniyanın dövlət himnləri səsləndi.*

*Prezident İlham Əliyev və Kansler Angela Merkel fəxri qarovul dəstəsinin önündən keçdilər və dövlət bayraqlarına təzim etdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYANIN KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞÜ

*14 fevral 2007-ci il*

*Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Almaniya, eləcə də Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan əlaqələrin inkişaf perspektivlərindən, ölkəmizdə gedən iqtisadi tərəqqidən, bütün sahələrdə iqtisadi islahatların uğurla həyata keçirilməsindən və demokratik proseslərdən söhbət açıldı. Bildirildi ki, iki ölkə arasındakı münasibətlər çox yaxşı səviyyədədir və Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı vacibdir. Bu istiqamətdə Azərbaycanın gördüyü işlər təqdirəlayiqdir.*

*Tərəflər Azərbaycan ilə Almaniya arasındakı münasibətlərin getdikcə möhkəmləndiyini vurğuladılar və Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolu yüksək qiymətləndirildi. Həmçinin vurğulandı ki, Avropa ilə Azərbaycan arasında enerji sahəsində olan əməkdaşlığın yeni səviyyəyə qalxması üçün qarşılıqlı tədbirlər görüləcək və Almaniya tərəfi bu işdə öz köməyini əsirgəməyəcəkdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu, qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

* * *

*Görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Almaniya Kansleri Angela Merkelin birgə mətbuat konfransı oldu. Xanım Angela Merkel və prezident İlham Əliyev bəyanatlarla çıxış etdilər.*

## Almaniyanın Federal Kansleri Angela Merkelin bəyanatı

Hörmətli xanımlar və cənablar!

Mən bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi ölkəmizdə ürəkdən salamlayıram. Söhbətimiz zamanı əsas mövzularımız iki ölkə arasında mövcud olan əlaqələrə aid idi. Deyə bilərəm ki, Azərbaycan ilə Almaniya arasında, eyni zamanda, Azərbaycan ilə Avropa İttifaqı arasında mövcud olan əlaqələr çox vacibdir. Hesab edirəm ki, bu əlaqələr həm Avropa İttifaqı, həm də Azərbaycan üçün çox vacibdir. Biz Azərbaycanda gedən inkişaf proseslərindən danışdıq. İqtisadi sahədə, eləcə də ictimai-siyasi sahədə islahatların həyata keçirilməsi çox zəruridir.

Söhbətimizin ikinci mövzusu demokratiyanın inkişafı ilə bağlı idi. Zənnimcə, transformasiya prosesində demokratik inkişafa nail olmaq çox vacibdir.

Əlbəttə ki, biz Azərbaycan ilə Almaniya arasında iqtisadi sahədə əməkdaşlıqdan da danışdıq. Daha çox enerji sahəsində əməkdaşlığa üstünlük verildi. Avropa İttifaqı ilə Azərbaycan arasında mövcud olan əlaqələr bu sahədə gündən-günə artacaqdır. İqtisadiyyatın şaxələndirilməsi sahəsində Almaniya Azərbaycana həmişə öz yardımını göstərəcəkdir. Gələn illərdə həm Almaniya–Azərbaycan, həm də Avropa İttifaqı–Azərbaycan arasında olan iqtisadi əməkdaşlıq gündən-günə artacaqdır.

Bildiyiniz kimi, Azərbaycan İranla qonşu ölkədir və əlbəttə, Azərbaycan ilə İran arasındakı əlaqələrdən, İranın nüvə proqramından da danışdıq.

Cənab Prezident, Sizi bir daha salamlayıram və əminəm ki, mövcud olan əlaqələr dinamik şəkildə inkişaf edəcək və Almaniya öz yardımını həmişə göstərəcəkdir.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli xanım Merkel!

Hörmətli mətbuat nümayəndələri!

Bu gün biz çox səmərəli və işgüzar şəraitdə geniş fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlərdə bizim əlaqələrimiz günü-gündən güclənir. Siyasi əlaqələr möhkəmlənir, iqtisadi sahədə birgə layihələr həyata keçirilir. İnsan haqları, Azərbaycanda demokratiya proseslərinin geniş şəkildə güclənməsində birgə səylərimiz müzakirə olunmuşdur.

Eyni zamanda, Avropa İttifaqı–Azərbaycan münasibətləri və əlbəttə ki, bölgədə mövcud olan təhlükələr və münaqişələr danışıqlar mövzusu olmuşdur. Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nin iştirakçısıdır və ümid edirik ki, növbəti 5 il ərzində proqramın icrası nəticəsində Azərbaycanda bütün sahələrdə mövcud olan meyarlar Avropa İttifaqının meyarlarına yaxınlaşacaqdır. Keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalanmışdır. Əminəm ki, bundan sonra Avropa İttifaqı ilə Azərbaycan arasında bu sahədə əməkdaşlıq daha da möhkəmlənəcəkdir. Azərbaycanda çox zəngin təbii ehtiyatlar var, nefti, qazı var. Təbii ehtiyatlarımızı dünya və Avropa bazarlarına çatdırmaq üçün artıq neft kəməri və qaz kəməri tikilib istifadəyə verilibdir. Düşünürəm ki, bu kəmərlərin fəaliyyəti nəticəsində Avropa ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq yeni səviyyəyə qalxacaqdır.

Eyni zamanda, Avropa İttifaqı Cənubi Qafqazda mövcud olan separatist meyllər nəticəsində yaranmış münaqişələrə

öz münasibətini bildirib və bu münasibət də müsbətdir. Əminəm ki, Avropa İttifaqının bu məsələlərlə məşğul olması münaqişələrin həllinə öz töhfəsini verəcəkdir.

Hörmətli xanım Merkel, Sizə bu dəvətə görə bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu səfərdən sonra Almaniya–Azərbaycan münasibətləri daha da sürətlə inkişaf edəcəkdir.

*Sonra prezident İlham Əliyev və xanım Angela Merkel jurnalistlərin suallarına cavab verdilər.*

**– Mənim sualım cənab Prezidentə və xanım Kanslerədir. Azərbaycan–Almaniya iqtisadi əlaqələrindən razısınızmı? Ölkələr arasında ticarət dövriyyəsinin artımı gözlənilirmi? Ümumiyyətlə, Almaniya şirkətləri gələcəkdə Azərbaycanın qeyri-neft sektoruna sərmayə qoya bilərmi?**

**A n g e l a  M e r k e l:** İqtisadi sahədə ölkələrimiz arasındakı əlaqələr bizi çox qane edir. Alman firmalarının Azərbaycanda fəaliyyəti aydın hiss olunur. Mən ümid edirəm ki, alman firmaları Azərbaycan iqtisadiyyatına daha çox investisiya qoyacaqdır. Hazırda Azərbaycanda çoxlu sayda alman şirkətləri fəaliyyət göstərir və biz danışıqlarımız zamanı qeyd etdik ki, onlar Azərbaycanda yeni infrastrukturların yaradılmasına öz töhfələrini verə bilər.

**İ l h a m  Ə l i y e v:** Mən əlavə edə bilərəm ki, Azərbaycanda çox gözəl investisiya mühiti var. Son 10 il ərzində ölkəmizə 30 milyard dollardan çox sərmayə qoyulmuşdur. Alman şirkətləri çox yüksək nüfuza malikdir. Onlar bizim üçün çox əlverişli tərəfdaşdır. Almaniyanın böyük şirkətləri Azərbaycanda uzun illərdir fəaliyyət göstərir. Əminəm ki, mənim səfərim çərçivəsində keçiriləcək Almaniya–Azərbaycan biznes forumu daha yeni müqavilələrin yaranmasına gətirib çıxaracaqdır. Bu sahədə bizim əməkdaşlığımız sürətlə irəliyə gedir.

**– Hörmətli xanım Merkel və cənab Prezident, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə öz köməyini necə göstərə bilər?**

**A n g e l a M e r k e l:** Hazırda neft kəmərləri tikilir. Məsələn, bu kəmərlər Ukrayna və Polşadan Avropa istiqamətinə çəkilir. Həmçinin Azərbaycan qazı kəmərlə Yunanıstana keçəcəkdir. Bununla da Avropanın bir hissəsi neft və digər enerji daşıyıcıları alacaqdır. Ancaq, ümumiyyətlə, bu sualı iqtisadiyyatla məşğul olan şəxslərə vermək lazım idi. Biz siyasətçilər bu məsələ ilə məşğul deyilik.

**İ l h a m Ə l i y e v:** Mən əlavə edə bilərəm ki, Azərbaycan artıq öz neft-qaz strategiyasını davam etdirir, Azərbaycan neftini və qazını dünya və Avropa bazarlarına çıxaran neft-qaz kəmərləri tikilib istismara verilibdir. Texniki cəhətdən hətta bu il Azərbaycan qazı Avropa İttifaqının bazarlarına çatdırıla bilər.

## BERLİN ŞƏHƏR MERİ KLAUS VOVERAYT İLƏ GÖRÜŞ

*15 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfərinin ikinci günü Berlin şəhərinin meri Klaus Voverayt ilə görüşmüşdür.*

*Mer Klaus Voverayt xüsusi hörmət və ehtiram əlaməti olaraq səhər dövlətimizin başçısının iqamətgahına – «Adlon Kemkinski» mehmanxanasına gələrək, nümayəndə heyətləri ilə birgə paytaxtın tarixi «Paris» meydanını gəzdilər. Bu tarixi yerlər barədə dövlətimizin başçısına məlumat verildi. Brandenburq darvazası önündə xatirə şəkli çəkdirdilər. Xatırladaq ki, İkinci dünya müharibəsi zamanı, 1945-ci il mayın 2-də 416-cı Azərbaycan atıcı diviziyasının bölmələri həmin darvazaya döyüş bayrağını sancmışdı.*

*Gəzintidən sonra Azərbaycan prezidenti İlham Əliyev Berlin şəhər meriyasına gəldi. Dövlətimizin başçısı əvvəlcə meriyanın Fəxri qonaqlar kitabını imzaladı.*

*Sonra prezident İlham Əliyev və mer Klaus Voverayt arasında görüş oldu. Berlin şəhərinin meri Azərbaycan prezidentinə meriyaya gəldiyinə görə dərin təşəkkürünü bildirdi və meriyanın fəxri qonaqlar kitabını imzalamasından çox məmnun qaldığını söylədi. O dedi ki, Azərbaycan prezidentinin Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrin yeni səviyyəyə qalxmasına təkan verəcəkdir. Mer paytaxtın inkişafı ilə bağlı həyata keçirilən və nəzərdə tutulan tədbirlərdən danışdı. Eyni zamanda bildirdi ki, Azərbaycanda*

*içməli su təchizatı ilə bağlı layihələrin həyata keçirilməsində Almaniyanın nüfuzlu şirkətləri əməkdaşlığa maraq göstərirlər.*

*Prezident İlham Əliyev Azərbaycanda həyata keçirilən iqtisadi islahatlardan, əldə olunmuş nailiyyətlərdən danışdı, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, maşınqayırma və digər sahələrdə ixtisaslaşmış alman şirkətlərini əməkdaşlığa dəvət etdi.*

*Görüşdə regiondakı vəziyyət barədə fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı bildirdi ki, hazırda ölkəmizdə regionların sosial-iqtisadi inkişafı proqramının həyata keçirilməsi nəticəsində şəhərdən kəndlərə axın başlamışdır. İndi Azərbaycanın özünün bir çox sahələrə sərmayə qoymaq imkanı var. Bununla belə, nüfuzlu alman şirkətlərinin təcrübəsindən yararlanmaq faydalı olardı.*

*Prezident İlham Əliyev Berlin şəhərinin merini ölkəmizə səfərə dəvət etdi və dəvət məmnunluqla qəbul olundu.*

## ALMANİYANIN «DEUTSCHE WELLE» TELERADİO KANALINA VERDİYİ MÜSAHİBƏ

*Berlin,*
*«Adlon Kempinski» mehmanxanası*

*15 fevral 2007-ci il*

**– ABŞ və Rusiya silahlanma və geosiyasət ilə bağlı qarşılıqlı dəlillər irəli sürürlər. Cənab Prezident, necə fikirləşirsiniz, «soyuq müharibə» yenidən başlayacaqmı?**

– Mən belə zənn etmirəm. Hesab edirəm ki, ümumiyyətlə, proseslər normal istiqamətdə cərəyan edir. Biz ABŞ və Rusiyanın bizim ölkədə əməkdaşlığını çox müsbət qiymətləndirə bilərik. Hesab edirəm ki, bu, qarşılıqlı surətdə faydalı əməkdaşlığın çox gözəl nümunəsidir. Ümid edirəm ki, iki ölkə arasındakı münasibətlərdə mövcud olan müsbət meyllər davam edəcək və bu da öz növbəsində Qafqazda daha da proqnozlaşdırıla bilən vəziyyətin yaranmasına gətirib çıxaracaqdır.

**– Zənnimcə, Azərbaycan müxtəlif dünyalar arasında yerləşən bir ölkədir. Sizin üçün MDB-də fəal iştirak etmək Qərb ilə yaxşı münasibətlərə malik olmaq qədər vacibdir. Şəxsən Sizin üçün nə daha önəmlidir, Moskva ilə yaxşı münasibətlərə malik olmaq, yoxsa Avropa strukturları və təsisatlarına uyğunlaşmaq?**

– Prezident kimi, şəxsən mənim üçün ən önəmlisi Azərbaycanın müstəqilliyini gücləndirmək, ölkəmizdə daha yaxşı şərait, yaşayış səviyyəsi, ən sabit vəziyyət, iqtisadi rifah bərqərar etməkdir. Buna görə də qonşularımız, Avropa, ABŞ ilə münasibətlərimiz çox müsbət istiqamətdə inkişaf

edir. Bizim təcrübəmiz göstərir ki, qonşularla güclü inteqrasiya şəraitində yaşamaq və aparıcı beynəlxalq təşkilatlarla çox yaxşı münasibətlərə malik olmaq mümkündür. Bu baxımdan biz hər hansı geosiyasi seçim qarşısında deyilik. Biz xalqımız, millətimiz üçün düzgün olanı edirik və Azərbaycanın iqtisadi inkişafı, çox sürətli iqtisadi inkişafı – ikinci ildir ki, ölkəmiz ümumi daxili məhsulun artımına görə dünyada birinci yeri tutur – və siyasi sabitlik göstərir ki, seçimimiz düzgündür. Yenə deyirəm, Azərbaycan öz qonşuları ilə birlikdə çox mühüm transmilli enerji və nəqliyyat layihələrinin iştirakçısıdır. Ölkəmiz Avropa İttifaqı ilə yaxın qonşuluğa dair beşillik proqrama daxil olmuşdur. Biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalamışıq. Rusiya və ABŞ ilə çox yaxşı münasibətlərimiz var.

**– Xəzər dənizi neft ilə zəngindir və Bakıdan Türkiyənin Ceyhan limanına boru kəməri inşa edilmişdir. Bütün bunlar sizi ən çox istənilən tərəfdaşa çevirdiyinə görə, qorxmursunuz ki, Qərblə, yoxsa Şərqlə olmağınız barədə qərar çıxarmalısınız?**

– Əslində, biz bütün enerji layihələrimizi başa çatdırmışıq. İki boru kəməri inşa etmişik – birincisi Bakıdan Ceyhana neft kəməri və ikincisi Bakıdan Ərzuruma qaz kəməri. Hər iki boru kəməri Gürcüstandan keçir. Beləliklə, bizim neftimiz və qazımızın artıq Avropa və dünya bazarlarına çıxışı var. Bu layihələr texniki, siyasi baxımdan çox çətin idi və iri həcmdə maliyyə tələb edirdi. Biz bunu etməyi bacardıq, baxmayaraq ki, bir çoxları mövcud geosiyasi məkanda bunun mümkün olmayacağını düşünürdülər. Həmin layihələri xarici şirkətlər, beynəlxalq maliyyə qurumları ilə tərəfdaşlıq şəraitində və ABŞ hökumətinin güclü dəstəyi sayəsində həyata keçirdik. Bu boru kəmərləri kiminsə əleyhinə yönəldilməmişdir. Onlar regional əməkdaşlığa, təhlükəsizliyə, Azərbaycan xalqının rifahına xidmət edir. Hazırda biz başqa bir beynəlxalq layihə – Asiya ilə Avropanı Azərbay-

can vasitəsilə birləşdirəcək dəmir yolu layihəsi üzərində çalışırıq. Artıq bu məqsədlə böyük maliyyə vəsaiti ayırmışıq və ümid edirik ki, iki ildən sonra yük və sərnişinlərin bu xətt vasitəsilə qatarlarla Çindən Avropaya daşınması mümkün olacaqdır. Bütün bunlar onu göstərir ki, biz hər hansı regional rəqabətdən əziyyət çəkmirik. Mən həmişə demişəm ki, Azərbaycan özünü təmin etməyə qadir bir ölkədir, biz müstəqil siyasət həyata keçiririk. Biz istər Rusiya, istər Avropa İttifaqı, istərsə də ABŞ ilə əməkdaşlıq edəndə özümüzü eyni dərəcədə rahat hiss edirik. Burada bizim üçün seçim məsələsi yoxdur, milli maraqlar məsələsi var və bu milli maraqlar, əlbəttə ki, siyasətimizi müəyyənləşdirir.

**– NATO-ya qoşulmaqda maraqlısınızmı?**

– NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramından başlamış «Fərdi tərəfdaşlığa dair fəaliyyət planı»na qədər çox illərdir ki, əməkdaşlıq edirik. Keçən ilin noyabr ayında mən NATO-nun mənzil-qərargahında oldum və orada çox konstruktiv danışıqlar apardıq. Biz bu qurumun müxtəlif proqramlarında iştirak edirik. Ümid edirik ki, bu tərəfdaşlıq və əməkdaşlıq davam edəcəkdir. Lakin bu və ya digər beynəlxalq təşkilatda iştirak qarşılıqlı surətdə razılaşdırılmalıdır. Bu gün həm NATO, həm də bizim üçün aydındır ki, ölkəmiz buna hazır deyildir. Buna görə də biz tərəfdaşlar kimi çalışmaqda davam etməliyik. Azərbaycan NATO tərəfindən dünyanın müxtəlif yerlərində həyata keçirilən sülhməramlı əməliyyatlarda iştirak edir və biz etibarlı tərəfdaşıq. Bu tərəfdaşlıq və əməkdaşlığın sonunun nə olacağını zaman göstərəcəkdir. Mən hər şeyi qabaqcadan demək və ya bu gün real olmayan bir hədəfi qarşıya qoymaq istəməzdim. Siyasətimizi real zəminlər üzərində qurmalıyıq. Hər iki tərəf əməkdaşlığın yeni formatına hazır olduqda, bunu istədikdə və buna can atdıqda, əlbəttə ki, bu, baş verəcəkdir. Lakin bunun nə vaxt və necə olacağını zaman göstərəcəkdir.

**– ABŞ-ın rəhbərlik etdiyi koalisiyanın üzvü kimi, Azərbaycan 150-yə yaxın əsgərini İraqa göndərmişdir. İraqdakı bugünkü vəziyyəti necə qiymətləndirirsiniz?**

– Bəli, siz haqlısınız. Biz lap əvvəldən əsgərlərimizi oraya göndərmişik. Hərbi əməliyyatlar başlayan kimi, ölkəmiz ABŞ-a və koalisiya qüvvələrinə dəstək vermək qərarına gəldi. İndiyə kimi bizim əsgərlərimiz İraqda xidmət edirlər və qoşunlarını buradan çıxaran bəzi digər, hətta NATO üzvü olan ölkələrdən fərqli olaraq, ölkəmiz dəstək və İraqda sülhü bərqərar etməyə töhfə vermək səylərinin göstəricisi kimi, əsgərlərini burada saxlamaqda davam edir. Əlbəttə ki, İraqda baş verənlər bütün beynəlxalq birlik, o cümlədən bizim üçün böyük narahatlıq doğurur. Biz orada sülhün bərqərar olunmasını, baş verən zorakılığın, İraq xalqı üçün bu dəhşətli faciənin sona çatmasını istəyirik ki, beləliklə, onlar inkişaf yoluna qədəm qoysunlar. İraqda vəziyyət sabit deyil, bu hazırda hamıya, bütün beynəlxalq birliyə məlumdur. İraqda sülh və təhlükəsizliyin bərpa olunmasına töhfə vermək üçün Azərbaycan əlindən gələni edəcəkdir.

**– İran Azərbaycanın birbaşa qonşusudur. Mənim üçün maraqlıdır, Siz Tehran rəhbərliyinin nüvə proqramı ilə bağlı narahatlıq keçirirsinizmi?**

– Əlbəttə, bir qonşu və tərəfdaş kimi, biz müxtəlif potensial hadisələrin inkişafına məhəl qoymaya bilmərik. Nüvə proqramı ilə bağlı mövqeyimiz ondan ibarətdir ki, əgər bu, beynəlxalq qaydalara əsaslanıbsa, hər bir ölkə dinc məqsədlər üçün nüvə enerjisinə malik ola bilər və hər bir şey qanun, hüquqi çərçivə və bu və ya digər proqramla məşğul olan beynəlxalq təşkilatlar çərçivəsində tənzimlənməlidir. Buna görə də biz hesab edirik ki, istənilən digər ölkə kimi, İran da dinc məqsədlərlə nüvə enerjisini inkişaf etdirmək hüququna malikdir. Eyni zamanda, əgər beynəlxalq birliyin, beynəlxalq təşkilatların bu proqramla bağlı narahatlığı varsa, bu da həll olunmalıdır. Buna görə də danışıqlar konstruktiv şəkildə, dinc yolla və yaxşı ruhda aparılmalıdır ki, hər iki tərəfin

maraqları – İranın nüvə enerjisi imkanına malik olmaq marağı və məsələ ilə bağlı narahatlıq keçirən beynəlxalq birliyin, beynəlxalq təşkilatların maraqları təmin olunsun. Əlbəttə ki, bir qonşu kimi, biz hadisələrin mümkün inkişafından narahatlıq keçiririk və bütün tərəflərə təkidlə məsləhət görürük ki, problemin həllinin dinc formatına sadiq qalsınlar.

**– Beləliklə, problemin hərbi həlli yolunu Siz qəbul etmirsiniz.**

– Əlbəttə ki, yox.

**– Cənab Prezident, Dağlıq Qarabağ münaqişəsi hələ də həll edilməyib, o dondurulubdur. Münaqişəni həll etmək, Ermənistan ilə həllə nail olmaq üçün hansı addımlar atılmalıdır?**

– Danışıqların on ildən artıq bir müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz davam etməsinə baxmayaraq, biz hələ də münaqişənin sülh yolu ilə həllinə sadiqik. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozur. Onlar BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymurlar. Ermənistan Dağlıq Qarabağda və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasətini həyata keçirmişdir. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ətrafındakı yeddi rayonundan 700 min, Dağlıq Qarabağın özündən 50 min azərbaycanlı qovulmuşdur. Əvvəllər Ermənistanda yaşamış 250 min azərbaycanlı da etnik təmizləmə siyasətinə məruz qalmışdır. Xaricdən aldıqları dəstək sayəsində bunu edən ermənilər bu yaxınlarda Dağlıq Qarabağda heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan qanunsuz referendum keçirdilər. Hamı – Avropa İttifaqı, Avropa Şurası, ABŞ, Fransa, Rusiya, Türkiyə qondarma referendumu qınadı. Onlar bunu necə edə bilərdilər, etnik təmizləmə siyasətini həyata keçirib, bütün azərbaycanlıları oradan qovduqdan sonra bu qondarma referendumu necə keçirə bilərdilər?! Belə mövqe beynəlxalq davranış, beynəl-

xalq hüquq normalarına tam ziddir. Dağlıq Qarabağ Azərbaycanın ərazisidir. Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət verilməklə həll olunmalıdır. Bu, yeni və ya fövqəladə bir şey deyildir. Belə hallar dünyanın başqa bölgələrində də baş verir. Bir çox ölkələrdə milli azlıqlar yaşayır. Ola bilsin ki, yalnız Ermənistanda milli azlıq yoxdur, o monodövlətdir. Bütün digər ölkələrdə milli azlıqlar var. Ancaq milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər yaşadıqları dünyanın bütün ölkələrində öz müqəddəratlarını təyin etməyə çalışsalar nə baş verər?! Neçə yeni erməni dövləti yaranacaq?! Nə üçün onlar öz müqəddəratlarını Azərbaycanda təyin etməlidirlər?! Onların artıq Ermənistan dövləti var. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. İndi onlar başqa bir dövlət yaratmaq istəyirlər, bizim ərazimizdə, tarixi torpaqlarımızda. Sabah onlar başqa ölkələrin ərazilərində dövlət yaratmaq istəyəcəklər. Bu qəbulolunmazdır!

Bizim güzəştimiz, konstruktiv yanaşmamız ondan ibarətdir ki, on ildən artıqdır biz hələ də danışıqlar prosesindəyik, ümid edirik ki, Ermənistan rəhbərliyi özündə müdriklik və cəsarət taparaq, işğalçı qüvvələri torpaqlarımızdan çıxaracaq və öz ölkəsinin təhlükəsizliyini təmin edəcəkdir. Əks təqdirdə hadisələr gözlənilməyən məcrada cərəyan edə bilər. Bu gün Azərbaycan Ermənistandan çox güclüdür. İqtisadiyyatımız Ermənistanın iqtisadiyyatından 7 dəfə güclüdür və gələn illərdə bu 20–30 dəfə artıq ola bilər. Azərbaycan xalqının səbrinin də həddi vardır. Beləliklə, biz çox konstruktiv yanaşma təklif edirik – Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağda yaşayan ermənilərə maksimum geniş muxtariyyət verilməsi, orada yaşayan bütün insanların təhlükəsizliyinin təminatı, yurdundan didərgin düşmüş insanların

Dağlıq Qarabağa və onun ətrafındakı rayonlara qaytarılması və sülhün bərqərar edilməsi.

**– Hazırda Balkanlarda, Kosovoda ərazi bütövlüyü prinsipi pozulur. Kosovoya Dağlıq Qarabağ problemini həll etmək üçün nümunə kimi baxıla biləcəyindən ehtiyat etmirsiniz ki?**

– Bilirsiniz, hər bir münaqişənin öz tarixi və həll yolları var. Dünyada müxtəlif münaqişələr mövcuddur. Qafqazda Abxaziyada, Cənubi Osetiyada, Dağlıq Qarabağda, habelə Dnestryanı bölgədə separatçı rejimlər var. Onlar hamısı separatçı və hərbi rejimlərdir, qanunsuz zonalardır. Bu ərazilərdə heç bir beynəlxalq nəzarət, beynəlxalq monitorinq, beynəlxalq iştirak yoxdur. Ona görə də bu ərazilərdə narkotik maddələrin qanunsuz dövriyyəsi, çirkli pulların yuyulması, terrorçulara sığınacaq verilməsi halları mövcuddur. Kosovoda vəziyyət fərqlidir. Kosovo beynəlxalq nəzarət altındadır və orada beynəlxalq sülhməramlı qüvvələr var. Buna görə də biz deyə bilmərik ki, Dağlıq Qarabağda və postsovet ərazisində olan digər separatçı rejimlər kimi, Kosovo da Avropada qara yaradır. Ona görə də burada böyük fərq var. Lakin əlbəttə, ərazi bütövlüyü prinsipi belə münaqişələr həll olunan zaman əsas prinsip kimi götürülməlidir. Əgər bu prinsip pozularsa, zəncirvarı reaksiya baş verər. Hamımızın bildiyi kimi, müxtəlif ölkələrdə, Avropada, Asiyada, digər yerlərdə çoxlu milli azlıqlar yaşayır. Əgər onlar hamısı müstəqil dövlət yaratmağa başlasalar nə baş verəcək?! Bizim məlumatlara və beynəlxalq müşahidələrə əsasən hazırda Dağlıq Qarabağda 60 minə qədər insan yaşayır. Dünya xəritəsində 60 min əhalisi olan yeni xırda bir ölkənin peyda olunmasını kim istər?! Heç kəs bunu istəməz və Azərbaycan da buna razı olmayacaqdır. Ölkələrdə istənilən ərazi dəyişikliyi yalnız həmin ölkənin razılığı ilə ola bilər. Bizim halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyi ilə razılaşmasa, o heç zaman müstəqil olmayacaqdır. Beynəlxalq birlik də heç zaman Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır. Buna görə də beynəlxalq münasibətlərin əsas prin-

sipləri qorunmalıdır. Əgər bu prinsip bir dəfə pozularsa, digər prinsiplərin pozulması üçün heç bir məhdudiyyət olmayacaqdır. Bu halda beynəlxalq münasibətlərin bütün sistemi zərər çəkəcək və alt-üst olacaqdır. Nə üçün BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrin həyata keçirilməməsi məsələsi bu qədər vacibdir?! Çünki bu onu göstərir ki, mexanizm işləmir. Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi Ermənistan üçün məcburiyyət yaratmır və Ermənistan onlara məhəl qoymur. Deməli, sabah da heç kəs Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayacaqdır. BMT beynəlxalq mübahisələri və münasibətləri nizama salmaq üçün universal mexanizmdir. Əgər bu halda o işləmirsə, digər hallarda da işləməyəcək, bu isə fəlakətə gətirib çıxaracaqdır.

**– Müsahibəyə görə təşəkkür edirik.**

## ALMANİYANIN MİXAEL ZUKKOV FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞ

*15 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Almaniyanın Mixael Zukkov Fondunun prezidenti Mixael Zukkov ilə görüşmüşdür.*

*Azərbaycanda ekologiya sahəsində dövlət siyasətinin yüksək səviyyədə aparıldığını və prezident İlham Əliyev tərəfindən bu sahəyə xüsusi diqqət göstərildiyini vurğulayan Mixael Zukkov ölkəmizdə Fondun iştirakı ilə ekologiyanın və təbiətin qorunması ilə əlaqədar həyata keçirilən layihələr haqqında danışdı.*

*Azərbaycan prezidenti İlham Əliyev ekologiya məsələlərində yaxından əməkdaşlığına görə Fondun rəhbərliyinə təşəkkürünü bildirdi. Fondun Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, biz ekoloji problemlərə xüsusi fikir veririk. Bakıda və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair hökumət siyasəti həyata keçirilir və xalqımızın rifahı, genefondunun qorunması, gələcək nəsillərin sağlamlığının təmin olunması üçün konkret layihələr hazırlanır və bu işə daim diqqət göstəriləcəkdir.*

## ALMANİYANIN BİR SIRA ŞİRKƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*Berlin,*
*«Adlon Kempinski» mehmanxanası*

*15 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın «Şərqi və Mərkəzi Avropa Birliyi» Cəmiyyətinə üzv olan bir sıra şirkətlərin idarə heyətlərinin rəhbərləri və nümayəndələri ilə işçi görüşü olmuşdur. Bu Cəmiyyət Almaniyanın 15-dək nüfuzlu şirkətini birləşdirir.*

*Görüşdə «Şərqi və Mərkəzi Avropa Birliyi» Cəmiyyətinin rəhbəri, «Accumulatorenverke Hoppecke GmbH» şirkətinin idarə heyətinin sədri Klaus Ksolner onları qəbul etdiyinə görə prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi və Almaniya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyini söylədi.*

*Görüşdə Azərbaycanın indiki inkişaf səviyyəsindən istifadə olunmasının zəruriliyi, ölkəmizdə bir çox layihələrin həyata keçirildiyi vurğulanmış, bir sıra proqramların reallaşdırılması məsələsi ətrafında fikir mübadiləsi aparılmışdır. Ekoloji layihələrin icrası perspektivlərindən də söhbət getdi.*

*Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində nümunəvi ölkə olduğunu deyən Almaniya nümayəndələri bu yaxınlarda Yevlaxda maliyyələşdirdikləri layihəni başa çatdıracaqlarını, habelə bir sıra universitetlərlə əməkdaşlıq qurmaq, digər sahələr üzrə əlaqə yaratmaq istədiklərini bildirdilər.*

*Görüşdə Bakı və Sumqayıtın, ümumiyyətlə, Abşeronun ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı əməkdaşlıq barədə də faydalı müzakirələr aparıldı. Almaniyanın Kredit və*

*Yenidənqurma Bankının (KFW) idarə heyətinin üzvü Haynrix Hayms Avropanın və dünyanın digər ölkələrində də stimullaşdırıcı bank kimi fəaliyyət göstərərək, maliyyə ixracı və layihə maliyyələşdirməsi sahələrində əməkdaşlıq etdiklərini, məsləhət və digər xidmətlər göstərdiklərini bildirdi. Bankın səhmlərinin 80 faizi Almaniya hökumətinə, qalan 20 faizi federal əyalətlərə məxsusdur. Almaniyanın 10 ən iri bankından biri olan KFW 1994-cü ildən Azərbaycanda həyata keçirilən müxtəlif layihələrdə fəal iştirak edir.*

*«Euler Hermes Kreditverşixerungs AG» şirkəti də görüşdə təmsil olunurdu. Bu şirkətin əsas fəaliyyəti alman iş adamları tərəfindən xaricdə biznes fəaliyyətinin qurulması üçün əldə etdikləri kreditlərin sığortalanmasından ibarətdir.*

*60 ölkədə nümayəndəlikləri olan «ThussenKrupp Services AG» şirkəti polad və polad məmulatları, digər sənaye məhsulları istehsalı və bu sahələr üzrə xidmətlərin göstərilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biridir. Son 2-3 ildə şirkətin illik gəliri 12-13 milyard avro olmuşdur. Uçot, hesablama və konsaltinq xidmətləri və digər fəaliyyət sahəsi ilə məşğul olan «Price Vaterhous Coopers» şirkəti də Azərbaycanda çalışmaq istəyini bildirdi. «MAN Ferrostaal AG» şirkətinin təmsilçiləri də Azərbaycanla energetika, metallurgiya, neft kimyası, polad istehsalı, gəmiqayırma və sair sahələrdə əməkdaşlıq etmək arzusunda olduqlarını vurğuladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev görüşdə çıxış etdi.*

**İlham Əliyev:** Çox sağ olun. Mən sizin hamınızı görməkdən çox şadam. Sizin bəzilərinizlə biz Bakıda və burada görüşmüşdük. Hesab edirəm, bu çox gözəl bir fürsətdir ki, biz yenidən bir-birimizi görürük. Həyat davam edir, ölkələrimiz inkişaf edir.

Almaniyada 2004-cü ildə olduqdan sonra hesab edirəm, bizim planlarımız, proqramlarımız daha da artmışdır, xüsusən də enerji sahəsində bütün layihələr yerinə yetirilir. İndi isə vaxt gəlib çatıb ki, Azərbaycanın digər sahələrinə diqqət yetirək. Bizim bir çox ideyalarımız var, qəbul edilmiş çoxlu

proqramlarımız var. Burada tikinti, infrastrukturun inkişaf etdirilməsi, xidmətlər, turizm və iqtisadiyyatın digər sahələrini nəzərdə tuturuq. Təbii ki, son iki il ərzində Azərbaycanın dinamik inkişaf həcmi ümumilikdə 60 faiz təşkil etmişdir. Bu il isə təqribən 30 faiz olacaqdır. Bu o deməkdir ki, biz ümumi daxili məhsulu iki dəfə artırmış olacağıq. Bütün bunlar biznesin inkişafı və daha böyük infrastruktur layihələrin həyata keçirilməsi üçün imkanlar yaradır. Bütün bu işlərin ən vacib elementi ondan ibarətdir ki, Azərbaycanda fəaliyyət göstərən və göstərəcək bütün şirkətlər işləri ən yüksək standartlara uyğun aparmalıdırlar. Bilirik ki, sizin ölkənizdə yüksək standartlar var. Beynəlxalq standartlar artıq təsbit olunubdur. İstəyirik ki, bizim ölkəmizdə də şirkətlərimiz bu standartlara uyğun işləsin. Alman şirkətləri ilə işləmək bizə, bizim sahibkarlara çox yaxşı təcrübə verə bilər. Bu da bizim üçün daha güclü imkanlar açır.

Ümumiyyətlə, iqtisadiyyatımız neftin və qazın qiymətlərindən asılı olmayacaqdır. Bu bizim məqsədimiz, gündəliyimizdir. Bu gün artıq biz gözəçarpan maliyyə resurslarına malikik və xarici sərmayələrin cəlbini də davam etdirmək istəyirik. Ancaq bunu iqtisadiyyatda yeganə yol kimi görmürük. Artıq bizim öz resurslarımız var və bunları istifadə etmək istəyirik. Biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq, onun öz kapitalı var. Bununla bağlı büdcəmizdə xüsusi vəsaitlər var. Onlar əsasən infrastruktur – elektrik stansiyalarının, məktəblərin və xəstəxanaların tikilməsi, yolların çəkilməsi üçün ayrılacaqdır. Bütün bunlar biznes mühitinin daha da yaxşılaşdırılması üçün zəmin yaradacaq və hesab edirəm ki, bizim əməkdaşlığımız çox uğurlu olacaqdır.

Ümumiyyətlə, Almaniya ilə bizim çox yüksək səviyyədə təmaslarımız var. Bu mənim Almaniyaya ikinci rəsmi səfərimdir. Təbii ki, bizim iqtisadi sahədə də bir çox imkanlarımız var və Azərbaycanda işləmək arzusunda olan şirkətlərin də sayı çoxdur. Bu görüş həmin tərəfdaşlığın rəmzidir. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*15 fevral 2007-ci il*

### Almaniyanin Xarici İşlər naziri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Xarici İşlər naziri Frank-Valter Ştaynmayer ilə görüşmüşdür.*

*Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında siyasi, iqtisadi əməkdaşlığın səviyyəsindən məmnunluq bildirildi. Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın gələcək perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.*

*Görüşdə bir sıra regional və beynəlxalq məsələlər, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, bu problemin həlli ilə bağlı aparılan danışıqlar prosesinin vəziyyəti barədə söhbət getdi.*

### Almaniya Bundestaqının sədri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də Almaniya parlamentinin aşağı palatasının – Bundestaqın binasına gəlmişdir.*

*Prezident İlham Əliyevi binanın önündə Bundestaqın sədri Harald Rinqştorff hörmət və ehtiramla qarşıladı.*

*Bundestaqın binasında keçirilən görüşdə Azərbaycan ilə Almaniya arasında ikitərəfli münasibətlər, onların inkişaf perspektivləri, eyni zamanda, Azərbaycanın enerji sahəsindəki fəaliyyəti, Avropanın enerji təhlükəsizliyində rolu, enerji daşı-*

*yıcılarının nəqlində çoxşaxəliliyin təmin olunması barədə geniş fikir mübadiləsi aparıldı.*

## Almaniyanın sabiq Müdafiə naziri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Almaniyanın sabiq Müdafiə naziri Fölker Ruhe ilə görüşmüşdür.*

*Görüşdə Almaniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlərdən məmnunluq bildirildi, Prezidentin Almaniyaya rəsmi səfərinin əməkdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

## ALMANİYADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Berlin,*
*«Adlon Kempinski» mehmanxanası*

*15 fevral 2007-ci il*

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Artıq iki gündür ki, Berlindəyəm və mənim bütün görüşlərim çox yaxşı, çox uğurlu keçir. Bu səfər bir daha onu göstərir ki, Almaniya–Azərbaycan münasibətləri çox sürətlə inkişaf edir. Bu, son iki il yarım ərzində mənim Almaniyaya ikinci rəsmi səfərimdir və özlüyündə göstərir ki, bizim əlaqələrimiz nə qədər zəngindir. Həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə əməkdaşlığımız çox gözəl nəticələrini verməkdədir. Almaniya bizim üçün çox önəmli ölkədir, çox vacib tərəfdaşdır. Həm ikitərəfli müstəvidə, həm də Avropa İttifaqı–Azərbaycan münasibətləri çərçivələrində bizim əməkdaşlığımızın böyük əhəmiyyəti var.

Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqına inteqrasiya siyasətini uğurla davam etdirir. Biz artıq Avropa İttifaqı üçün qonşu ölkə olmuşuq və əminəm ki, beş il müddətinə nəzərdə tutulan birgə fəaliyyət planı çərçivəsində biz Avropaya daha da yaxın olacağıq. Bununla bərabər, Azərbaycanın zəngin neft-qaz ehtiyatları da Avropa və dünya bazarlarına çatdırılacaqdır. Bu məsələləri tənzimləmək üçün keçən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair memorandum imzalanmışdır. Bütün bunlar həm ölkənin əhəmiyyətini artı-

rır, həm də bizim siyasətimizi əks etdirir və bütünlükdə bizim bölgədə yeni vəziyyətin yaradılmasına gətirib çıxarır.

Artıq heç kim üçün sirr deyil ki, Azərbaycan bölgənin lider dövlətidir. Biz bu liderliyi qazanmışıq. Bizim uğurlu siyasətimiz ölkəni möhkəmləndirir, eyni zamanda, regionda gedən proseslərə də müsbət təsir göstərir. Biz regional layihələrin icrası ilə böyük uğurlar əldə etmişik. Həm energetika, həm də nəqliyyat sahəsində, bütün başqa sahələrdə regional müstəvidə biz çox önəmli təşəbbüslərin həyata keçirilməsində uğurlu siyasət aparmışıq. Bütün bunlar Azərbaycanı Avropa ilə daha da birləşdirəcəkdir. Bu bizim seçimimizdir, bizim siyasətimizdir və Avropaya inteqrasiya siyasətimizdir. Hərtərəfli əməkdaşlıq Azərbaycanın milli maraqlarına uyğundur.

Bizim ölkəmiz müstəqil siyasət aparır. Azərbaycan xalqının iradəsi bizim üçün əsasdır. Əlbəttə ki, Azərbaycanın hərtərəfli inkişafı, müasirləşməsi hər bir vətəndaşın həyatında öz müsbət təsirini göstərəcəkdir. Biz zəngin ölkəyə çevrilirik. Azərbaycanın iqtisadi inkişafı dünyada heç bir analoqu olmayan sürətlə gedir. Keçən il 34,5 faiz iqtisadi artım olubdur. Son üç il ərzində yoxsulluğun səviyyəsi kəskin şəkildə azalmış, 49 faizdən 20 faizə düşmüşdür. Əminəm ki, 2007-ci ilin yekunlarına görə yoxsulluq daha da aşağı düşəcəkdir. Məqsəd də ondan ibarətdir ki, Azərbaycanda nə yoxsul, nə də işsiz olsun və ölkə əhalisi yaxşı yaşasın. Bunu etmək üçün cəsarətli və ölkəmiz üçün lazım olan iqtisadi islahatlar aparılmalıdır və aparılır. Eyni zamanda, siyasi islahatlar da aparılmalıdır. Avropa İttifaqı ilə bizim birgə fəaliyyət proqramımızda məhz siyasi islahatlar da nəzərdə tutulur. Azərbaycanda demokratikləşmə proseslərinin sürətləndirilməsi, insan haqlarının qorunması işində böyük addımlar atılıb və bundan sonra da atılacaqdır.

Bir sözlə, müasir, iqtisadi cəhətdən özünü təmin edən, regional proseslərə təsir göstərən ölkə və açıq cəmiyyət – budur Azərbaycanın gələcəyi. Artıq siyasətimizin nəticələri də göstərir ki, biz bu istiqamətdə böyük irəliləyişə nail ola

bilmişik. Bütün bu işlərdə xaricdə yaşayan azərbaycanlıların əməyi çox əhəmiyyətlidir və dəyərlidir, onların bu işlərdə böyük rolu var. Biz çox istəyirik ki, dünyada yaşayan bütün azərbaycanlılar birləşsinlər. Həm yaşadıqları ölkələrdə onların vəziyyəti yaxşı olsun, həm də onlar öz fəaliyyətləri ilə müstəqil Azərbaycanın möhkəmlənməsində fəal rol oynasınlar. Bu baxımdan dünya azərbaycanlılarının qurultayları böyük əhəmiyyət kəsb edir. Son dəfə biz Bakıda qurultaya yığışanda və çox geniş fikir mübadiləsi aparılanda gördük ki, fəaliyyət üçün nə qədər böyük imkanlar var, Azərbaycanın imkanları nə qədər artır. Artıq Azərbaycan o ölkədir ki, öz soydaşlarını, istənilən yerdə yaşayan soydaşlarını müdafiə etmək, onlara kömək göstərmək və arxa durmaq iqtidarındadır.

Sovet İttifaqı dağılanda biz həm iqtisadi, həm də siyasi cəhətdən çox ağır vəziyyətdə idik. Biz hamımız bunu yaxşı xatırlayırıq. Faktiki olaraq, ölkənin gələcəyi şübhə altında idi. İqtisadi və siyasi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı. Ancaq cəmi 15 il keçibdir. Baxın, bu 15 il ərzində cəmiyyəti narahat edən bütün problemlər aradan qaldırıldı. Azərbaycanda siyasi sistem yarandı. Azərbaycanın tarixində heç vaxt siyasi sistem olmamışdır. Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tətbiq olundu. 1991-ci ildə Azərbaycanda özəl sektor sıfır idi. Bu gün ölkə iqtisadiyyatında özəl sektorun çəkisi 81 faizdir. Böyük neft-qaz kəmərləri, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi – bütün bunlar ölkəmizi möhkəmləndirir. Belə olan halda, əlbəttə, Azərbaycan dövləti, güclü dövlət öz soydaşlarına daha da böyük diqqət göstərməlidir və göstərir. Siz də bunu bilməlisiniz.

Mən istəyirəm ki, xaricdəki hər bir azərbaycanlı yaşadığı ölkədə özünü rahat hiss etsin, yaxşı yaşasın. Eyni zamanda, bilsin ki, onun tarixi vətəni, onun dövləti qüdrətlidir. Bax, biz bütün səyləri bu istiqamətə yönəldirik. Sirr deyil ki, xaricdə yaşayan azərbaycanlılar bizim vətənimiz üçün dayaq, arxadır. Yəqin siz də bilirsiniz ki, biz xaricdə öz diplomatik nümayəndəliklərimizi yaradırıq, onların sayını artı-

rırıq. Artıq 50 ölkədə Azərbaycanın səfirliyi fəaliyyətə başlayıb, yaxud başlayacaqdır. Avropanın, demək olar ki, bütün ölkələrində Azərbaycanın səfirlikləri yaradılır. Bunlar həmin ölkələrdə yaşayan azərbaycanlılar üçün doğma evdir. Biz ondan sonra mədəniyyət evlərinin yaradılmasına başlamalıyıq. Bu işdə xaricdə yaşayan azərbaycanlılar da iştirak etməlidirlər. Azərbaycan dövləti bu işi öz üzərinə götürməlidir, indi bizim maddi imkanlarımız var.

Bizim çevik xarici siyasətimiz ölkəmizin möhkəmlənməsinə gətirib çıxarıbdır. Baxın, biz əhali, ərazi baxımından böyük ölkə deyilik. Amma biz dünyanın aparıcı ölkələri ilə bərabər şəraitdə, bərabər səviyyədə əməkdaşlıq edirik. Avropanın bütün ölkələri ilə, digər dövlətlərlə çox yaxın münasibətlərimiz var. Yəni Azərbaycan etibarlı bir tərəfdaş kimi, artıq çox gözəl nüfuza malikdir. Biz çox istəyirik ki, beynəlxalq mövqelərimiz daha da möhkəmlənsin. Çünki bizi ən çox narahat edən problem hələ öz həllini tapmayıbdır. Ermənistanın işğalçı qüvvələri Azərbaycanın torpaqlarından hələ çıxarılmayıbdır. Baxmayaraq ki, biz bütün səyləri bu məsələnin həllinə yönəldirik və beynəlxalq təşkilatlar da bu məsələ ilə çox ciddi məşğul olur. Ona görə bu məsələni həll etmək üçün biz güclü olmalıyıq.

Bizim gücümüz hər bir azərbaycanlının gücüdür və Azərbaycan dövlətinin gücüdür. Bu həm də iqtisadi ölçülərlə müəyyən olunur və əlbəttə ki, burada siyasi məqamlar az deyildir. Xaricdə yaşayan azərbaycanlılar bizim dayağımızdır. Xüsusilə müstəqilliyimizin ilk illərində buna daha çox ehtiyac duyulurdu, çünki gənc Azərbaycan Respublikasının ehtiyacları çox idi. İndi bəlkə o qədər də böyük ehtiyac yoxdur. Ona görə ki, artıq səfirliklər var. Ancaq işləri səfirlik öz xətti ilə, diaspor, Azərbaycan təşkilatları isə öz xətti ilə görür. Mən çox istəyirəm ki, bu fəaliyyət əlaqələndirilmiş şəkildə aparılsın. Azərbaycan cəmiyyətləri səfirliklə daim əlaqədə olsunlar və birgə fəaliyyət göstərsinlər. Çünki bizim məqsədimiz də, istəyimiz də birdir – ölkəmiz möhkəmlənsin. Hər bir vətənpərvər vətəndaş, insan

bunu arzulayır. Biz öz tərəfimizdən bunu edirik. Ölkəmizin iqtisadi gücünü qaldırırıq, siyasi çəkisini artırırıq və deyə bilərəm ki, gənc, müstəqil dövlət olduğumuza baxmayaraq, biz özümüzü dünyaya artıq kifayət qədər təqdim edə bilmişik. Yəni, artıq bilirlər ki, Azərbaycan müstəqil ölkədir və öz siyasətini Azərbaycan xalqının maraqlarının ətrafında qurur. Əlbəttə, bu bizim qarşımızda yeni imkanlar yaradır.

Xaricdə yaşayan hər bir azərbaycanlı bunu hiss edir, bilir. Əminəm ki, Azərbaycanın hansısa uğurlara nail olduğunu görəndə haqlı olaraq qürur hissi keçiririk.

Biz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum transmilli layihələri həyata keçirdik. Çox ağır şəraitdə, çətin geosiyasi durumda, təzyiqlərlə, müxtəlif başqa maneələrlə üzləşərək bunu edə, öz gücümüzü nümayiş etdirə bilmişik. İndi biz yeni layihə üzərində işləyirik. Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycan vasitəsilə Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu nə deməkdir? Yəni, Azərbaycan artıq elə ölkəyə çevrilir ki, bizim iştirakımız olmadan heç bir regional layihə həyata keçirilə bilməz. Bu nəyə gətirib çıxaracaq? Əlbəttə ki, iqtisadi məsələlərin həllinə. Büdcəmizə daha da çox pul gələcək və bizim siyasi çəkimiz artacaqdır. Belə olan halda istənilən məsələ öz həllini tapa bilər.

Yəqin bilirsiniz, mən çalışıram ki, bütün xarici səfərlərdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşüm, onlara öz münasibətimi, dəstəyimi bildirim. Həmişə səfirliklərə də göstəriş verirəm ki, – bütün ölkələrdə Azərbaycan diasporları var – daim əlaqədə olsunlar, kömək etsinlər, çətin anlarda həmişə əl uzatsınlar. İndi bizim buna imkanlarımız çatır, bunu etməliyik. Biz xaricdə yaşayan hər bir azərbaycanlını qorumalıyıq. Onun problemi olanda ilk növbədə səfirliyə müraciət etməlidir və bilməlidir ki, Azərbaycan dövləti onu darda qoymamalıdır.

Mənim sizə deyəcəyim əsas sözlər bunlardır. Bir daha deyə bilərəm ki, siz də Azərbaycanda olursunuz, vəziyyətlə də tanışsınız. Yəni siz də ölkəmizdə gedən prosesləri izləyir-

siniz, görürsünüz. Bizim ölkəmiz iqtisadi, siyasi cəhətdən və biznes mühitinə görə regionun mərkəzinə çevrilibdir. Mən çox istəyirəm ki, indi Azərbaycanda ən qabaqcıl texnologiyalar, xüsusilə təhsil, informasiya-kommunikasiya sahəsində texnologiyalar tətbiq olunsun. Biz artıq bu barədə dünyanın aparıcı şirkətləri ilə danışıqlar aparırıq.

Yəqin bilirsiniz ki, biz indi yeni proqram qəbul etmişik. Gənclərimizi xaricə göndərəcəyik ki, onlar Avropanın, dünyanın aparıcı təhsil ocaqlarında yaxşı təhsil alsınlar. Biz məktəblərdə internet sistemini yaradırıq. Nə üçün? Çünki bizim uşaqlarımız savadlı, bilikli olsunlar. Dünyanı bilik idarə edəcək və bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Biz buna hazır olmalıyıq. Bizim iqtisadi gücümüz var, təbii sərvətlərimiz var. Bu təbii sərvətləri Avropaya, dünyaya çatdırmaqla öz siyasi gücümüzü artırırıq. İndi bölgədə möhkəm mövqeyimiz var. Elə etməliyik ki, bizim insanlarımız savadlı, bilikli olsunlar, dünyaya açıq olsunlar, bilsinlər ki, nələr baş verir və inteqrasiya olunsunlar. Biz Avropa ilə daha çox inteqrasiya etməliyik. Mən inteqrasiya deyəndə, təkcə dövlət xətti ilə olan hansısa məsələləri nəzərdə tutmuram. Bu öz yerində, bu, ümumi çərçivədir. Azərbaycan «Yeni qonşuluq siyasəti»nə dair sənəd imzalayıbdır. Orada kifayət qədər müxtəlif məqamlar var ki, beş il ərzində bizi Avropa ilə daha da sıx birləşdirəcəkdir. Amma inteqrasiya eyni zamanda, fərdi qaydada olmalıdır. Bunu etmək üçün Avropada, misal üçün Almaniyada yaşayan azərbaycanlılar da çox fəal olmalıdırlar.

Vətənlə əlaqə daim olmalıdır. Bu, təbii bir prosesdir. Xüsusilə nəqliyyat problemləri də həll olunduğu indiki şəraitdə. İndi çoxlu yeni təyyarələr alınır. Azərbaycanın hava yolları şirkəti bölgənin aparıcı şirkətinə çevriləcək və müxtəlif istiqamətlərdə uçuşlar olacaqdır. Biznes marağı artır. Bu gün mənim Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşüm olubdur. Sabah da biznes forumunda olacağam. Mən onları da Azərbaycana işləməyə sövq edirəm. Bütün bunlar iqtisadi əsaslarla idarə olunan məsələlərdir.

Əlbəttə, bütün bunlarla yanaşı, mənəvi əlaqələr də olmalıdır. Biz, azərbaycanlılar elə millətik ki, harada yaşamağımızdan asılı olmayaraq, istənilən yerdə öz milli ənənələrimizi qoruyuruq, saxlayırıq. Uşaqlarımızı milli ruhda böyüdürük. Əgər tarixə baxsaq görərik ki, əsrlər boyu müstəqillikdən məhrum olmuşuq, müxtəlif ölkələrin tərkibində yaşamışıq. Amma öz milli ənənələrimizi saxlamışıq. Nəyə görə, nəyin hesabına? İlk növbədə, ana dili. Bu bizi millət kimi saxlayıbdır. İkinci tərəfdən, bizim ədəbiyyatımız, musiqimiz, mədəniyyətimiz. Bunlar olmasaydı, indi müstəqil ölkə kimi yaşamaq bizə çox çətin olardı. Bu bizi bir millət kimi saxladı, qorudu. İndi isə biz müstəqilik. Hər bir xalq üçün bundan böyük xoşbəxtlik ola bilməz. Vətənlə əlaqələr, xüsusilə mənəvi əlaqələr olmalıdır. Bəlkə də bu sizə daha çox lazımdır, nəinki hansısa başqa bir məsələ. Bunu təmin etmək üçün kifayət qədər imkanlar var və daha da çox olacaqdır. Biz indi bu sahəyə böyük diqqət göstəririk.

Müxtəlif ölkələrdə Azərbaycan günləri keçirəcəyik. Azərbaycanın mədəniyyət və incəsənət nümayəndələrinin səfərləri, rəssamların sərgiləri təşkil olunur və bunları genişləndirmək üçün əlavə tədbirlər görülür. Bu həm xaricdə yaşayan azərbaycanlılar üçün lazımdır ki, mənəvi bağlılıq itməsin, həm də ölkəmizi təqdim etməliyik. Bəzi hallarda Avropada bilmirlər ki, Azərbaycanda hansı proseslər gedir. Yaxud da buraya yanlış məlumat ötürülür. Amma Azərbaycana gələndə, vəziyyətlə tanış olanda görürlər ki, bu tamamilə başqa bir mənzərədir. Güclü iqtisadiyyat, açıq cəmiyyət, dözümlü insanlar, ən yüksək səviyyədə tolerantlıq var, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Ölkəmizi daha çox təqdim etməliyik, onu təbliğ etməliyik ki, bizi olduğu kimi tanısınlar.

Mən çox danışa bilərəm. Çünki bu görüş mənim üçün çox əhəmiyyətlidir. Bakıda və Azərbaycanın müxtəlif rayonlarında görüşlərim çox olur və onlar çox böyük əhəmiyyət kəsb edir. Amma sizinlə görüş tamamilə başqadır. Çünki siz və-

təndən kənarda yaşayırsınız. Sizin üçün yəqin ki, vətəndən gələn hər bir insanla görüşmək vacibdir. Mənim üçün də. Siz gözəl ölkədə yaşayırsınız, inkişaf etmiş ölkədə yaşayırsınız. Amma əminəm ki, sizin ürəyiniz Azərbaycandadır. Əminəm ki, siz bu fikirlərlə, duyğularla yaşayırsınız və çox istəyirsiniz ki, bizim ölkəmiz tərəqqi etsin, inkişaf etmiş ölkələrin sırasına daxil olsun. Biz də bunu edəcəyik. Çünki bizim intellektual potensialımız güclüdür.

Ölkənin çox düşünülmüş və məqsədyönlü inkişaf strategiyası var. Aparıcı dövlətlərlə işbirliyimiz də möhkəmlənir. Azərbaycanda neftdən əldə olunan gəlirlər ədalətli şəkildə bölünür. Əgər belə olmasaydı, üç ildə yoxsulların sayı 49 faizdən 20 faizə düşməzdi. Mənim üçün ən böyük göstərici budur. Ümumi daxili məhsulun artımı 34,5 faizdir. Mən bunu çox böyük qürur hissi ilə qeyd edirəm. Çünki bu baxımdan biz dünyada birinci yerdəyik. Özü də bir il yox, iki il dalbadal. Amma mənim üçün bundan daha önəmlisi yoxsulların sayının azalmasıdır. Yəni bizim neft strategiyamız insanların həyat səviyyəsinin yaxşılaşmasına gətirib çıxarır. Yenə deyirəm, üç il əvvəl Azərbaycanda əhalinin 49 faizi yoxsul idi, indi 20 faizdir. Əminəm ki, ölkə inkişaf etdikcə, bu faiz daha da aşağı düşəcəkdir.

Bir daha demək istəyirəm ki, mənim sizə sözlərim çoxdur. Amma iş qrafikim bir az gərgindir. Ona görə vaxtınızı çox almaq istəmirəm. Burada çıxış etmək istəyənlər də var. İstəyirəm onlara imkan yaradım ki, öz sözlərini desinlər.

*Görüşdə Avropa Azərbaycanlıları Konqresinin sədri Bahəddin Kaya, Avropa–Azərbaycan Mərkəzinin sədri Başar Kömür, Almaniyada yaşayan bəstəkar, Bax mükafatı laureatı Arif Mirzəyev, Alman–Azərbaycan forumunun üzvü Samirə İsmayılova, Alman–Azərbaycan forumu sədrinin müavini, Köln Universitetinin professoru Rza Talibi Dəryanı çıxış etdilər.*

## YEKUN NİTQİ

Sağ olun. Biz də bütün bu işləri bundan sonra daha da sistemli şəkildə quracağıq. İndi bu məqsədlərə vəsait də ayırırıq. Dövlət büdcəsində bu məqsədlər üçün vəsait nəzərdə tutulur ki, Azərbaycanın müstəqil ölkə kimi yaşaması və uğurları geniş mənada dünya ictimaiyyətinə bəlli olsun. Hələ ki, bu belə deyildir. Siz də qeyd edirsiniz, mən də bunu görürəm. Bakıya xaricdən ilk dəfə gələn qonaq bilmir ki, Azərbaycan nədir. Təsəvvür tamamilə başqadır və yaxud da kifayət qədər deyildir. Ancaq Avropanın hər bir vətəndaşı Azərbaycana gələ bilməz. Ona görə biz burada, Avropada özümüzü daha da çox tanıtmalıyıq. Ona görə bu məsələnin maliyyə tərəfinə, əlbəttə ki, biz baxacağıq. Ancaq eyni zamanda, çox vacibdir ki, burada fəaliyyət güclü olsun. Yəni siz də fəal olasınız və dediyiniz bütün bu məsələləri biz birlikdə həll edək.

Biz haqlıyıq və Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsi ilə məşğul olanlar da artıq bilirlər ki, günahkar kimdir və münaqişənin qurbanı kimdir. Artıq bu məsələ gündəlikdədir. Sadəcə olaraq, daha da fəal olmalıyıq, təbliğatımızı daha da güclü aparmalıyıq. Xüsusilə nəzərə alsaq ki, bizim təbliğatımız həqiqət əsasında qurulur, Ermənistan təbliğatı isə yalan üzərində qurulur. Əlbəttə ki, Azərbaycan dövləti bu işlərdə fəal iştirak edəcəkdir.

İndi bizim proqramlarımızda yeni kitabların nəşri, onların xarici dillərə tərcüməsi vardır. Bəzi hallarda tarixi əks etdirən kitablar Azərbaycan dilində yazılır. Biz onsuz da Azərbaycanda bunları bilirik. Bizə lazımdır ki, bunu dünyada bilsinlər. Kitablar ingilis, alman, fransız dillərinə və başqa dillərə tərcümə olunmalıdır. İnternet vasitəsilə bu məlumatlar ötürülməlidir. Ona görə mən çıxışımın əvvəlində

dedim ki, biz hamımız – Azərbaycan dövləti, Xarici İşlər Nazirliyi və onun xaricdəki nümayəndələri, Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi və diaspor təşkilatları bu məsələdə vahid siyasət aparmalıyıq. Qurultayın da məqsədi məhz ondan ibarət idi ki, hamımız yığışaq, bu məsələləri birlikdə həll edək. İndi bütün bu işlər məqsədyönlü şəkildə aparılmalıdır. Mən çox şadam ki, burada, Almaniyada da belə güclü fəallıq var. Əminəm ki, bu fəallıq davam etsə, biz çox işlərə nail olacağıq.

İndi isə mən başqa görüşlərə getməliyəm. Mən sizə bir daha öz hörmətimi ifadə etmək istəyirəm, uğurlar arzulayıram. Arzu edirəm ki, sizin həyatınızda hər şey yaxşı olsun və həmişə doğma Vətəninizlə əlaqədə olasınız. Sağ olun.

*Görüşün sonunda Berlin Universitetinin magistri Maisə Əliyeva və digər soydaşlarımız dövlətimizin başçısına yaxınlaşaraq, onlara göstərdiyi diqqət və qayğıya görə təşəkkür etdilər, azərbaycanlı tələbələrin xaricdə təhsil alması barədə prezidentin imzaladığı Sərəncamı yüksək qiymətləndirdilər.*

# ALMANİYANIN KONRAD ADENAUER FONDU TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ «AZƏRBAYCAN XXI ƏSRDƏ – İNKİŞAF VƏ PERSPEKTİVLƏR» MÖVZUSUNDA GENİŞ MÜZAKİRƏLƏRDƏ NİTQ

*Berlin,*
*«Adlon Kempinski» mehmanxanası*

*15 fevral 2007-ci il*

*Fondun Baş katibi Vilhelm Ştaudaxer görüşü açaraq Azərbaycan prezidentinə bu mötəbər tədbirdə iştirak etdiyinə görə minnətdarlığını bildirdi və fondun fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, müstəqil ictimai-siyasi təşkilat olan Fond 40 ildən çoxdur fəaliyyət göstərir, Avropada ümumi anlaşmaya və qarşılıqlı əməkdaşlığa yardım edir, siyasi fəaliyyətə dair elmi təhlillər aparır, siyasi maarifləndirmə, istedadlı gənc alimlərə təqaüdlərin verilməsi ilə məşğuldur. Fondun beynəlxalq əlaqələr şöbəsi vardır, Avropada, ABŞ-da proqramlar reallaşdırır, Almaniyada peşəkar beynəlxalq seminarlar keçirir, müxtəlif ölkələrin beynəlxalq səviyyəli rəhbərlərini informasiya proqramları ilə təmin edir. Fondun 61 ölkədə 63 əməkdaşı fəaliyyət göstərir. Hazırda fond 230 layihəni reallaşdırır.*

*Fondun Baş katibi müzakirələrdə Almaniyanın elm, mədəniyyət, siyasət, iqtisadiyyat və digər sahələrinin 400-dən çox nüfuzlu təmsilçisinin iştirak etdiyini bildirdi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev geniş nitq söylədi.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən bizimlə görüşə gəldiyinizə görə sizin hamınıza minnətdarlığımı bildirirəm. Hesab edirəm ki, bu,

ölkəmizdə gedən prosesləri, əldə edilən nailiyyətləri və gələcək perspektivləri müzakirə etmək üçün yaxşı bir imkandır. Mən ölkəmiz və onun əhəmiyyəti haqqında deyilmiş xoş sözlərə, o cümlədən Azərbaycanın önəminə Avropadakı marağın artmasına çox məmnunam.

Bizim ölkəmizin böyük mədəniyyəti, tarixi və zəngin ənənələri var. Lakin müstəqil ölkə olaraq, beynəlxalq ictimaiyyətin bir üzvü kimi, biz sadəcə, 15 ildir yaşayırıq. Həmin illər müstəqilliyimiz və suveren inkişafımız üçün olduqca vacibdir. Çünki Sovet İttifaqı dağıldıqdan sonra biz müstəqillik əldə etdikdə, demək olar ki, ölkəmiz keçmiş sovet respublikaları arasında ən ağır vəziyyətdə idi. Bunu digər ölkələrlə müqayisə edərək demək olar. Biz tam iqtisadi böhran və tənəzzül içərisində idik. Bu, vətəndaş müharibəsi və siyasi böhranla müşayiət edilirdi. Bütün zavodlar dayanmışdı, istehsal yox idi. Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz bütün problemləri daha da kəskinləşdirirdi. Belə bir vəziyyətdə müstəqilliyimizin gələcəyi sual altında idi. Lakin bizim prezidentimiz Heydər Əliyevin siyasəti sayəsində bütün çətinliklər artıq keçmişdə qaldı. Biz iqtisadi tənəzzüldən iqtisadi artıma, siyasi böhrandan siyasi sabitliyə gəldik və bu çox qısa tarixi müddət ərzində baş verdi.

Müstəqillik qazandığımız zaman Azərbaycanda özəl sektor yox idi. İndi isə ölkənin iqtisadiyyatında özəl sektorun rolu durmadan artır. Bizim özəl sektorun ümumi daxili məhsuldakı payı 81 faizdir. Ölkəmizdəki indiki siyasi sistem bizim tariximizdə əvvəllər heç zaman olmamışdır. Bu gün Azərbaycanda bütün təsisatlar var və ölkəmiz fəal surətdə Avropa təsisatlarına inteqrasiya olunur. Hazırda biz Avropa İttifaqı ilə əməkdaşlıq edirik və bu əməkdaşlıq «Yeni qonşuluq siyasəti» çərçivəsində aparılır. Biz nüfuzlu beynəlxalq təşkilatlarla çox möhkəm münasibətlər qurmuşuq və ölkəmizdə siyasi islahatlar, demokratikləşmə güclü iqtisadi siyasətlə müşayiət olunur. Hazırda biz iqtisadi artım tempinə görə dünyada birinci yeri tuturuq. Qeyd edildiyi kimi, 2005-ci ildə ümumi daxili məhsul 26 faiz artmışdır. 2006-cı ildə bu

artım 34,5 faiz təşkil etmişdir. Bu il də artım, ola bilsin ki, eyni səviyyədə saxlanılacaqdır.

Adətən, keçid dövrünü yaşayan, bir siyasi sistemdən digər sistemə keçən ölkələr çətinliklərlə üzləşir. Çünki bu, sosial problemlərin artması ilə bağlıdır. Sovet İttifaqının süqutundan dərhal sonra əhalinin əksəriyyəti yoxsul vəziyyətə düşdü. Biz ölkəmizdə olduqca cəsarətli iqtisadi islahatlar aparmalı idik. Lakin eyni zamanda, bunu aparmaqla biz yoxsulluğun yayılmasının qarşısını almalı olduq.

Düşünürəm ki, əldə etdiyimiz nailiyyətlərdən ən əsası ümumi daxili məhsulun artımı və yaxud digər iqtisadi göstəricilər deyil, Azərbaycanda yoxsulluğun azaldılmasıdır. Çünki bizim bu sahədə siyasətimiz nəticəsində yoxsulluğun səviyyəsi 2003-cü ildəki 49 faizdən 2006-cı ildə 20 faizə qədər azaldılmışdır. Biz gələn bir neçə il ərzində bunu daha da aşağı salacaq və ümumiyyətlə, yoxsulluğu aradan qaldıracağıq. Eyni zamanda, bu proses yeni iş yerlərinin açılması ilə müşayiət olunur. Son üç il ərzində Azərbaycanda 520 min yeni iş yeri açılmışdır və bunun çoxu qeyri-neft sektorunda yaradılmışdır. Bu əsasən, regionlarda baş vermişdir. Qeyd etmək istərdim ki, neft hasil edən, neft bazarında özü üçün daha geniş yer tutan ölkə kimi, çoxşaxəli iqtisadiyyatın olması bizim üçün olduqca vacibdir. Biz bəzi neft hasil edən ölkələrin mənfi təcrübəsini təkrarlamaq istəmirik. Yəni orada insanların bir qismi daha da zənginləşir, qalan hissəsi isə daha da kasıb vəziyyətə düşür. Ona görə biz neft sərvətini insan kapitalına çevirmək istəyirik. Yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və iqtisadiyyatın şaxələndirilməsi bugünkü Azərbaycanın reallığını təşkil edir. Yəni 10 il bundan əvvəl heç təsəvvür etmək mümkün deyildi ki, bizim ölkədə bu baş verəcəkdir. Amma indi bu reallıqdır.

Mən burada istehsalla bağlı bir çox iqtisadi göstəricilər barədə rəqəmləri misal gətirə bilərəm. Amma sadəcə, bununla sizin vaxtınızı almaq istəmirəm. Bu gün Azərbaycanda iqtisadi və siyasi islahatlara çoxmilyardlıq sərmayələr yatırıl-

mışdır, ölkəmiz olduqca dinamik surətdə inkişaf edir. Biz enerji sektorunda güclü siyasət həyata keçiririk. Azərbaycan iqtisadiyyatına son 10 il ərzində 30 milyarddan çox sərmayə yatırılmışdır. Eyni zamanda, biz olduqca əlverişli sərmayə mühiti yaratmışıq. Bizim ölkəmiz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə keçmiş Sovet İttifaqı və Mərkəzi Avropa ölkələri arasında ilkin yerlərdən birini tutur.

Sərmayədarları əsasən enerji sektoruna cəlb etmişik. Biz qeyri-neft sektoruna da diqqət yetiririk. Bu bizə eyni zamanda, özümüzü təqdim etmək, xarici şirkətlər və banklar qarşısında daha etibarlı tərəfdaşa çevrilmək imkanını yaratdı. Artıq beynəlxalq səviyyədə zəngin təcrübə əldə etmişik, ölkəmizin nüfuzu daim artmaqdadır, bu gün iqtisadiyyatın müxtəlif sektorlarına çoxmilyardlıq kreditlər cəlb edə bilərik və bunu edirik. İlkin neft hasilatından gəlirlər əldə etdikdən dərhal sonra Dövlət Neft Fondunu təsis etmişik və həmin vəsaitlər hazırda Neft Fonduna yığılır. Ölkəmizin hər bir vətəndaşı bu gəlirlərin nə səviyyədə olduğunu bilir və bunlar beynəlxalq auditorlar tərəfindən yoxlanılır və mütəmadi olaraq hesabatlar çap edilir.

Eyni zamanda, biz hasilat sənayesi sahəsində şəffaflıq təşəbbüsünə də qoşulmuşuq və demək olar ki, enerji layihələrindən əldə olunan gəlirləri gizlətmək və yaxud da bəyan etməmək mümkün deyildir. Bu, etimad yaradır, əhali arasında hökumətə inamı artırır. Eyni zamanda, Neft Fondundan gəlirlərin xərclənməsi yalnız büdcə vasitəsilə, yəni nə qədər və nə məqsədlə sərf edilməsi ilə bağlı qərarı Milli Məclis qəbul edir və bu yolla qərarların qəbul edilməsində xalq da iştirak edir.

Sosial problemlər yaşanan ölkələrdə iqtisadi islahatlar aparmaqla yanaşı, ehtiyac içərisində yaşayan insanlara yardım göstərmək də olduqca vacibdir. Bizim olduqca güclü sosial siyasətimiz var, ildə ən azı iki dəfə pensiyaları, əmək haqlarını artırırıq. Əhalimiz, xalqımız ilbəil daha yaxşı yaşayır. Beləliklə, bizim enerji siyasətimiz digər sektorların da

inkişafı və iqtisadiyyatın daha da şaxələndirilməsi və infrastruktura sərmayələrin yatırılması üçün yaxşı imkan yaradır. Hazırda Azərbaycanda infrastruktur layihə çox sürətlə inkişaf edir.

Eyni vaxtda bir neçə elektrik stansiyası tikilir, şəhər və kəndlərə yollar çəkilir, magistral yollar salınır, xəstəxanalar, məktəblər inşa edilir. Son iki-üç il ərzində ölkədə 500-dən çox məktəb tikilmişdir. Hazırda onların hamısının internetə çıxışı var və buna görə də məktəbdəki gənclərimiz bu fürsətdən istifadə edərək, dünyada gedən hadisələri izləyirlər. Uzunmüddətli perspektivdə bizim uğurlu gələcəyimizi neft və qaz deyil, məhz bu istiqamətlər – təhsil və peşəkarlıq müəyyən edəcəkdir. Eyni zamanda, mənfi təcrübəni də öyrənirik ki, bunu təkrarlamayaq. İnkişaf etmiş ölkələr buna necə başlamışdır? Hesab edirik ki, onların bir çoxu sıfırdan başlamışdır. Sizin ölkəniz, Almaniya son bir neçə onilliklər ərzində əhəmiyyətli uğurları məhz güclü siyasət, həmin siyasətə əhalinin verdiyi dəstək sayəsində və müasir texnologiyalar nəticəsində əldə etmişdir. Ümumiyyətlə, texnologiyalar hər bir ölkənin uğurunu təmin edir. Ona görə təhsil, yeni texnologiyalar və Avroatlantik məkanına inteqrasiya – bütün bunlar bizim üçün prioritetlərdir. Bütün bu sahələrdə irəliləyişə nail olmaqdayıq. Biz ilkin olaraq, xarici şirkətləri Xəzər dənizinə dəvət etdik – ondan əvvəl Xəzər dənizi xaricilər üçün bağlı idi – sərmayələri cəlb etdik, neft hasil etməyə başladıq. Boru kəmərlərini çox çətin, mürəkkəb coğrafi və geosiyasi şəraitdə çəkməyə nail olduq. İndi Azərbaycanda hasil olunan neft böyük həcmdə Aralıq dənizi və Qara dəniz vasitəsilə dünya bazarlarına çıxarılır. Bu məqsəd üçün üç boru kəməri mövcuddur. Eyni zamanda, bir trilyon kubmetrdən çox qaz ehtiyatı olan «Şahdəniz» yatağını aşkar etdikdən sonra Azərbaycan dərhal Bakıdan Qərb istiqamətində qaz kəmərinin çəkilməsinə də başladı.

Bu günlərdə Avropaya qaz boru kəmərinin tikintisi artıq başa çatdırılıb. Ola bilsin, gələn aylar ərzində biz daha çox

qaz hasil edəcək, öz qonşularımız və Avropa üçün potensial təchizatçı ölkəyə çevriləcəyik.

Keçən ilin noyabrında biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında anlaşma memorandumunu imzaladıq. Bu həmin istiqamətdə atılan ilkin addımdır. Gələcəkdə əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Etibarlı tərəfdaş, xarici ölkələrin əminliklə əməkdaşlıq etdiyi ölkə kimi, biz müqavilələri parlamentdə ratifikasiya edirik ki, onların həyata keçirilməsi üçün təminat yaransın. Biz bu cür mühiti yarada bilmişik.

İndi biz inkişafımızın yeni mərhələsindəyik. Qeyri-neft sektorunun müxtəlif sahələrinə sərmayələr qoyuruq. Artıq bunun həyata keçirilməsi üçün özümüzün maliyyə gücümüz var. Biz kifayət qədər kapitala malik olan Dövlət Sərmayə Şirkətini yaratmışıq. Hazırda yerli və xarici şirkətləri dəvət edirik ki, onlar qeyri-neft sektoruna sərmayələr qoysunlar və iqtisadiyyat şaxələndirilsin. Bu, daxildə bizim iqtisadi prioritetlərimizi təşkil edir. Eyni zamanda, enerji sahəsinə gəldikdə, dünyada dəyişən şəraiti nəzərə alaraq, biz ənənəvi tərəfdaşlarımızla gələcək planlarımız naminə işləyirik. Biz Bakıdan Aralıq dənizinə neft boru kəmərini, eyni zamanda, Türkiyəyə və oradan Avropaya qaz boru kəmərini çəkəndə enerji məsələləri dünya siyasətində vacib yer tutmurdu. İndi isə vəziyyət dəyişir. Hazırda enerji siyasi qərarların qəbul edilməsində əsas yer tutur. İndi isə bu, fəal şəkildə, istər istehsalçılar, tranzit ölkələr və istərsə də bəzən istehlakçılar tərəfindən siyasi məqsədlər üçün istifadə olunur. Ona görə biz özümüzü dəyişən dünyaya uyğunlaşdırmalıyıq. Biz yeni layihələri irəli sürürük.

Hazırda biz regionda Türkiyə–Gürcüstan–Azərbaycan arasında dəmir yolu xəttinin tikintisinə başlamışıq və daha sonra Avropaya çıxış əldə edəcəyik. Bundan sonra iki il ərzində uğur əldə etsək – və mən əminəm ki, bu belə də olacaq – biz malların Asiyadan ölkəmizin ərazisi vasitəsilə Avropaya daşınmasında tranzit ölkəyə çevriləcəyik. Biz regional nəqliyyat qov-

şağına çevrilmək məqsədi ilə nəqliyyat infrastrukturu layihələrinə böyük sərmayələr qoyuruq və bu istiqamətdə artıq böyük işlər görmüşük. Bu bizim qarşımızda duran yeni çağırışlardır.

Birmənalı olaraq, enerji ehtiyatlarımızın mövcudluğu bizə böyük üstünlüklər verir. Bizim qarşımızda duran çətin vəzifə çox riskli hesab olunan ölkəyə sərmayələri cəlb etmək, iki ölkədən və bəlkə də daha çox yerlərdən keçən və o qədər də asan hesab olunmayan boru kəmərini çəkmək, bu regionda sülhü qorumaq, öz siyasətimizi həyata keçirmək və müstəqilliyimizi qoruyub saxlamaqdan ibarət idi. Bu gün bizim qarşımızda duran vəzifələr yüz faiz uğurla yerinə yetirilib, başa çatdırılıbdır.

Artıq biz enerji, daşıma, siyasi islahatlar və əməkdaşlıq sahələrində yeni mərhələyə qədəm qoyuruq. Bizim uğurumuzun vacib elementi ölkədə siyasi sabitliyin olmasıdır. Əgər hökumət ilə xalq arasında birliyə nail olmasaydıq, uğur mümkün olmazdı. Siyasi sabitlik və proqnozlaşdırma uğura aparan əsas amillərdir. Əgər biz dünyanın müxtəlif guşələrində və öz mühitimizdə uzun və qısa tarixə nəzər salsaq görərik ki, sabitlik olmayan yerdə dərhal iqtisadi tənəzzül müşahidə edilir, problemlər üzə çıxır, ölkənin müstəqilliyini qoruyub saxlamaq imkanları məhdudlaşır. Bizim bu sahədə gördüyümüz işlər siyasi islahatların aparılmasına, iqtisadi vəziyyətin dəyişdirilməsinə və beynəlxalq təşkilatlarla yeni formatda əməkdaşlığın qurulmasına imkan yaratdı.

Bu bizim seçimimizdir. Azərbaycanın seçimi ondan ibarət idi ki, Avroatlantik strukturlarına inteqrasiya olunsun və indi biz bu istiqamətdə NATO ilə tərəfdaşlığımızda nəzərəçarpan irəliləyiş əldə etmişik. Biz «Fərdi tərəfdaşlığa dair fəaliyyət planı»nı imzalamışıq. Altı ildən çoxdur ki, Avropa Şurasının üzvüyük. Bu da bizim seçimimizdir. Heç kim bizi bu addımı atmağa məcbur etməmişdir. Ötən ilin noyabr ayında biz Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasəti» çərçivəsində beşillik

tədbirlər planını imzalamışıq. Bunun çox elementləri var və həmin sənəddə siyasi islahatların aparılması ən vacib meyardır.

Azərbaycanın inkişafının digər elementi sülh şəraitində yanaşı yaşamaqdır. Biz bir çox millətlərin nümayəndələrinin yaşadığı ölkəyik və müxtəlif dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. Bu bizim inkişafımız üçün vacibdir. Bu müsbət təcrübə digər yerlərdə də öyrənilə bilər. Bu gün dünyada yaşanan problemlərdən biri müxtəlif dinlərin nümayəndələri arasında artan gərginlikdir. Biz sivilizasiyalararası dialoq haqqında çox eşidirik. Lakin bir çox hallarda reallıqda bunun əksini görürük. Biz gərginliyi, qarşılıqlı surətdə şübhəli yanaşmanı, o cümlədən insanlar arasında ziddiyyətlər və bəzən də qarşıdurmanı görürük. Azərbaycanda isə bütün dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. Nə Konstitusiyada, nə də gündəlik həyatda heç bir ayrı-seçkilik yoxdur. Bu bizi daha da güclü edir. Bu bizi mədəni baxımdan daha da zənginləşdirir. Biz öz dinimizi, öz mədəniyyətimizi yüksək dəyərləndiririk və eyni zamanda, digər dinlərə və mədəniyyətlərə yüksək dərəcədə hörmət edirik. Əminəm ki, Azərbaycanın təcrübəsi, xüsusilə bu cür mühüm tarixi baxımdan digər yerlər üçün faydalı ola bilər.

Lakin eyni zamanda, əlbəttə, ölkədə problemlər də mövcuddur. Çünki hər bir şey bizim üçün yenidir. Müstəqilliyimizin, müstəqil inkişafımızın 15 ilinin ilk beş-altı ili sabitləşmə dövrü idi. Yalnız 1996-cı ildə iqtisadi tənəzzülü dayandıra bildik. 1991-ci ildən 1996-cı ilə qədər olduqca böyük böhran var idi. 1996-cı ildən 2005-ci ilə qədər ölkədə iqtisadi inkişaf hər il on faiz səviyyəsində olmuşdur. Artıq qeyd etdiyim kimi, 2005-ci ildən etibarən iqtisadi artım daha yüksək sürətlə gedir.

Lakin bir çox sosial, psixoloji problemlər hələ də qalır. Çünki bizim nəsil başqa sistemdə yaşamışdır. Bu, Sovet İttifaqının sistemi idi, orada məhdudiyyətlər mövcud idi. Bu elə bir sistem idi ki, hər bir ölkənin inkişafı üçün vacib olan bütün məsələlər, misal üçün, insan hüquqları məsələsi, ümumiyyətlə, mövcud deyildi. Demokratik sistem, ümumiyyətlə,

mümkün deyildi. Bu sadəcə təkpartiyalı sistem idi. Biz bu sistemdə yaşayırdıq. Ona görə dəyişikliklər hətta insanların şüurunda belə asan olmur. Xüsusən də əgər biz iqtisadi problemlərimizi görürdüksə, digər ölkənin təcavüzünə məruz qalmışdıqsa, bunun nəticəsində ölkəmizdə bir milyon qaçqın və məcburi köçkün yaranmışdısa, bu, olduqca çətin idi. Demək olar ki, bu, adambaşına düşən göstəriciyə görə dünyada ən yüksək göstəricidir. Yəni 8,5 milyonluq əhaliyə 1 milyon məcburi köçkün və qaçqın düşür. Hökumət onların problemlərinə qayğı ilə yanaşır. Hökumət onlara maliyyə və ərzaq yardımı göstərir. Bu, böyük bir humanitar fəlakətdir. Əlbəttə ki, bu, əlavə problemlər yaradır.

Ona görə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli geniş regional inkişaf üçün ən başlıca məsələdir. Biz bu ədalətsiz vəziyyətə son qoymalıyıq. XXI əsrdə beynəlxalq hüququn əsas prinsipi pozulmuşdur. 1 milyon azərbaycanlının insan hüquqları da pozulubdur. 700 min azərbaycanlı Azərbaycanın Dağlıq Qarabağla qonşu olan 7 rayonunda etnik təmizlənməyə məruz qalmışdır. 250 min azərbaycanlı Ermənistandan qovulubdur, onlar orada öz ata-baba torpaqlarında yaşayırdılar. Təqribən 50 min azərbaycanlı Dağlıq Qarabağda yaşadığı torpaqlarından qovulubdur. Artıq on ildən çoxdur ki, bu problem həll olunmamış qalır. Hazırda biz əlimizdən gələni edirik ki, məsələni dinc yolla həll edək. Biz sülh danışıqlarına sadiqik. Amma bu nə qədər çəkə bilər? Bu sülh danışıqları nə qədər çəkəcəkdir?

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş rayonlarından qeyd-şərtsiz, dərhal çıxarılması tələb edilir. Amma Ermənistan buna məhəl qoymur. Avropa Şurasının iki il bundan öncə qəbul etdiyi qətnamədə aydın şəkildə deyilir ki, Ermənistan təcavüzkardır və Azərbaycana qarşı təcavüz etmişdir. Bu qətnamə də diqqətdən kənarda qalır. Ermənistan beynəlxalq təşkilatların, ATƏT-

in Minsk qrupunun vasitəçilərinin məsələnin dinc yolla həllinə yönəlmiş cəhdlərini kobudcasına pozur. Ermənistan tərəfi iki dəfə danışıqlar masasını tərk etmişdir. Biz orada dinc nizamlamaya artıq yaxın idik. Belə bir halda biz danışıqlar prosesini necə davam etdirə bilərik? Bizim səbrimiz artıq tükənməkdədir. Ona görə bu vəziyyət tamamilə aydın qavranılmalıdır. Azərbaycan heç vaxt Dağlıq Qarabağın müstəqilliyinə razılıq verməyəcəkdir. Bizim ərazi bütövlüyümüz Birləşmiş Millətlər Təşkilatı, bütün beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır və dəstəklənir. Bu yaxınlarda onlar «Dağlıq Qarabağ Konstitusiyası» ilə bağlı səsverməni pisləmişlər. Avropa Şurası, Avropa İttifaqı, ATƏT-in Minsk qrupunun həmsədrləri və dünyanın aparıcı dövlətləri bunu pislədi. Hamıya aydındır ki, Dağlıq Qarabağ tarixi baxımdan Azərbaycanın ərazisidir. Ermənilər oraya XIX əsrin əvvəllərində çar Rusiyası tərəfindən köçürülmüşdür. Onlar orada məskən salmış, sonradan çoxluq təşkil etmiş və həmin ərazidə separatist meyllərə başlamışlar.

Biz heç vaxt Dağlıq Qarabağa müstəqillik verilməsinə razılaşmayacağıq. Biz onlara nə verə bilərik? Yüksək özünüidarə statusu verə bilərik ki, bu da Azərbaycan dövlətinin hüdudları çərçivəsində olmalıdır. Bunun üçün Avropada, dünyada modellər var; milli azlıqlar özünüidarə, yüksək muxtariyyət statusuna malikdirlər, yaşadıqları ölkələr tərəfindən dəstəklənirlər və sülh şəraitində yaşayırlar. Biz bunu təklif edirik. Lakin biz qeyri-adi və ya qəbul edilə bilməyən bir məsələni təklif etmirik və ərazi bütövlüyümüzlə bağlı heç vaxt güzəştə getməyəcəyik. Biz etnik təmizləmə siyasəti ilə heç vaxt razılaşa bilmərik. Bu, uğursuz siyasətdir. Ancaq indi qüvvələr nisbəti artıq dəyişibdir. Bu il Azərbaycanın iqtisadiyyatı Ermənistanın iqtisadiyyatından 7 dəfə güclüdür. Gələn 5-6 il ərzində 20–30 dəfə çox olacaqdır. Onlar bizimlə rəqabət aparmaq iqtidarında deyillər, Ermənistanın Azərbaycanla rəqabət aparmaq gücü artıq tükənibdir. Onlar bu prosesi davam etdirə bilməyəcəklər. Biz güclü iqtisadiyyata malikik.

Ölkəmizdə neft hasilatı cari il ərzində gündə təqribən 800 min barel, gələn il isə 1 milyon bareldən çox olacaqdır. Biz bu yaxınlarda böyük qaz hasilatına başlayacağıq. Dünya Bankının hesablamalarına görə, gələn 20 il ərzində Azərbaycan orta qiymətlərlə 140 milyard dollar gəlir əldə edəcəkdir. Biz bunu necə istifadə edəcəyik? Biz məktəblər, xəstəxanalar, elektrik stansiyaları və körpülər tikəcəyik, yollar çəkəcəyik, Azərbaycanı tamamilə müasirləşdirəcəyik. Eyni zamanda, ordumuzu da gücləndirəcəyik. Ermənistan bunu bilməlidir. Onlar nə edə bilərlər? İndi onlar hər hansı bir daşınma marşrutlarından, sadəcə, kənarda qalıblar. Biz Ermənistanın ərazisindən kənar keçən neft və qaz boru kəmərləri çəkmişik. Biz indi olduqca güclü regional tərəfdaşlıq və əməkdaşlıq ərəfəsindəyik.

Prezident kimi, mənim üçün Dağlıq Qarabağ problemi bir nömrəli problemdir. Biz çalışırıq ki, bu problemi tamamilə aradan qaldıraq və inkişafımızı ən yüksək səviyyəyə gətirək, siyasi sistemi getdikcə möhkəmləndirək, qonşularla əməkdaşlığımız daha da genişlənsin. Bizim bütün qonşularımızla yaxşı əlaqələrimiz var. Bu həm siyasi, həm iqtisadi və həm də digər sahələrə aiddir. Avroatlantik məkana, Avropa İttifaqına, NATO-ya inteqrasiyamız çox yaxşıdır. Gələcəkdə bizim hansı problemimiz ola bilər? Biz yoxsulluğu azaldırıq, işsizliyi aşağı salırıq. Azərbaycanda əhalinin həyatı daha da yaxşılaşır və cəmiyyəti bir araya gətiririk, səfərbər edirik. Bütün cəmiyyət Dağlıq Qarabağ probleminin həllinə töhfə verməlidir. On ildən çox müddət ərzində hansısa bir nəticə olmasa da, biz yenə də danışıqlar prosesindəyik. Bu onu göstərir ki, biz məsələnin dinc yolla həllində səmimiyik, müharibənin yenidən başlanmasını istəmirik. Müharibə fəlakətdir. Eyni zamanda, biz oturub gözləyə bilmərik ki, bir gün gələcək və Ermənistan rəhbərliyi qərar qəbul edəcək ki, onlar işğala son qoysunlar. Ona görə bu problemə çox güclü beynəlxalq diqqət yetirilməlidir.

Mən bilmirəm çıxış üçün nə qədər vaxtım qalıbdır. Bəlkə mən bu problem haqqında daha təfərrüatlı danışa bilərdim. Bu nəinki bizim üçün, ümumiyyətlə, region üçün vacibdir. Çünki region dinamik surətdə inkişaf edir və Azərbaycan bunun lokomotividir. Enerji, daşınma layihələri bizim tərəfimizdən başlanmışdır və indi bunlar tamamilə yeni bir vəziyyət yaradır. Burada giriş sözündə qeyd edildi və müzakirələrdə vurğulandı, bu gün, dünən aparılmış görüşlər zamanı da deyildi ki, Xəzər dənizi, Qara dəniz və Mərkəzi Asiya əməkdaşlıq formatı artıq görünür. Bu əməkdaşlıq formatı digər elementlərlə yanaşı, bünövrəsində enerji gündəliyini saxlayır. Ona görə biz olduqca böyük regional inkişaf ərəfəsindəyik. Həmin separatçı münaqişələr sadəcə, vaxtla işləyən bombaya bənzəyir və bunlar hər yerdə eynidir. Dağlıq Qarabağda, Abxaziyada, Cənubi Osetiyada, Dnestryanı bölgədə – hamısında eynidir.

Onların hamısı təcavüzkar separatçı siyasətin təzahürüdür, hamısında etnik təmizləmə siyasəti aparılmışdır, hamısı humanitar fəlakətlə nəticələndi və çoxsaylı qaçqın-köçkünlər təbəqəsi yarandı. Bu təcaıüzkar separatçı siyasətin nəticəsində Gürcüstan, Moldova və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Həmin tanınmamış qondarma «respublikalar» elə bir zonalardır ki, orada heç bir beynəlxalq monitorinq və nəzarət yoxdur. Bizim məlumatımıza əsasən, orada bir çox qeyri-qanuni işlər aparılır. Biz kifayət qədər məlumat əldə etmişik ki, Dağlıq Qarabağda narkotiklərin və silahların qanunsuz dövriyyəsi, terrorçulara sığınacağın verilməsi və çirkli pulların yuyulması halları müşahidə olunur. Bu zonalar çox şeyləri gizlətmək üçün əlverişli yerlərdir. Onlar mövcuddurlar, lakin hüquqi baxımdan mövcud deyillər. Bu səbəbdən də beynəlxalq monitorinq və nəzarət yoxdur. Bu, qlobal xarakterə malik olan bir problemdir. Mən ümid edirəm ki, Azərbaycanın fəal diplomatiyası, regional işlərdə iştirakı, iqtisadi potensialı və siyasi iradəsi bunun həllinə yardımçı olacaqdır.

Mən eyni zamanda, Azərbaycan–Almaniya münasibətləri haqqında danışmaq istərdim. Onlar bu günə qədər çox uğurla inkişaf etmişdir. Bunun bariz nümunəsi mənim Almaniyaya iki il yarım ərzində etdiyim səfərlərim olubdur. Bu mənim ikinci rəsmi səfərimdir. Bundan əvvəl mən Almaniyada işgüzar səfərdə olmuşdum. Bizim iş adamlarından ibarət böyük nümayəndə heyətimiz mənimlə buraya gəlibdir, burada Almaniya–Azərbaycan biznes forumu təşkil olunacaqdır. Biz müxtəlif layihələr üzərində işləmək arzusundayıq. İstəyirik ki, Azərbaycanda işləmək üçün mümkün qədər çox alman şirkətlərini dəvət edək. Nəinki sərmayə qoymağa, eyni zamanda, podrat və xidmət şirkətlərini də dəvət edirik ki, onlar keyfiyyətli iş görsünlər. Bu cür iqtisadi fəaliyyət bizim siyasi əlaqələrimizi birmənalı olaraq gücləndirir, bunlar çox uğurludur və müsbətdir. Əminəm ki, bu səfər tərəfdaşlığımızı möhkəmləndirəcək, Azərbaycan Avropaya daha da yaxınlaşacaq və gələcəkdə Avropa–Qafqaz və Avropa–Mərkəzi Asiya arasında daha geniş regional əməkdaşlıq üçün yeni perspektivlər açılacaq və dünya daha sabit olacaqdır.

Diqqətinizə və səbrinizə görə çox sağ olun.

*Sonra Azərbaycan prezidenti İlham Əliyev görüş iştirakçılarının çoxsaylı suallarına cavab verdi.*

**Andreas Şopenhoff** (*aparıcı*): Cənab Prezident, çox sağ olun. Mən hesab edirəm ki, Sizin nitqiniz fəal diplomatiyanın mühüm bir təzahürü oldu. Biz hamımız bilirik ki, Azərbaycanın nə qədər strateji əhəmiyyəti var və Siz bunu olduqca gözəl bir formada, özünüzə əminliklə və təvazökarlıqla təsvir etdiniz. Siz ölkənizdə nəinki iqtisadi baxımdan işlərin aparılmasına sadiqsiniz, eyni zamanda, istəyirsiniz ki, Azərbaycanda Avropa İttifaqının etibarlı tərəfdaşı nüfuzu yaransın. Cənab Prezident, bir daha çox sağ olun.

Hörmətli cənab Prezident sizin suallarınıza cavab verməyə hazırdır. Sizin şərhləriniz ola bilər. Burada mikrofonlar qurulubdur. Buyurun, ilk sualı verin.

**– Əslində, ilk sualı mən vermək istəmirdim. Ancaq Azərbaycan elə bir ölkədir ki, hamımızı çox maraqlandırır və həmin ölkə ilə sıx əlaqələrimiz var. Məni ən çox maraqlandıran odur ki, Siz Azərbaycanın inkişafını ümumi Qafqaz məkanında necə görürsünüz? Bizim üçün xüsusilə maraqlıdır ki, Şimali Qafqazın gələcək inkişafı haqqında nə deyə bilərsiniz, çünki həmin region olduqca həssas regiondur. Xüsusən də Çeçenistan. Bunlar mənim kiçik suallarımdır.**

**– Cənab Prezident, Siz qeyd etdiniz ki, Dağlıq Qarabağ problemi ölkəniz üçün bir nömrəli problemdir. Mən Qafqazdakı digər iki münaqişə üzrə işləmişəm. Abxaziya və Cənubi Osetiya münaqişələri haqqında eşitmişəm və bilirəm ki, hansı mövcud çətinliklər var. Həll məsələsinə gəldikdə, hamımız bilirik və Siz də deyirsiniz ki, Azərbaycanın uğurlu inkişafını davam etdirmək üçün biz Dağlıq Qarabağ üzrə güzəştə getməliyik. Bu yaxınlarda biz oxşar bir məsələ ilə bağlı Balkanlarda güzəşt variantını gördük. Bu, Kosovo regionunda bir neçə gün bundan əvvəl baş verdi. Siz Kosovo həll variantı ilə bağlı öz rəyinizi bildirərsinizmi ki, bu da Azərbaycanın ümidverici qaydada Dağlıq Qarabağ probleminin həllinə imkan yarada bilər? Sağ olun.**

**Hörmətli cənab Prezident, Siz burada Azərbaycandakı vəziyyəti hərtərəfli təsvir etdiniz. Mən bu yaxınlarda Bakıda olmuşam. Orada narahatlıq doğuran ekoloji problemlərin olduğu bildirilir. Siz ekoloji siyasət haqqında nə söyləyə bilərsiniz?**

**Mən azad jurnalistəm və Cənubi Qafqazda işləmişəm, Gürcüstanda və Azərbaycanda olmuşam. Mən bilmək istərdim, Siz Azərbaycanın Şərqdəki qonşuları ilə münasibətlərini və onların inkişafını necə görürsünüz? Sağ olun.**

**A n d r e a s  Ş o p e n h o f**: Cənab Prezident, məncə biz Sizə imkan verməliyik ki, suallara cavab verəsiniz.

**İ l h a m Ə l i y e v:** Suallarınıza görə sağ olun. Qafqazdakı vəziyyətə gəldikdə onu deməliyəm ki, Qafqaz bir orqanizmdir. Şimali və Cənubi Qafqazda qonşularımız var. Şimali Qafqaz Rusiyada yerləşir və digər istiqamətlərdə də ölkələr var. Təbii ki, mədəni münasibətlər var və bir ölkə kimi, Azərbaycanın Cənubi Qafqazla, Şimali Qafqazla hüdudları var və bu əlaqələrdən bəhrələnir. Bir çox azərbaycanlı Şimali Qafqazda, Rusiyanın ərazisində yaşayır və orada bir çox dostlarımız var. Eyni zamanda, Rusiya ilə ikitərəfli münasibətlərimizlə müxtəlif istiqamətlərdə öz töhfəmizi veririk – təhlükəsizlik və sabitlik. Lakin tarixi şəraiti nəzərə alaraq, istər Cənubi, istərsə də Şimali Qafqazda sabitliyin hər hansı şəkildə pozulmasının bütün Qafqaza mənfi təsiri olacaqdır. Əfsuslar olsun ki, dünyanın bu çox kiçik guşəsində daim müharibələr baş verib, münaqişələr müşahidə olunubdur. İstər şimalda, istərsə də cənubda. Bu, əsrlər boyu belə olub. Bu regionun özü də gözəldir. Azərbaycan, öz növbəsində, sülhün bərpasına töhfə verir. Region sülh və tərəqqi şəraitində yaşamalıdır ki, müharibədən, hər hansı bir təcavüzdən əziyyət çəkməsin.

O ki qaldı Dağlıq Qarabağ məsələsinin həllinə, hansı model olmasına gəldikdə, bilirsiniz, hər hansı bir münaqişə öz xüsusiyyətinə və həll yoluna malikdir. Bu baxımdan mən hesab edirəm ki, bir potensial həll yolunu digər münaqişəyə şamil etmək o qədər də yaxşı bir ideya olmaz. Çünki münaqişənin mahiyyəti müəyyən mənada aydındır və bu separatizmdir. Tarixi baxımdan bu fərqlər ola bilər.

Dağlıq Qarabağ məsələsinin mümkün həllinə və Azərbaycanın nəyə razılıq verəcəyinə gəldikdə, ən birincisi, Dağlıq Qarabağ müstəqil ola bilməz və əminəm ki, bu belə də olacaqdır. Çünki beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın zəif və qeyri-sabit bir vaxtında tanımadısa, bundan sonra da tanımayacaqdır.

Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə çalışırlar ki, bu iki prinsipi – ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətir-

sinlər. Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, sabah istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır. Dağlıq Qarabağ müstəqil ola, yaxud Ermənistana birləşə bilməz. Azərbaycanın əraziləri Ermənistanın işğalından azad edilməlidir. Bizim qaçqınlarımız, məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Dağlıq Qarabağdan, xüsusən də qədim Azərbaycan şəhəri Şuşadan olan məcburi köçkünlər öz yerlərinə qayıtmalıdırlar.

Eyni zamanda, beynəlxalq sülhyaratma əməliyyatları olmalıdır və biz buna razıyıq. Dağlıq Qarabağın gələcək statusu məsələsi iki tərəf arasında müzakirə olunacaq və Dağlıq Qarabağa dünyada mövcud olan – yaxud mövcud olmayan, biz bu haqda düşünməliyik – muxtariyyət statusu verilə bilər. Bu maksimumdur, konstruktiv bir mövqedir.

Bundan əlavə, əgər Dağlıq Qarabağ Azərbaycana qaytarılsa, təbii ki, regionun iqtisadi inkişafı daha da sürətlə gedər. Onlar bu işğal siyasəti ilə nəyə nail oldular? Mən sizə deyə bilərəm, bunun nəticəsi necə oldu. Yəni Ermənistan əhalisinin yarısı ölkəni tərk edibdir. Dağlıq Qarabağın əhalisinin yarısı da həmin ərazilərdən gedibdir. Onların gələcək üçün, öz tələbatlarını ödəmək imkanı üçün heç bir perspektivi yoxdur. Onlar diasporun köməyi, yaxud da digər ölkələrin yardımı ilə yaşamalıdırlar. Ona görə əgər ermənilər istəyirlərsə ki, Dağlıq Qarabağ məsələsi həll olunsun, onlar buna razılaşmalıdırlar. Bizim təklif etdiyimiz mövqe konstruktivdir. Bu, ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir, onlar bu məsələ ilə məşğul olur və bu, regiona sülh gətirə bilər.

Ətraf mühitlə bağlı vəziyyətə gəldikdə, biz bunun üzərində işləyirik. Bilirsiniz, bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Ümumiyyətlə, o vaxt dünyada ekologiya haqqında olan anlayış, belə bir məfhum bizdə yox idi. Biz sadəcə, təbii resurslardan istifadə edirdik. Məqsəd o idi ki, dayanmadan istehsal edək. Heç kim diqqət yetirmirdi ki, təbiətin vəziyyəti necədir. İndi Bakıda, Abşeron yarımadasında neftlə çirklənmiş bir çox göllər var. Azərbaycanın digər yerlərində ətraf mühitlə bağlı vəziyyət çox yaxşıdır. Göllərimiz, çaylarımız və dağlarımız yaxşı vəziyyətdədir.

O ki qaldı Bakının özünün rayonları, onlar neft hasilatı ilə əlaqədar çətin vəziyyətə düşübdür. Ona görə bizim ekoloji proqramımız qəbul edilibdir. Bu mənim tərəfimdən, Prezident Sərəncamı əsasında qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5–10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik və öz təbiətimizə onun gözəlliyini qaytaracağıq. Bu proqramı başladıqdan dərhal sonra Dünya Bankı bizimlə birgə işləməyə gəldi. Biz öz iradəmizi nümayiş etdirdik ki, vəsaitlərimizdən istifadə edəcəyik. Bizim digər yardıma ehtiyacımız yoxdur. Bu bizim əhalimiz üçün, həyatın yaxşılaşması üçün vacibdir. Biz ekoloji təşkilatlarla da işləyirik. Xüsusən, Zukkov Fondu ilə çalışırıq. Mən bu gün Mixael Zukkovla görüşdüm. Onlar ölkəmizə, iqtisadi inkişafa böyük töhfə verirlər.

Sonuncu sual Xəzərdən şərqdəki ölkələr ilə münasibətlərə aid idi. Bizim Qazaxıstanla çox yaxşı əlaqələrimiz var. Hökumətlərarası saziş imzalamışıq ki, Azərbaycan ərazisi ilə Qazaxıstan neftini Aralıq dənizinə daşıyaq. Digər ümumi layihələrimiz də var. Biz Azərbaycanda olduqca müasir boru kəməri infrastrukturu yaratmışıq. Bunun vasitəsilə Xəzərin şərqindən böyük miqdarda neft daşına bilər. Bilirəm ki, Qazaxıstan artıq liman qurğularının genişləndirilməsinə sərmayə qoyur. Eyni işlər Azərbaycanda da aparılır və ola bilsin ki, 2-3 il ərzində, bəlkə də bundan tez Qazaxıstan nef-

ti bizim ərazimizlə daşınacaqdır. Bizim boru kəməri gündə 1 milyon barrel neftin daşınması üçün nəzərdə tutulubdur. Amma biz onun gücünü artırmağa nail ola bilərik ki, bu da gündə 1,8 milyon barrel neftin daşınmasına imkan yaradar.

**A n d r e a s  Ş o p e n h o f f** (*aparıcı*): Çox sağ olun, cənab Prezident. İndi isə biz yenə suallara keçəcəyik. Dörd sual var:

**– Hörmətli cənab Prezident, mən bir sual vermək istəyirəm. Siz burada qeyd etdiniz ki, Azərbaycan bir sıra strateji qlobal enerji layihələrini həyata keçirir. Bu, Xəzər regionuna və onun ətrafına aiddir. «Nabukko» layihəsi barədə nə deyə bilərsiniz? Bu layihə ilə bağlı Sizin mülahizələriniz necədir? Çox sağ olun.**

**– Cənab Prezident, mənim adım İvansdır, həkiməm, klinikada çalışıram. Mən bir neçə dəfə Bakıda olmuşam. Çox sağ olun ki, Siz Azərbaycandakı vəziyyəti gözəl təsvir etdiniz. Biz bilirik ki, Siz səhiyyə sistemini də inkişaf etdirmək istəyirsiniz. Bu istiqamətdə ideyalarınız necədir? Bəzi şərhlərinizi eşitmək istərdik ki, Siz təkcə Bakıda deyil, həm də ölkənin digər bölgələrində səhiyyə sisteminə hansı şəkildə dəstək verirsiniz? Sağ olun.**

**– Cənab Prezident, mənim adım Konerusdur, Fondu təmsil edirəm. Siz, ümumiyyətlə, öz çıxışınızda Rusiyanı qeyd etmədiniz. Bu ölkəyə aid strategiyanız haqqında nə deyə bilərsiniz? Xüsusən də prezident Vladimir Putin bu yaxınlarda aydın, lakin qeyri-diplomatik çıxış etmişdir. Bu, Rusiyanın gələn illər ərzində planları ilə bağlı idi. Sağ olun.**

**– Mənim adım Fariz Qasımlıdır, Berlin Universitetinin tələbəsiyəm. Hörmətli cənab Prezident, geniş çıxışınıza görə çox sağ olun. Mənim sualım Azərbaycanın bu yaxınlarda yeni regional Bakı–Tbilisi–Qars dəmir yolunun çəkilməsi sahəsində əldə etdiyi uğurla bağlıdır. Bu, Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Sizin fikrinizcə, bu layihə yaxın perspektivdə Dağlıq Qarabağ münaqişəsinin mümkün həllinə necə təsir göstərə bilər? Siz bəzi erməni dairələrinin bu layihəyə müqavimət göstərilməsi barədə fikirlərinə necə yanaşırsınız?**

**İ l h a m   Ə l i y e v:** Biz enerji inkişafımızın başlanğıc mərhələsində, xüsusən də neft və qaz nəqli əməliyyatlarından söhbət getdikdə, Avropada qaz bazarının tamamilə başqa vəziyyətdə olduğunu anlayırdıq. Təbii ki, əsas diqqətimizi məhz öz ölkəmizin qaza olan tələbatının ödənilməsinə yönəltmişdik və Gürcüstana, Türkiyəyə də qaz göndərməyi planlaşdırırdıq. Yəni bu işə başlayanda bizim təbii qazımızın üç bazarı var idi. İşlərimizi bu günə qədər davam etdirmişik. İndi isə Avropada əlavə qaz mənbələrinə ehtiyac duyulduğunu hiss etdik. Belə bir halda özümüzü bu yeni vəziyyətə uyğunlaşdırmaq məcburiyyəti qarşısında olduq. İndi biz hasil etdiyimiz həcmi daha da artırmalıyıq. Çünki neft bazarından fərqli olaraq, qaz bazarında ilk növbədə, istehlakçı olmalıdır. Siz sadəcə, qazı tankerə vurub bazara çıxara bilməzsiniz. Lazımdır ki, istehlakçı olsun. Biz bu prosesi başladıq.

Qaz kəmərinə başlayanda Türkiyədən o tərəfə istehlakçılar yox idi. İndi isə görürük ki, tələbat artır və hətta hasilat həcmimizlə müqayisədə tələbat daha çoxdur. Əgər xarici şirkətlər mart ayında qaz hasilatını artıracaqsa, Azərbaycanın Dövlət Neft Şirkəti də ilyarım ərzində öz hasilatını iki dəfə artıracaqdır. Çünki tələbat da artır. «Nabukko» kimi layihələr uzun illər ərzində yaxşı bir layihə kimi müzakirə olunurdu. Amma indi həyata keçirilə bilər. Azərbaycan qazı üçün, eyni zamanda, digər ölkələr tərəfindən təchizat üçün yaxşı bir variant ola bilər. Biz artıq kifayət qədər qaz infrastrukturu yaratmışıq və bu da prosesin gedişində rol oynayacaqdır. Biz öz infrastrukturumuzu digər ölkələrin də istifadəsinə verməyə hazırıq. Azərbaycan Enerji Xartiyasını imzalamışdır və bizim daşınma sistemi istifadədə ola bilər.

Azərbaycanın tibb sahəsi təkmilləşir. Bu, ən təcili sahələrdən biridir ki, biz burada gözəçarpan, sürətli inkişafa nail olmalıyıq. Biz əsasən rayonlarımızda tibb müəssisələrinin sayını artırırıq, bir çox tibb mərkəzləri açırıq. İki şəhərdə – Naxçıvan və Lənkəranda artıq açılmışdır. Orada açıq ürək

üzərində cərrahiyyə əməliyyatı da aparılmışdır. Əməliyyat Azərbaycan vətəndaşı üzərində edilmişdi. Bu tibb mərkəzlərinin sayı 2007-ci il ərzində də artacaqdır. Azərbaycanda onlarla yeni xəstəxana tikiləcəkdir. Biz bu sahəyə çox sərmayə yatırırıq. Eyni zamanda, təlim kursları təşkil edirik ki, həkimlər daha yaxşı imkanlara, biliklərə malik olsunlar. Tibbi xidmətlərin keyfiyyətini artırırıq. Təcili tibbi yardıma da sərmayəni artırırıq ki, bizim vətəndaşlarımıza dərhal tibbi yardım göstərilsin. Ümid edirəm ki, gələn üç-beş il ərzində Azərbaycanda əsas tibbi xidmətlər məsələsi öz həllini tapacaqdır.

Rusiya məsələsinə gəldikdə – mən ötən il Bertelsmann Forumunda çıxış edəndə də eyni sualı vermişdilər ki, nəyə görə Rusiyanı qeyd etmədim – bəlkə bu ona görədir ki, mən Azərbaycanın prezidentiyəm. Ona görə Azərbaycan haqqında danışıram. Lakin Rusiya ilə ikitərəfli münasibətlərə gəldikdə, onlar müsbətdir. Biz müxtəlif sahələrdə işləyirik, qonşuyuq və birgə iqtisadi maraqlarımız vardır. Bizim qonşuluq əlaqələrimiz çox yaxşı ruhda inkişaf edir və keçmişdə gərginlik mənbəyi olan məsələlərin hamısı öz həllini tapıbdır. Məsələn, Xəzər dənizinin sektorlara bölünməsi məsələsi. Rusiya ilə müxtəlif sahələrdə, enerji sahəsində, hərbi sahədə əməkdaşlıq aparılır. Ona görə Rusiya ilə ikitərəfli əlaqələrimiz normaldır və bu çox yaxşıdır. Bizim, adətən, bütün qonşularımızla yaxşı əlaqələrimiz var, bu, müsbət amildir. Bunun hamısı əvvəlcədən razılaşdırıla bilən, normal əlaqələr üçün vacibdir və eyni zamanda, qarşılıqlı maraqlara xidmət edir, qarşılıqlı hörmətə əsaslanır. Təbii ki, bir-birinin işlərinə müdaxilə etməmək prinsipinə arxalanır. Bunlar çox müsbətdir.

Ola bilsin ki, 90-cı illərdə, Sovet İttifaqı dağıldıqdan sonra ikitərəfli əlaqələrimiz daha pis idi. İndi isə, 2007-ci ildə mən bunu deməzəm. Çünki mən deyə bilərəm ki, bütün məsələləri həll etdik. İndi biz yaxşı ruhda əməkdaşlıq edirik.

Bakı–Tbilisi–Qars çox yaxşı nəqliyyat layihəsidir və bu, Asiya ilə Avropanı birləşdirə bilər. Azərbaycan dəmir yolu

vasitəsilə Türkiyəyə çıxış əldə edəcəkdir. Bunu nəzərə alsaq ki, hazırda Türkiyə də Bosfor boğazının altından tunelin çəkilməsi ilə məşğuldur. Bu, Avropaya birbaşa çıxış deməkdir. Bu bizim üçün Xəzər dənizi vasitəsilə Qazaxıstan və Çinə də yeni çıxışı təmin edir. Bu, yeni dəhlizdir və Azərbaycan da bu layihənin sponsoru kimi çıxış edir. Biz artıq Gürcüstana çox güzəştli kredit verdik. Bu, illik cəmi bir faizlə 25 il müddətinə nəzərdə tutulur. Söhbət 200 milyon ABŞ dollarından gedir ki, Gürcüstan öz ərazisində bu işləri maliyyələşdirsin.

Ermənistan lobbisi tərəfindən Birləşmiş Ştatlarda bəzi səylər göstərilirdi və ermənipərəst konqresmenlər də belə bir addım atdılar ki, layihəyə Amerikanın birbaşa yardımı dayandırılsın. Amma bəxtimizdən, biz bu gün elə bir inkişaf mərhələsindəyik ki, heç bir köməyə ehtiyacımız yoxdur. Əksinə, biz Gürcüstana öz yardımımızı göstəririk. Lakin eyni zamanda, hamı onu anlamalıdır ki, Ermənistan artıq sonuncu qatarı əldən buraxdı. Onlar Bakı–Tbilisi–Ceyhandan məhrum oldular, Cənubi Qafqaz boru kəmərindən kənarda qaldılar. İndi isə dəmir yolu xəttindən kənarda qalırlar.

Bir sözlə, onlar tam mənada bütün regional əməkdaşlıqdan kənarda qaldılar. Regional əməkdaşlıq isə möhkəmlənir, Gürcüstan, Türkiyə, Azərbaycan, Mərkəzi Asiya, Avropa enerji və nəqliyyat dəhlizlərinə malikdirlər. Əlbəttə, bu, bütün münaqişələrin həllində müsbət rol oynayacaqdır. Çünki biz gücləndikcə, yəni siz güclü olanda daha çox uğurlar əldə edə biləcəksiniz.

Bu, sonuncu suala cavab idi. Sağ olun.

**Andreas Şopenhoff:** Üzr istəyirəm, biz bütün suallara vaxt ayıra bilməyəcəyik. Ona görə əlavə dörd sual verilə bilər.

**– Sizin ölkənizin çox böyük iqtisadi gücü var. Ölkənizə xaricdən gələn qaçqınlara, milli azlıqlara yardım edirsinizmi? Mən öz yerlərindən didərgin düşmüş mehseti, axıska türk-**

**lərini, Krım tatarlarını nəzərdə tuturam. Sualım belədir, Siz onların problemlərinə necə yanaşırsınız?**

**– Mənim adım Hanno Masnerdir, Hagen Universitetinin tələbəsiyəm. Ölkəniz İranla qonşuluqda yerləşir. Şimal-qərbi İranda çox sayda azərbaycanlı yaşayır. Məni onların mədəni, siyasi və dil məsələləri maraqlandırır. Bu baxımdan Sizin ölkə həmin məsələlərin həlli üçün nə edə bilər? Məsələn, sərhədlərdən sərbəst keçid və iqtisadi, siyasi, mədəni hüquqlar. Çox sağ olun.**

**–Cənab Prezident, mənim adım Kones Yaardır. Siz öz iqtisadi və enerji qüdrətiniz sayəsində artıq dünyada böyük potensiala maliksiniz. Mən bilmək istəyirəm, Siz bu gücdən Dağlıq Qarabağ probleminin həlli üçün niyə istifadə etmirsiniz? Xahiş edirik, bu haqda bizə bir az məlumat verəsiniz.**

**– Cənab Prezident, dəqiq və gözəl çıxışınıza görə təşəkkür edirəm. Siz Azərbaycandakı inkişaf və nailiyyətlərdən söhbət açdınız. İnkişaf və tərəqqi yolu ilə gedən ölkədə güclü müxalifətin olması da vacibdir. Sizin fikrinizcə, güclü müxalifətin formalaşması üçün nə etmək lazımdır? Siz bu müxalifəti necə görürsünüz? Əgər mümkündürsə, Sizdən bu məsələyə dair öz şərhlərinizi bildirməyi xahiş edirik. Çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Biz keçmişdə beynəlxalq təşkilatlardan bir çox yardım almışdıq ki, öz qaçqınlarımız və məcburi köçkünlərimizə dəstək verək. Hesab edirik indi, biz maliyyə baxımından daha da gücləndikdə, Azərbaycan bu məsələdə hətta donora çevrilə bilər və özü maliyyə yardımı göstərə bilər.

O ki qaldı azlıqlara, siz burada suallarınızda onu qeyd etdiniz, bilirsiniz, siyasətimizin ən vacib elementi ondan ibarətdir ki, biz digər ölkələrin daxili işlərinə qarışmırıq. Hər bir ölkənin öz problemləri var. Əgər bizdən xahiş etsələr, məsləhət verə bilərik. Əgər bizdən soruşmurlarsa, digər ölkələrin daxili vəziyyətinə müdaxilə etmirik. Bu, olduqca vacibdir. Ümumiyyətlə, bütün dünyada digərlərinin işlərinə heç bir müdaxilə addımları olmasa, hesab edirəm, onda dünya daha təhlükəsiz şəraitdə yaşaya bilər.

O ki qaldı İranda böyük sayda azərbaycanlının yaşamasına, onu sizə deyə bilərəm ki, onlar bu gün İran cəmiyyətinin bütün sahələrində təmsil edilmişlər. Mədəniyyət, siyasi sahələrdə çalışırlar, parlament üzvləri var, rəsmilər arasında Azərbaycan mənşəli şəxslər var. İranda yaşayan azərbaycanlılarla çox güclü mədəni əlaqələr mövcuddur. Biz vahid bir millətik, hamımız azərbaycanlıyıq, eyni dildə danışırıq və biz qardaşıq. Ona görə onların gələcəyi, təbii ki, bizi maraqlandırır. Bizim çox güclü münasibətlərimiz var, oraya səfərlər edirik, hər iki tərəfdə qohumlar var, bir-birimizi görürük. Ümumiyyətlə, bu, İranla ikitərəfli münasibətlərimizin vacib elementidir.

Burada eyni zamanda, belə sual oldu, dediniz ki, Azərbaycan öz qüdrətindən nəyə görə Dağlıq Qarabağ probleminin həlli üçün istifadə etmir? Səmimi deyim ki, mən bunu, belə bir sualı Avropada eşidəcəyimi gözləmirdim. Çünki Avropada biz, adətən, başqa yanaşmaları eşidirik ki, biz məsələni sülh yolu ilə həll edək. Amma mən bu sualı anlaya bilərəm. Mənim özüm və Azərbaycanda bir çoxları hər zaman özümüz-özümüzdən soruşuruq, bu problemin həllini nə qədər gözləməliyik, bu ədalətsizliyə nə qədər dözməliyik, Azərbaycan xalqı işğal altında nə qədər yaşayacaq? Bilirsiniz, bu suala cavab hər zaman eynidir. Biz daimi gözləyə bilmərik. Biz əlavə on il gözləyə bilmərik. Sadəcə, Ermənistan rəhbərliyinin müdrikliyinə bel bağlaya bilmərik. Əgər onlar Ermənistan xalqının gələcəyi haqqında düşünmək istəmirlərsə, gələcəkdə nəyin baş verəcəyi haqqında düşünmürlərsə və əgər münaqişənin yenidən başlanması təhlükəsi haqqında düşünmürlərsə, onda məsuliyyət tamamilə onların üzərinə düşəcəkdir. Biz səbrimizi çox nümayiş etdirdik, konsrtuktiv mövqeyimizi nümayiş etdirdik.

Biz yenə də çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq nə vaxt hesab etsək ki, sülh imkanları tükənib, biz siyasətimizi dərhal dəyişəcəyik. Biz diplomatik səyləri göstərmişik. Birləşmiş Millətlər Təşkilatında bu prosesi

başlamışıq. Orada GUAM ölkələri tərəfindən keçmiş Sovet İttifaqı məkanında dondurulmuş münaqişələr məsələsi müzakirəyə çıxarıldı. İndi bu, Birləşmiş Millətlər Təşkilatının gündəliyindədir. Biz bu məsələni Avropa Şurasında qaldırdıq. Artıq qeyd etdim ki, 2005-ci ildə Avropa Şurası qətnamə qəbul etdi və orada Ermənistanı təcavüzkar kimi pislədi. 90-cı illərin əvvəllərində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Eyni zamanda, biz ATƏT-in Minsk qrupu ilə işləyirik ki, məsələni dinc yolla həll edək. İndi Avropa İttifaqının Cənubi Qafqazda xüsusi nümayəndəsi var, onunla da işləyirik. Yəni bu bizim müzakirələrimizin əsas mövzusudur. Bir sözlə, bütün mümkün vasitələrdən istifadə etmək istəyirik. Sonda isə biz öz qarşımızda üzüağ olmaq istəyirik. Bəli, demək istəyirik ki, biz məsələnin dinc yolla həlli üçün hər şeyi etdik, lakin bu, baş vermədi.

Eyni zamanda, biz hərbi potensialımızı möhkəmləndiririk. Bu sirr deyil, cəmiyyətə bildirilir. Biz son 3-4 il ərzində öz hərbi büdcəmizi təxminən 10 dəfə artırmışıq. Bu gün Azərbaycanın hərbi büdcəsinin həcmi 1 milyard ABŞ dollarıdır. Bu da bütün Ermənistanın büdcəsinə bərabərdir. Biz bunu gələcəkdə daha da artıracağıq, yenə də artıracağıq. Biz Müdafiə Sənayesi Nazirliyi yaratmışıq. Gələcəkdə ölkəmiz üçün, Azərbaycana tələb olunan malları istehsal edə biləcəyik.

Burada güclü müxalifətin olması ilə bağlı sual verildi. Mən bununla razıyam, bizim, sözün əsl mənasında, güclü müxalifətə ehtiyacımız var. Amma bizim günahımız deyil ki, bu sahədə bəxtimiz gətirməyib. Mən bu məsələdə kömək edə bilmərəm. Bu mənim imkanlarımdan kənardadır. Prezidentlər bir çox işləri görə bilər, lakin müxalifəti gücləndirmək – bu, prezidentlərin səlahiyyətlərindən kənardadır.

Amma ciddi danışsaq, mən hesab edirəm ki, müxalifətin daha da güclənməsi üçün, onların siyasi işlərdə rolunun artması üçün dəyişikliklər lazımdır. Çünki cəmiyyət dəyişir, insanlar dəyişir, biz də dəyişirik. Azərbaycanda yeni prezi-

dent seçilibdir və üç ildir fəaliyyət göstərir. Lakin siz görərsiniz ki, həmin insanlar, müxalifətçilər arasında 15 il bundan əvvəlki eyni şəxslər dayanır. Onlar eyni məsələlər haqqında düşünürlər. Bütün seçkiləri – 1993-cü ildə, 1998-ci ildə, 2003-cü ildə prezident seçkilərini, 1995-ci ildə, 2000-ci ildə və 2005-ci ildə parlament seçkilərini uduzdular, böyük fərqlə uduzdular. Həmin seçkilərdə siyasi partiyaların rəhbərləri uğursuzluğa düçar oldular. Belə olan halda rəhbərlər istefa verməli, yeni nəsil üçün yollar açmalıdırlar. Azərbaycan cəmiyyətində bir çox istedadlı şəxslər var ki, onlar mütləq şəkildə hökumətin fikrini bölüşmürlər. Amma onlar həmin ənənəvi müxalifətçilər tərəfindən hər hansı imkandan məhrumdurlar, onlara dəstək verilmir.

Ona görə mən də müxalifətə məsləhət görərdim ki, əgər güclənmək istəyirsə dəyişsin, xüsusən də rəhbərləri dəyişsin. Siyasi baxımdan mənim üçün daha asandır ki, növbəti seçkilərdə bir siyasətçi kimi, elə mövcud müxalifət liderləri ilə rəqabətə çıxım. Amma bir dövlət xadimi, prezident kimi istərdim ki, Azərbaycanda normal siyasi sistem olsun. Səmimi desək, normal siyasi sistem hələ yoxdur. Amma bu bizim günahımız deyil. Bəzi sahələr var ki, onlar yüz faiz bizdən asılıdır. Siyasi, iqtisadi, xarici işlər, sosial məsələlər, Avroatlantik strukturlara inteqrasiya – bunlarda hökumət yüz faizlik uğur əldə edibdir. Lakin siyasi sistem məsələsinə gəldikdə, nisbət əlli-əlliyədir.

Yeri gəlmişkən, sizə maraqlı bir məsələni söyləyim, o bu suala cavabdır. Bir neçə ay bundan əvvəl hesab edirdik ki, müxalifət tamamilə ruhdan düşüb və artıq yoxa çıxmaq üzrədir. Mən bir görüş zamanı ictimaiyyətin qarşısında müraciət etdim ki, hökumətlə müxalifət arasında dialoq təşkil olunsun. Mən bunu bilərəkdən etmək fikrində deyildim. Çünki hətta cəmiyyətin özünün də yadından çıxmışdı ki, müxalifət var, ya yox. Lakin mən hesab edirdim, onlara şans verilməsi vacib idi ki, oyansınlar. Bilirsiniz nə baş verdi? Bəziləri, hansılar ki, deyirdilər gəlin hökumətlə, prezidentlə dialoqa başlayaq, dərhal onların «keçmiş qvardiyası» tərə-

findən satqın kimi təsvir olundular. Onlara deyildi ki, əgər siz hökumətlə danışsanız, müxalifətin satqınısınız, onun ideyalarının satqınısınız. Mən bilmirəm, ümumiyyətlə, müxalifətin hansı ideyaları var. Çünki bizim siyasi-iqtisadi gündəliyimiz ölkənin bütün tələbatlarını əhatə edir. Real vəziyyət bundan ibarətdir. Ona görə biz müxalifət məsələsində bir şey edə bilmərik. Amma sizə vəd edirəm ki, mən qayıdandan sonra çalışacağam ki, onları daha da stimullaşdırım.

**Andreas Şopenhoff:** Cənab Prezident, təşəkkür edirəm.

Görüş zamanı səsləndirilmiş suallar onu göstərir ki, Almaniyada Azərbaycana böyük maraq var. İcazə verin, ölkənizi özünəməxsus formada təsvir etdiyinizə görə Sizə öz minnətdarlığımızı bildirək. Çıxışınız olduqca praqmatik oldu. Bu, işbirliyimizin, əməkdaşlığımızın genişləndirilməsinə və intensivləşdirilməsinə bir təkan idi. Söhbət təkcə iqtisadi əməkdaşlıqdan getmir. Cənab Vilhelm Ştaudaxer giriş nitqində qeyd etdi ki, Konrad Adenauer Fondu öz fəaliyyətini regionda, xüsusilə də sizin ölkənizdə intensivləşdirəcəkdir. Mənə elə gəlir, bu çox perspektivli bir siyasi fəaliyyət olacaqdır. Ölkənizin iqtisadi potensialı göstərir ki, siz bizim çox etibarlı siyasi tərəfdaşımızsınız. Bizimlə qonşu olduğunuzu bir daha deməyə ehtiyac yoxdur. Çünki bu, artıq hamıya bəllidir.

Cənab Prezident, bir daha çox sağ olun.

Vilhelm Ştaudaxerin xahişi ilə Sizi Konrad Adenauer Fondu adından təşkil olunan qəbulda fikir mübadiləsini davam etdirməyə dəvət edirik.

Cənab Prezident, Siz artıq ikinci dəfədir ki, Almaniyaya rəsmi səfər edirsiniz. Arzu edirik ki, bu cür görüşlərimiz gələcəkdə daha da çox olsun.

* * *

*Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra fikir mübadiləsi səmimi süfrə başında davam etdirildi.*

*Azərbaycan prezidenti İlham Əliyevin əhatəli və dolğun çıxışından təsirlənən, Azərbaycan reallıqları barədə ətraflı məlumat alan tədbir iştirakçıları böyük həvəslə dövlətimizin başçısı ilə söhbət edir, xalqımıza, Vətənimizə dərin rəğbətlərini ifadə edirdilər.*

## AZƏRBAYCAN–ALMANİYA BİZNES-FORUMUNDA NİTQ

*Berlin,*
*«Almaniya İqtisadiyyat Evi»*

*16 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan–Almaniya biznes-forumunda iştirak etmişdir.*

*Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar. Azərbaycanın 30-dan çox, Almaniya tərəfindən isə 200-dən çox iş adamının iştirak etdiyi biznes-forumu ölkəmizin Almaniyadakı səfirliyi, İqtisadi İnkişaf Nazirliyi və Azərbaycanda İxracın və İnvestisiyanın Təşviqi Fondu təşkil etmişdir.*

*Tədbiri «Şərqi və Mərkəzi Avropa Birliyi» Cəmiyyətinin sədri Klaus Ksolner açdı.*

*Sonra Almaniyanın «Wintershall» şirkətinin idarə heyətinin sədri Raynip Svitserloot, Almaniyanın İqtisadiyyat və Yeni Texnologiyalar naziri Mixael Qloss çıxış etdilər. Onlar Azərbaycan ilə Almaniya arasında əlaqələrin yüksək sürətlə inkişaf etdiyini, dünyada Azərbaycanın ən inkişaf edən ölkə olduğunu xatırlatdılar. Bildirdilər ki, Azərbaycan neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəldir və bu çox müsbət haldır. Almaniyanın iş adamları ilə əlaqələri genişləndirmək faydalı nəticələr verəcəkdir. Neft sahəsində zəngin ənənəsi olan Azərbaycanın yeni neft strategiyası onun sürətli inkişafına təkan vermişdir. Azərbaycanın regionda böyük rolu vardır.*

*Çıxış edənlər keçən ilin noyabrında Azərbaycanla Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunun imzalanmasını yüksək qiymətləndirdilər. Onlar Azərbaycanın qeyri-neft sektorunda da əməkdaşlıq üçün potensial imkanların olduğunu, bu sahəyə*

*sərmayə qoymaq istədiklərini bildirdilər və öz ölkələrinin şirkətlərini Azərbaycanda fəaliyyətə dəvət etdilər. Azərbaycanın dünyada rolunun artdığını vurğulayan natiqlər Almaniyanın ölkəmizə daim dəstək verəcəyini bildirdilər.*

*Almaniya nümayəndələri Xəzər regionunun əhəmiyyətinin getdikcə artdığını vurğulayaraq bu məkanın iqtisadi perspektivlərindən, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz layihələrinin reallaşmasından danışdılar. Transxəzər nəqliyyat dəhlizinin yaranmasında maraqlı olduqlarını bildirdilər və bu sahədə Azərbaycanın rolunu yüksək qiymətləndirdilər.*

*Xüsusi vurğulandı ki, Almaniya Azərbaycanın Dünya Ticarət Təşkilatına üzvlüyünü dəstəkləyir və Avropa İttifaqının sədri kimi, bu işdə ölkəmizə köməyini göstərəcəkdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Almaniya biznes-forumunda nitq söylədi.*

**İlham Əliyev:** Hörmətli cənab nazir!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən ölkənizə rəsmi səfərimin nəticələrindən olduqca məmnun olduğumu bildirmək istəyirəm. Bu mənim səfərimin artıq üçüncü günüdür və bu günlər ərzində səfər proqramım çox geniş olubdur. Bir çox mühüm görüşlər və genişmiqyaslı müzakirələr keçirilmişdir. Biz bir daha gördük ki, Almaniya–Azərbaycan münasibətləri çox müsbət istiqamətdə inkişaf edir. Bizim çox güclü siyasi əlaqələrimiz var və iqtisadi əməkdaşlığımız da artır. Əminəm ki, bu səfərin nəticəsində əməkdaşlığımızın bütün sahələrində yeni inkişaf və nailiyyətlər əldə olunacaqdır. Xüsusən də iqtisadi əməkdaşlıq sahəsində əlavə işlərin aparılması üçün imkanlar böyükdür.

Bu gün buradakı çıxışlar zamanı Azərbaycanın iqtisadi göstəriciləri qeyd olundu. Bu bir reallıqdır. Ölkəmiz sürətlə inkişaf edir. Son iki il ərzində biz ümumi daxili məhsulun artımına görə lider ölkə olmuşuq və çalışacağıq ki, 2007-ci ildə də bu liderliyi saxlayaq. Bunun üçün əsas səbəb, əlbəttə ki, bizim enerji siyasətimizdir. Biz bunu 1994-cü ildə baş-

ladıq və o vaxt dünyanın əsas şirkətləri ilə müqavilə imzalandı. İndi isə onun nəticələri qeyri-neft sektorunda böyük inkişafa nail olmaq imkanı yaradır. Bizim üçün neft və qaz sektorunun inkişafı ölkənin tərəqqisi, əlavə sərmayələrin cəlb edilməsi, xarici şirkətlər qarşısında daha etibarlı tərəfdaşa çevrilməsi, neft və qazdan əldə olunan gəlirlərin iqtisadiyyatın şaxələndirilməsinə yönəldilməsi üçün vasitədir.

Çox fərəhləndirici haldır ki, hazırda Azərbaycanın ümumi daxili məhsulunun həcmində qeyri-neft sektorunun payı çox böyükdür. Təbii ki, indi neft və qaz sektoru iqtisadiyyatımızın əsas hissəsini təşkil edir. Biz böyükhəcmli hasilat ərəfəsindəyik və çəkdiyimiz boru kəmərləri neft və qaz resurslarımızı dünyaya çıxarmağa imkan yaradır. Hasilatımız artır, cari il ərzində neft hasilatının həcmi 40 milyon ton, gələn il isə 50 milyon tondan çox olacaqdır. Böyük «Şahdəniz» yatağından qaz hasilatı cari ilin mart ayında başlayacaqdır. Əlbəttə, bunun sayəsində biz həm öz tələbatlarımızı, həm də qonşuların tələbatlarını ödəyə biləcəyik.

Artıq qeyd edildiyi kimi, biz Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq haqqında memorandum imzalamışıq. Bu bizim inkişafımızın yeni mərhələsidir. Bu o deməkdir ki, əvvəllər, neft və qaz layihələrimizə başlayanda Avropa bazarları barədə düşünmürdük. Çünki həmin vaxt biz öz bazarımıza və qonşu bazarlara diqqət yetirirdik. Lakin bu gün vəziyyət dəyişib və biz əlavə addımlar atırıq ki, Avropa ilə neft və qaz sahəsində enerji tərəfdaşlığımızı daha da möhkəmləndirək.

Son on il ərzində biz ölkəmizə çoxlu xarici sərmayə cəlb edə bilmişik. Azərbaycana on il ərzində ümumilikdə 30 milyard dollar sərmayə yatırılmışdır. Bizim yaxşı nüfuzumuz var və etibarlı tərəfdaşıq. Biz imzalanmış müqavilələrin yerinə yetirilməsinə çox sadiqik. Buna görə də Azərbaycan sərmayələr üçün cəlbedici ölkə olaraq qalır. Sərmayə mühiti çox yaxşıdır. Təbii ki, xarici sərmayələr bizim ölkədə alqışlanır. Yerli sərmayələrin artması böyük vədlər verir. Orta

təbəqə formalaşır və bu gün ümumi daxili məhsulda özəl sektorun payı artıq 81 faizdir. 15 il əvvəl, ümumiyyətlə, ölkəmizdə özəl sektor yox idi. Hesab edirəm ki, bu çox böyük bir nailiyyətdir. Bu rəqəm get-gedə daha da artacaqdır. Artıq Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam tətbiq olunubdur.

Eyni zamanda, biz çox güclü sosial siyasət aparmağa çalışırıq ki, əhali iqtisadi islahatlardan əziyyət çəkməsin. Adətən, islahatlar çətinliklərlə müşayiət olunur. Ona görə də islahatların mənfi təsirini azaltmaq üçün biz bu mərhələdə çox fəal sosial siyasət aparmağa çalışırıq ki, yoxsul əhali üçün əlavə imkanlar yaransın. Azərbaycanda yoxsulluq gözəçarpan dərəcədə azalır və 2003-cü ildəki 49 faiz artıq bu ilə qədər 20 faizə düşmüşdür. Vəzifəmiz işsizliyin və yoxsulluğun tamamilə aradan qaldırılmasından ibarətdir. Bu baxımdan sizə deyə bilərəm ki, biz əsasən, qeyri-neft sektoruna diqqət yetiririk. Çünki neft sektoru çox sayda iş yerləri açmır. Həmin sektor bizə əlavə imkanlar və maliyyə resursları verir ki, biz sosial, o cümlədən infrastruktur layihələri həyata keçirə bilək.

Amma güclü iqtisadiyyata nail olmaq üçün bizim kiçik və orta sahibkarlar daha fəal olmalıdır. Ona görə biz yerli sahibkarlara dəstək veririk. Biz hər il əsasən fermerlərə və regionlara 100 milyon dollar həcmində çox güzəştli kreditlər ayırırıq. 100 milyon ABŞ dolları kapitalına malik olan Dövlət İnvestisiya Şirkəti yaratmışıq ki, o, müxtəlif sahələrdə həmtəsisçi kimi çıxış etsin. Bu günə qədər Azərbaycanda sərmayələr məhz xarici sərmayədarlar üçün cəlbedici sahələrə yatırılmışdır. Bu da təbiidir. Amma elə sahələr ola bilər ki, onlar o qədər də cəlbedici olmasın, lakin hökumət onları inkişaf etdirmək istəyir. Ona görə də biz Dövlət İnvestisiya Şirkəti yaratmışıq ki, həmin sahələrdə digər investorlarla birgə həmtəsisçi olsun ki, onların etimadı da artsın. Onların qoyduğu pullar itməyəcəkdir. Bütün bunlar biznes fəaliyyətini daha da stimullaşdıracaqdır.

Son üç il ərzində Azərbaycanda 520 min iş yeri açılmışdır və onların əksər hissəsi regionlarda qeyri-neft sektorunun payına düşür. Bütün bunlar çox yaxşı bir sahibkarlıq mühiti yaradır. Dövlət özəl sektora dəstək verir. Mən mütəmadi olaraq sahibkarlarla görüşlər keçirirəm, çalışıram ki, onlara yardım edim və daha əlverişli şərait yaradım, onları qoruyum. Biz bunu necə edə bilərik? Təbii ki, bizim dövlət siyasətimiz və kifayət qədər qanunvericilik bazamız vardır. Lakin eyni zamanda, praktiki işləri də yüksək səviyyədə görməliyik. Biz tam əminik ki, müasir infrastruktur olmadan biznes inkişaf edə bilməz. Ona görə də biz elektrik stansiyalarının tikintisinə sərmayə yatırırıq. Təkcə ötən il ərzində Azərbaycanda dörd stansiya tikilmişdir. İndi Azərbaycanda yeni bir layihə var. Burada qeyd edildi ki, alman şirkətləri hazırda Sumqayıtda böyük elektrik stansiyasının tikilməsində iştirak edir.

Eyni zamanda, biz şəhərlərə, kəndlərə və turizm yerlərinə yollar çəkirik. Bunu regionlardakı prosesin daha da sürətlənməsi məqsədi ilə edirik. Xidmət infrastrukturuna da böyük sərmayələr qoyulur. Bütün bunlar biznesin inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəlibdir. Ona görə də 2007-ci ildə büdcəmizdən bu məqsədlə 1,5 milyard dollar ayrılacaqdır. Bu nə deməkdir? İlk növbədə o deməkdir ki, biz olduqca qısa müddət ərzində ölkəmizin bütün infrastrukturunu müasirləşdirə biləcəyik. Çünki onların bir çox hissəsi sovet vaxtlarından qalmışdır. Eyni zamanda, bu, şirkətlər üçün həmin layihələrdə iştirak etməyə əlavə imkanlar yaradır. Biz çox yaxşı nüfuza və iş keyfiyyətinə malik olan peşəkar şirkətlərin dəvət edilməsində olduqca maraqlıyıq. Çünki mənim kimi, siz də bilirsiniz ki, Almaniyada bu cür şirkətlər çoxdur. Beləliklə, alman şirkətləri Azərbaycanda işləmək üçün əlavə imkanlara malikdir. Artıq bizim iqtisadiyyatımız əvvəlki kimi xarici sərmayələrdən asılı vəziyyətdə deyildir. Biz sərmayələri alqışlayırıq və əlverişli sərmayə mühitini saxlayırıq. Bu gün ölkəmiz sərmayələrin yatırılma-

sında daxili imkanlara malikdir. Şirkətləri çeşidli layihələrdə iştirak etməyə dəvət edirik. Gələn illər ərzində Azərbaycanda böyük işlər aparılacaq və mən alman şirkətlərini bizimlə işləməyə dəvət edirəm.

Bəzən məlumatsızlıq əlavə problemlər yaradır. Ona görə də bu görüş – Azərbaycan–Almaniya biznes forumu çox yaxşı fürsətdir. İlk növbədə, siz imkanları araşdıra biləcək, gələn beş ildə Azərbaycanda nələrin baş verə biləcəyini müzakirə edəcəksiniz. Bizim bütün sahələri əhatə edən dövlət proqramlarımız var. Yoxsulluğun azaldılması, regional inkişafın təmin olunması üçün, eləcə də infrastruktur, enerji sektorunun inkişafı, o cümlədən alternativ enerji mənbələri ilə bağlı proqramlarımız var. Bizim ekologiya sahəsində də böyük proqramımız var. Hər bir proqramın özünün maliyyə mənbəyi var. Bunlar sadəcə, arzular deyil. 2007-ci ildə praktiki addımlar atılmalıdır və bu proqramların əksəriyyəti 2012-ci ilə qədər yekunlaşdırılacaqdır.

Bu görüş imkanları araşdırmaq və təmaslar qurmaq üçün əlverişli fürsətdir. Azərbaycandan gəlmiş çoxsaylı iş adamları görüşdə iştirak edir və bilirəm ki, bir neçə saziş imzalanmaq üçün artıq hazırdır. Bunlar forum zamanı imzalanacaqdır. Eyni zamanda, burada nazir də iqtisadi münasibətlərimizin müzakirəsinə dair fikirlərini ifadə etdi. O bildirdi ki, bu il ərzində Azərbaycana səfər etməyi planlaşdırır. Əminəm ki, onun səfərindən əvvəl şirkətlərimiz arasında əlavə, dövlət qurumları arasında isə yeni sazişlər imzalanacaqdır. Bütün bunlar müsbət inkişaf üçün əlverişli zəmin yaradır.

Bizim çox yaxşı əlaqələrimiz var və Azərbaycan çox yüksək iqtisadi artım sürəti ilə seçilən ölkəyə çevrilir. Qeyri-neft sektorunun fəallığından asılı olmayaraq, enerji amili, təbii ki, üstünlük təşkil edəcəkdir. Neftdən gələn gəlir qeyri-neft sektorundan əldə olunan gəlirlərlə müqayisə edilə bilməz. Biz həmin vəsaitləri iqtisadiyyatın şaxələndirilməsi üçün sərf edirik. Azərbaycanda Dövlət Neft Fondu təsis olunub, bütün gəlirlər həmin Fondda yığılır və onların xərclən-

məsi ilə bağlı qərarlar parlament tərəfindən qəbul edilir. Bir tərəfdən, mən alman şirkətlərini bizim əlverişli sərmayə mühiti olan ölkəmizə sərmayə qoymağa dəvət edirəm, digər tərəfdən, biz öz resurslarımızın əsasında sizinlə birgə tərəfdaş və podratçı kimi işləməyə hazırıq.

Əlbəttə, regionda enerji sektorunun inkişafı müxtəlif proseslərə təsir göstərir. Azərbaycan bütün dünyada quruda və dənizdə ilk dəfə neft hasil edən ölkə olmuşdur. Eyni zamanda, Azərbaycan Xəzər dənizini xarici sərmayədarlar üçün açıq elan edən ilk ölkə oldu. Biz milyardlarla dollar sərmayə cəlb etmişik və bu gün dünyanın aparıcı şirkətləri tərəfdaşlarımız arasındadır. Bu eyni zamanda, çox çətin şəraitdə və mürəkkəb bir coğrafi məkanda baş vermişdir. Çünki bizim dünya bazarlarına çıxışımız yox idi. Biz nefti çıxarmaq və onu nəql etmək imkanlarımızı əldə etdik. Bakıdan Aralıq dənizinə çəkilən boru kəməri tarixi bir nailiyyətdir. Nazir qeyd etdi ki, bu əvvəllər əfsanə hesab edilirdi. Lakin biz bu əfsanəni reallığa çevirdik.

Biz eyni addımları qaz kəmərinin çəkilməsində də atdıq. Azərbaycan qazının dünya bazarlarına çıxarılması işi artıq hazırdır. Eyni zamanda, biz Bakıdan Gürcüstan vasitəsilə Türkiyəyə dəmir yolu çəkərək Avropa ilə Asiyanı birləşdirmək üçün dəmir yolu layihəsinin də həyata keçirilməsinə başlamışıq. Azərbaycan elə bir ölkədir ki, onun ərazisindən tranzit kimi istifadə etməmək qeyri-mümkündür. İstər enerji məqsədləri, istərsə də yükdaşımalar üçün Azərbaycan çox əlverişli bir dəhlizdir. Bu səbəbdən də biz bütün bu layihələri irəli sürən bir ölkəyik. Bir çox ölkələrdən gələn müxtəlif marşrutlar və müxtəlif yollar Azərbaycandan keçir. Bu isə sadəcə, coğrafiya ilə bağlı olmayıb, Azərbaycanın qətiyyəti, baxışları və infrastrukturu sayəsində mümkün olmuşdur.

Biz boru kəmərlərinin inşasını tamamladıq, indi isə dəmir yolu tikintisi üzərində işləyirik. Hazırda həmin boru kəmərlərindən dostlarımız və qonşularımızla, bir sözlə, tərəfdaşlarımızla birlikdə istifadə edirik. Əminəm ki, sərmayədarları

qəbul edən və etibarlı tərəfdaş ölkə kimi, Azərbaycan özünü nümayiş etdirəcəkdir. Eyni zamanda, Azərbaycan tranzit ölkə kimi, etibarlı tərəfdaş olaraq qalacaqdır. Bu bizim Avropa İttifaqı ilə və ümumiyyətlə, Avropa ilə əlaqələrimizi möhkəmləndirir. Biz bu sahədə müxtəlif aspektlərdə işləyirik.

Burada qeyd edildi ki, ötən ilin noyabr ayında Brüsseldə Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalandı. Biz artıq gələcək əməkdaşlığımızı müəyyən etmişik. Eyni zamanda, biz noyabr ayında Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasətinə dair fəaliyyət planı» çərçivəsində beşillik tədbirlər planını imzalamışıq. Burada iqtisadi, sosial, mədəni və regional sahələrdə işlərin aparılması nəzərdə tutulur. Ona görə də gələn beş il ərzində Azərbaycan Avropaya daha yaxın olacaqdır. Bizim gündəliyimizdə duran məsələlər Azərbaycandakı meyarları Avropa İttifaqında olan meyarlara yaxınlaşdırmaqdan ibarətdir. Çünki Avropa modeli uğurlu bir modeldir. Avropa çox yaxşı inkişaf edir, genişlənir və yaşayış standartları təkmilləşir. Biz öz vətəndaşlarımız üçün də eyni addımları atmaq istəyirik.

Biz təhsil sahəsinə sərmayələr qoyuruq. Hər bir məktəbdə kompüterlər quraşdırır və internetə çıxışı təmin edirik. Hazırda yaxşı maliyyə vəziyyətinə malikik. Bizim böyük enerji resurslarımız var. Təbii ki, bizim üçün neft və qaz ehtiyatları ən azı, 100 il üçün də kifayət edəcəkdir. Artıq bizim daşıma sahəsində infrastrukturumuz mövcuddur və qarşıdakı iyirmi-otuz il ərzində on və ya daha çox, ola bilsin, yüz milyardlarla dollar gəlir əldə edəcəyik. Biz bilirik ki, hansı istiqamətdə sərmayə yatıracağıq. Ona görə hər bir baxımdan bizim təkrarolunmaz fürsətimiz var ki, tərəqqi edən, müasir, iqtisadi-siyasi baxımdan möhkəm ölkəyə çevrilək. Öz məqsədlərimizə nail olmaq üçün Avropa İttifaqı və eləcə də onun aparıcı ölkələri ilə əməkdaşlığımızı getdikcə artırmalıyıq.

Almaniya–Azərbaycan münasibətləri bizim əməkdaşlığımızın və planlarımızın yaxşı bir nümunəsidir. Prezident ki-

mi, mən Almaniyaya iki il yarım ərzində üç dəfə səfər etmişəm və ikinci rəsmi səfərimdir. Bütün bunlar bizim təmaslarımızın səviyyəsini göstərir. Dünənki görüşlər göstərdi ki, möhkəm əməkdaşlığımız qarşılıqlı maraq və hörmət prinsiplərinə əsaslanır. Əlbəttə, bu əsasən, qərarları qəbul edən insanlar, siyasətçilər tərəfindən həll olunur. Lakin eyni zamanda, bizim biznes icmamız var ki, onlardan və onların götürdükləri öhdəliklərdən də çox şey asılıdır. Məhz bu səbəbdən bu forum nəinki ticari və iqtisadi əlaqələrə, ümumiyyətlə, ikitərəfli münasibətlərimizə dair gündəlikdə duran bütün məsələlərə çox güclü təsir göstərəcəkdir. Ona görə mən istəyirəm ki, Almaniyanın və Azərbaycanın biznes adamları uğurlu əməkdaşlıq etsinlər. Ümid edirəm ki, bu dəfə biz bir çox sazişlərin imzalanmasının şahidi olacağıq və bu sazişlər sayəsində ikitərəfli iqtisadi əlaqələrimiz daha da artacaqdır.

Üç gün ərzində mənə və nümayəndə heyətinə göstərilmiş yüksək qonaqpərvərliyə görə bütün alman dostlarımıza minnətdarlığımı bildirirəm. Sizə və xalqınıza uğurlar arzulayıram.

Təşəkkür edirəm.

**Klaus Ksolner** (*«Şərqi və Mərkəzi Avropa Birliyi» Cəmiyyətinin sədri*): Hörmətli cənab Prezident, Sizə çıxışınıza görə təşəkkürümü bildirirəm. Siz ölkənizi çox əhatəli şəkildə təqdim etdiniz və apardığınız siyasətin hansı nəticələrinin olması barədə məlumat verdiniz. Həmin siyasət uzaqgörənliyə əsaslanır və bu gün öz bəhrələrini verməkdədir. Əldə olunan müsbət nəticələr onu göstərir ki, Siz nəinki bu gününüzü, həmçinin sabahınızı və gələcək illərinizi planlaşdırırsınız. Bu sahədə həyata keçirdiyiniz uzaqgörən siyasətiniz sayəsində ölkənizin gələcəyi artıq təmin olunubdur. Əminəm ki, Sizin simanızda elə bir ölkə başçısı ilə tanış oldum ki, məsələnin öhdəsindən gələcəkdir. Siz hər zaman biz tərəfdən dəstək ala, həmişə əməkdaşlığa əmin ola bilərsiniz.

Biz qeyd etdik ki, federal hökumət Azərbaycanda ixrac sahəsində, sadəcə olaraq, 6 faizlə iştirak edir. Mən düşündüm ki, biz bəlkə nəyisə səhv edirik ki, bu əməliyyatlarda az iştirak edirik. Axı bizim alman məhsulları əməliyyatlarda daha çox təmsil oluna bilər. Mənim bu suala cavabım belə oldu ki, ya biz başqalarından yavaş tərpənirik, yaxud da başqa səbəblər var. Siz bizi dəvət edirsiniz və bu dəvətin nəticəsində Sizə nə isə təklif etməliyik.

Bizim cənab nazirimiz Qlossun rəhbərliyi ilə nümayəndə heyətinin Azərbaycana səfəri planlaşdırılır. Bu səfər çərçivəsində işlərlə intensiv məşğul olmaq niyyətindəyik. Biz Azərbaycana açıq ürəklə və təmiz niyyətlə gələcəyik. Mən Sizə təşəkkür edirəm və fəaliyyətimizlə Sizə arxa durmağa hazırıq. Ölkənizin gələcəyi naminə gördüyünüz işlərdə Sizə uğurlar arzulayır və yenidən təşəkkür edirəm ki, Siz Almaniyaya gəlmisiniz. Çox sag olun ki, buradasınız və Sizə vətənə uğurla dönməyi arzulayıram.

* * *

*Sonra forum öz işini davam etdirdi, açıq müzakirələr oldu. Biznes-forumda Azərbaycan və Almaniya şirkətləri arasında qeyri-neft sektorunun müxtəlif sahələrinə aid bir neçə saziş imzalandı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*Almaniya İqtisadiyyat Evi*

*16 fevral 2007-ci il*

## Almaniyanin İqtisadiyyat və Yeni Texnologiyalar naziri ilə görüş

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasına rəsmi səfərinin üçüncü günü İqtisadiyyat və Yeni Texnologiyalar naziri Mixael Qloss ilə görüşmüşdür.*

*Azərbaycan ilə Almaniya arasında əməkdaşlığın yüksək səviyyədə olduğu vurğulanan görüşdə nazir Mixael Qloss ölkəmizin son illər əldə etdiyi iqtisadi inkişafı yüksək dəyərləndirdi, bu ilin oktyabrında böyük nümayəndə heyəti ilə birlikdə Azərbaycana səfərə gəlmək istədiyini, alman şirkətlərinin bir sıra mühüm layihələrdə iştirak etmək arzusunda olduqlarını bildirdi. Səfərdən məqsəd Azərbaycan prezidentinin Almaniyaya rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə verilən təkliflərin bir daha araşdırılması, əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və konkret işə başlanılmasıdır.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün potensialın mövcud olduğunu söylədi və Almaniya nümayəndə heyətinin Azərbaycana səfərə gəlmək istəyini razılıqla qarşıladı.*

## Almaniyanın Baden-Vürtemberq Federal Əyalətinin Baş naziri ilə görüş

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 16-da onun üçün ayrılmış iqamətgahda Almaniyanın Baden-Vürtemberq Federal Əyalətinin Baş naziri Günter Ettinger ilə görüşmüşdür.*

*Günter Ettinger XIX əsrdə Baden-Vürtemberqdən almanların Azərbaycana gəldiyini, burada məskunlaşdığını və İkinci dünya müharibəsi zamanı onların İosif Stalin tərəfindən köçürüldüyünü xatırlatdı. O bu federal əyalətin iqtisadi cəhətdən böyük potensiala malik olduğunu vurğulayaraq dedi ki, bizim Azərbaycanla xüsusi əlaqələrimiz var və ölkənizə böyük maraq göstəririk. Məqsədimiz Azərbaycan ilə əməkdaşlığı inkişaf etdirmək, birgə layihələr həyata keçirmək və sərmayə qoymaqdır.*

*Prezident İlham Əliyev bu təklifi razılıq hissi ilə qarşıladı, Baden-Vürtemberqin ölkəmizlə tarixi əlaqələri barədə danışdı, federal əyalətin Baş nazirini Azərbaycana səfərə dəvət etdi. Dövlətimizin başçısı ölkəmizin iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində əməkdaşlığa hazır olduğunu bildirdi.*

## Səfər başa çatdı

*Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısı Berlin şəhərinin Teygel hava limanına gəldi. Azərbaycanın və Almaniyanın dövlət bayraqları ilə bəzədilmiş hava limanında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlətimizin başçısı fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Azərbaycan prezidenti İlham Əliyevi Almaniyanın yüksək vəzifəli şəxsləri böyük hörmət və ehtiramla yola saldılar.*

*Prezident İlham Əliyev həmin gün Bakıya qayıtdı.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Peter Semnebini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Avropa İttifaqı arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanmış* və *qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilmişdir.*

## ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 fevral 2007-ci il*

**İ l h a m  Ə l i y e v:** Xoş gəlmisiniz, cənab nazir! Çox şadam ki, qısa müddət ərzində sizinlə ikinci dəfə görüşürəm.

Mən Almaniyaya səfərimdən çox razıyam. Bu səfər, şübhəsiz, bizim münasibətlərimizi yeni səviyyəyə gətirib çıxaracaqdır. Sizin bizim regiona səfərinizin böyük əhəmiyyəti var və əminəm ki, bu səfər də çox uğurlu olacaqdır. Mən Almaniyada olduğum zaman həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrə dair məsələləri çox geniş müzakirə etdim. Bütün sahələrdə çox yaxşı inkişaf var. Bir daha xoş gəlmisiniz.

**F r a n k - V a l t e r  Ş t a y n m a y e r:** Çox sağ olun, cənab Prezident! Çox sevinirəm ki, belə qısa müddətdə Sizinlə yenə görüşürəm. Səfərdən əvvəl mən çox böyük hazırlıq işi apardım və bizim mətbuatda Azərbaycan haqqında çıxan hər bir məqaləni oxudum, çox yaxşı məlumatım var. Sizi əmin etmək istəyirəm ki, Almaniya tərəfi həm Sizin səfərinizdən, həm də iqtisadi nümayəndə heyətinin fəaliyyətindən çox razı qaldı. Ümid edirəm ki, Sizin bu səfərinizdən sonra əlaqələrimiz yeni bir səviyyəyə qədəm qoyacaqdır.

## GÜRCÜSTANIN TƏBİİ SƏRVƏTLƏR VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRİ DAVİD TKEŞELAŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Prezident sarayında Gürcüstanın Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi naziri David Tkeşelaşvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin ətraf mühitin qorunması sahəsində əməkdaşlığının əlaqələrimizin daha da gücləndirilməsi baxımından önəmli olduğu bildirildi.*

*David Tkeşelaşvili Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Prezident İlham Əliyev prezident Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BAKIDA MODUL TİPLİ ELEKTRİK STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*22 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nizami rayonu ərazisində modul tipli elektrik stansiyasının açılış mərasimində iştirak etmişdir.*

*104 meqavat gücündə olan stansiyanın istismara verilməsi Abşeron yarımadasının elektrik enerjisi ilə təchizatının dayanıqlığını, habelə keyfiyyət göstəricilərini hissolunacaq dərəcədə yaxşılaşdıracaqdır. Stansiyanın işə düşməsi ilə ölkəmizin qərbindən yarımadaya ötürülən elektrik enerjisinin həcminin azalması ilə elektrik enerjisinin nəqlinə sərf olunan enerjinin miqdarı da azalacaqdır. Bu stansiya Bakı şəhərinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaqdır.*

*Azərbaycan prezidenti İlham Əliyev əvvəlcə elektrik stansiyasının inzibati binası ilə tanış oldu, buradakı fotoguşəyə baxdı. Guşədə ümummilli lider Heydər Əliyevin 1970-ci, 1990-cı və 2000-ci ilin əvvəllərində ölkəmizin müxtəlif bölgələrində təməlqoyma və açılış mərasimlərində iştirakına, eləcə də ulu öndərin həyat və fəaliyyətinə dair fotoşəkillər, kitablar, müxtəlif sənədlər, habelə onun energetika sahəsinə göstərdiyi diqqət və qayğını, energetiklərlə keçirdiyi görüşləri əks etdirən fotoşəkillər toplanmışdır. Burada prezident İlham Əliyevin 2006-cı ilin fevralında Astarada, 2006-cı ilin oktyabrında Şəkidə, 2006-cı ilin dekabrında isə Xaçmazda modul tipli elektrik stansiyalarının istfadəyə verilməsi ilə əlaqədar həmin rayonlara səfərlərini əks etdirən fotoşəkillər də vardır.*

*Prezident İlham Əliyev stansiyanın Xatirə kitabına ürək sözlərini yazdı:* «Bakı elektrik stansiyasının işə başlaması ölkəmizin enerji sisteminin möhkəmlənməsində böyük rol oynayır. Son 1 il ərzində Azərbaycanın müxtəlif bölgələrində inşa edilmiş 5 modul tipli elektrik stansiyasının hesabına elektrik enerjisi ilə təminat xeyli dərəcədə yaxşılaşıb.

Bundan sonrakı illərdə də bir neçə böyük elektrik stansiyasının tikintisi nəzərdə tutulub. Bütün bu görülən işlər ölkəmizin artan potensialını göstərir və ölkəmizi gücləndirir.

Bütün energetiklərə yeni uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

22.02.2007»

* * *

*Azərbaycan prezidenti İlham Əliyev stansiya ilə yaxından tanış oldu, burada quraşdırılmış müasir avadanlığa, bloklara baxdı.*

*Bakı elektrik stansiyası prezident İlham Əliyevin əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatını yaxşılaşdırmaq, payız-qış mövsümlərində müşahidə olunan enerji çatışmazlığını tez bir zamanda aradan qaldırmaq məqsədi ilə «Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» 2005-ci il mayın 2-də imzaladığı Sərəncama uyğun olaraq tikilmişdir.*

* * *

*Sonra prezident İlham Əliyev kompüterin düyməsini basaraq, elektrik stansiyasını işə saldı, buraya toplaşan inşaatçılarla görüşdü və onlara təşəkkür edərək dedi:*

– Sizi stansiyanın açılışı münasibətilə təbrik edirəm. Çox gözəl stansiyadır. Azərbaycanda son bir il ərzində tikilən

modul tipli beşinci stansiyadır və bizim energetika sistemimizi möhkəmləndirir. Bu onu göstərir ki, Azərbaycanın çox güclü potensialı var. Əgər biz bir il ərzində 5 stansiyanı işə salmışıqsa, deməli, istənilən məsələni həll edə bilərik. İndi də mən məqsəd qoymuşam ki, gərək qısa müddət ərzində bütün energetika sistemində yenidənqurma işləri aparılsın. Yeni xətlər çəkilməlidir. Stansiyalar kifayət qədər tikilibdir. İndi Sumqayıtda da tikilir, Bakıda, Səngəçalda tikiləcəkdir. Biz indi əsas gücümüzü xətlərin bərpasına və yenidən çəkilməsinə, transformatorların dəyişdirilməsinə yönəltməliyik. Bütün bu işlərə böyük ehtiyac var. Çünki əfsuslar olsun, indiyə qədər bu sahəyə böyük diqqət göstərilməyibdir. Azərbaycanın, Bakının elektrik şəbəkəsini işlədən xarici şirkət faktiki olaraq, bizim enerjipaylayıcı sistemimizi bərbad vəziyyətə salmışdır. İndi bunu yenidən qurmalıyıq, böyük vəsait ayrılıbdır. Ümid edirəm ki, 2007–2008-ci illərdə bütün enerji təsərrüfatımız tam şəkildə ən yüksək səviyyəyə qalxacaqdır. Bunu etmək üçün imkan var, biz maliyyə vəsaiti ayırırıq. Bu stansiyaların tikintisinə 100 milyonlarla vəsait ayrılıbdır. Bunu növbəti illərdə də edəcəyik. Elə etməliyik ki, Azərbaycanda elektrik enerjisi təminatı ilə heç bir problem olmasın. Bizim tələbatımız artır, yeni müəssisələr, fabriklər işə düşür, əhali artır və hər yerdə işıq olmalıdır. Düzdür, son illər ərzində bu sahədə böyük irəliləyiş var, amma bu bizi tam şəkildə qane etmir. Ona görə bunu əsaslı şəkildə etməliyik. Bizim uzunmüddətli proqramımız var, bu yaxınlarda qəbul edilibdir. İndi əsas məsələ o proqramın icrasıdır və biz buna nail olmalıyıq. Bunu da edəcəyik, çünki maliyyə imkanlarımız artır.

Sizə, bu tikintidə iştirak etmiş bütün insanlara təşəkkür edirəm ki, qısa müddət ərzində belə gözəl stansiya yaratmış, Bakı əhalisinin sərəncamına vermisiniz. Arzu edirəm ki, burada səmərəli işləyəsiniz və ölkəmizin güclənməsinə bundan sonra da töhfənizi verəsiniz. Sizi bir daha təbrik edirəm.

Sağ olun.

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizə və bütün Küveyt xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Əmin olduğumu bildirirəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq, Azərbaycan ilə Küveyt arasındakı münasibətlərin dostluq və əməkdaşlıq məcrasında hərtərəfli inkişafı üçün qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *13 fevral 2007-ci il*

## MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Prezident sarayında Moldova Respublikasının Baş naziri Vasile Tarlevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı qonaqları səmimiyyətlə salamlayaraq dedi ki, hökumətdə keçirilən görüşdə komissiyanın iclasında ikitərəfli əlaqələrə dair məsələləri müzakirə etmisiniz. Azərbaycan Moldova ilə iqtisadi sahədə əməkdaşlığın fəallaşmasına ümid bəsləyir. İki ölkənin siyasi münasibətləri çox uğurla inkişaf edir, Moldova prezidentinin Azərbaycana və Azərbaycan prezidentinin Moldovaya rəsmi səfərləri olmuşdur. Prezident İlham Əliyev qeyd etdi: «Biz beynəlxalq təşkilatlar çərçivəsində də, ikitərəfli səviyyədə də fəal işləyirik». Dövlətimizin başçısı iqtisadi əməkdaşlığın yaxşı perspektivləri olduğundan danışaraq əminliyini bildirdi ki, Moldova Baş nazirinin səfəri iki ölkənin ticarət-iqtisadi münasibətlərinin inkişafına təkan verəcəkdir. Azərbaycan prezidenti dedi: «Potensial mövcuddur, ikitərəfli iqtisadi əlaqələr üçün imkanlar və onları inkişaf etdirmək arzusu var. Biz müttəfiq, tərəfdaş ölkələrik. Ona görə də fəal əməkdaşlığa ümid bəsləyirik». Vasile Tarlev Azərbaycan dövlətinin başçısına minnətdarlığını bildirərək dedi ki, bu, Moldova Baş nazirinin Azərbaycana ilk rəsmi səfəridir. Azərbaycan–Moldova hökumətlərarası komissiyası iclasının yekunu olaraq müxtəlif sahələrdə əməkdaşlıq haqqında altı saziş imzalanmışdır. Moldova ilə Azərbaycan arasında heç bir siyasi problem yoxdur. Baş nazir vurğuladı ki, iki ölkənin hökumətləri, nazirlikləri və baş idarələri arasında yaxşı münasibətlər yaranmışdır. Biz ikitərəfli və çoxtərəfli səviyyədə kifayət qədər uğurla əməkdaşlıq edirik.*

## XOCALI SOYQIRIMININ 15-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Sizə xalqımızın tarixində kədərli və faciəli bir səhifə, insanlığa qarşı ən qəddar və amansız kütləvi terror hadisələrindən biri olan Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar müraciət edirəm. 1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi.

Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi. Ayrı-ayrı dövrlərdə böyük dövlətlərin maraqları çərçivəsində cərəyan edən bu siyasət bütün məqbul və qeyri-məqbul vasitələrlə – siyasi, iqtisadi, hərbi, terror və ideoloji yolla davam etdirilmiş, soydaşlarımız yaşayış yerlərindən sıxışdırılmış, tarixi Azərbaycan əraziləri zaman-zaman ermənilər tərəfindən zəbt edilmiş və ələ keçirilmişdir. XX əsrin 80-ci illərinin sonlarında isə Ermənistanın Azərbaycana yeni ərazi iddiaları genişmiqyaslı hərbi münaqişəyə gətirib çıxardı. Bu məkrli siyasət nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi erməni

hərbi birləşmələri tərəfindən işğal edildi, on minlərlə insan həlak oldu və yaralandı, yüz minlərlə soydaşımız ev-eşiyindən didərgin salındı, qaçqın və məcburi köçkün vəziyyətinə düşdü.

Xocalı qırğınını törətməklə erməni millətçiləri hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin düşmənin niyyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi.

Xocalı faciəsi həm də ölkədaxili hakimiyyət mübarizələrinin dövlətimiz üçün nə qədər təhlükəli və fəlakətli nəticələr verdiyini göstərdi. O zaman həm Azərbaycanın rəsmi rəhbərliyi, həm də ölkədə vəziyyətə təsir etmək imkanı olan siyasi qüvvələr xalqın taleyinə tam biganəlik nümayiş etdirdilər. Dövlət rəhbərliyi bu dəhşətli cinayət haqqında dünya ictimaiyyətinə tam və operativ məlumat vermək üçün heç bir addım atmadı, müxalifət isə qanlı faciədən xalqın narazılıq dalğası üzərində hakimiyyətə gəlmək məqsədi ilə istifadə etdi.

Yalnız ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü.

Azərbaycan hökuməti erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Biz həm də erməni millətçilərindən fərqli olaraq, bu məsələdən hər hansı siyasi, maliyyə, ərazi və başqa dividendlər qazanmaq məqsədi güdmürük. Məqsədimiz tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. Ona görə də erməni şovinist mil-

lətçilərinin regionda həyata keçirdikləri etnik separatizmin, başqa xalqlara qarşı nifrət və terror ideologiyasının dünya üçün təhlükəsi açılıb göstərilməlidir. Bu, qəhrəman Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur.

Hazırda Azərbaycan dövləti və cəmiyyəti öz inkişafında quruculuq və yüksəliş dövrünü yaşamaqdadır. Respublikamız iqtisadi inkişaf templərinə görə dünyada lider mövqeyə çıxmışdır. Ölkəmiz regional və beynəlxalq enerji-kommunikasiya layihələrinin əsas iştirakçısı və təşəbbüsçüsüdür. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, digər sosial və infrastruktur layihələr uğurla reallaşdırılır. Dövlətimizin iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu günü-gündən artır, insanlarımızın vətənpərvərliyi, milli mənlik şüuru güclənir. Bir sıra beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlərin rəhbərləri, parlamentləri Ermənistanın işğalçı dövlət olduğunu qəbul edir, ondan işğal etdiyi Azərbaycan ərazilərini azad etməyi tələb edirlər. Təcavüzkar Ermənistan özünü bütün regional layihələrdən kənarda qoymuş, hərtərəfli təcrid vəziyyətinə düşmüşdür. Bütün bunlar və mövcud vəziyyət qarşıda duran vəzifələrin yerinə yetirilməsində, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həlli istiqamətində bizim başlıca arqumentlərimizdir, gücümüzün və uğurlarımızın əsasıdır.

Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidir. Bu istiqamətdə görülən işləri razılıqla qeyd etməklə yanaşı, onu da bildirmək istərdim ki, tədbirlər daha əhatəli, planlı şəkildə aparılmalı və əlaqələndirilməlidir. Bu işdə Azərbaycan və türk diaspor təşkilatlarının yeni yara-

dılan birliyi, fəaliyyətinin əlaqələndirilməsi böyük əhəmiyyətə malik ola bilər. Biz mübarizədə öz gücümüzə, potensialımıza, beynəlxalq hüquqa, dünya azərbaycanlılarının həmrəyliyinə arxalanırıq.

Hörmətli həmvətənlər və soydaşlar! Əziz Xocalı sakinləri!

Bu kədərli anım günlərində Xocalı şəhidlərinin və qəhrəmanlarının əziz xatirəsini ehtiramla yad edərək, Allahdan onlara rəhmət diləyir, yaxınlarına, bütün xalqımıza dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2007-ci il*

## AZƏRBAYCANDA KİNO SƏNƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ HAQQINDA

### Azərbaycan Respublikası Prezidentinin sərəncamı

Azərbaycanda kino sənəti bir əsrdən artıq dövr ərzində əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçmiş və xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynamışdır. Ölkəmizdə onun yaranma tarixi XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı ilə sıx bağlıdır. Neftin sənaye üsulu ilə hasilatına başlanması nəticəsində Bakının iqtisadi dirçəlişi milli mədəniyyətin bir çox sahələri ilə yanaşı, kino sənətinin də meydana çıxması üçün əlverişli zəmin yaratmışdır. Burada artıq 1898-ci ildən etibarən xarici filmlər göstərilməyə başlanmış, həmin il avqustun 2-də isə neft Bakısından bəhs edən birinci xronikal kinosüjetlər nümayiş etdirilmişdir.

XX əsrin ilk onilliklərindəki Azərbaycan kinosu xalq adət-ənənələri və məişətinin dolğun təsvir olunduğu «Neft və milyonlar səltənətində», «Arşın mal alan» kimi ilk bədii filmlərlə xüsusən yadda qalmışdır. 20-ci illərdə Azərbaycan Foto-Kino İdarəsinin təsis edilməsi, birinci dövlət kinofabrikinin açılması, aktyor və rejissor studiyalarının təşkili, sənədli və elmi-kütləvi filmlərin istehsalı milli kino sənətinin formalaşmağa başlamasının bariz nümunəsi sayıla bilər. Sonrakı illərdə cizgi kinosunun əsasının qoyulması, respublikada ilk səsli filmin ekranlara buraxılması və filmlərin Azərbaycan dilində səsləndirilməsi, yeni uğurlu kino əsərlərinin yaradılması Azərbaycan kinosunun təşəkkül tapdığını göstərir. Bu dövrdə Azərbaycan kinostudiyasında çəkilən bir sıra filmlər xarici ölkələrdə də rəğbətlə qarşılanmışdır. 1945-ci ildə ikinci dəfə ekranlaşdırılan «Arşın mal alan» filmi ayrı-ayrı dillərə dublyaj

olunaraq, dünyanın müxtəlif guşələrində böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdir.

Sovet İttifaqında kino sənətindən, həmçinin dövlət ideologiyasının təbliğat maşını kimi istifadə edilsə də, Azərbaycanda kino yaradıcılığı işi həmin dövrdə təşkil olunmuşdur. Azərbaycan kinematoqrafiyası məhz o illərdə sistemli fəaliyyəti sayəsində getdikcə öz imkanlarını artıraraq, ciddi sənət nailiyyətləri qazanmışdır. Kinomuzun yeni inkişaf mərhələləri yaşadığı bu dövrdə ssenarist, rejissor, operator, rəssam kadrlarının bir neçə nəsli yetişmiş və milli özünəməxsusluğu ilə sevilən koloritli, parlaq ekran əsərləri yaradılmışdır. Azərbaycan kinosu tarixinin əsl yetkinlik dövrü sayılan 80-ci illərdə isə kino salnaməmizin unudulmaz səhifələrini təşkil edən və artıq mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər, ölməz «Kitabi-Dədə Qorqud» eposunun motivləri əsasında «Dədə Qorqud» filmi yaradılmış, digər görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir.

1991-ci ildən etibarən dövlətin vahid kino sistemi dağılmağa başlamış və Azərbaycan kinematoqrafiyası bir sıra çətinliklərlə qarşılaşmışdır. Keçid mərhələsindəki ciddi problemlərə baxmayaraq, müstəqillik dövründə Azərbaycan kinosu öz yaradıcılıq potensialı sayəsində qısa vaxt ərzində müəyyən uğurlar əldə etmişdir. Bununla yanaşı, milli kino ənənələrinin qorunması və Azərbaycan kinosunun dünya kinematoqrafiyasının tərkib hissəsi olaraq yeni şəraitdə fəaliyyət göstərə bilməsi üçün bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə zərurət yaranmışdır.

Azərbaycan milli kinosunun respublikamızın mədəni həyatındakı əhəmiyyətini və gələcək inkişaf perspektivlərini nəzərə alaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə tapşırılsın ki:

1.1. «Azərbaycanfilm» kinostudiyasının maddt-texniki bazasının müasir kino texnikası tələblərinə uyğun texnoloji avadanlıqla təchiz edilərək, əsaslı şəkildə yenidən qurulması

ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycanın kinoteatrlar şəbəkəsinin yenidən qurulmasına, o cümlədən mövcud kinoteatr binalarında təmir-bərpa işlərinin aparılmasına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Bakı şəhərinin «Nizami» kinoteatrında müasir tələblərə cavab verən xidmət və texniki şəraitin yaradılması ilə bağlı təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. Azərbaycan Dövlət Film Fondunun yeni binasının inşası ilə bağlı və XX əsr Azərbaycan kinosunun tarixini əks etdirən kinolentlərin lazımi şəraitdə mühafizəsinə dair təkliflərini 2007-ci il 31 mart tarixinə qədər Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.5. xalqımızın tarixi və mədəni irsini özündə əks etdirən filmlərin çəkilişinin həyata keçirilməsini təmin etsin;

1.6. dünyanın aparıcı kino şirkətləri ilə müştərək filmlərin istehsalı da nəzərə alınmaqla, «Azərbaycan kinosu 2008–2018-ci illərdə» Dövlət Proqramına dair təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7. Azərbaycanda xarici ölkələrin istehsalı olan filmlərin dublyaj qaydalarına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. Azərbaycan Respublikasının kinematoqrafiya sahəsində normativ hüquqi bazasının təkmilləşdirilməsi haqqında təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Təhsil Nazirliyinin təklifləri əsasında kinematoqrafiya üzrə yüksək peşəkarlığa malik yerli kadrların ölkədə və ölkə xaricində hazırlan-

masına dair müvafiq proqram layihəsini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2007-ci il*

## «TOTAL» ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında «Total» şirkətinin Kontinental Avropa və Mərkəzi Asiya regionu üzrə Baş vitse-prezidenti Arno Breyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Arno Breyak prezident İlham Əliyevin bu ilin yanvar ayında Fransaya dövlət səfərinin uğurla keçdiyini bildirərək, bu səfərin iki ölkə arasındakı əlaqələrin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük əhəmiyyəti olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı «Total» şirkətinin Azərbaycanda uzun illər müvəffəqiyyətlə fəaliyyət göstərdiyini xatırlatdı, şirkət ilə əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## «ŞEVRON» KORPORASİYASININ DİREKTORLAR ŞURASI SƏDRİNİN MÜAVİNİ PETER ROBERTSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında «Şevron» korporasiyasının Direktorlar Şurası sədrinin müavini Peter Robertsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Peter C.Robertson Azərbaycanın energetika sahəsində əldə etdiyi böyük nailiyyətlər, xüsusilə Bakı–Tbilisi–Ceyhan və Bakı–Tbilisi–Ərzurum kimi qlobal boru kəmərlərinin inşası ilə əlaqədar prezident İlham Əliyevi təbrik etdi.*

*Görüşdə «Şevron» korporasiyası ilə ölkəmiz arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## ATƏT-in BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ XOSE LUİS HERRERO ANSOLA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında ATƏT-in Bakı Ofisinin yeni təyin olunmuş rəhbəri Xose Luis Herrero Ansolanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Xose Luis Herrero Ansolanı yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi edildi.*

**BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Bolqarıstan dövlətlərarası münasibətlərin bugünkü səviyyəsindən məmnunluq duyuram. Əminəm ki, dost ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığının dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Bolqarıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2007-ci il*

**QANA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON KOFİ AQİYEKUM KUFUORA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2007-ci il*

**LATVİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM VAYRA VİKE-FREYBERQAYA**

Hörmətli xanım Prezident!

Alsunqadakı əlillər pansionatında baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Latviya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 fevral 2007-ci il*

## İRANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏFŞAR SÜLEYMANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Prezident sarayında İran İslam Respublikasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Əfşar Süleymanini diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı Əfşar Süleymaninin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndiyini və bu əlaqələrin inkişafına səfirin də töhfə verdiyini bildirdi. İranlı həmkarı ilə ötən müddət ərzində bir neçə səmərəli görüşlər keçirdiyini vurğulayan prezident İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadın Naxçıvana və Bakıya səfərlərini xatırlatdı və ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişaf etdiyini bildirdi.*

*Səfir Əfşar Süleymani xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini məmnunluqla xatırladığını bildirdi, Azərbaycan prezidenti İlham Əliyevin İrana səfərinin ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynadığını vurğuladı. Azərbaycanda işlədiyi illərin böyük təəssüratla yadda qalacağını deyən səfir diplomatik fəaliyyəti dövründə ona göstərilən diqqət və qayğıya görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi.*

## HADSON İNSTİTUTUNUN AVRASİYA SİYASƏTİ ÜZRƏ MƏRKƏZİNİN DİREKTORU ZEYNO BARAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Prezident sarayında ABŞ-ın Hadson İnstitutunun Avrasiya siyasəti üzrə mərkəzinin direktoru Zeyno Baranı qəbul etmişdir.*

*Görüşdə beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ İKİNCİ RƏİSİ ERGİN SAYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının ikinci rəisi Ergin Sayqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan–Türkiyə dostluğunun və qardaşlığının bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etdi. Türkiyəli qonağın ölkəmizə bu səfərinin gələcək əməkdaşlığımıza töhfə verəcəyini vurğuladı.*

*Qonaq Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Böyük Anıtın salamlarını Azərbaycan prezidenti İlham Əliyevə çatdırdı. O dedi ki, Azərbaycana ilk dəfə gəlməsinə baxmayaraq, ölkəmiz onda böyük təəssürat oyatdı. Azərbaycana səfərindən məqsəd gələcək əməkdaşlığımızla bağlı fikir mübadiləsi aparmaqdır.*

*Prezident İlham Əliyev ordu generalı Yaşar Böyük Anıtın salamlarına görə minnətdarlığını bildirdi, özünün də salamlarını ona çatdırmağı xahiş etdi.*

## BMT-nin REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezanı qəbul etmişdir.*

*Qonaq Azərbaycanda fəaliyyətə başlamasından məmnunluğunu bildirdi. O, prezident İlham Əliyevin müdrik rəhbərliyi və güclü idarəçiliyi sayəsində respublikamızda görülən çox böyük işlərin şahidi olduğunu dedi. Bruno Pueza Azərbaycanın böyük potensiala malik olduğunu qeyd etdi və BMT-nin rezident-əlaqələndiricisi kimi fəaliyyəti dövründə ölkəmizin daha da inkişafı üçün bütün imkanlardan istifadə edəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı BMT-nin rezident-əlaqələndiricisi Bruno Puezaya yeni təyinatı münasibətilə təbriklərini çatdırdı. Azərbaycanın böyük inkişaf mərhələsində olduğunu bildirən prezident İlham Əliyev respublikamızda bütün sahələrdə aparılan inkişaf və quruculuq işlərindən danışdı, diplomata ölkəmizdəki fəaliyyətində uğurlar arzuladı.*

# POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ ANNA FOTIQANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında Polşa Respublikasının Xarici İşlər naziri Anna Fotıqanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Polşanın prezidenti Lex Kaçinski ilə görüşlərini məmnunluqla xatırlatdı. Azərbaycan ilə Polşa arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirən prezident İlham Əliyev iki ölkə arasındakı əməkdaşlığın səviyyəsindən razılığını ifadə etdi. Dövlətimizin başçısı Polşa nazirinin səfərinin əlaqələrimizin daha da gücləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Anna Fotıqa Polşa prezidenti Lex Kaçinskinin salamlarını Azərbaycanın dövlət başçısına çatdırdı. İki ölkə arasında diplomatik münasibətlərin 15 ilə yaxın bir müddət ərzində qurulduğunu qeyd edən qonaq bu əlaqələrin Polşa üçün çox vacib olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Polşa prezidenti Lex Kaçinskinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Polşanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## QEYDLƏR

**1. Olimpiya oyunları** – Qədim Yunanıstanda Olimpiya şəhərində e.ə.776-cı ildən Zevsin şərəfinə (ənənəyə görə 4 ildən bir) keçirilən ümumyunan bayramı və yarışları. Olimpiya oyunlarının keçirildiyi müddətdə bütün yunanlar üçün «Müqəddəs sülh» məcburi idi.

Müasir dövrdə ən böyük beynəlxalq kompleks idman yarışları. P.de Kubertenin təşəbbüsü ilə 1896-cı ildən keçirilir. Olimpiya oyunları proqramına Beynəlxalq Olimpiya Komitəsinin təsdiq etdiyi idman növləri daxil edilə bilər. – 5–15.

**2. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siya-

səti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 5,7,17,18,32,49,59,88,90,98,114,130,131, 153, 166,174,199,202,251,292,298.

**3. Çingiz Hüseynzadə,** Çingiz Muxtar oğlu (d.1951) – şərqşünas. Azərbaycan Atletika Federasiyasının prezidenti. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 6,14.

**4. Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 6,138.

**5. İlqar Rəhimov,** İ l q a r  E l x a n  o ğ l u (d.1964) – 1996-cı ildən Azərbaycan Milli Paraolimpiya Komitəsinin prezidentidir. –7.

**6. Ələkbər Məmmədov** (1930–2014) – Azərbaycan futbolçusu. SSRİ Əməkdar idman ustası. Dörd dəfə (1954,1955, 1957,1959) SSRİ çempionu. «Neftçi» və Moskvanın «Dinamo» futbol komandalarının, futbol üzrə Avropanın ilk kubokunu alan SSRİ yığma komandasının (1958) heyətlərində çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 7.

**7. Zərifə Salahova,** Z ə r i f ə  T e y m u r  q ı z ı (d.1932) – ictimai xadim. Miniatür kitab muzeyinin təsisçisi və rəhbəri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 7.

**8. Sidney** – Avstraliyada şəhər. Yeni Cənubi Uels ştatının inzibati mərkəzi. Əsası 1788-ci ildə qoyulmuşdur. – 11.

**9. Afina** – Yunanıstanın paytaxtı, əhalisi 2,5 milyon nəfərdən çoxdur. Afina Yunanıstanın ən qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Qədim Yunanıstanda Afina mühüm iqtisadi, siyasi və mədəni mərkəz, şəhər-dövlət idi. E.ə. 146-cı ildən Romanın tabeliyində, IV əsrdən 1204-cü ilədək Bizans imperiyasının tərkibində olmuşdur. 1204–1458-ci illərdə Afina hersoqluğunun paytaxtı idi. 1458-ci ildə Afinanı türklər tutmuşdu. 1834-cü ildən Afina Yunanıstanın paytaxtıdır.

Afina Yunanıstanın siyasi, iqtisadi və mədəni mərkəzidir. Afinada qədim yunan memarlığının abidələri qorunub saxlanılır. – 11.

**10. Elnur Məmmədli** (d.1986) – 2006-cı ildə cüdo üzrə Avropa çempionu, 2007-ci ildə dünya çempionatının gümüş mükafatçısı, 2008-ci il Pekin Olimpiya oyunlarında isə 73 kq çəki dərəcəsində Olimpiya çempionu olmuşdur. – 14.

**11. Kifayət Qasımova,** Kifayət Yaqub qızı (d.1983) – cüdo üzrə idman ustası. 2006-cı ildə Avropa çempionatının gümüş, 2007, 2008-ci illərdə bürünc, 2009-cu ildə dünya çempionatının bürünc mükafatçısı olmuşdur. 2008-ci il Pekin, 2012-ci il London Olimpiya oyunlarında Azərbaycanı təmsil etmişdir. – 14.

**12. Qurban Tağıyev,** Qurban Vaqif oğlu (d.1978) – karate üzrə dünya və Avropa çempionu. 3-cü dana layiq görülmüşdür. – 14.

**13. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** – ali idman təhsil müəssisəsi. 1930-cu ildə yaradılmışdır. Akademiyanın üç fakültəsində 2000-dən çox tələbə təhsil alır. 240 professor və müəllim heyəti var. Akademiya Beynəlxalq İdman Federasiyası ilə əlaqə saxlayır. – 14.

**14. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 17,30,31,32,36,37,48,61,85, 91,95,135,144,160,161,163,164,171,173,174,175,200,244,278.

**15. Bakı–Tbilisi –Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan keçir, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. –17,30,32,37,85,91,95,135, 160,161,163,164,171,173,174,175,200,244,278.

**16. «Şahdəniz»** –Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 17,48,61,171, 202,254.

**17. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 18,33,34,35,36,48, 64,65,67,68,74,85,86,94,105,133,146,195,219,230,231,232,233, 238,258,259,260,261,263,264,265,271,272,299.

**18. Nikaraqua,** N i k a r a q u a R e s p u b l i k a s ı – Mərkəzi Amerikada dövlət. Sahəsi 130 min $km^2$, əhalisi 4,94 milyon nəfərdir. İnzibati ərazisi 15 departamentə və 2 muxtar əraziyə bölünür. Dövlət başçısı prezidentdir. Məsləhətçi qanunverici orqanın funksiyalarını Dövlət Şurası yerinə yetirir. Paytaxtı Manaqua şəhəridir. – 19.

**19. Saavedra Xose**, X o s e D a n i e l O r t e q a S a a v e d r a (d.1945) – Nikaraqua siyasi xadimi. Diktator Somosa rejimini yıxan 1979-cu il Sandinist inqilabının liderlərindən biri. 1985–90-cı illərdə və 2006-cı ildən yenidən Nikaraquanın prezidentidir. – 19.

**20. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Paytaxtı Kazan şəhəridir. Sahəsi 68 min $km^2$, əhalisi 3,780 milyon nəfərdir. – 20.

**21. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17.075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 20,34,53,54,62,64,67,77,226,228,230.

**22. Şaymiyev Mintimir** (d.1937) – Rusiya dövlət xadimi. 1985–89-cu illərdə Tatarıstan MSSR Ali Sovetinin sədri, 1991–2011-ci illərdə Tatarıstan Respublikasının prezidenti olmuşdur. – 20.

**23. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 21.

**24. Helen Klark** (d.1950) – Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal Partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini bərk tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın respublikaya çevrilməsini «qaçılmaz» hesab etmişdir. – 21.

**25. 1990-cı ilin 20 yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mü-

barizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 22.

**26. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl - abidə qoyulmuşdur. – 22.

**27. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 3,3 milyon km$^2$, əhalisi 1,016 milyard nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 23,24.

**28. Əbdül Kalam** (d.1931) – 2002–2007-ci illərdə Hindistan Respublikasının prezidenti. Əbdül Kalam Hindistanda raket və yerətrafı peyk proqramının yaradıcılarındandır. 1980-ci ildə onun başçılığı ilə birinci hind SLV–3 yerətrafı süni peyki kosmosa göndərilmişdir. – 23.

**29. Manmohan Sinqh** (d.1932) – Hindistan dövlət və siyasi xadimi. Hindistan Respublikasının 14-cü Baş naziri. – 24.

**30. Avstraliya,** A v s t r a l i y a İ t t i f a q ı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Ərazisi 7,7 milyon km$^2$, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nü-

mayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 25.

**31**. **Con Hovard** (d.1939) – 1996-cı ildən Avstraliyanın Baş naziri. Avstraliya Liberal Partiyasının lideri. – 25.

**32. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 $km^2$, əhalisi 102,6 min nəfərdir. – 32,292.

**33. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 $km^2$, əhalisi 169 min nəfərdir. – 32,195,206,209,292.

**34. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2.43 min $km^2$, əhalisi 179,1 min nəfərdir. – 32,195,292.

**35. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min $km^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fev-

ralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 32,49,206,268,311.

**36. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 34,64, 66,74,86,94,106,113,259,265,273.

**37. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 34,64,66,180,307.

**38**. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məslə-

hət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 34,35,64,66,70,151,230,256,259,273.

**39. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox Avropa dövlətləri də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 34,35,48,62,64,66,67,71,72,85,94, 105,118,141,142,219,220,221,223,227,230,238,240,241,251, 255,259,262,273,277,278,279,284,289.

**40. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon $km^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34,36,63,64,67, 73,77,81,152,155–156,193,226,227,228,229,230,250,270,312.

**41. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min $km^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 34,59, 61–72,77,83–125,169,230.

**42. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 34,64.

**43. GUAM –** Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 34,35,64,66,273.

**44. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76,5 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 34,36,61,72, 91,159–165,168–177,200,227,230,255,267,268,270,283,313.

**45. Ukrayna,** U k r a y n a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min km$^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – RADA –34,62,80,81,223.

**46. Gürcüstan,** G ü r c ü s t a n  R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 34,36,62,157–177,182,200,255,261,263,265,267,268, 270,283,291.

**47. Moldova,** M o l d o v a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,18 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət

başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 34,261,296.

**48. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 35,64,66,127, 133,231,259,272,273,314.

**49. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanmışdır. Yolun uzunluğu 105 km-dir. Gürcüstanın Axalkalaki stansiyasından Qars şəhərinə qədər olacaqdır. Yolun çəkilişi təxminən 2015-ci ilin ortalarında başa çatmalıdır. –36,37,95,135,158,159,160,163,164,168, 171,172,174,175,176,177,182,190,200,242,244,267,269.

**50. Konqres,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 36.

**51. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 218,2 min nəfərdir. – 38,40,54,195,268.

**52. Açıq ürək əməliyyati** – Cərrahi əməliyyatla edilən müdaxilə – yəni torakotomiya, cərrahiyyə zamanı pasiyentin döş qəfəsi açılır, ürəyin fəaliyyətini saxlayan klapanların, əzələlərin manipulyasiyasını öz üzərinə götürən süni qan dövranı aparatı taxılır.

Bu cərrahiyyə əməliyyatına hələ keçən əsrin 40-cı illərində başlanmışdır. Hazırda bu əməliyyat təzə doğulan körpələr üzərində də böyük müvəffəqiyyətlə həyata keçirilir. – 38.

**53. Heydər Babayev,** H e y d ə r  A y d ı n  o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 39,206.

**54. Fazil Məmmədov,** F a z i l  Ə s ə d  o ğ l u (d.1964) – iqtisadçı. 2000-ci ildən Azərbaycan Respublikasının Vergilər naziridir. – 39.

**55. Aydın Əliyev**, A y d ı n  Ə l i  o ğ l u (d.1957) – hüquqşünas, gömrük xidməti general-leytenantı. 2006-cı ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədridir. – 39.

**56. Səlim Müslümov**, S ə l i m  Y a n v a r  o ğ l u (d.1961) – iqtisadçı, iqtisad elmləri doktoru. Gömrük xidməti general-mayoru. 2013-cü ildən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 39.

**57. Mərkəzi Bank,** M i l l i  B a n k – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB

valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının tədiyə-hesablama balansının tərtibinə rəhbərlik edir. – 40.

**58. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 48,79,199,253,268,282.

**59. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilmişdir. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Təşkilatın ölkənin 55 rayonunda xidmət məntəqələri vardır. – 50, 205.

**60. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan

Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 51,53,82,226.

**61. Mingəçevir** – Azərbaycanda şəhər. «Mingəçevir» sözünün etimologiyası barədə müxtəlif mülahizələr var. Akademik Z.Bünyadov Mingəçevirin adını 839-cu ildə Azərbaycanda Xilafətə qarşı çıxmış Minkiçəvr əl-Fərqaninin adı ilə əlaqələndirir. XVII əsr türk səyyahı Evliya Çələbi «Səyahətnamə» əsərində Kür çayının sağ sahilində ipək parça emalatxanaları, məscidi və hamamı olan Mingəçevir adlı yaşayış məntəqəsi barədə məlumat verir. Mingəçevir II dünya müharibəsindən sonrakı illərdə yaradılmış iri sənaye mərkəzlərindəndir. İndiki Mingəçevir hidrotexniki kompleksin tikintisi ilə əlaqədar salınmışdır. – 52.

**62. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 52,53,58,137.

**63. «Azəri», «Çıraq», «Günəşli»** – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. «Azəri», «Çıraq» neft yataqları iki əsas lay dəstindən ibarətdir: Fasilə və Balaxanı. Konsorsium əvvəlcə hasilata Fasilə layından başlayıb. «Azəri», «Çıraq»da hasilat 1997-ci ilin noyabr ayında başlamışdır. – 52,202.

**64. «Qazprom»** – Rusiyanın qaz istehsal edən və qaz paylayan şirkəti. Dünyanın ən böyük qaz ixrac edən şirkətlərindən biri. Şirkətin hazırkı adı – Rusiya «Qazprom» Səhmdar Cəmiyyətidir. Mənzil-qərargahı Moskvadadır. – 53,62,81.

**65. Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 53.

**66. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 54, 202,212,237,280.

**67. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 $km^2$, əhalisi 123,4 min nəfərdir. – 54,195.

**68. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min $km^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı – birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 55,77.

**69. Azərbaycan Tarixi Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi-mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 57.

**70. Azərbaycan Ədəbiyyatı Muzeyi,** A z ə r b a y c a n R e s p u b l i k a s ı M E A N i z a m i a d ı n a M i l l i A z ə r b a y c a n Ə d ə b i y y a t ı M u z e y i – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək

Azərbaycan ədəbiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 57.

**71. Azərbaycan Dövlət İncəsənət Muzeyi –** (R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi nəzərdə tutulur.) 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda on minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. – 57.

**72. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi,** Lətif Kərimov adına – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, sonsuz çeşidləri qorunub saxlanılır. Bu gun muzeyin 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 57.

**73. Respublika Muzey Mərkəzi** – 1960-cı ildə məşhur Azərbaycan memarı Həsən Məcidovun layihəsi əsasında V.İ.Leninin anadan olmasının 90 illiyi münasibətilə tikilmiş və 1961-ci ildə Moskvadakı Lenin muzeyinin filialı kimi fəaliyyətə başlamışdır.

1991-ci ildə SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə verilmiş və Muzey Mərkəzi adını almışdır. – 57.

**74. Muğam mərkəzi** – Bakıda, dənizkənarı Milli parkda açılmış mədəniyyət mərkəzi. Muğam mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə edilmişdir. – 57.

**75. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanır. Bu teatr 1880–90-cı illərdə C.Zeynalovun ev tamaşaları, H.Mahmudbəyovun və H.B.Zərdabinin teatr truppaları əsasında yaradılmışdır.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı və buraya bütün teatr truppaları daxil oldu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başladı. – 57.

**76. Azərbaycan Dövlət Opera və Balet Teatrı** – Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 57.

**77. Azərbaycan Dövlət Rus Dram Teatrı** – Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən

Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanır. Teatrın repertuarı «Don Karlos» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» və s.əsərlərlə zəngin olmuşdur. – 57.

**78. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı –** XX əsrin 20-ci illərində yaranmış Azərbaycan teatrı. 1936-cı ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı adlanır. Ötən müddət ərzində teatrda 513 yeni tamaşa hazırlanmış, 33505 tamaşa göstərilmişdir. – 57.

**79. Şri-Lanka,** Şri-Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqan parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 60.

**80. Mahinda Pacapakse** (1945) – 2005-ci ildən Şri-Lanka Respublikasının prezidenti. 2004–2005-ci illərdə Şri-LankAda Baş nazir olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 60.

**81. «Fiqaro»** – Gündəlik fransız qəzeti. 1826-cı ildən Parisdə nəşr edilir. – 61–72.

**82. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 61,227.

**83. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin

1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 63.

**84. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 63,126,128,129,184,221, 229,271,311.

**85. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 65,84,85–86,87–88.

**86. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. –68,100,150,-206,208,210,266.

**87. Valmont** – Amerika və dünyanın bir çox ölkələrində mexaniki suvarma avadanlığının satışını və xidmətini təşkil edən amerikan şirkəti. Amerikadan kənarda olan şirkət müştərilərinə sərfəli qiymət və yüksək xidmət təklif edir. Şirkət keçən əsrin ortalarından polad borular, irriqasiya boruları istehsal edir. – 73.

**88. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon

nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 75–82.

**89. Davos iqtisadi forumu,** D ü n y a i q t i s a d i f o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya iqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti bu forumda iştirak etmişdir. – 75–82,144.

**90. Klaus Şvab** (d.1938) – İsveçrə iqtisadçısı, Ümumdünya Davos iqtisadi forumunun yaradıcısı və əvəzedilməz prezidenti. – 76,78.

**91. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 77,116,217–288,290.

**92. Böyük Britaniya,** B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 77,116.

**93. İsveç,** İ s v e ç K r a l l ı ğ ı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 450 min $km^2$,

əhalisi 8,9 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholmdur. – 77.

**94. Finlandiya,** Finlandiya Respublikası – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 77.

**95. Braziliya,** Braziliya Federativ Respublikası – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və federativ (paytaxta) mahala bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 77.

**96. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 77.

**97. Niderland Krallığı** (qeyri-rəsmi adı Hollandiya) – Qərbi Avropada Şimal dənizi sahilində dövlət. Sahəsi 41,5 min km$^2$, əhalisi 15,6 milyon nəfərdir. İnzibati ərazisi 12 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı (Baş ştatlar) parlamentdir. Paytaxtı Amsterdamdır. – 77.

**98. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 77.

**99. Norveç,** N o r v e ç  K r a l l ı ğ ı – Şimali Avropada dövlət. Sahəsi 387 min km$^2$, əhalisi 4,7 milyon nəfərdir. İnzibati ərazisi 19 fülkeyə (qraflığa) bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Oslodur. – 77.

**100. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,22 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 77,81, 168,172,228,270.

**101. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 77,295.

**102. Qazaxıstan,** Q a z a x ı s t a n  R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7249 min km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 77,266,270.

**103. Belçika,** B e l ç i k a  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,8 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qa-

nunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 77,116.

**104. «Şell»** – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 78,81.

**105. Xatəmi Seyid,** M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989–92-ci illərdə İranın Mədəniyyət və İslam Orijentasiyası naziri, 1997–2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 79.

**106. Corc Soros** (d.1930) – məşhur amerikan maliyyəçisi, xeyriyyəçi. Dünyanın 25 ölkəsində onun xeyriyyə fondları fəaliyyət göstərir. Bu fondlar mədəniyyət və maarifə xidmət edir. Sorosun köməyilə Budapeştdə, Praqada, Varşavada Mərkəzi Avropa universitetləri açılmışdır. – 79.

**107. Yanukoviç Viktor Fyodoroviç** (d.1950) – mühəndis-mexanik. 2003 və 2007–2008-ci illərdə Ukrayna Respublikasının Baş naziri, 2010-14-cü illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. – 80.

**108. Eksson–Mobil** – amerikan şirkəti. Dünyada ən böyük özəl neft şirkətlərindən biri. Neftin çıxarılması, istehsalı və paylanması ilə məşğuldur. – 81.

**109. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var. – 82.

**110. Jan Lemyer** (d.1950) – fransız iqtisadçısı, hüquqşünas. 1995–99-cu illərdə Fransa Maliyyə və İqtisadiyyat nazi-

rinin şəxsi dəftərxanasının müdiri, 2000-ci ildən Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentidir. – 82.

**111. Paris –** Fransanın paytaxtı. Ölkənin iqtisadi, siyasi və mədəniyyət mərkəzi, dünyanın ən böyük və gözəl şəhərlərindən biri.

Paris dünyanın ən orijinal və təkrarsız şəhərlərindəndir. Burada Renessans və klassisizm üslublarında çoxlu dəbdəbəli ansambllar, binalar, eləcə də orta əsrlərə aid parklar və heykəllər, təmtəraqlı meydanlar, bulvar və prospektlər var. Bir sıra beynəlxalq təşkilatların (YUNESKO və s.) iqamətgahı Parisdədir. – 83–120.

**112. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 83,125,188,217.

**113. Yelisey sarayı** – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 85,87,89,90.

**114. «Fəxri legionun böyük xaç komandoru» ordeni** – Fransa Respublikasının ali mükafatı. Bu orden 200 il əvvəl təsis edilmişdir. – 87–88.

**115. I Napoleon,** Napoleon Bonapart (1769–1821) – 1804–14 və 1815-ci illərdə Fransa inperatoru. Napoleon istedadlı sərkərdə kimi, Fransa tarixində özünə layiqli yer tutmuşdur. Napoleon fitri istedada, müstəsna işgüzarlığa, dərin zəkaya və yenilməz iradəyə malik bir şəxsiyyət idi. – 88.

**116. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 89.

**117. Aleksandr Düma** (1802–1870) – fransız yazıçısı, ilk tarixi romantik əsərlərin müəllifi. Daha çox saysız-hesabsız romanları ilə məşhurlaşmışdır. «Qraf Monte Kristo», «Üç muşketyor», «Dəmir maskalı adam», «Qara zanbaq» kimi romanları ona daha çox şöhrət qazandırmışdır. Dü-

ma həmçinin qəzetlərə məqalələr yazmış peşəkar müxbir kimi də tanınır. – 90.

**118. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 90.

**119. Banin,** Ə s ə d u l l a y e v a  Ü m m ü l b a n i  M i r z ə  q ı z ı (1905–1992) – Fransada yaşayıb-yaratmış azərbaycanlı yazıçı. Məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsi, Azərbaycan Demokratik Respublikasının nazirlərindən biri, milyonçu Mirzə Əsədullayevin qızı. 1920-ci ildə hakimiyyət bolşeviklərin əlinə keçəndən sonra ailə Fransaya mühacirət edir.

Burada o, adlı-sanlı rus muhacirləri ilə – Bunin, Tolstoy, Şalyapin ilə tanış olur. 1946-cı ildə dərc olunan «Qafqaz günləri» kitabı ona şöhrət gətirir. Bundan sonra onun «Paris günləri», «Ernst Yüngerlə görüş», «Ernst Yüngerin portreti», «Mən opiumu seçdim», «Xarici Fransa» geniş oxucu kütləsi qazanır. – 91.

**120. Versal sülh müqaviləsi** (1919) – Birinci dünya müharibəsi başa çatdıqdan sonra 1919-cu il 28 iyunda qalib gövlətlərlə – ABŞ və onun müttəfiqləri – Britaniya imperiiyası, Fransa, İtaliya, Yaponiya, Belçika və məğlub ölkə Almaniya ilə bağlanmış müqavilə. Müqavilənin şərtləri 1919–20-ci illərdə Paris sülh konfransında işlənib hazırlanmışdır. – 91.

**121. Əlimərdan bəy Topçubaşov** (1865–1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917–20-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 91.

**122. Natəvan,** X u r ş u d b a n u (1832-1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şerlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. – 91.

**123. Üzeyir bəy Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 92.

**124. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 92.

**125. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın

imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 94,108,228,229, 256,260

**126. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 94,118,141,245,251,256,284.

**127. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 94,228,256.

**128. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 96,224.

**129. Dominik de Vilpen** – (d.1953) – Fransa dövlət xadimi, siyasətçi və diplomat, 2002–2004-cü illərdə Fransa Xarici İşlər naziri, 2004–2005-ci illərdə Daxili İşlər naziri, 2005–2007-ci illərdə Baş nazir olmuşdur. – 103–104.

**130. Axundov adına Azərbaycan Milli Kitabxanası,** M.F.Axundov adına Azərbaycan Respublikasının Milli kitabxanası – Azərbaycanda ən böyük kitabxana, respublikada çap olunan əsərlərin dövlət kitabsaxlayıcısı, kitabxanaşünaslıq və biblioqrafiya üzrə elmi-metodik mərkəz. Milli kitabxananın əsası 1923-cü ildə qoyulmuşdur. Kitabxananın indiki binası 1960-cı ildə akademik Mikayıl Hüseynovun layihəsi əsasında tikilmişdir. Kitabxanada 13 oxucu zalı, fondunda isə 430000 kitab var. – 103.

**131. Fransa Milli Kitabxanası** – Fransada ən böyük kitabxanalardan biri. Əsası 1480-ci ildə Parisdə qoyulmuşdur. 30 milyona yaxın əlyazması, həmçinin 12 milyon kitab mühafizə olunur. Kitabxana 1795-ci ilə qədər Kral Kitabxanası adlanırdı. – 103.

**132. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada

Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 103.

**133. Hicran Hüseynova,** H i c r a n K a m r a n q ı z ı (d.1955) – 2006-cı ildən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədridir. Siyasi elmlər doktoru, professordur. – 104.

**134. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – gömrük xidməti general-polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 104.

**135. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. Fransa Respublikasının 2007–15-ci illərdə prezidenti olmuşdur. 1993–95,2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 104.

**136. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 104,138.

**137. Mahmud Kərimov,** M a h m u d K ə r i m o ğ l u (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–13-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit

sahəsinin təsiri ilə baş verən elementar elektrik və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 104.

**138. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədridir. – 104.

**139. Kristian Ponsöle** (d.1928) – fransız siyasətçisi. 1998–2008-ci illərdə Fransa Senatının prezidenti olmuşdur. – 109–114.

**140. Fransa Senatı** – Fransada qanunverici orqan. – 109–114.

**141. «ALSTOM»** – Avropanın və dünyanın əksər ölkələri üçün sürət qatarları, dəmir yolu nəqliyyatı üçün avadanlıq, dəmiryol lokomotivləri, istehsal edən fransız maşınqayırma şirkətlər qrupu. Fransada «ALSTOM»ın istehsal etdiyi dizel-qatarlar işləyir. Şirkətlər qrupu həmçinin Atom elektrik stansiyaları üçün hər cür enerji maşınqayırma avadanlığı, yavaş sürətli turbin komponentləri istehsal edir. – 124–125.

**142. Patrik Kron** – fransız mühəndisi. 2003-cü ildən «Alstom» şirkətlər qrupunun prezidentidir. – 124–125.

**143. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 126, 128,184,311.

**144. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı Ayətullah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mü-

hacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 128,129.

**145. Xamenei,** S e y i d  Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 129.

**146. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 137,138.

**147. Azər Əmiraslanov**, A z ə r  K a m a l  o ğ l u (d.1971) – iqtisadçı. 2008-ci ildən Azərbaycan Respublikası Prezident Administrasiyasının Aqrar siyasət məsələləri şöbəsinin müdiri. Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 138.

**148. Simeon Djankov** (d.1970) – bolqar iqtisadçısı, professor, dövlət xadimi. 14 il Dünya Bankında Baş iqtisadçı vəzifəsində çalışmışdır. – 150.

**149. Şəhriyar Məmmədyarov** (d.1985) – şahmat üzrə beynəlxalq qrossmeyster. Yeniyetmələrin Şahmat Olimpiadasının qalibi (1999) və gümüş mükafatçısı (2000), gənclər arasında Avropa çempionatının gümüş mükayatçısı (2001), 18 və 20 yaşadək oğlanlar arasında Avropa birinciliyinin qızıl (2002) və bürünc mükafatçısı (2002), Gənclər (2003) və 20

yaşadək oğlanlar arasında Dünya birinciliyinin qalibi (2003; 2005). – 28.

**150. «Boinq»** – Amerika korporasiyası. Dünyanın ən böyük aviasiya, kosmos və hərbi texnika istehsalçılarından biri. Bu korporasiyanın tərkibinə bir sıra nəhəng korporasiyalar daxildir. Korporasiyanın əsası 1916-cı ildə mühəndis Corc Konrod Vestervelt tərəfindən qoyulmuşdur. Mənzil-qərargahı Çikaqodadır (İllinoys ştatı, ABŞ).

Kompaniya genişhəcmli mülki və hərbi aviasiya texnikasının, həmçinin ən böyük airobusların istehsalçısıdır. Bundan əlavə, «Boinq» hərb üçün geniş masştablı aviasiya-kosmos texnikası buraxır. Genişhəcmli kosmos proqramları həyata keçirir. Dünyanın 67 ölkəsində «Boinq» zavodu var. Dünyanın 100 ölkəsinin 5200 tədarükçüsü ilə əməkdaşlıq edir. – 152.

**151. Roald Saqdeyev** (d.1932) – rus fiziki. SSRİ Elmlər Akademiyasının akademiki. Əsas tədqiqatları plazma fizikasına aiddir. Plazmanın qeyri-tarazlığını tədqiq etmiş, onda «toqquşmasız» zərbə dalğalarının mövcud olduğunu kəşf etmiş, «tokamak» qurğularındakı köçürmə hadisələrinin nəzəriyyəsini işləyib hazırlamışdır. – 153.

**152. Qambiya,** Q a m b i y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1.148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banculdur. – 154.

**153. Yəhya Cammeh** (d.1965) – Qambiya siyasi və dövlət xadimi. 1994-cü ildən Qambiya Respublikasının prezidentidir. – 154.

**154. Zurab Noğaideli** – Gürcüstan siyasi xadimi. 2005–2007-ci illərdə Gürcüstan Respublikasının Baş naziri olmuşdur. – 157.

**155. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. – 158,160–161,162–165,166–167,168–177,291.

**156. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Respublikasının prezidenti seçildi.– 159,160–161,162–165,168–177.

**157. Lenin,** V l a d i m i r İ l i ç (U l y a n o v ) (1870–1924) – SSRİ-nin siyasi və dövlət xadimi. –167.

**158. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan

Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 198.

**159. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 176,177.

**160. Azərbaycan Beynəlxalq Bankı (ABB)** – 1992-ci ildə Xarici İqtisadi Bankın əsasında yaradılmışdır. ABB beynəlxalq və daxili bazarda mövcud olan bütün bank xidmətlərini yerinə yetirir. – 177.

**161. İqtisadi Əməkdaşlıq Təşkilatı,** İ q t i s a d i Ə m ə k d a ş l ı q v ə İ n k i ş a f T ə ş k i l a t ı (İƏİT) – 1961-ci ildə yaradılmış dövlətlərarası iqtisadi təşkilat. İƏİT-in məqsədi inkişaf etmiş ölkələrdə iqtisadi siyasətin koordinasiyası və qəbul edilmiş proqramların inkişafına kömək etməkdir. 1974-cü ildən İƏİT-in tərkibində Beynəlxalq Enerji Agentliyi fəaliyyət göstərir. Mənzil-qərargahı Parisdədir. – 178,181.

**162. Ümumdünya Gömrük Təşkilatı** (ÜGT) – dövlətlərarası beynəlxalq təşkilat. ÜGT-na, deməkolar kı, bütün dünyanın gömrük xidməti daxildir. ÜGT beynəlxalq ticarətin 98%-nə nəzarət edir. 1953-cü ildə yaradılmışdır. Mənzil-qərargahı Brüsseldədir (Belçika) – 178.

**163. ATƏT-in Parlament Assambleyası** – 317 parlamentarisi olan beynəlxalq parlament qrupu. 1990-cı ildə Parisdə yaradılmışdır. Assambleya ildə bir neçə dəfə Milli parlament deputatlarını toplayaraq ATƏT-lə bağlı məsələləri müzakirə edir. Hər il assambleya səs çoxluğu ilə sədr seçir, sədr əsas yığıncaqlarda iştirak edir və yığıncaqlara sədrlik edir. Mənzil-qərargahı Kopenhagendədir. Assambleyanın daimi əməkdaşları 14 nəfərdir. – 179.

**164. Qoran Lenmarker** (d.1943) – İsveç siyasətçisi. 1991-ci ildən Riksdaqın üzvü. ATƏT-in Parlament Assambleyasında Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi olmuşdur. – 180.

**165. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 181.

**166. Şövkət Əziz** (d.1949) – Pakistanın dövlət xadimi. 2004–2007-ci illərdə Pakistanın Baş naziri olmuşdur. – 181.

**167. İtaliya,** İtaliya Respublikası – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km$^2$, əhalisi 57,5 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 183.

**168. Mehdi Səfəri** (d.1959) – 2001–2005-ci illərdə İranın Asiya –Sakit okean regionu və MDB üzrə İran Xarici İşlər nazirinin müavini olmuşdur. – 184.

**169. Fərman Salmanov,** Salmanov Fərman Qurban oğlu (1928–2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbərliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 185.

**170. Qabil,** İmamverdiyev Qabil Allahverdi oğlu (d.1926–2007) –Azərbaycan Respublikasının Xalq şairi. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 187–188.

**171. Zakir Qaralov,** Z a k i r B ə k i r o ğ l u (d.1956) – hüquqşünas, I dərəcə Dövlət Ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü. 2000-ci ildən Azərbaycan Respublikasının Baş prokuroru. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni və «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 187,189.

**172. Vahid Axundov** (d.1942) – iqtisadçı, elmlər doktoru, professor. 1993–2005-ci illərdə Azərbaycan Respublikası İqtisadi siyasət üzrə Dövlət müşaviri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 187.

**173. Fərhad Xəlilov,** F ə r h a d Q u r b a n o ğ l u (d.1946) – Xalq rəssamı. 1987-ci ildən Azərbaycan Rəssamlar İttifaqının sədridir. Yaradıcılığında Abşeron motivləri əhəmiyyətli yer tutur. Çimərliklər və Abşeron görüntüləri, həmçinin Abşeron yarımadasının yaşayış məntəqələri buna misal ola bilər. Fərhad Xəlilov «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 187,188,190.

**174. Səttar Mehbalıyev,** S ə t t a r S u l i d d i n o ğ l u (d.1955) – iqtisadçı. İqtisad elmləri doktoru. Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin İqtisadi siyasət daimi komitəsinin üzvüdür. 1993-cü ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 187.

**175. Səlhab Məmmədov** – Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru, Azərbaycan Respublikası Rəssamlar İttifaqı sədrinin birinci müavini, professor, Azərbaycanın Xalq rəssamı. – 187.

**176. Yardımlı** (1938-ci ilədək Vərgədüz rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimaldan, qərbdən və cənub-qərbdən İranla həmsərhəddir. Sahəsi 667 km$^2$, əhalisi 62,4 min nəfərdir. – 188.

**177. Xınalıq** – Azərbaycan Respublikasının Quba rayonunda kənd. Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdədir. Əhalisi 2070 nəfərdir. Xınalıq kəndinin erkən orta əsrlərdə salındığı ehtimal edilir.

Xınalıq əsasən dağ kəndləri üçün səciyyəvi üslubda planlaşdırılmışdır; bir evin damı o birisi üçün həyət kimi istifadə olunur. Kəndin əhalisi xınalıq dilində danışır. Qafqazın ən yüksək dağ kəndlərindəndir. – 188,210.

**178. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub-qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 $km^2$, əhalisi 79,7 min nəfərdir. – 188.

**179. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 188.

**180. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 194.

**181. Qazax** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2202 $km^2$, əhalisi 92,7 min nəfərdir. – 194.

**182. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 161,4 min nəfərdir. – 194.

**183. Yevlax** – Azərbaycan Respublikasında inzibati rayon. 1935-ci ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv ediləcək ərazisi Ağdaş, Bərdə, Goranboy rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1555 $km^2$, əhalisi 123,5 min nəfərdir. – 206.

**184**. **Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min $km^2$, əhalisi 1,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Tallindir. – 215.

**185. Tomas Hendrik İlves** (d.1953) – eston siyasətçisi, diplomat, jurnalist. 2006-cı ildən Estoniya Respublikasının prezidenti. – 215.

**186. Bruney,** B r u n e y D ə r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min $km^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 216.

**187. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 216.

**188. Berlin** – Almaniyanın paytaxtı. Sahəsi 890 $km^2$-ə qədər, əhalisi 3,5 milyon nəfərdir. 1990-cı ildən müstəqil inzibati ərazidir. Almaniyanın ən böyük sənaye, mədəni və elmi mərkəzidir. 1945-ci ildə faşist Almaniyasının məğlubiyyətindən sonra Berlin SSRİ, ABŞ, Böyük Britaniya və Fransa tərəfindən zonalara bölündü. 1948-ci ildə Qərb dövlətləri Berlin parlamentində seçkilər keçirdilər. Şərqi Berlin ADR-in paytaxtı elan edildi. 1961-ci ildə Şərqi Berlindən Qərbi Berlinə əhali axınının qarşısını almaq üçün Berlin divarı tikildi. (1990-cı ildə Berlin divarı söküldü, AFR ilə ADR

birləşdi və Berlin birləşmiş Almaniyanın paytaxtı elan edildi). – 217–288.

**189. Angela Merkel** (d.1954) – Almaniya siyasətçisi, Xristian - Demokrat İttifaqı Partiyasının lideri, 2000-ci ildən Almaniyanın Federal kansleridir. – 217–218,219–223.

**190. 416-cı Azərbaycan atıcı diviziyası** – 1942-ci ilin mart–sentyabr aylarında Azərbaycan SSR-də yaradılmış milli diviziya. Diviziyanın tərkibində iki atıcı polk, topçu polku, minamyot və tankvuran qırıcı diviziyası, topçu və qərargah batareyası, tibb-sanitar batalyonu vardı. – 224.

**191. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 228.

**192. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 232,261.

**193. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min km$^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 232.

**194. Cənubi Osetiya** – Gürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəridir. – 232,261,263.

**195. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 230,233,258, 273.

**196. Kosovo problemi** – 80-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 232,263.

**197. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 km$^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhəri oldu. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 235.

**198. Almaniya Bundestaqı** – Almaniyada parlamentin aşağı palatası. – 238.

**199. Arif Mirzəyev,** A r i f A b d u l l a o ğ l u (d.1944) – Azərbaycan bəstəkarı, orqançı və pianoçu. Azərbaycan Respublikasının Əməkdar artisti.

Azərbaycan dini-memorial orqan və polifonik musiqi, həmçinin qədim islamda çoxşaxəli musiqinin yaradıcısıdır. S.Bax musiqisinin mütəxəssisi və onun yaradıcılığının tədqiqatçısıdır. Arif Mirzəyev çoxlu sayda vokal instrumental kamera və vokal musiqi əsərlərinin müəllifidir. Almaniyada yaşayır.– 247.

**200. Bax İohan Sebastyan** (1685–1750) – məşhur alman bəstəkarı və orqançısı. Bax barokko dövrünün sonuncu ən böyük bəstəkarlarındandır. Vokal əsərlərinin çoxu dini mövzudadır. Bethoven Baxı «harmoniyanın babası» adlandırmışdır. Baxın fuqaları Qərbi Avropa polifoniya üslubunun zirvəsidir. Baxın yaradıcılığı dünya musiqi sənətinin inkişafında mühüm rol oynamışdır. – 247.

**201. Berlin Universiteti** – Almaniyada ən böyük universitetlərdən biri. Əsası 1809-cu ildə V.Qumbold tərəfindən qoyulmuşdur. – 249,267.

**202. Konqad Adenauer** (1876–1967) – Almaniya siyasi və dövlət xadimi. 1949–63-cü illərdə Almaniya Federativ Respublikasının federal kansleri olmuşdur. – 250.

**203. Çeçenistan (İçkeriya) –** Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817–1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. – 263.

**204. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 265.

**205. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 267,268.

**206. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul

vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçildi. – 267.

**207. Stalin,** İ o s i f V i s s a r i o n o v i ç (1879–1953) – 1922–53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. – 288.

**208. Peter Semnebi** (d.1959) – İsveç səfiri. 2006–11-ci illərdə səfir Semnebey Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi olmuşdur. – 289.

**209. Cabir əs-Sabah** (d.1930) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 295.

**210. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 297–300.

**211. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV–XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 302.

**212. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 305.

**213. «Şevron»** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. 1879-cu ildə «Rpasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 306.

**214. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 308.

**215. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 308.

**216. Qana,** Q a n a  P e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km$^2$, əhalisi 16,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkradır. – 309.

**217. Con Kofi Aqiyekum Kufuor** (d.1938) – 2001–2007-ci illərdə Qananın prezidenti, 2007–2008-ci illərdə Afrika İttifaqının sədri olmuşdur. – 309.

**218. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 2,2 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 310.

**219. Vayra Vike-Freyberqa** (d.1937) – Latviya dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant

olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. – 310.

**220. Yaşar Böyük Anıt** (d.1940) – Türkiyə hərbi xadimi, ordu generalı. 2006–2008-ci illərdə Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi olmuşdur. – 313.

**221. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min $km^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 223,315.

**222. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri olmuşdur. – 315.

## Şəxsi adlar göstəricisi


**Adenaver Konrad** – 250
**Ağababayev Tofiq** – 187
**Axundov Vahid** – 187
**Allio-Mari Mişel** – 83
**Ansola Xose** – 107
**Arveladze Georgi** – 176,177
**Babayev Heydər** – 39,206
**Babayeva Sündüz** – 187
**Banin** – 91
**Baran Zeyno** – 312
**Bax Sebastyan** – 247
**Baxışov Fəxrəddin** – 206
**Bayramov Rövşən** – 14
**Bertran İv** – 103
**Bey Mogens** – 73
**Bəykişiyev Nazim** – 187
**Bolkiah Hacı Həssənal** – 216
**Borsotti Marko** – 127
**Böyük Anıt Yaşar** – 313
**Breyak Arno** – 305
**Budi Miloş** – 183
**Cammeh Yəhya** – 154
**Cəfərov Xosrov** – 14
**Çambers Con** – 80
**De-Vilpen Dominik** – 103–104
**Debre Jan-Lui** – 105
**Delanoe Bertran** – 97,98
**Der Veer Veroyn** – 7
**Dəryanı Rza Talibi** – 247
**Djankov Simeon** – 150
**Dotrin Katrin** – 104

| | |
|---|---|
| **Dü Brazi Filipp** | – 103 |
| **Düma Aleksandr** | – 90 |
| **Ettinger Günter** | – 288 |
| **Düpo Ambruaz** | – 110 |
| **Eyvazor Əsgər** | – 14 |
| **Əhmədinejad Mahmud** | – 126,184,311 |
| **Əhmədov Xanlar** | – 187 |
| **Ələkbərov Füzuli** | – 39 |
| **Əliyev Asif** | – 14 |
| **Əliyev Aydın** | – 39 |
| **Əliyev Heydər** | – 5,7,17,18,32,49,59,88,90,98, 114,130,131,153,166,174, 199,202,251,292,298 |
| **Əliyev Natiq** | – 7 |
| **Əliyeva Maisə** | – 249 |
| **Əliyeva Mehriban** | – 83–125,188,217 |
| **Əlimzanov Şamil** | – 14 |
| **Sabah Cabir əl-Əhməd** | – 295 |
| **Əmiraslanov Azər** | – 138 |
| **Ənvər Xurşid** | – 181 |
| **Ərdoğan Rəcəb Tayyib** | – 159,160–161,162–165,168-177 |
| **Əsgərov Cahangir** | – 104 |
| **Əziz Şövkət** | – 181 |
| **Fotiqa Anna** | – 315 |
| **Georqadze Ramaz** | – 177 |
| **Gəncəvi Nizami** | – 118 |
| **Gipaşvili Vladimir** | – 167 |
| **Hacıbəyov Üzeyir bəy** | – 92 |
| **Hacıyev Cahangir** | – 177 |
| **Heydərov Kəmaləddin** | – 104 |
| **Həsənli Emin** | – 138 |
| **Həsənov Ramil** | – 138 |
| **Hovard Con** | – 25 |
| **Hüseynov Arif** | – 187 |

**Hüseynzadə Çingiz** – 6, 14
**Hüseynova Hicran** – 104
**Xamenei Seyid Əli** – 129
**Xanbabayev Şəmsəddin** – 206,209
**Xasayev Zaur** – 14
**Xatəmi Məhəmməd** – 79
**Xəlilov Fərhad** – 187,188,190
**İbrahimov Ağəli** – 187
**İlves Toomas** – 215
**İmamverdiyev Qabil** – 187–188
**İsmayılov İsmayıl** – 6
**İsmayılova Samirə** – 247
**Jedjayrak Qreqori** – 206
**Kaçinski Lex** – 315
**Kalam Əbdül** – 23
**Kanepa Daniel** – 121–123
**Karson Skott** – 152
**Kaya Bahəddin** – 247
**Kavtaradze Giya** – 182
**Kərimov Mahmud** – 104
**Kərimov Soltan** – 14
**Klark Helen** – 21
**Korotenko Valeriya** – 15
**Kömür Başar** – 247
**Krom Patrik** – 124–125
**Ksolner Klaus** – 235,277,285–286
**Kufuor Kofi** – 309
**Qaralov Zakir** – 187,189
**Qarayev Qara** – 92
**Qasımlı Fariz** – 267
**Qasımova Kifayət** – 14
**Qasımova Tubuxanım** – 138
**Qədimova İlahə** – 14
**Qloss Mixeil** – 277,286,287
**Qurbanov Cavanşir** – 14
**Lemyer Jan** – 82

**Lenin** – 167
**Lenmarker Qoran** – 180
**Levayev Lev** – 82
**Lora Jan-Lui** – 151
**Löluş Pyer** – 108
**Masner Hanno** – 271
**Mehbalıyev Səttar** – 187
**Merkel Angela** – 217–218,219–223
**Məmmədli Elnur** – 14
**Məmmədov Ələkbər** – 7
**Məmmədov Fərhad** – 138
**Məmmədov Fazil** – 39
**Məmmədov Samir** – 14
**Məmmədov Səlhab** – 187
**Məmmədov Ziya** – 176, 177
**Məmmədyarov Elmar** – 103
**Məmmədyarov Qəhrəman** – 14
**Mirzəyev Arif** – 247
**Musayev Məmməd** – 206
**Musayev Yusif** – 206
**Müslümov Səlim** – 39
**Napoleon** – 88
**Nəcəfov Dilavər** – 14
**Nərimanov Elşad** – 14
**Noğaideli Zurab** – 157
**Pacapakse Mahinda** – 60
**Pankatskaya Marina** – 14
**Pebero Mişel** – 107
**Perşeron Daniel** – 119–120
**Pırvanov Georgi** – 308
**Ponsöle Kristian** – 109–114
**Pueza Bruno** – 314
**Putin Vladimir** – 267
**Rəhimov Azad** – 6,138
**Rəhimov İlqar** – 7
**Rinqştorff Harald** – 238

**Robertson Peter** – 306
**Rodman Piter** – 193
**Roşinyak Tapi** – 104
**Ruhe Fölker** – 239
**Saakaşvili Mixeil** – 158,160–161,162–165,166–167,168–177,291
**Saavedra Xose** – 19
**Saqdeyev Roald** – 153
**Salmanov Fərman** – 185
**Salahova Zərifə** – 7
**Sarkozi Nikola** – 104
**Sayqu Ergin** – 313
**Semnebi Peter** – 289
**Seyidov Famil** – 206
**Səfəri Mehdi** – 184
**Silqi İv** – 106–107
**Sinqh Manmohan** – 24
**Sizeli Jan Fransua** – 106
**Soros Corc** – 79
**Stalin İosif** – 288
**Suli Filip** – 104
**Sullivan Daniel** – 155–156
**Süleymani Əfşar** – 311
**Süleymanlı Mövlud** – 187
**Svitserloot Raynip** – 277
**Şahbanov İbadulla** – 14
**Şahbazov İlkin** – 14
**Şaymiyev Mintimir** – 20
**Şəhriyar** – 149
**Şərifov Samir** – 39
**Şirak Bernadet** – 87–88,89–93,95
**Şirak Jak** – 65,85–86,87–88
**Şopenhoff Andreas** – 262–276
**Şrik Patrik** – 115–116
**Ştaudaxer Vilhelm** – 250, 275
**Ştaynmayer Frank-Valter** – 238, 290

**Şvab Klaus** – 76,78
**Tağıyev Cavid** – 14
**Tağıyev Eduard** – 14
**Tağıyev Qurban** – 14
**Tarlev Vasile** – 296
**Tibşidze Nikoloz** – 167
**Tkeşelaşvili David** – 291
**Topçubaşov Əlimərdan bəy** – 91
**Vedjeyçak Qreqori** – 150
**Vəliyev Elmar** – 206
**Vike-Freyberqa Vayra** – 310
**Voverayt Klaus** – 224–225
**Yanukoviç Viktor** – 80
**Yıldırım Binali** – 176
**Zeynalov Mirnadir** – 187
**Zeynalova Zərifə** – 14
**Zərğami İzzətullah** – 126
**Zukkov Mixael** – 244, 266

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 232,261
**Abşeron** (*yarımada*) – 55,56,194,234,235,266
**Afina** – 11
**Almaniya** – 77,116,217–288,290
**Amerika Birləşmiş Ştatları** – 34,36,63,64,67,73,77,81,152, 155–156,193,226,227,228, 229,230,250,270,312
**Ankara** – 166
**Aralıq dənizi** – 254,255,266,283
**Asiya** – 72,81,161,168,172,200,227, 244,283
**Astara** – 292
**Avropa** – 48,61,62,70,72,79,85,90,94, 99,100,102,116,118,141,161, 162,164,168,169,172,173,183, 193,200,205,219,221,223,226, 227,228,241,243,244,245,250, 251,254,255,259,268,270,283, 284,305
**Avstraliya** – 25
**Baden-Vürtemberq** – 288
**Bakı** – 19,20,21,23,24,25,52,54,55, 56,60,61,90,91,92,98,104,125, 128,129,153,154,166,174,179, 181,182,185,193,215,216,227, 234,235,236,242,246,254,255, 262,266,267,283,294,295,300, 301,304,307,308,309,310
**Batumi** – 172
**Belçika** – 77,116
**Berlin** – 217–288

**Bosfor** – 270
**Braziliya** – 77
**Bruney** – 216
**Bolqarıstan** – 308
**Böyük Britaniya** – 77,116
**Brüssel** – 85
**Ceyhan** – 61,227
**Cənubi Qafqaz** – 72,85,86,92,94,111,113,163, 221,263,264,270,273
**Cənubi Osetiya** – 232,261,263
**Çeçenistan** – 263
**Çin** – 77,81,168,172,228,270
**Dağlıq Şirvan** – 195
**Dağlıq Qarabağ** – 18,33,34,35,36,48,64,65,67, 68,74,85,86,94,105,133,146, 195,219,230,231,232,233, 238,258,259,260,261,263,264, 265,271,272,299
**Davos** – 75–82
**Dəvəçi** – 187
**Dnestryanı** – 232,261
**Estoniya** –215
**Ərzurum** – 227
**Finlandiya** – 77
**Fransa** – 34,59,61–72,77,83–125,169, 230
**Gəncə** – 194
**Gürcüstan** – 34,36,62,157–177,182,200, 255,261,263,265,267,268, 270,283,291
**Hindistan** – 23,24
**Xaçmaz** – 32,195,206,209,292
**Xəzər dənizi** – 85,92,94,172,184,227,254, 261,266,267,269,278,283
**Xınalıq** – 188,210
**Xırdalan** – 195

**Xocalı** – 297–300
**İraq** – 81,229
**İran** – 63,126,128,129,184,221,229, 271,311
**İsrail** – 63
**İsveç** – 77
**İsveçrə** – 75–82
**İtaliya** – 183
**Kanada** – 77
**Koreya Respublikası** – 55,77
**Kosovo** – 232,263
**Krım** – 271
**Küveyt** – 295
**Qafqaz** – 111,171,172,263,264
**Qambiya** – 154
**Qana** – 309
**Qara dəniz** – 254,261
**Qazax** – 194
**Qazaxıstan** – 77,266,270
**Quba** – 194
**Latviya** – 310
**Lerik** – 188
**Lənkəran** – 38,40,54,195,268
**Lill** – 115–125
**Malayziya** – 77
**Mərkəzi Asiya** – 72,169,261,270,305
**Mərkəzi Avropa** – 253
**Mingəçevir** – 52
**Moldova** – 34,261,296
**Moskva** – 64,188,266
**Nabran** – 209
**Naxçıvan** – 32,49,206,268,311
**Nikaraqua** – 19
**Norveç** – 77
**Novorossiysk** – 53
**Niderland** – 77,81,116

**Pakistan** – 181
**Paris** – 83–120
**Pekin** – 6,10
**Polşa** – 223,315
**Rusiya** – 20,34,53,54,62,64,67,77,81, 149,226,228,259,267,269
**Səngəçal** – 294
**Səudiyyə Ərəbistanı** – 77
**Sidney** – 11
**Sumqayıt** – 235
**Şəki** – 32,195,292
**Şimali Qafqaz** – 263,264
**Şuşa** – 265
**Şri-Lanka** – 60
**Tatarıstan** – 20
**Tbilisi** – 157
**Tehran** – 229
**Trabzon** – 172
**Tuluza** – 105
**Türkiyə** – 34,36,61,72,91,159–165,168–177,200,227,230,255,267,268, 270, 283,313
**Ukrayna** – 34,62,80,81,23
**Yaxın Şərq** – 81
**Yardımlı** – 188
**Yeni Zelandiya** – 21
**Yevlax** – 206
**Yerevan** – 92
**Yunanıstan** – 61,173,223
**Zaqatala** – 54,195
**Zirə** – 188

# MÜNDƏRİCAT

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN 2006-cı il ƏRZİNDƏ GÖRDÜYÜ İŞLƏRƏ HƏSR OLUNMUŞ MƏRASİMİNDƏ NİTQ

*26 dekabr 2006-cı il* ........................................................................................ 5

DÜNYA AZƏRBAYCANLILARINA

*27 dekabr 2006-cı il* ........................................................................................ 16

NİKARAQUA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB XOSE DANİEL ORTEQA SAAVEDRAYA

*9 yanvar 2007-ci il* ........................................................................................ 19

TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MİNTİMER ŞAYMİYEVƏ

*17 yanvar 2007-ci il* ........................................................................................ 20

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM HELEN KLARKA

*20 yanvar 2007-ci il* ........................................................................................ 21

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏRİN ƏZİZ XATİRƏSİNİ YAD ETMİŞDİR

*20 yanvar 2007-ci il* ........................................................................................ 22

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB AVUL PAKİR CAYNULABDİN ABDUL KALAMA

*20 yanvar 2007-ci il* ........................................................................................ 23

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ

*20 yanvar 2007-ci il* ........................................................................................ 24

AVSTRALİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB CON UİNSTON HOVARDA

*20 yanvar 2007-ci il* ........................................................................................ 25

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2006-cı ilin YEKUNLARINA VƏ 2007-ci ildə QARŞIDA DURAN VƏZİFƏLƏRİNƏ HƏSR OLUNMUŞ İSLASINDA NİTQ

*22 yanvar 2007-ci il*......*26*

YEKUN NİTQİ......*39*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV FRANSANIN «LE MONDE DİPLOMATİQUE» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ VERMİŞDİR

*22 yanvar 2007-ci il*......*59*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA PACAPAKSEYƏ

*22 yanvar 2007-ci il*......*60*

FRANSANIN «FİQARO» QƏZETİNƏ MÜSAHİBƏ

*23 yanvar 2007-ci il*......*61*

«VALMONT» ŞİRKƏTİNİN PREZİDENTİ MOGENS BEYİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 yanvar 2007-ci il*......*73*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*24 yanvar 2007-ci il*......*74*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*24 yanvar 2007-ci il*......*75*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV DAVOSDA DÜNYA İQTİSADİ FORUMUNUN İCLASINDA

*25 yanvar 2007-ci il*......*76*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSVEÇRƏYƏ SƏFƏRİ

*25 yanvar 2007-ci il*......*78*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*29 yanvar 2007-ci il* ........................................ *83*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ FRANSA RESPUBLİKASININ PREZİ-
DENTİ JAK ŞİRASIN TƏKTƏBƏK GÖRÜŞÜ

*29 yanvar 2007-ci il* ........................................ *85*

«FƏXRİ LEGİONUN BÖYÜK XAÇ KOMANDORU»
VƏ «HEYDƏR ƏLİYEV» ORDENLƏRİNİN
TƏQDİM OLUNMASI MƏRASİMİ

*29 yanvar 2007-ci il* ........................................ *87*

AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA
İLƏ FRANSA PREZİDENTİNİN XANIMI BERNADET ŞİRAKIN
GÖRÜŞÜ

*29 yanvar 2007-ci il* ........................................ *89*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ VƏ XANIMI-
NIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ DÖVLƏT QƏBULUNDA NİTQ

*29 yanvar 2007-ci il* ........................................ *90*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*30 yanvar 2007-ci il* ........................................ *96*

FRANSA İCTİMAİYYƏTİNİN VƏ DİPLOMATİK KORPUSUN NÜ-
MAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ

*30 yanvar 2007-ci il* ........................................ *98*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN FRANSAYA DÖVLƏT SƏFƏRİ

*30 yanvar 2007-ci il* ........................................ *103*

FRANSA SENATI SƏDRİNİN ADINDAN ZİYAFƏT

*30 yanvar 2007-ci il* ........................................ *109*

FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN İŞGÜZAR
ADAMLARI İLƏ GÖRÜŞDƏ NİTQ

*31 yanvar 2007-ci il* ........................................ *115*

FRANSANIN NORD-PA-DE-KALE REGİONUNUN PREFEKTİ İLƏ GÖRÜŞ

*31 yanvar 2007-ci il* ........................................................................ *121*

«ALSTOM» ŞİRKƏTLƏR QRUPUNUN ZAVODU İLƏ TANIŞLIQ

*31 yanvar 2007-ci il* ........................................................................ *124*

İRANIN RADİO VƏ TELEVİZİYA TƏŞKİLATININ SƏDRİ İZZƏTULLAH ZƏRĞAMİ İLƏ GÖRÜŞ

*1 fevral 2007-ci il* ........................................................................ *126*

BMT-nin ÖLKƏMİZDƏKİ REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ MARKO BORSOTTİ İLƏ GÖRÜŞ

*1 fevral 2007-ci il* ........................................................................ *127*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*2 fevral 2007-ci il* ........................................................................ *128*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

*2 fevral 2007-ci il* ........................................................................ *129*

GƏNCLƏR GÜNÜNÜN 10-cu İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÖLKƏNİN GƏNCLƏR TƏŞKİLATLARININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*2 fevral 2007-ci il* ........................................................................ *130*

YEKUN NİTQİ ........................................................................ *138*

«DOİNG BUSNESS 2007»nin MÜƏLLİFİ, DÜNYA BANKININ BAŞ İQTİSADÇISI SİMEON DJANKOV VƏ BANKIN AZƏRBAYCAN ÜZRƏ MENECERİ QREQORİ YEDJEYÇAK İLƏ GÖRÜŞ

*2 fevral 2007-ci il* ........................................................................ *150*

AVROPA ŞURASI KATİBLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ BAŞ DİREKTORU JAN-LUİ LORA İLƏ GÖRÜŞ

*2 fevral 2007-ci il* ........................................................................ *151*

«BOİNQ-MÜLKİ AVİASİYA TƏYYARƏLƏRİ» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU SKOTT KARSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 fevral 2007-ci il*............................................................................................152

GÖRKƏMLİ FİZİK, KEÇMİŞ SSRİ ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ ROALD SAQDEYEV İLƏ GÖRÜŞ

*5 fevral 2007-ci il*............................................................................................153

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

*5 fevral 2007-ci il*............................................................................................154

ABŞ DÖVLƏT KATİBİNİN MÜAVİNİ, ABŞ–AZƏRBAYCAN BİRGƏ İQTİSADİ ƏMƏKDAŞLIQ KOMİSSİYASININ HƏMSƏDRİ DƏNİEL SULLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 fevral 2007-ci il*............................................................................................155

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*7 fevral 2007-ci il* ...........................................................................................157

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞÜ

*7 fevral 2007-ci il*............................................................................................158

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN TÜRKİYƏNİN BAŞ NAZİRİ
RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ

*7 fevral 2007-ci il* ...........................................................................................159

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN, GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİNİN VƏ TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ RƏCƏB TAYYUB ƏRDOĞANIN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*7 fevral 2007-ci il* ...........................................................................................160

TBİLİSİ BEYNƏLXALQ HAVA LİMANININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*7 fevral 2007-ci il* ........................................................................................ *162*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÜRCÜSTANA İŞGÜZAR SƏFƏRİ

*7 fevral 2007-ci il*........................................................................................ *166*

ÜÇTƏRƏFLİ REGİONAL ƏMƏKDAŞLIQ SAMMİTİ SƏNƏDLƏRİNİN İMZALANMA MƏRASİMİ

*7 fevral 2007-ci il* ........................................................................................ *168*

SAXTA DƏRMANLARA QARŞI MÜBARİZƏ ÜZRƏ BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARINA

*7 fevral 2007-ci il* ........................................................................................ *178*

ATƏT PARLAMENT ASSAMBLEYASININ SƏDRİ QORAN LENMARKERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2007-ci il*........................................................................................ *180*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ XURŞİD ƏNVƏR İLƏ GÖRÜŞ

*8 fevral 2007-ci il* ........................................................................................ *181*

GÜRCÜSTAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRİ GİYA KAVTARADZE İLƏ GÖRÜŞ

*8 fevral 2007-ci il* ........................................................................................ *182*

İTALİYANIN BEYNƏLXALQ TİCARƏT NAZİRİNİN MÜAVİNİ, SENATOR MİLOS BUDİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2007-ci il* ........................................................................................ *183*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İRAN İSLAM RESPUBLİKASI PREZİDENTİNİN XƏZƏR MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ, XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MEHDİ SƏFƏRİ İLƏ GÖRÜŞÜ

*9 fevral 2007-ci il* ........................................................................................ *184*

MƏŞHUR NEFTÇİ-GEOLOQ, TANINMIŞ ALİM
FƏRMAN SALMANOV İLƏ GÖRÜŞ

*9 fevral 2007-ci il* ........................................................................................ *185*

BİR QRUP ZİYALIYA ORDENLƏRİN VƏ FƏXRİ ADLARIN
VƏSİQƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*12 fevral 2007-ci il* ........................................................................................ *186*

ABŞ MÜDAFİƏ NAZİRİNİN BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK
MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ PİTER RODMANIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 fevral 2007-ci il* ........................................................................................ *193*

AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-
İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ İCRASININ
ÜÇİLLİYİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ

*13 fevral 2007-ci il*........................................................................................ *194*

YEKUN NİTQİ........................................................................................206

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*13 fevral 2007-ci il*........................................................................................ *215*

BRUNEY DƏRÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT
HACI HƏSSƏNAL BOLKİAHA

*13 fevral 2007-ci il*........................................................................................ *216*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*14 fevral 2007-ci il*........................................................................................ *217*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ALMANİYANIN
KANSLERİ ANGELA MERKEL İLƏ GÖRÜŞÜ

*14 fevral 2007-ci il*........................................................................................ *219*

BERLİN ŞƏHƏR MERİ KLAUS VOVERAYT İLƏ GÖRÜŞ

*15 fevral 2007-ci il*........................................................................................ *224*

ALMANİYANIN «DEUTSCHE WELLE» TELERADİO KANALINA VERDİYİ MÜSAHİBƏ

*15 fevral 2007-ci il*....................................................................................226

ALMANİYANIN MİXAEL ZUKKOV FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞ

*15 fevral 2007-ci il*....................................................................................234

ALMANİYANIN BİR SIRA ŞİRKƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞ

*15 fevral 2007-ci il*....................................................................................235

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*15 fevral 2007-ci il*....................................................................................238

ALMANİYADA FƏALİYYƏT GÖSTƏRƏN AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*15 fevral 2007-ci il*....................................................................................240

YEKUN NİTQİ ..............................................................................................*248*

ALMANİYANIN KONRAD ADENAUER FONDU TƏRƏFİNDƏN TƏŞKİL OLUNMUŞ «AZƏRBAYCAN XXI ƏSRDƏ – İNKİŞAF VƏ PERSPEKTİVLƏR» MÖVZUSUNDA GENİŞ MÜZAKİRƏLƏRDƏ NİTQ

*15 fevral 2007-ci il* ..................................................................................250

AZƏRBAYCAN–ALMANİYA BİZNES-FORUMUNDA NİTQ

*16 fevral 2007-ci il*....................................................................................277

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ALMANİYAYA RƏSMİ SƏFƏRİ

*16 fevral 2007-ci il*....................................................................................287

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PETER SEMNEBİ İLƏ GÖRÜŞ

*17 fevral 207-ci il*......................................................................................289

ALMANİYANIN XARİCİ İŞLƏR NAZİRİ FRANK-VALTER ŞTAYNMAYER İLƏ GÖRÜŞ

*19 fevral 2007-ci il*.......................................................................................290

GÜRCÜSTANIN TƏBİİ SƏRVƏTLƏR VƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ NAZİRİ DAVİD TKEŞELAŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 fevral 2007-ci il*.......................................................................................291

BAKIDA MODUL TİPLİ ELEKTRİK STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*22 fevral 2007-ci il* .......................................................................................292

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*13 fevral 2007-ci il*.......................................................................................295

MOLDOVANIN BAŞ NAZİRİ VASİLE TARLEV İLƏ GÖRÜŞ

*22 fevral 2007-ci il*.......................................................................................296

XOCALI SOYQIRIMININ 15-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

*23 fevral 2007-ci il*.......................................................................................297

AZƏRBAYCANDA KİNO SƏNƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ HAQQINDA

*23 fevral 2007-ci il*.......................................................................................301

«TOTAL» ŞİRKƏTİNİN KONTİNENTAL AVROPA VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ BAŞ VİTSE-PREZİDENTİ ARNO BREYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2007-ci il*.......................................................................................305

«ŞEVRON» KORPORASİYASININ DİREKTORLAR ŞURASI SƏDRİNİN MÜAVİNİ PETER ROBERTSONUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2007-ci il*.......................................................................................306

ATƏT-in BAKI OFİSİNİN YENİ TƏYİN OLUNMUŞ RƏHBƏRİ XOSE LUİS HERRERO ANSOLA İLƏ GÖRÜŞ

*23 fevral 2007-ci il*.......................................................................................307

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

*23 fevral 2007-ci il*............................................................................................308

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CON KOFİ AQİYEKUM KUFUORA

*23 fevral 2007-ci il*............................................................................................309

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE–FREYBERQAYA

*26 fevral 2007-ci il*............................................................................................310

İRANIN ÖLKƏMİZDƏKİ SƏFİRİ ƏFŞAR SÜLEYMAN İLƏ GÖRÜŞ

*26 fevral 2007-ci il*............................................................................................311

HADSON İNSTİTUTUNUN AVRASİYA SİYASƏTİ ÜZRƏ MƏRKƏZİNİN DİREKTORU ZEYNO BARA İLƏ GÖRÜŞ

*26 fevral 2007-ci il*............................................................................................312

TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ İKİNCİ RƏİSİ ERGİN SAYQUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 fevral 2007-ci il*............................................................................................313

BMT-nin REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ BRUNO PUEZA İLƏ GÖRÜŞ

*27 fevral 2007-ci il*............................................................................................314

POLŞANIN XARİCİ İŞLƏR NAZİRİ ANNA FOTIQANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2007-ci il*............................................................................................315

*Q E Y D L Ə R* ..................................................................................................316

*Şəxsi adlar göstəricisi*........................................................................................364

*Coğrafi adlar göstəricisi* ...................................................................................370

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,0.
Uçot vərəqi 24,5 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.